**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**RAUF MƏMMƏD OĞLU QARAYEV**

# MÜASİR MƏRKƏZİ ASİYADA TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

**Bakı – 2021**

*AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının*
*14 sentyabr 2020-ci il tarixli qərarı ilə (2 saylı protokol)*
*çapa tövsiyə olunmuşdur*

**Elmi redaktor:** **G.B. Baxşəliyeva**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun direktoru, akademik*

**Rəyçilər:** **D.Ə.Vəliyev**
*AMEA akad. Z. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun "Mərkəzi Asiya ölkələri" şöbəsinin müdiri,*
*iqtisad elmləri doktoru*

**R.M.Sevdimalıyev**
*Bakı Dövlət Universitetinin professoru,*
*siyasi elmlər doktoru*

**A.M.Mirabdullayev**
*AMEA A.Bakıxanov adına Tarix İnstitutunun*
*baş elmi işçisi, siyasi elmlər doktoru*

**Rauf Məmməd oğlu Qarayev.** Müasir Mərkəzi Asiyada təhlükəsizlik problemləri. Bakı: "Elm", 2021, – 244 səh.

**ISBN** 978-9952-514-64-0

*Monoqrafiyada Azərbaycan ictimai elmində və ədəbiyyatında ilk dəfə sistemləşdirilmiş şəkildə Mərkəzi Asiya regionunda təhlükəsizlik problemləri tədqiq edilmişdir. Bu, müasir Mərkəzi Asiya regionunun böyük geosiyasi və geostrateji əhəmiyyəti ilə bağlıdır. Azərbaycan Respublikası ilə Mərkəzi Asiya regionu və bu regionda olan müstəqil dövlətlər arasında münasibətlərin qurulması və inkişafı, belə inkişafın strategiyası və taktikası, bu prosesdə baş verən qanunauyğunluqların elmi cəhətdən müəyyən edilməsi və bunun nəticəsində müəyyən təkliflərin və tövsiyələrin irəli sürülməsi Azərbaycan ictimai elminin qarşısında duran mühüm vəzifələrdən biridir. Həmçinin müasir Mərkəzi Asiya regionunda baş verən proseslərin elmi cəhətdən öyrənilməsi və tədqiqi əldə edilən nəticələrin Azərbaycan Respublikasının müvafiq orqanlarının (məsələn, diplomatik orqanların) və qurumlarının daha səmərəli praktiki fəaliyyət göstərməsi üçün istifadə oluna bilər.*

*Monoqrafiya alimlər, tələbələr, müasir Mərkəzi Asiyada təhlükəsizlik problemləri ilə məşğul olan mütəxəssislər, ekspertlər, politoloqlar və ümumiyyətlə, Mərkəzi Asiya regionu ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

*© R.M.Qarayev, 2021*

## MÜNDƏRİCAT

**Giriş** ........................................................................ 5

**I fəsil. Müasir mərkəzi Asiya regionu və Azərbaycan**
1.1. "Orta Asiya" regionu anlayışı ............................... 12
1.2. "Mərkəzi Asiya" regionu anlayışı ......................... 20
1.3. Müasir Mərkəzi Asiya regionu dövlətlərinin təhlükəsizliyinin təmin edilməsinin Azərbaycan üçün əhəmiyyəti ............................................................. 30

**II fəsil. Müasir Mərkəzi Asiya ölkələrində təhlükəsizliyə qarşı olan təhdidlər və çağırışlar, onların təsnifatı**
2.1. Müasir Mərkəzi Asiya regionunda təhlükəsizliyə qarşı təhdidlərin yaranması və artmasının əsas amilləri ............................................... 39
2.2. Müasir Mərkəzi Asiya ölkələrində təhlükəsizliyin təmin edilməsində əsas təhdidlərin və çağırışların təsnifatı ................................................................... 44
2.2.1. Müasir Mərkəzi Asiya regionunda terrorizmlə mübarizə problemi ................................ 49
2.2.2. Müasir Mərkəzi Asiya regionunda narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi ......................................... 58
2.2.3. Müasir Mərkəzi Asiya regionunda dini ekstremizm təhlükəsinə qarşı mübarizə problemi ............................................................... 77
2.2.4. Müasir Mərkəzi Asiya regionunda enerji təhlükəsizliyi ilə bağlı problemlər .......................... 84

2.2.5. Müasir Mərkəzi Asiya regionunda su təhlükəsizliyi ilə bağlı problemlər ............................ 89
2.2.6. Müasir Mərkəzi Asiya regionunda siyasi hakimiyyətin dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsi .................................................. 94

**III fəsil. Müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası**
3.1. ABŞ-ın müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası............................................ 101
3.2. Rusiyanın müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası............................................ 127
3.3. Çinin müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası............................................ 142
3.4. Müasir Mərkəzi Asiya ölkələrinin təhlükəsizlik strategiyası .......................................... 173
3.4.1. Qazaxıstan Respublikasının təhlükəsizlik strategiyası ...................................... 174
3.4.2. Özbəkistan Respublikasının təhlükəsizlik strategiyası ....................................... 186

**Nəticə** .................................................................................. 200
**Ədəbiyyat** ........................................................................... 210

# GİRİŞ

XX əsrin sonlarında dünya siyasi xəritəsində bir sıra mühüm dəyişikliklər baş verdi. SSRİ başda olmaqla, sosialist düşərgəsinin süquta uğraması, ideoloji əsaslara görə bipolyar dünyanın sona çatması, SSRİ-nin süquta uğraması və yeni postsovet dövrü dövlətlərin yaranması dünya siyasi mənzərəsini kökündən dəyişdirdi. Belə dəyişikliklər "Mərkəzi Asiya" adlanan regiona da əhəmiyyətli dərəcədə təsir göstərdi. SSRİ-nin dağılmasından sonra dünyada "Mərkəzi Asiya" adlanan region anlayışı mahiyyətcə dəyişdi. Belə ki, SSRİ-nin tərkibinə daxil olan Qazaxıstan və Orta Asiya respublikaları müstəqil dövlətlərə çevrildilər. SSRİ dövründə Qazaxıstan və Orta Asiya respublikaları SSRİ-nin vahid iqtisadi, siyasi və s. məkanının bir hissəsini təşkil edirdi və təbii ki, onlar bu zamana qədər hətta coğrafi tərəfdən "Mərkəzi Asiya" adlanan regiona daxil edilmirdi. Bununla belə, SSRİ-nin süqutundan sonra Mərkəzi Asiya coğrafi regionunun məzmunu obyektiv olaraq köklü surətdə dəyişmişdir. Artıq Qazaxıstan və "Orta Asiya" adlanan regiona daxil olan ölkələr də Mərkəzi Asiya regionuna daxil olan dövlətlər kimi dəyərləndirilməyə başlandı.[1] Bu yenidən formalaşan regionun əhəmiyyəti dünya miqyasında daha da artdı. Belə ki, bu region dünyada həm özünün geniş ərazisinə görə, həm də özünün insan və təbii resurslarına görə çox vacib bir geostrateji və geosiyasi əhəmiyyətə malikdir. Region dünyanın bir çox dövlətlərinin, xüsusən də fövqəldövlətlərin diqqətini cəlb etməyə və onların maraqlarının kəsişdi-

[1]Джекшенкулов, А. Новые независимые государства Центральной Азии в мировом сообществе / А. Джекшенкулов. – М.: Научная книга, 2000, 306 с.

yi bir əraziyə çevrildi.[2,3] Regionda yaranmış vəziyyət nəzərə alınmaqla, yeni regional təhlükəsizlik sistemi formalaşmağa başlandı. Digər tərəfdən, Əfqanıstanda hələ də davam edən vətəndaş müharibəsi və onunla bağlı böhran və bundan irəli gələn təhlükələr potensial olaraq bütövlükdə bütün dünya təhlükəsizlik sisteminə, xüsusən də bu regionun təhlükəsizlik sisteminə ciddi təhlükələr yaradırdı.

Onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiya regionu ilə bağlı tədqiqatlar bir çox ölkələrin, o cümlədən aparıcı dünya dövlətlərinin elmi-tədqiqat institutları və mərkəzləri tərəfindən aparılır. Bu, ilk növbədə, bu regionun böyük geosiyasi və geostrateji əhəmiyyəti ilə bağlıdır. Bu səbəbdən digər dövlətlərin, ilk növbədə, fövqəldövlətlərin və siyasi qüvvələrin diqqətini özünə cəlb etməyə bilməzdi. Təbii ki, bu hal bu regiona həmsərhəd olan regionlara və belə regionlara daxil olan dövlətlərə də müəyyən dərəcədə öz təsirini göstərməyə bilməz.

SSRİ-nin dağılmasının nəticələrindən biri kimi Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri sırasında öz yeni geosiyasi və geostrateji yerini müəyyənləşdirməsi problemi ilə qarşılaşdı. Dünyanın geosiyasi və geostrateji durumunda Azərbaycan Respublikasının öz yerini müəyyənləşdirməsinin vacib aspektlərindən birini onun yerləşdiyi region və bu regiona sərhəd olduğu digər geosiyasi və geostrateji regionların əhəmiyyəti təşkil edir. Azərbaycan Respublikası Mərkəzi Asiya regionu və bu regionda olan müstəqil dövlətlərlə münasibət-

---

[2] Liao X. Central Asia and China's Energy Security // - Pekin: The China and Eurasia forum quarterly, - 2006, Vol. 4. No. 4, p. 61

[3] Николаев, С. А. Центральная Азия в системе международных отношений на современном этапе /автореферат дис. канд. полит.наук / М., 2011, с. 3

lərin qurulması və inkişafı, belə inkişafın strategiyası və taktikası, bu prosesdə baş verən qanunauyğunluqların elmi cəhətdən müəyyən edilməsi və bunun nəticəsində müəyyən təkliflərin və tövsiyələrin irəli sürülməsi Azərbaycan ictimai elminin qarşısında duran mühüm vəzifələrdən biridir. Həmçinin Mərkəzi Asiya regionunda baş verən proseslərin elmi cəhətdən öyrənilməsi və tədqiqi, əldə edilən nəticələr Azərbaycan Respublikasının müvafiq orqanlarının (məsələn, diplomatik orqanların) və qurumlarının daha səmərəli praktiki fəaliyyət göstərməsi üçün istifadə oluna bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan ictimai elmində bu sahədə fundamental xarakterli tədqiqatlar mövcud deyil, yalnız bu regionun müxtəlif sahələrinin (məsələn, iqtisadi sahəsinin) inkişafının tədqiqinə həsr edilmiş cəmi bir neçə məqalə göstərmək  olar və bütövlükdə bu sahədə ilk addımlar atılır. Bu da təbii haldır. Bunu onunla izah etmək olar ki, bu regiona daxil olan dövlətlərin bir çoxu müttəfiq respublikalar qismində vahid SSRİ dövlətinin bir hissəsini təşkil edirdi və Azərbaycanın da SSRİ tərkibində müttəfiq respublika statusunda olmasını nəzərə alsaq, bu müttəfiq qurumlar arasında münasibətlər bir dövlətin daxili əlaqələri kimi çıxış edirdi və bütövlükdə dövlətdaxili məsələlərə aid idi.

Yalnız SSRİ-nin "beynəlxalq hüququn subyekti kimi geosiyasi reallıq olaraq fəaliyyətinə son qoyulması"[4] ilə və SSRİ-nin tərkibində olan müttəfiq respublikalar öz müstəqilliyini bərpa etdikdən və beynəlxalq hüququn tam həcmli üzvünə çevrildikdən sonra onların arasında münasibətlər

---

[4]Соглашение о создании Содружества Независимых Государств: [Электронный ресурс] / Исполнительный комитет Содружества Независимых Государств. 1 марта 2020 г. URL:http://cis.minsk.by/reestr/ru/index.html#reestr/view/text?doc=1

dövlətlərarası münasibətlərə çevrildi. Artıq dünya mənzərəsində yeni müstəqil dövlətləri də əhatə edən böyük bir region – Mərkəzi Asiya regionu yaranmışdır. Mərkəzi Asiya regionu, demək olar ki, Qafqaz regionu ilə, o cümlədən Xəzər dənizi üzrə birbaşa Azərbaycanla həmsərhəddir.

Təbii bir haldır ki, bu regionda baş verən hadisələr, onların inkişaf dinamikası Azərbaycan üçün də vacib xarakter daşıyır və böyük əhəmiyyət kəsb edir. Buna görə də Azərbaycanda bu sahədə elmi araşdırmaların aparılması böyük əhəmiyyətə malikdir və olduqca aktualdır.

Mərkəzi Asiya regionu və bu regiona daxil olan ölkələr, o cümlədən təhlükəsizlik sahəsində bir sıra müasir təhdidlər və çağırışlarla  üzləşir. Bu regiona aid olan bir sıra ölkələrdə artıq mövcud olan təhdid və çağırışlarla yanaşı (məsələn, Əfqanıstanda vətəndaş müharibəsinin və hərbi əməliyyatların dayandırılması problemi, İranın Suriyada baş verən hadisələrə müdaxiləsi və cəlb edilməsi, çoxları Mərkəzi Asiya ölkələrindən olan və vətəninə qayıdan DAİŞ və digər terrorçu təşkilatların döyüşçüləri ilə bağlı təhdidlər və s.) yeni təhdid və çağırışlar əmələ gəlmiş və onların müəyyən artımı tendensiyası müşahidə olunur.

Mərkəzi Asiya regionu ölkələrində təhlükəsizliyə təhdidlərin yaranması və artması bir sıra əhəmiyyətli amillərlə bağlıdır. Bu bütün dünya və onun ayrı-ayrı regionları üzrə müasir beynəlxalq münasibətlər sistemində bütövlükdə baş verən proseslərlə əlaqələrdir. Belə ki, Mərkəzi Asiya regionunda təhlükəsizlik sistemi birbaşa dünyada ümumi qlobal təhlükəsizlik sistemi ilə bağlıdır. Mərkəzi Asiyanın geosiyasi və geostrateji vəziyyəti, zəngin təbii resursları istər-istəməz bu regionu Rusiya, Çin, ABŞ kimi aktorların maraqlarının kəsişdiyi və NATO, KTMT, Aİ, ŞƏT  və s. kimi bir-biri ilə rəqabət aparan beynəlxalq hərbi, siyasi və iqtisa-

di struktur və təşkilatların rəqabət apardığı vacib bir regiona çevrilməsinə gətirir.[5] Müasir Mərkəzi Asiya və Əfqanıstan üzərində aparılan rəqabət mübarizəsi bir çox cəhətdən birqütblü dünyanın sönməsi və polisentrik dünya nizamının getdikcə inamlı şəkildə formalaşması ilə xarakterizə olunan qlobal inkişaf dinamikası ilə müəyyən edilir.[6] Bu səbəbdən bütövlükdə bu regionda uzunmüddətli təhlükəsizlik strategiyasının elmi cəhətdən tərtib edilməsi çox vacib əhəmiyyətə malikdir.

Belə təhdidlər və çağırışlar arasında terrorizm və onunla mübarizə probleminin, dini ekstremizm və onunla mübarizə probleminin, narkobiznes və onunla mübarizə probleminin, ətraf mühitin qorunması ilə bağlı problemlərin (məsələn, Aral dənizinin quruması), su resursları üzərində nəzarət və bu resurslardan səmərəli istifadə etmə ilə bağlı problemlərin, bu regionda yerləşən ölkələrin iqtisadi inkişafı ilə bağlı problemlərin, müxtəlif sahələrdə infrastruktur və onun inkişafı ilə bağlı problemlərin və s. tədqiqi xüsusi önəm daşıyır və böyük maraq kəsb edir. Mərkəzi Asiya dövlətlərində onların milli təhlükəsizliyinin təmin edilməsinə müxtəlif yanaşmalar formalaşmışdır. Belə yanaşmalar bir-birindən bu regionun hər bir dövləti tərəfindən qlobal, regional və daxili təhdid və çağırışların əhəmiyyətinin dəyərləndirilməsi, regional inteqrasiya məsələlərinə münasibət, milli təhlükəsizlik məsələlərinə xarici dövlətlərin iştirak etmə dərəcəsi və s. ilə fərqlənir. Belə yanaşmalar Mər-

---

[5] Маслов, В.И. Региональная безопасность: История и проблемы Новых Независимых Государств Центральной Азии: / автореферат дис. кандидата политич. наук. / - Бишкек, 2001, с. 8.

[6] Малышева, Д.Б. Постсоветская Центральная Азия и Афганистан как сфера пересечения интересов крупных азиатских государств // - М.: Вестник Российского университета дружбы народов. Серия: Международные отношения. 2018. Т. 18. № 2, с. 269.

kəzi Asiyanın hər bir dövlətinin milli təhlükəsizliyinin təmin edilməsində onun xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə sistemli təhlilin aparılmasını tələb edir. Praktik cəhətdən Mərkəzi Asiya ölkələrinin beynəlxalq terrorizmə və dini ekstremizmə qarşı mübarizədə iştiraketmə formalarının tədqiq edilməsi də böyük maraq kəsb edir.

Bununla belə, hazırkı tədqiqatda biz əsasən postsovet dövrü Mərkəzi Asiya regionu üzərində dayanırıq. Belə yanaşmanın bir sıra səbəblərini göstərmək olar. Belə ki, müasir Mərkəzi Asiya regionunda baş vermiş siyasi mənzərədə dəyişikliklər postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin yaranması ilə bağlıdır. Digər tərəfdən, onların yaranması əvvəllər bütövlükdə SSRİ-nin bir hissəsi olan bu regionda siyasi qüvvələrin yeni balansının formalaşmasına gətirib çıxarmışdır. Təbii olaraq, bu hal həm hər bir yeni yaranmış postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin öz milli maraqlarının yaranmasına, həm də yeni regional təhlükəsizlik sisteminin və öz növbəsində, belə təhlükəsizlik sisteminin strategiyasının formalaşmasına səbəb olmuşdur. Bütün bu hadisələr nisbətən yaxın bir zamanda baş verdiyindən postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin milli təhlükəsizlik sisteminin, bu sistemin strategiyasının müəyyənləşdirilməsi ilə bağlı məsələlərin, həm də bütövlükdə yeni regional təhlükəsizlik sisteminin öyrənilməsi çox aktualdır və az tədqiq edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiya regionu, o cümlədən bu regionda təhlükəsizliyin uzunmüddətli strategiyasının müəyyən edilməsi ilə bağlı tədqiqatlar müxtəlif ölkələrin bir sıra aparıcı elmi-tədqiqat institutları və mərkəzləri tərəfindən aparılır. Bu, ilk növbədə, bu regionun böyük geosiyasi və geostrateji əhəmiyyəti ilə bağlıdır. Təqdirəlayiq olan haldır ki, Azərbaycan Respublikasında da bü-

tövlükdə Mərkəzi Asiya regionunun inkişafının və xüsusən də bu regionda yerləşən ayrı-ayrı dövlətlərin inkişafı proseslərinin tədqiq edilməsi ilə bağlı araşdırmalar aparan bir neçə elmi qurumlar fəaliyyət göstərir. Onların arasında Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunu və bu İnstitutun "Mərkəzi Asiya dövlətləri" şöbəsinin fəaliyyətini xüsusi qeyd etmək olar.

Hazırkı elmi tədqiqat işinin əsas məqsədi Mərkəzi Asiya regionunda və bu regiona məxsus olan dövlətlərdə təhlükəsizliyə olan təhdidləri və çağırışları araşdırmaq və bu sahədə Azərbaycan ictimai elmində olan boşluqları müəyyən dərəcədə aradan qaldırmaqdan ibarətdir.

# I FƏSİL

# MÜASİR MƏRKƏZİ ASİYA REGİONU VƏ AZƏRBAYCAN

## *1.1. "Orta Asiya" regionu anlayışı*

"Orta Asiya" (rusca *"Средняя Азия"*, ingiliscə *"Middle Asia"*) regionu anlayışı altında Asiyanın qərbində yerləşən Avrasiyanın tarixi-coğrafi regionu başa düşülür. Əvvəllər bu terminə daha tez-tez rast gəlmək olurdu və elmi ədəbiyyatda daha geniş istifadə olunurdu. Məsələn, Hegel "Fəlsəfənin tarixi üzrə məruzələr" əsərində monqolların məskunlaşdığı əraziləri göstərmək məqsədilə bu temindən "Mittelasien" istifadə etmişdir.[7]

Tanınmış rus tarixçisi S.M. Solovyev də bu termini öz əsərlərində geniş istifadə edirdi. Bu termin altında o, Xəzər dənizindən Şərqə doğru və Rus düzənliyindən cənub-şərqə uzanan coğrafi regionu başa düşürdü. S.M. Solovyev "Rusiyanın tarixi ən qədim zamanlardan" (История России с древнейших времен, кн. 1, т.1. гл.1) adlanan fundamental xarakterli elmi əsərində qeyd edirdi ki, "Rusiya düzənliyi birbaşa cənub-şərqə Orta Asiyanın çölləri ilə bitişir".[8]

Onu da qeyd etmək lazımdır ki, qədim zamanlarda bu termindən istifadə edilməsə də, bu regionda yerləşən qədim dövlətlər və ölkələr haqqında kifayət qədər məlumatlar var. Belə ki, qədim zamanlarda müasir dövrdə "Orta Asiya" adlanan regionda bir sıra dövlətlər mövcud idi. Onların ara-

---

[7]Гегель, Г. В. Ф. Лекции по философии истории = Vorlesungen über die Philosophie der Geschichte / Г. В. Ф. Гегель - СПб.:Наука, 1993, с. 135.

[8] Соловьев, С.М. История России с древнейших времен. Книга I.Русь изначальная /С.М. Соловьев. – М.: АСТ, Фолио, 2001, с. 8.

sında arxeoloji materiallara əsasən bizim eradan əvvəl XXIII-XVIII əsrlərdə Hind sivilizasiyası və Mesopotamiyada qədim Babil çarlığı ilə bir vaxtda mövcud olan cənubda Hindiquş dağ silsiləsi və cənubda Fərqanə vadisi arasında Amudərya (Ceyhun) çayının sahillərində yerləşən Bəlxi (tarixən bu çay Britaniya Hindistanı və Rusiya imperatorluğu arasında sərhəd olmuşdur və bu gün də Türkmənistan və Əfqanıstan arasındakı sərhəd bu çayın üzərindən keçir[9]), bizim eradan əvvəl VII-V əsrlərdə Zərəfşan vadisində yerləşən Soqdiananı, adına  ilk dəfə bizim eradan əvvəl  VIII-VII əsrlərdən qalan mənbələrdə rast gəlinən və Amudərya (Ceyhun) çayının aşağı axını sahillərində olmuş Xarəzm dövlətini, bizim eranın I-III yüzilliklərində Orta Asiya, Əfqanıstan, Pakistan və Şimali Hindistan ərazilərində mövcud olmuş qədim Kuşan dövlətini, bizim eranın II əsrində Murqab çayı vadisində olan Marqiana dövlətini və s. göstərmək olar.

Bununla yanaşı, Orta Asiya regionunun şimal hissəsi qədim Skifiyanın tərkibində idi, Orta Asiyanın cənub hissəsi isə qədim İran dövlətinin təsiri altında idi.

Elmi və tarixi mənbələrdə Orta Asiya və bu regionda yerləşən ölkələr haqqında məlumatlara Herodot, Strabon, Arrian, Ptolemey və s. müəlliflərin əsərlərində rast gəlinir.

Təxminən e.ə. 484-cü ildə anadan olmuş və təxminən e.ə. 425-ci ildə vəfat etmiş Herodot (qədim yunanca "Ἡρόδοτος Ἁλικαρνᾱσσεύς") özünün məşhur "Tarix" əsərində "Yuxarı Asiya" ifadəsindən istifadə edir (Herodot "Tarix", kitab 4, Melpomena, bənd 1).[10] Bununla yanaşı, Herodot

[9]Rashid, A. The New Struggle in Central Asia: A Primer for the Baffled // - Durham: World Policy Journal, - (2000/2001). Vol. 17, No. 4, p. 33
[10]Геродот. История / Геродот. Пер. и прим.Г.А. Стратановского. Статья В. Г. Боруховича. - Л.: Наука, 1972

qeyd edir ki, Asiyada "Hindistana qədər insanlar məskunlaşır. Daha sonra şərq istiqamətində səhra uzanır və heç kim deyə bilməz ki, o necədir (bax: Herodot "Tarix", kitab 4, Melpomena, bənd 40). Herodot həmçinin skiflərdən və savromatlardan (onlara sarmatlar da deyirlər – *qeyd müəllifindir*) da bəhs edir. Lakin əsərdən göründüyü kimi, Herodot onların Avropada (müasir Orta və Cənubi-Şərqi Avropa ərazisində) məskunlaşmasını göstərir.[11] Halbuki onlar Tis və Dunay çaylarının su bölgüsündən başlayaraq Aral dənizinə kimi uzanan ərazidə yaşayırdılar (indiki Ukrayna, Rusiya və Qazaxıstanın əraziləri).

Herodot bundan əlavə, fissagetləri də qeyd edir və onların skiflərdən və savromatlardan daha şərqdə yerləşdiyini göstərir. Bir sıra alimlərin fikrincə, qədim yunan sözü "Θυσσαγέται" qədim iran sözü "tūra-saka-ta" – " turo-saklar" sözünə gedib çıxır.[12] Herodot öz əsərində massagetlərə də böyük yer ayırır. Lakin bütövlükdə müasir Orta Asiya regionunda o zaman məskunlaşan xalqlar haqqında çox az məlumat verir. Bunu isə, çox güman ki, daha çox onda bu region və burada məskunlaşmış xalqlar haqqında məlumatların çox az olması ilə izah etmək olar. Bu məlumatlardan biri Herodotun "Tarix" əsərinin 3-cü kitabının (Taliya) 93-cü bəndində öz əksini tapmışdır. Burada deyilir ki: "Parfayanlar isə, xorasmiyalar, soqdianlar və ariyalar 300 talan ödəyirdilər. Bu on altıncı dairədir".[13] Heç bir şübhə doğurmur ki, burada, o cümlədən söhbət Orta Asiya regionunda

---

[11]Геродот. История / Геродот. Пер. и прим.Г.А. Стратановского. Статья В. Г. Боруховича. - Л.: Наука, 1972

[12]Абаев, В.И. Скифский быт и реформа Зороастра / В.И. Абаев. Избранные труды: Религия, фольклор, литература. Т.1. - Владикавказ: Ир, - 1990, - с. 29

[13]Геродот. История / Геродот. Пер. и прим.Г.А. Стратановского. Статья В. Г. Боруховича. - Л.: Наука, -1972.

məskunlaşan xalqlardan gedir. Xorasmiyalar Amudərya (Ceyhun) və Sırdərya çaylarının axını üzrə və çox güman ki, indiki Hivanın yerində məskunlaşmışlar. Soqdianlar da onlara qonşu idi və Zərəfşan vadisində məskunlaşırdılar.

Digər məşhur antik dövrün alimi Strabon da Orta Asiya regionu haqqında bir sıra maraqlı məlumatlar qeyd etmişdir. Strabon (qədim yunanca "Στράβων") e.ə. təxminən 64/65-ci illərdə anadan olmuş və e.ə. təxminən 23/24-cü illərdə vəfat etmişdir. O özünün məşhur "Coğrafiya" adlı əsərində Skifiya, Baktriya, Soqdiana, Ariya, Marqiana, Parfiya və bir sıra digər dövlətlər və ölkələr haqqında məlumatlar vermişdir. Strabon Avropa və Asiya arasında sərhədi Tanais çayı üzərindən aparırdı.[14] Bu səbəbdən o, Tanais çayı və Xəzər dənizi arasında olan ərazinin Asiyanın əhəmiyyətli bir hissəsi olduğunu hesab edirdi.[15] Xəzər dənizindən Şərqə doğru olan ərazilərdə məskunlaşan xalqlara aid Strabon qeyd edir ki, bəziləri onları "saklar" adlandırır, digərləri isə "massagetlər" adlandırır.[16] Antik dövrün digər bir alimi Arrian da Qirkaniya, Baktriya, Ariya, Soqdiana və bir sıra digər dövlətlər və ərazilər haqqında məlumatlar vermişdir.[17] Bununla yanaşı, o, skiflər haqqında da məlumatlar vermişdir.[18] Bütövlükdə isə Orta Asiya regionu və bu regionda məskunlaşan xalqlar haqqında və onların yaratdığı dövlətlər haqqında yunan alimlərinin bilikləri kifayət

[14]Страбон. География. В 17 книгах. / Страбон. Репринтное воспроизведение текста издания 1964 г. Перевод, статья и комментарии Г. А. Стратановского под общей редакцией проф. С. Л. Утченко. - М.: «Ладомир», - 1994, с. 467.

[15] Страбон... с. 482.

[16] Страбон... с. 480.

[17] Арриан. Поход Александра / Арриан. - М.: Миф, - 1993, с. 131, 133, 138 и др.

[18] Арриан. Поход Александра / Арриан. – М.: Миф, -1993, с. 140, 142-144 и др.

qədər dolğun deyildi. Bu bir sıra obyektiv xarakterli səbəblərdən irəli gəlirdi. Halbuki skiflər, sarmatlar (savromatlar), massagetlər, saklar bir-birinə qohum olan köçəri və yarımköçəri tayfalar idi. Onların türk əsilli olmalarına dair ciddi dəlillər və arqumentlər var. Məsələn, "Avesta"da turlar haqqında məlumatlar qeyd edilmişdir. Qədim pəhləvi mənbələrində isə "turlar" anlayışı altında türk tayfaları başa düşülürdü. Bu faktı tanınmış rus alimi İ.M. Dyakonov da qeyd edirdi. O yazır ki: "Turan "Avesta"da qeyd edilən iranlı köçəri tayfalardan biri idi. Lakin Firdovsinin əsərində və daha sonrakı İran ənənəsində bütövlükdə "Turan" termini "türkdilli tayfaların məskunlaşdığı torpaqlar" kimi qəbul edilir".[19]

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Asiya qitəsinin müxtəlif hissələrinə müxtəlif səbəblərdən bir-birindən fərqli adlar verilirdi. Buna da təbii bir hal kimi baxmaq lazımdır. Asiya qitəsi Yer kürəsində qitələr arasında ən böyüyüdür və ən qədim tarixdən burada insanlar məskunlaşmışdır. Burada etnik, irsi, dini, mədəni və s. cəhətdən bir-birindən fərqli olan tayfalar, etnik qruplar, xalqlar və s. yaşayır. Bu cəhətdən Asiya qitəsinin ayrı-ayrı regionlarını fərqləndirmək üçün "Yaxın Şərq", "Orta Asiya", "Mərkəzi Asiya", "Uzaq Şərq" və s. terminlərindən istifadə olunurdu.

"Orta Asiya" anlayışı daha çox Rusiyada və rus dilində XIX əsrin ikinci yarısından istifadə edilməyə başlanmışdır. Bu isə Rusiya imperiyasının XVII əsrdən başlayaraq Şərqə doğru ekspansiya cəhdləri ilə bağlı idi. Tarixi cəhətdən bu regiona müasir Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan kimi respublikaların ərazisi ilə yanaşı, müasir Qazaxıstanın şərq və cənub hissələri, həmçinin Çinin şimal-

---

[19] Diakonoff, I.M. The Paths of History / I.M. Diakonoff. - First edition: Cambridge University Press, - 1999, p. 100.

qərb hissəsi (Sincan-Uyğur Muxtar Rayonu) və Şimali Əfqanıstanın bir hissəsi də daxil edilirdi. Onu da qeyd etmək lazımdır ki, Rusiya imperiyasının sənədlərində və rus mənbələrində "Orta Asiya" anlayışı və termini ilə yanaşı, bəlkə də, ondan da artıq dərəcədə digər bir anlayışdan – "Türküstan" sözündən istifadə edilirdi. Misal olaraq məşhur rus şərqşünası və səyahətçisi N.Y. Biçurinin 1829-cu ildə nəşr etdiyi əsəri göstərmək olar.[20] Nəzərə almaq lazımdır ki, bu əsər Çin dilindən tərcümə olunmuş bir əsərdir. Hətta bu terminin üç müxtəlif növü də müəyyən edilmişdir. Belə ki, Xəzər dənizi və Çin arasında olan ərazi "Rusiya Türküstanı" (və ya "Qərb Türküstan") Çinin şimal-qərb hissəsi "Şərq Türküstanı" (burada türkdilli xalqlar olan uyğurlar və qazaxlar yaşayırdı), Amudərya çayının digər sahilindən başlayan türkdilli və farsdilli xalqların (taciklərin) məskunlaşdığı ərazi isə "Əfqan Türküstanı" adlanırdı. "Orta Asiya" anlayışı daha çox Rusiya imperiyası mövcud olduğu dövrdə Rusiya Türküstanına aid edilən coğrafi anlayış kimi formalaşmışdır.

"Orta Asiya" anlayışı XX əsrdə SSRİ-nin Əfqanıstanla və daha sonra Çinlə sərhədlərinin razılaşdırılmasından sonra tam formalaşmışdır. Və bunun əksinə olaraq XX əsrin 20-ci illərindən başlayaraq, yəni SSRİ-nin tərkibində Orta Asiya respublikalarının yaranmasından sonra "Türküstan" termini tədricən dövriyyədən çıxarılırdı və "Orta Asiya" anlayışı ilə əvəz olunurdu. Bu anlayış altında, yəni "Orta Asiya" anlayışı altında – qərbdə Xəzər dənizindən şərqdə Çinin sərhədinə qədər və şimalda Aral-İrtış su bölgüsündən cənubda İran və Əfqanıstan ilə sərhədə kimi Avrasiya qitə-

[20]Описание Чжунгарии и Восточного Туркестана в древнем и нынешнем состоянии / переведено с китайского монахом Иакинфом. Части I и II. СПб.: Типолграфия Карла Крайя, -1829.

sinin bir hissəsini əhatə edən ərazi başa düşülürdü. Bu region çərçivəsində Türkmənistan SSR, Özbəkistan SSR, Tacikistan SSR, Qırğızıstan SSR kimi SSRİ-yə daxil olan müttəfiq respublikalar təşkil olunmuşdular. Daha sonra bu müttəfiq respublikalar SSRİ daxilində iqtisadi əlaqələrin təkmilləşdirilməsi məqsədilə yaradılmış "Orta Asiya iqtisadi rayonu"nda birləşdirilmiş, Qazaxıstan isə təbii resurslarının zənginliyinə və ərazisinin böyüklüyünə görə ayrıca bir iqtisadi rayona ayrılmışdır. Bu, ümumiyyətlə, SSRİ-nin müxtəlif iqtisadi rayonlara bölünməsi ilə əlaqədar idi.[21] Beləliklə, Qazaxıstana ayrıca baxılırdı və Orta Asiya regionuna daxil edilmirdi. Bu səbəbdən bütün bu regionu əhatə edən "Qazaxıstan və Orta Asiya" ifadəsi formalaşmışdır. Lakin SSRİ dağıldıqdan sonra artıq belə bir ifadənin real yaranmış vəziyyətə uyğun olmadığı aşkar surətdə görünürdü. SSRİ dağıldıqdan sonra Orta Asiya regionuna müstəqillik əldə etmiş Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstan daxil idi. Bütün bunları nəzərə alaraq 1992-ci ildə keçirilən Orta Asiya regionuna daxil olan dövlət başçılarının sammitində Qazaxıstan prezidenti N.A. Nazarbayev bu ölkələrin beynəlxalq sənədlərində (sazişlərdə, müqavilələrdə, bəyanatlarda, memorandumlarda və s.) və bu dövlətlərin rəsmi sənədlərində "Qazaxıstan və Orta Asiya" ifadəsindən digər bir ifadənin – "Mərkəzi Asiya" ifadəsinin xeyrinə imtina edilməsini təklif etmişdir.[22] Və nəzərdə tutulurdu ki, bu "Mərkəzi Asiya" anlayışı bütün Orta Asiya ölkələrini və Qazaxıstanı əhatə etməlidir.

---

[21] Малышева, Д.Б. Центрально азиатский узел мировой политики / Д.Б. Малышева. – М.: ИМЭМО РАН, - 2010, - с. 7.

[22]Харитонова, Н. Страны Центральной Азии: новое место на дуге кризисов // - М.: Индекс безопасности, - 2015. № 1 (112). Том 21, - с. 56.

Təbii ki, SSRİ dağılandan və Orta Asiyada yerləşən ölkələr öz müstəqilliyini qazanandan sonra onların dünyanın siyasi xəritəsində öz yerini tutma və geosiyasi özünü müəyyənləşdirmə zərurəti yarandı. Bu isə yeni yaranmış müstəqil dövlətlərin yerləşdiyi regionun adının dəqiq müəyyənləşdirilməsini tələb edirdi. Bununla bərabər, bu ölkələr özlərini regionda olan digər dövlətlərdən ayırmırdı. Həm də nəzərə almaq lazımdır ki, Orta Asiya ölkələri SSRİ-nin tərkibinə daxil olduqdan əvvəlki zamanlarda Mərkəzi Asiya regionuna daxil olan dövlətlərlə və burada məskunlaşan xalqlarla sıx tarixi, mədəni, iqtisadi əlaqələrdə idilər və bu regionda əsasən islam dini yayılmışdır. Bu səbəbdən dini-mədəni dəyərlər də eyni idi. Bütün bu amillər N.A. Nazarbayevin təklifinin qəbul edilməsinə əlverişli şərait yaratmış və bu təklif qəbul edilmişdir. Tədricən "Mərkəzi Asiya" termini elmi tədqiqatlarda, rəsmi sənədlərdə, həmçinin dövri mətbuatda və kütləvi informasiya vasitələrində yer almağa başladı. Hal-hazırda "Orta Asiya" ifadəsinə nadir hallarda rast gəlmək olar. Bununla yanaşı, bu termin hərdən indilərdə də siyasi leksikonda və elmi mənbələrdə istifadə olunur.[23,24,25]

Bununla belə, müasir dövrdə daha çox "Mərkəzi Asiya" ifadəsindən (terminindən) istifadə olunur. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Almaniya Federativ Respublikasının Federativ Kansleri Angela Merkel ilə birgə press-konfransda qeyd etmişdir ki, hal-hazırda biz

---

[23]Middle Asia. Encyclopedia Britannica: [Electronic resource] / URL: https:www.britannica.com/place/Asia/The regions-of-Asiaref496054

[24]Подрезов, М.В.Сущность исламского фундаментализма в Средней Азии (1990–2000-е гг.) //- Томск: Вестник Томского государственного университета. История. – 2018. № 52, с. 50

[25]Kərimov, E.A. "Böyük Orta Şərqlayihəsi"ndə İran amili: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, 2017, s. 16

Türkmənistanın neftini Bakı-Tbilisi-Ceyhan neft borusu vasitəsilə dünya bazarlarına çatdırırıq və eyni vaxtda Mərkəzi Asiyadan quru yükləri Azərbaycan ərazisi üzərindən bu yaxınlarda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə çıxardırıq. Göründüyü kimi, burada "Mərkəzi Asiya" terminindən istifadə olunmuşdur.

### *1.2. "Mərkəzi Asiya" regionu anlayışı*

Qeyd etmək lazımdır ki, ***"Mərkəzi Asiya"*** (rusca "Центральная Азия", ingiliscə "Central Asia") anlayışı "Orta Asiya" anlayışı ilə birlikdə istifadə olunurdu. Onu da qeyd etmək lazımdır ki, ilk dəfə "Mərkəzi Asiya" regionunun dünyanın ayrıca bir regionu şəklində ayrılması və göstərilməsi məşhur alman səyahətçisi və tədqiqatçısı Aleksandr Humboldt tərəfindən 1843-cü ildə təklif edilmişdir. O, Rusiyanın bir sıra rayonlarına səyahət etdikdən sonra (Orsk, Orenburq, Həştərxan şəhərlərinə baş çəkmiş, Xəzər dənizi üzrə səyahət etmişdir) 1843-cü ildə fransız dilində, 1844-cü ildə isə alman dilində "Mərkəzi Asiya" adlı üç cildlik əsərini nəşr etmişdir.[26,27]

Lakin bu anlayışlar altında bir-birinə qonşu olan regionlar olsa da, tamamilə fərqli regionlar nəzərdə tutulurdu. Xüsusən bu rus coğrafi və tarixi əsərlərində daha aydın şəkildə özünü büruzə verirdi. Məsələn, məşhur rus səyahətçisi və alimi N.M.Prjevalskiy 1870-ci ildən 1885-ci ilə qədər Mərkəzi Asiyaya 4 ekspedisiya keçirmiş və əvvəllər avro-

---

[26]De Humboldt, A. Asie centrale. Recherches sur les chaines de montagnes et la climatologie comparee: [3 vols] / A. De Humboldt. Paris: Gide, - vol. I. - 1843

[27]Humboldt, A. Central-Asien. Untersuchungen über die Gebirgsketten und die vergleichende Klimatologie / A.Humboldt. Zweiter Band. (GermanEdition). Vol I. - 2011

palılara yaxşı bəlli olmayan bir sıra Mərkəzi Asiya rayonlarını tədqiq etmişdir.[28] Bununla belə, N.M.Prjevalskiy Monqolustana dair "Şərqi Dağlıq Asiya" anlayışından da istifadə edirdi.[29]

İngilis və Avropanın digər dillərində də SSRİ-nin yaranmasına qədər olan dövrdə "Mərkəzi Asiya" terminindən geniş istifadə edilirdi və iki termin arasında fərq qoyulmurdu.[30]

SSRİ dövründə isə "Mərkəzi Asiya" anlayışı altında SSRİ-nin hüdudlarından kənarda olan ərazilər, o cümlədən Tuva (17 avqust 1944-cü ildə SSRİ-nin tərkibinə daxil olana qədər), Monqolustan, Daxili Monqolustan, Sincan və Tibet başa düşülürdü.[31] Sovet alimi V.M.Sinitsin "Mərkəzi Asiya" və "Orta Asiya" anlayışlarını fərqləndirirdi və onlar arasında sərhədi Mərkəzi Asiyanın Orta Asiyaya nisbətən daha çox quraqlıq olması ilə izah etməyə çalışırdı.[32] O, iqlim amilini əsas meyar kimi götürürdü (daha çox və daha az quraqlıq olan ərazilər). Türk alimi Məhməd Akif Okur qeyd edir ki, elmi ədəbiyyatda Mərkəzi Asiya təriflərinə aid geniş istifadə olunan iki əhəmiyyətli ölçünü tarixi formalaş-

---

[28]Пржевальский, Н.М. От Кяхты на истоки Желтой реки. Исследование северной окраины Тибета и путь через Лоб-Нор по бассейну Тарима. Под редакцией, со вступительной статьей и примечаниями Э. М. Мурзаева. М., Государственное издательство географической литературы, 1948.

[29] Пржевальский, Н.М. Монголия и страна Тангутов. Трехлетнее путешествие в Восточной нагорной Азии: [в 2 томах] / Н.М. Пржевальский. Спб., - т. II. – 2009.

[30] Brzezinski, Z. The Grand Chessboard.American Primacy and Its Geostrategic Imperatives / Z. Brzezinski. - Basic Books, Later Printing Used edition, - 1998, p. 46, 47.

[31]О работе Научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем (НИА НКП) за первое полугодие 1929/1930 г. Революционный Восток, 1930, № 8, с. 342.

[32] Синицын, В.М. Центральная Азия / В.М. Синицын. - М.: Гос. изд-во геогр. лит-ры. – 1959, с. 6-9

mış siyasi coğrafiya və geomədəniyyət təşkil edir.[33] Göründüyü kimi, o tamamilə başqa meyarları əsas kimi götürürdü və bu meyarlar heçdə iqlim və ya yalnız coğrafiya meyarına əsaslanmırdı.

Hal-hazırda da "Mərkəzi Asiya" termini birmənalı başa düşülmür. Məsələn, indinin özündə də "Mərkəzi Asiya" regionu adı altında məşhur Britannika Ensiklopediyası Qərbdə Xəzər dənizindən başlayaraq Şərqdə Çinin Qərb sərhədinə qədər uzanan Asiyanın mərkəzi regionunu nəzərdə tutur. Və qeyd edir ki, bu region şimalda Rusiya ilə, cənubda isə İran, Əfqanıstan və Çinlə məhdudlaşır. Region isə bütövlükdə keçmiş sovet respublikaları olan Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Qırğızıstan dövlətlərindən ibarətdir.[34] Demək olar ki, "Mərkəzi Asiya" regionu anlayışı altında burada Qazaxıstanın prezidenti N.A.Nazarbayevin təklif etdiyi anlayış başa düşülür.[35] Rusiya alimi İ.D.Zvaqelskaya da özünün "Yaxın Şərq və Mərkəzi Asiya. Regional icrada qlobal trendlər" adlı monoqrafiyasına Mərkəzi Asiya regionu haqqında danışanda əsasən sovet Orta Asiya respublikaları və Qazaxıstan üzərində dayanır.[36] Lakin aydındır ki, bu tərif heç də Mərkəzi Asiya regionunu tam əhatə etmir. N.A.Nazarbayevin təklif etdiyi anlayışa dair qeyd etmək lazımdır ki, bəzən bu tərifə müəyyən dəqiqləşdirmələr edilir və "postsovet dövrü Mərkəzi Asiya"

---

[33] Okur, M.A. "Classical Texts of the Geopolitics and the "Heart Of Eurasia" // -Izmir: Journal of Turkish World Studies, - 2014. XIV/2, - pp.74-75.

[34] Central Asia. Encyclopaedia Britannica: [Electronic resource] / URL: https:www.britannica.com/place/Central-Asia

[35] Звягельская, И.Д. Становление государств Центральной Азии. Политические процессы / И.Д. Звягельская. -М.: Аспект Пресс, -2009. – 208 с.

[36] Звягельская, И.Д. Ближний Восток и Центральная Азия: Глобальные тренды в региональном исполнении / И.Д. Звягельская. – М.: Аспект Пресс, 2018. – 224 с.

terminindən istifadə edirlər. A.B.Bıstrovaya görə, "Orta Asiya" siyasi-coğrafi termini Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və qismən Qazaxıstanı əhatə edir. "Mərkəzi Asiya" tərifi daha genişdir və keçmiş SSRİ Orta Asiya respublikalarından əlavə, Çinin Sincan - Uyğur Muxtar Rayonunun qərbini, Əfqanıstanın şimal hissəsini və bəzi digər əraziləri əhatə edir.[37] İran alimi M.Sanai bu regionu şimaldan Qazaxıstan çölləri, Cənubdan Şimali Əfqanıstan və İran, Qərbdən Xəzər dənizi, Şərqdən isə Sincan ilə məhdudlaşan "ərazi" adlandırır.[38] R.A.Qumerov isə, ümumiyyətlə, bu regionun müəyyənləşdirilməsində coğrafi, tarixi və d. amillərdən istifadə etməyərək, Mərkəzi Asiyanı, sərhədləri geosiyasi güc sahələrinin təsiri nəticəsində genişlənə və ya darala bilən yeni bir geosiyasi məkan hesab edir.[39]

Bununla belə, elmi ədəbiyyatda bu regiona aid digər termindən, "Daxili Asiya" terminindən və ya "Böyük Avrasiya"[40], "Böyük Mərkəzi Asiya" terminlərindən də istifadə olunur. Dünya Bankının sənədlərində və tədqiqatlarında "Genişlənmiş Mərkəzi Asiya" (Wider Central Asia) terminindən də istifadə edilir. Son zamanlar isə "Avrasiya", "Mərkəzi Avrasiya" terminindən istifadə edilməyə başlan-

---

[37] Быстрова, А. Проблемы глобальной инфраструктуры в центрально-азиатском регионе. Оптимизация роли России / А. Быстрова. - М.: ИМЭМО РАН, - 2013, с. 9.

[38] Санаи, М. Отношения Ирана с центральноазиатскими странами СНГ: социально-политические и экономические аспекты / М.Санаи. - М.:"Муравей", - 2002, с. 15.

[39] Гумеров, Р.А. Геополитические интересы США, Китая и России в Центральной Азии: / автореферат дисс. канд. полит.наук / М., 2009, с. 13.

[40] Жуков, С.В., Резникова, О.Б. Центральная Азия и Китай: экономическое взаимодействие в условиях глобализации. - М.: ИМЭМО РАН, 2009

mışdır.[41] Bu terminin məzmununun müəyyən edilməsinə dair alimlər arasında mübahisələr aparılır. Bu termin ya "postsovet məkanı" kimi və ya onun bir hissəsi olan (məsələn, Cənubi Qafqaz və ya Baltik ölkələri istisna olmaqla) müəyyən bir məkan ilə eyniləşdirilir. Digər müəlliflər isə bu məkana Çini, Monqolustanı və bəzi digər regionları daxil edir.[42] Bununla yanaşı, əsasən Rusiyada (həm elmi ədəbiyyatda, həm də ekspertlər və siyasətçilər tərəfindən) digər bir termindən – Mərkəzi Asiya regionunun bir hissəsini əhatə edən və məzmunca daha geniş olan "Böyük Avrasiya" terminindən də istifadə edilməyə başlanmışdır.[43,44,45] Bu termindən ilk dəfə Valday klubunun və Rusiya Ali İqtisadiyyat Məktəbinin ekspertləri istifadə etməyə başlamışlar.[46] Bundan əlavə, 2016-cı ilin yayında Sankt-Peterburq iqtisadi forumunda Rusiya Prezidenti V.Putin də bu termindən istifadə etmişdir.[47]

---

[41] Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, 2009, с. 3

[42] Кузьмина, Е.М. «Большая Евразия»: интересы и возможности России при взаимодействии с Китаем // - М.: Проблемы постсоветского пространства. 2017. № 3, с. 230

[43]Бордачев, Т.В., Пятачкова А.С. Концепция Большой Евразии в повороте России на Восток // - М.: Вестник международных организаций, - 2018. Т. 13. № 3, с. 33-34

[44] Кузьмина, Е.М. «Большая Евразия»: интересы и возможности России при взаимодействии с Китаем // - М.: Проблемы постсоветского пространства. – 2017. № 3, с. 229-230

[45] Entin, M., Entina E. The New Role of Russia in the Greater Eurasia // - StrategicAnalysis, 2016. Vol. 40. No. 6, p. 590

[46] Караганов, С. От поворота на Восток к Большой Евразии: [Электронный ресурс] ⁄ Россия в глобальной политике. 30 мая 2017. URL:https://globalaffairs.ru/articles/ot-povorota-na-vostok-k-bolshoj-evrazii/

[47] Пленарное заседание Петербургского международного экономического форума: [Электронный ресурс] ⁄Kremlin.ru. 17 июня 2016. URL: http://kremlin.ru/events/president/news/52178

Son zamanlarda Qərb elmi ədəbiyyatında hətta İranı, Pakistanı, Əfqanıstanı "Şərqi Aralıq dənizi ölkələri" regionuna aid edirlər.

Göründüyü kimi, bu regiona və ona daxil olan ölkələrə və burada məskunlaşan xalqlara dair ümumi tanınmış və qəbul olunmuş termin yoxdur və müxtəlif terminlərdən istifadə olunur.

Nəzərə almaq lazımdır ki, Asiya çox böyük ərazini əhatə edir və bu səbəbdən onun hissələri bir-birindən fərqli adlandırılır. Məsələn, Yaxın Şərq, Qərbi Asiya, Mərkəzi Asiya, Cənubi Asiya, Cənub-Şərqi Asiya, Şərqi Asiya. Bu hal digər qitələrə də aiddir. Məsələn, Avropada, Qərbi Avropa, Cənubi Avropa, Şərqi Avropa, Cənub-Şərqi Avropa, Şimali Avropa terminlərindən də geniş istifadə olunur. Eynisinə Amerika qitəsində də rast gəlmək olar. Burada Şimali Amerika, Cənubi Amerika, Mərkəzi Amerika, Latın Amerikası kimi ifadələrə rast gəlmək olar. Bu Afrika qitəsinə də aiddir. Burada Şimali Afrika, Cənubi Afrika, Qərbi Afrika, Şərqi Afrika, Qara Afrika kimi ifadələrdən istifadə olunur.

Bununla belə, fikrimizcə, Mərkəzi Asiya regionunu dəqiq müəyyən etmək üçün bir sıra amillərdən istifadə etmək və ya onları nəzərə almaq lazımdır.

İlk növbədə, Mərkəzi Asiya regionuna əvvəl də qeyd etdiyimiz kimi, Orta Asiya regionuna daxil olan ölkələr və Qazaxıstan aiddir (əsasən Qazaxıstanın cənubi rayonları, həmçinin Atırau vilayəti, Qərbi-Qazaxıstan vilayəti, Uralda qismən Aktyubinsk və Manqistaus vilayətləri, Qazaxıstanın şimal vilayətləri).

Bununla bağlı heç bir şübhə yoxdur və demək olar ki, hal-hazırda Mərkəzi Asiya regionunun qərb sərhədlərinə (Xəzər dənizi) dair ciddi fikir ayrılıqları yoxdur.

Bununla yanaşı, Mərkəzi Asiya regionuna Əfqanıstan, Monqolustan, İranın şimal-şərq hissəsi, Çinin qərb və şimal-qərb hissəsi (Sincan-Uyğur Muxtar Rayonu) və Çinin cənub-qərb rayonları (Daxili Monqolustan), Pakistanın şimal vilayətləri, Cammu və Kəşmir, Rusiya Sibirinin cənubi hissələri (Tuva Respublikası) də daxil edilə bilər.

Belə bir fikrə bu regiona aid YUNESKO-nun da müəyyən etdiyi tərif çox yaxındır. YUNESKO-nun tərifinə əsasən bu regiona Monqolustan, Şimal-Qərbi Çin (Sincan, Tibet, Daxili Monqolustan, Sinhay, Sıçuanın qərbi və Qansunun şimalı) tayqa zonasından cənubda yerləşən Rusiyanın Asiya hissəsi, Əfqanıstan, Hindistanın şimal-qərb hissəsi, Pakistanın şimalı (Pəncab və Kəşmir), İranın şimal-şərq hissəsi və beş keçmiş sovet respublikası – Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan daxildir.

Müasir Mərkəzi Asiya regionunun sərhədlərinin müəyyən edilməsinin daha bir metodunun əsası kimi əhalinin etnik tərkibi götürülür. Bu metoda əsasən Mərkəzi Asiyaya türkdilli xalqların məskunlaşdığı bir region kimi baxılır. Fikrimizcə, belə bir metod bir sıra həqiqətlərə uyğundur. Belə ki, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistanın titul xalqları türkdilli xalqlardır. Həmçinin Çinin Sincan-Uyğur Muxtar Rayonunda, yəni Şərqi Türküstanda (uyğurlar, qazaxlar, özbəklər və s.), Rusiya Sibirinin cənubunda yaşayan xalqlar (tuvalılar, altaylılar və s.), Monqolustanın cənubunda yaşayan xalqlar, Əfqanıstanın şimalında yaşayan xalqlar (məsələn, özbəklər), İranın şimal-şərq hissəsində yaşayan xalqlar (türkmənlər) da türkdillidirlər. Bununla belə, Tacikistanın titul xalqı farsdilli taciklərdir və onlar türkdilli deyillər.

Coğrafi cəhətdən Mərkəzi Asiyanı Qərbdə Xəzər dənizindən başlayaraq Şərqdə Çinin mərkəzi rayonlarına kimi,

Şimalda isə Rusiya Sibirinin cənubundan başlayaraq Əfqanıstan daxil olmaqla, Hindistanın və Pakistanın şimal rayonlarına kimi uzanan bir ərazi kimi güman etmək olar. Belə bir fikrin xeyrinə bir sıra dəlillər gətirmək olar.

İlk növbədə, bu regionda uzun müddət ərzində köçəri xalqlar yaşamış və onların yaşayış tərzi bir-birinə oxşar və ya yaxın idi. İndiki zamanda da bu ölkələrin əksəriyyətində heyvandarlıq və onunla bağlı digər təsərrüfat fəaliyyəti iqtisadiyyatın vacib hissələrindən biridir. Tarixi baxımdan Mərkəzi Asiya orada məskunlaşan köçəri xalqlarla əlaqəli başa düşülürdü və qeyd edilirdi (məsələn, Avropada və Yaxın Şərqdə).

İkincisi, bu regionda yaşayan xalqların əksəriyyəti türkdilli xalqlardır (Rusiya Sibirində, Qazaxıstanda və Orta Asiya dövlətlərində, Çinin Sincan-Uyğur Muxtar Rayonunda, Əfqanıstanın bir sıra rayonlarında). Düzdür bu regionda monqol tayfaları da məskunlaşıb. Bununla belə, türkdilli xalqların və monqol tayfalarının yaşayış tərzi uzun əsrlər, demək olar ki, min illər boyunca eyni idi. Bununla yanaşı, regionda farsdilli millətlər də məskunlaşmışlar (Əfqanıstanda, Pakistanda, Tacikistanda).

Üçüncüsü, bu regionda əsasən islam dini yayılmışdır. Bu isə bu regionda məskunlaşan xalqların və dövlətlərin mədəniyyətində, tarixində və dilində də müəyyən ümumi cəhətlərin formalaşmasına gətirib çıxarırdı. Hətta bir sıra Qərb alimləri (A.Benniqsen, E.Karrer de Ankos və d.)[48] Mərkəzi Asiyanı islam dünyasının bir hissəsi kimi tanıyırlar.

Dördüncüsü, bu regionda müxtəlif zamanlar regionun müxtəlif rayonlarını özündə birləşdirən dövlətlər yaranmış-

---

[48] Малышева, Д.Б. Центральноазиатский узел мировой политики / Д.Б. Малышева. – М.: ИМЭМО РАН, - 2010, - с. 8.

dır və onlar bu regionda məskunlaşan, yaşayan xalqları tarix boyu birləşdirirdi.

Beşincisi, bu regiondan Avropaya, Rusiyaya və Asiyanın Yaxın Şərqinə ticarət yolları (o cümlədən məşhur İpək Yolu) gedirdi. Bununla yanaşı, Mərkəzi Asiya Avropa və Çin, həmçinin Şimali Hindistan arasında olan orta bir məkan kimi çıxış edirdi.

Beləliklə, bu region öz təbii iqlimi və şəraitinə, uzun müddət burada məskunlaşan xalqların yaşayış tərzinə, onların təsərrüfat fəaliyyətinə, tarixlərinə, mədəniyyətlərinə, dinlərinə, dillərinə və s. amillərə görə eyniləşdirilə bilər. Bütün bu amillər sivilizasiya vahidliyinə malik olan Mərkəzi Asiya fenomeninin yaranmasına yardım etmişdir.

İndiki vəziyyətdə aydın şəkildə görmək olar ki, bu regionun coğrafi anlamı onun siyasi anlamı ilə üst-üstə düşmür. Bu regionun ərazisi müxtəlif dövlətlərin ərazisini ya tamamilə, ya da qismən əhatə edir. Məsələn, Özbəkistanı və Türkmənistanı həm coğrafi, həm də siyasi baxımdan bu regiona aid etmək olar. İran və Pakistan kimi dövlətlər isə coğrafi baxımdan qismən, lakin siyasi baxımdan bütövlükdə bu regiona aid edilməlidir. Bu səbəbdən Mərkəzi Asiya anlayışının siyasi və coğrafi anlayışlarını fərqləndirmək lazımdır.

Bütün yuxarıdakıları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar:

1. Orta Asiya adlanan region anlayışı altında Xəzər dənizindən başlayaraq Şərqdə Çinin sərhədinə qədər və Şimalda Aral-İrtış su bölgüsündən Cənubda İran və Əfqanıstan ilə sərhədə kimi Avrasiya qitəsinin bir hissəsini əhatə edən tarixi-coğrafi region başa düşülürdü. Bu terminə əsasən SSRİ dövründə daha tez-tez rast gəlmək olardı və elmi ədəbiyyatda bu termindən daha geniş istifadə olunurdu. Bu

regiona Türkmənistan SSR, Özbəkistan SSR, Tacikistan SSR, Qırğızıstan SSR kimi SSRİ-yə daxil olan müttəfiq respublikalar aid edilirdi.

2. "Orta Asiya" termininin müəyyən tarixçəsi var və ondan bir sıra alimlər, tədqiqatçılar və səyahətçilər istifadə etmişlər (Hegel, S.M. Solovyev və s).

3. Uzun müddət ərzində eyni regiona dair "Orta Asiya" anlayışı ilə birlikdə "Mərkəzi Asiya" anlayışı da istifadə olunmuşdur.

4. Avropada SSRİ-nin yaranmasına qədər olan dövrdə də əsasən "Mərkəzi Asiya" terminindən geniş istifadə edilirdi.

5. SSRİ dövründə SSRİ elmi ədəbiyyatında "Mərkəzi Asiya" anlayışı altında SSRİ-nin hüdudlarından kənarda olan ərazilər, o cümlədən Monqolustan, müasir Çinin ərazisində olan Daxili Monqolustan, Sincan və Tibet başa düşülürdü.

6. Mərkəzi Asiya regionu öz təbii iqlimi və şəraitinə, uzun müddət burada məskunlaşan xalqların yaşayış tərzinə, təsərrüfat fəaliyyətinə, tarixlərinə, mədəniyyətlərinə, dinlərinə, dillərinə və s. görə eyniləşdirilə bilər.

7. "Mərkəzi Asiya" anlayışı altında qərbdə Xəzər dənizindən başlayaraq şərqdə Çinin mərkəzi rayonlarına kimi, şimalda isə Rusiya Sibirinin cənubundan başlayaraq Əfqanıstan daxil olmaqla, Hindistanın və Pakistanın şimal rayonlarına kimi uzanan bir ərazi başa düşülür.

8. Mərkəzi Asiya və Orta Asiya coğrafi və siyasi cəhətdən bir-birindən fərqləndirilməlidir.

## *1.3. Müasir Mərkəzi Asiya regionu dövlətlərinin təhlükəsizliyinin təmin edilməsinin Azərbaycan üçün əhəmiyyəti*

Müasir Mərkəzi Asiya regionuna daxil olan ölkələrdə təhlükəsizliyin təmin edilməsi problemləri bir sıra amillər və obyektiv səbəblərdən Azərbaycan üçün əhəmiyyət kəsb edir.

Birincisi, bu region, yəni Mərkəzi Asiya regionu, ölkəmizin birbaşa yaxınlığında yerləşir. Qazaxıstan və Türkmənistan kimi ölkələrlə Azərbaycan Xəzər dənizi üzrə həmsərhəddir. 12 avqust 2018-ci ildə Beşinci Xəzər Sammiti çərçivəsində Xəzər dənizinin sahilində yerləşən Qazaxıstanın şəhəri Aktauda Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistan Respublikası tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyaya müvafiq olaraq[49], Xəzər dənizi tərəflərin ümumi istifadəsində qalır, lakin onun dibi və təki qonşu dövlətlər arasında beynəlxalq hüquq əsasında razılaşmalara əsasən (belə razılaşmalar bu dövlətlər arasında beynəlxalq saziş və müqavilələrlə rəsmiləşdirilir) bölünür.[50] Deməli, Xəzər dənizinin dibi və təki Azərbaycanın Qazaxıstan Respublikası və Türkmənistan Respublikası ilə həmsərhəd sahələri xətti üzrə bu dövlətlər arasında bağlanan beynəlxalq müqavilə və sazişlər əsasında bölünəcək.

---

[49]Fifth Caspian Summit, August 12, 2018. Aktau: [Electronic resource] / URL: http://kremlim.ru/events/president/news/58296

[50]Подписана конвенция о правовом статусе Каспийского моря: [Электронный ресурс] / РИА Новости. 12.08.2018// URL: https://ria.ru/20180812/1526398222.html

Bununla yanaşı, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmsərhəd sahələrinin bölüşdürülməsi haqqında saziş 23 sentyabr 2002-ci ildə imzalanmışdır (bu saziş 4 aprel 2003-cü ildən qüvvəyə minmişdir.[51] Bu sazişin 1-ci maddəsinə əsasən tərəflər arasında Xəzər dənizinin dibi və təki nöqtələrin bərabər uzaqlıqda olması və Tərəflərin razılığı üzrə modifikasiya olunması nəzərə alınaraq aparılan orta xətt metodu əsasında və həmçinin ümumtanınmış beynəlxalq hüquq prinsipləri və Xəzərdə formalaşmış praktika nəzərə alınmaqla sərhəd çəkilir (bölüşdürülür). Onu da nəzərə almaq lazımdır ki, buna oxşar saziş daha əvvəl 6 iyul 1998-ci ildə Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında bağlanmışdır (Yerin təkinə suveren hüquqların həyata keçirilməsi məqsədilə Xəzər dənizinin şimal hissəsinin dibinin sərhədləşdirilməsi (bölüşdürülməsi) haqqında saziş. Bu sazişə 13 may 2002-ci il tarixli Protokol[52] və 10 oktyabr 2015-ci il tarixli Protokol[53] ilə əlavələr edilmişdir). Bununla bərabər, 14 may 2003-cü ildə Xəzər dənizinin dibinin həmsərhəd sahələ-

---

[51] Соглашение между Российской Федерацией и Азербайджанской Республикой о разграничении сопредельных участков дна Каспийского моря // - Бюллетень междунар. договоров, 2004, № 8

[52] Протокол к Соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря ы целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г. (Дата подписания 13.05.2002):[Электронный ресурс] /URL:
// http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/bilateral/page-176/46360

[53] Протокол о внесении изменения в Протокол к соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря ы целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г.:[Электронный ресурс] /URL: http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/bilateral/page-31/43818

rinin bölüşdürülməsi xətlərinin birləşməsi nöqtəsi haqqında Azərbaycan Respublikası, Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında üçtərəfli saziş imzalanmışdır.[54]

Beləliklə, Azərbaycan Respublikası Qazaxıstan Respublikası və Türkmənistan Respublikası ilə Xəzər dənizinin dibi üzrə həmsərhəddir.

İkincisi, 70 ildən çox bir müddət ərzində bizim ölkə və bir sıra Mərkəzi Asiya ölkələri müttəfiq respublikalar statusunda vahid bir federativ dövlətin – Sovet İttifaqının tərkibinə daxil idilər. Bu dövlət çərçivəsində müxtəlif iqtisadiyyat, rabitə, nəqliyyat, mədəniyyət və digər sahələrdə sıx əlaqələr qurulmuşdur.

Üçüncüsü, Mərkəzi Asiyanın, demək olar ki, bütün ölkələri ya türkdillidir, (Tacikistan Respublikası istisna olmaqla), ya da onların ərazisində türkdilli əhali çoxluq təşkil edir (İran, Çin Xalq Respublikasının Qərb rayonları, yəni Sincan - Uyğur Muxtar Rayonu) və ölkəmiz bu ölkələrlə ümumi tarixi, dil, mədəni, dini köklərə, xüsusən SSRİ-nin tərkibində olmuş keçmiş Qazaxıstan və Orta Asiya ölkələri ilə daha sıx əlaqələrə malikdir. Bu əlaqələrin möhkəmləndirilməsi üçün hətta 3 oktyabr 2009-cu ildə Naxçıvanda müasir türk dövlətlərini birləşdirən və əsas məqsədi onlar arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması haqqında Naxçıvan sazişi imzalanmışdır.[55] Bu beynəlxalq təşkilata Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan daxil-

---

[54] Соглашение между Российской Федерацией, Азербайджанской Республикой и Республикой Казахстан о точке стыка линий разграничения сопредельных участков дна Каспийского моря от 14 мая 2003 года // - Бюллетень международных договоров, 2013, № 2

[55]Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında. Naxçıvan, 3 oktyabr 2009-cu il: [Elektron resurs] / TÜRKLİB AZ. URL:http://www.turklib.az/r2.html

dir. Həmçinin türk dünyası ilə tarixi əlaqələri olan Macarıstan bu təşkilatda müşahidəçi statusuna malikdir.

Naxçıvan sazişi struktur cəhətdən preambula və 23 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2009-cu ilin noyabrında ratifikasiya edilmişdir.[56]Sənədin preambulasında bu ölkələrin xalqlarının tarixi əlaqələrinin, dilinin, mədəniyyətinin və ənənələrinin ümumiliyi  qeyd edilir. Həmçinin xalqların hərtərəfli əməkdaşlığının daha da dərinləşdirilməsinə, siyasi çoxqütblük, iqtisadi və informasiya qloballaşması proseslərinin inkişafı şəraitində sülhün möhkəmləndirilməsinə, regionda və ümumilikdə dünyada təhlükəsizliyin və sabitliyin təmin olunmasında birgə töhfə vermək istəyi də xüsusi olaraq vurğulanır. Bundan əlavə, tərəflərin fikrincə, ümumi bir struktur çərçivəsində onların qarşılıqlı fəaliyyəti, dövlətlər və xalqlar arasında qonşuluq, birlik və əməkdaşlığın böyük potensialının açılmasına kömək edir.

İndiyə kimi TDƏŞ-in 7 rəsmi sammiti keçirilmişdir. VII sammit Azərbaycan, Türkiyə, Qırğızıstan, Özbəkistan prezidentləri, Qazaxıstanın birinci prezidenti və Macarıstanın Baş Nazirinin iştirakı ilə 2019-cu ilin oktyabrında Bakıda keçirilmişdir.[57] Həmçinin 10 aprel 2020-ci ildə isə Azərbaycanın təşəbbüsü üzrə koronavirus pandemiyasına qarşı mübarizə aparılması ilə əlaqədar fövqəladə sammit keçirilmişdir.[58]

---

[56] «Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında» Naxçıvan Sazişi təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 26 noyabr 2009.URL: http://www.turklib.az/tdes.html

[57] Тюркский совет доказал, что является опорой для сохранения мира в регионе: [Электронный ресурс] / 1news.az. 16 октября 2019. URL:https://1news.az/news/tyurkskiy-sovet-dokazal-chto-yavlyaetsya-oporoy-dlya-sohraneniya-mira-v-regione

[58] Саммит Тюркского совета проходит в формате видеоконференции: [Электронный ресурс] / REPORT информационное агентство. 10 апреля

Dördüncüsü, Mərkəzi Asiya ölkələri və Azərbaycan Respublikası arasında hal-hazırda bir sıra layihələr çərçivəsində müxtəlif iqtisadi əlaqələr sürətlə inkişaf etməkdədir. Çindən başlayaraq Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək daha sonra müxtəlif Qərb və Şimali Avropa ölkələrinə kimi gedib çıxan İpək Yolunun bərpası və ya Fars körfəzi ölkələrinə aparan proqramlar çərçivəsində nəqliyyat dəhlizlərinin qurulması kimi infrastruktur layihələr dünya əhəmiyyətli layihələrdir. Artıq həyata keçirilmiş belə dünya əhəmiyyətli layihələrdən biridə üç qonşu ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Qars dəmir yoludur. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın, Gürcüstanın və Türkiyənin dəmir yollarını birləşdirən nəqliyyat dəhlizidir. Avropa İttifaqı Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını bəyənmiş və onu Avropa İttifaqını Türkiyə, Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə birləşdirən nəqliyyat birləşmələrinin əsas ünsürü adlandırmışdır.[59]

Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılışı 30 oktyabr 2017-ci ildə Azərbaycanın Ələt qəsəbəsində birinci sınaq qatarının yola salınmasından sonra baş vermişdir. Bu açılışda Azərbaycanın, Gürcüstanın, Türkiyənin rəsmi nümayəndələri ilə birlikdə Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın, Özbəkistanın və Tacikistanın da rəsmi nümayəndələri iştirak etmişlər. Bir sıra Mərkəzi Asiya ölkələri bu layihədə maraqlı olduqlarını bəyan etmişlər. Belə ki, Özbəkistan Respublikasının Prezidenti Ş. Mirziyoyev imzaladığı fərman ilə 2018-2022-ci illəri əhatə edən dövrə aid

---

2020. URL:https://report.az/ru/vneshnyaya-politika/vneocherednoy-sammit-tyurkskogo-soveta-proydet-v-formate-videokonferenci/

[59] EU Statement on opening of the Baku-Tbilisi-Kars railway: [Electronic resource] /Delegation of the European Union to Azerbaijan. Bruxelles, 30.10.2017.URL:https://eeas.europa.eu/delegations/azerbaijan/34825/node/34825_vi

Özbəkistan Respublikasının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə və həmçinin yüklərin daşınması üzrə xarici ticarət marşrutlarının diversifikasiyasına dair kompleks proqramı təsdiq etmişdir. Bu proqrama “Dəniz limanlarına çıxışı ilə Bakı - Tbilisi - Axalkalaki - Qars dəmir yolu marşrutu üzrə xarici ticarət yüklərinin pilot tranzit daşımalarının həyata keçirilməsi” adlı tədbir daxil edilmişdir. Bu tədbirin həyata keçirilməsi cədvəlinə müvafiq olaraq, yüklərin ilk daşımalarına 2018-ci ilin birinci kvartalında başlanmışdır. Bu proqram həmçinin özbək tərəfi üçün Azərbaycan-Gürcüstan - Türkiyə-Avropa İttifaqı ölkələri vahid nəqliyyat dəhlizinin formalaşmasında iştirakını nəzərdə tutur. O cümlədən Özbəkistan Respublikasının müvafiq nazirlikləri və şirkətləri bu dəhlizin iştirakçısı olan digər ölkələrlə birgə hökumətlərarası komissiyaların iclasları çərçivəsində nəzərdə tutulan daşımaların həcmlərini müəyyən etməyi planlaşdırırlar.[60] Digər bir əhəmiyyətli layihəni də göstərmək olar. Bu Azərbaycanı və Türkmənistanı birləşdirən Xəzər dənizinin dibi üzrə çəkilməsi nəzərdə tutulan optik rabitə xəttinin birgə tikilməsi və istifadə edilməsi layihəsidir. Belə magistral kabel xəttinin çəkilişi Azərbaycan üzərindən keçən və Avropanı Asiya ilə birləşdirən Rəqəmli İpək Yolunu formalaşdıracaq. Bu layihə Asiya və Avropa arasında rabitə telekommunikasiya körpülərinin təkmilləşdirilməsində iki ölkə arasında əməkdaşlığı möhkəmləndirəcək. Bu telekommunikasiya xətti üzrə internet trafikin Avropanın mərkəzlərindən Azərbaycan vasitəsilə Türkmənis-

---

[60] Узбекистан в 2018 году запустит перевозки по ж/д Баку - Тбилиси – Карс: [Электронный ресурс] / SPUTNIK Азербайджан 07.12. 2017 // URL: https://ru.sputniknews-uz.com/economy/20171207/7019613/Uzbekistan-v-2018-godu-zapustit-perevozki-po-zhd-Baku-Tbilisi-Kars.html

tana və daha sonra Özbəkistana, Əfqanıstana, Pakistana və Hindistana ötürülməsinə imkan yaranacaq. Və beləliklə, belə bir magistral kabel xəttinin çəkilişi Avropa və Cənubi Asiya arasında internet trafikin ötürülməsində Azərbaycanı mərkəzi ölkəyə çevirəcək və rəqəmli telekommunikasiya dəhlizini yaradacaqdır.

Azərbaycanın bu regionun ölkələri ilə qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsinin digər əyani sübutu kimi 2017-ci ilin aprelində Mərkəzi Asiya regionunun ən iqtisadi inkişaf etmiş ölkələrindən biri olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin bizim ölkəyə rəsmi səfərini göstərmək olar. Bu səfər zamanı iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin möhkəmləndirilməsinə, əmtəə dövriyyəsinin artmasına və hər iki dövlətin nəqliyyat-tranzit sisteminin potensialının istifadəsinə yönəlmiş ikitərəfli müqavilələr paketi imzalanmışdır. Həmçinin Mərkəzi Asiya regionuna daxil olan digər ölkələrin – 2017-ci ilin avqustunda və 2020-ci ilin mart ayında Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdimuxamedovun və 2018-ci ilin avqustunda Tacikistan Respublikasının prezidenti İmomali Raxmonun, 2019-cu ildə Özbəkistan Respublikasının prezidenti Ş.Mirziyoyevin, Qırğızıstan Respublikasının prezidenti S.Jeenbekovun da Azərbaycana rəsmi səfərini göstərmək olar.

Beşincisi, potensial təhlükələrin mənbəyi kimi, Mərkəzi Asiya regionunda neqativ proseslərin inkişafı bütövlükdə Cənubi Qafqaz regionu ölkələrinə və ilk növbədə, Azərbaycana özünün müəyyən təsirini göstərməyə bilməz.

Bütün bu göstərilən amillərin tədqiq edilməsi bu regionda müxtəlif proseslərin inkişafının proqnozlaşdırılması cəhdləri və bu region ölkələri ilə qarşılıqlı əlaqələrində bi-

zim ölkənin davranış modelinin konkret strategiyasının tərtib edilməsi məqsədilə böyük elmi əhəmiyyətə malikdir.

Onu da qeyd etmək zəruridir ki, SSRİ-nin parçalanmasından və müasir Mərkəzi Asiya regionu ərazisində bir sıra müstəqil dövlətlərinin və ölkələrinin yaranmasından sonra bu region müasir beynəlxalq münasibətlər sistemində vacib əhəmiyyət kəsb etməyə başlamışdır. Şübhəsiz ki, bu regionda Rusiya, ABŞ, Çin kimi aparıcı dünya ölkələri özlərinin strateji maraqlarına malikdir. Son dövrlərdə bu regiona Avropa İttifaqının marağının artmasını da müşahidə etmək olar. Belə ki, 2007-ci ildə Aİ Şurası "Avropa İttifaqı və Mərkəzi Asiya: yeni tərəfdaşlığın strategiyası (*The EU and Central Asia: Strategy for New Partnership*) adlı sənədi qəbul etmişdir. Bu sənəddə Mərkəzi Asiya regionuna aid bu qurumun üzv dövlətləri üçün ümumi strateji xarici siyasət xətti öz əksini tapmışdır. Bundan əlavə, Avropa İttifaqı bu regionun bir sıra ölkələri ilə (məsələn, Qazaxıstanla, Qırğızıstanla, Tacikistanla) tərəfdaşlıq və əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalayıb.[61] Hətta 21 dekabr 2015-ci ildə Avropa İttifaqı Qazaxıstan ilə "Genişləndirilmiş tərəfdaşlıq və əməkdaşlıq haqqında" saziş imzalamışdır. Bu Avropa İttifaqı və Mərkəzi Asiya ölkələri arasında imzalanmış belə növ birinci sənəddir və Avropa İttifaqının Qazaxıstanla münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırır. Avropa İttifaqının bütün ölkələri və Avropa İttifaqı parlamenti tərəfindən ratifikasiya edilməsindən sonra bu Saziş 1996-cı ildə imzalanmış və 1999-cu ildən qüvvəyə minmiş "Tərəfdaşlıq və əməkdaşlıq haqqında" sazişi əvəz edəcəkdir. Halbuki bu

[61]Эминов, Э.М. Соглашения о Партнерстве и Сотрудничестве в системе правового регулирования экономических связей ЕС с постсоветскими странами // Beynəlxalq hüquq və inteqrasiya problemləri, - 2013, № 3 (35), - s. 39-40.

yeni sənədin müvəqqəti tətbiq edilməsinə artıq 1 may 2016-cı ildən başlanmışdır. Müasir çoxqütblü dünyada əsas aktorlar olan bu ölkələrin və qurumların marağı Mərkəzi Asiya regionunda təhlükəsizlik probleminin həlli zərurəti ilə birbaşa bağlıdır.

Bütövlükdə Mərkəzi Asiya təkcə onunla qonşu olan digər regionlarda baş verən müəyyən neqativ proseslərin inkişafı yolunda bufer, sərhəd olmaqla yanaşı, həm də özü də dünyaya müəyyən təhdid və çağırışlar yaradır (Əfqanıstanda indiyədək davam edən vətəndaş müharibəsi, XX əsrin 90-cı illərində Tacikistanda baş vermiş vətəndaş müharibəsi və s.).

# II FƏSİL

# MÜASİR MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNDƏ TƏHLÜKƏSİZLİYƏ QARŞI OLAN TƏHDİDLƏR VƏ ÇAĞIRIŞLAR, ONLARIN TƏSNİFATI

## *2.1. Müasir Mərkəzi Asiya regionunda təhlükəsizliyə qarşı təhdidlərin yaranması və artmasının əsas amilləri*

SSRİ-nin dağılmasından və Qazaxıstanın və keçmiş Orta Asiya respublikalarının öz müstəqilliyini bərpa etməsindən və bunun nəticəsində yeni Mərkəzi Asiya regionunun formalaşmasından sonra bu regionda bütövlükdə təhlükəsizliyin təmin edilməsi məsələləri ən əsaslı və vacib məsələlərdən birinə çevrildi. Artıq bu regionun bir sıra ölkələrində mövcud olan təhdidlər və çağırışlarla yanaşı (məsələn, Əfqanıstanda hərbi əməliyyatların və vətəndaşlıq müharibəsinin dayandırılması və təhlükəsizliyin təmin edilməsi, İranın Suriyada cərəyan edən hadisələrə cəlb olunması) yeni təhdidlər və çağırışlar yaranması və artması tendensiyası müşahidə olunur.

Mərkəzi Asiya regionunda və bu regionda yerləşən dövlətlərdə təhlükəsizliyə qarşı olan təhdidlərin yaranması və artması bir sıra amillərlə birbaşa və ya dolayısı yolla bağlıdır.

Bir tərəfdən bu, bütövlükdə dünyada və onun müxtəlif regionlarında baş verən proseslərlə əlaqəlidir. Belə ki, Mərkəzi Asiya regionunda təhlükəsizlik sistemi ayrılmaz xətlərlə dünyada ümumi qlobal təhlükəsizlik sistemi ilə bağlıdır. Bu səbəbdən dünyanın istənilən bir yerində təhlükəsiz-

lik məsələləri ilə bağlı baş verən hadisələr dünyanın digər hissələrində də müəyyən təsirə malikdir.

Mərkəzi Asiyanın geosiyasi və geostrateji mövqeyi, onun təbii sərvətlərlə zəngin olması buranı dünyanın vacib və əhəmiyyətli bir regionuna çevirmişdir. Postsovet dövrü Mərkəzi Asiya dövlətləri bu regionu dünya geosiyasi koordinatlar sistemində əsas regionlardan birinə çevirərək Mərkəzi Asiyanın digər strateji statusunu və geosiyasi formatını müəyyənləşdirdilər.[62] Bu regionda Rusiya, ABŞ, Çin, Avropa İttifaqı kimi ölkələr və qurumların, həmçinin bu dövlətlərin NATO, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və s. kimi yaratdıqları hərbi, siyasi və iqtisadi təşkilatların maraqları bir-biri ilə toqquşur. Xüsusilə də 11 sentyabr 2001-ci il terror aktının törədilməsindən sonra "Avrasiya və xüsusən də Mərkəzi Asiya dünya geosiyasi döyüş meydanına çevrildi". [63]

Bununla yanaşı, postsovet dövrü Mərkəzi Asiya dövlətləri öz müstəqilliyini əldə etdikdən sonra bu regionda təhlükəsizlik məsələlərinə ciddi təsir göstərən bir sıra problemlərlə qarşılaşdılar. M. Olkott "Mərkəzi Asiya: ümumi irs və münaqişələr "adlı məqaləsində belə problemlərə aşağıdakıları aid edirdi: durğun iqtisadiyyat; sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı problemlər; etnik və digər rəqabət; nəqliyyat sisteminin adekvat vəziyyətdə olmaması; geniş yayılmış işsizlik; bütün səviyyələrdə korrupsiya; qanunsuz narkotik dövriyyəsi; dini və siyasi cəhətdən başqa cür düşünənlərin qəddar repressiyalarla üzləşməsi; kənd təsərrüfatı

[62] Турдиева, З.Т. Сотрудничество Российской Федерации с государствами Центральной Азии в обеспечении международной безопасности:/ автореферат дисс. канд. полит.наук / Бишкек, - 2011, с. 3.

[63]Erickson, J. Eurasian manoeuvres // Oil, transition and security in Central Asia (Routledge Advances in Central Asian Studies).1st Edition. Cummings S.N. - London: Routledge Curzon, - 2003, - p. 255.

üçün suyun kritik çatışmamazlığı.[64] Fikrimizcə, iqtisadi xarakterli bu problemlər SSRİ dövründə regionun əsasən xammalın hasilatı və kənd təsərrüfatı məhsulları və xammalı üzərində qurulması ilə əlaqəli idi. Məsələn, 1986-cı ildə Orta Asiya SSRİ-də adambaşına düşən ən aşağı sənaye istehsalına sahib idi. Həmçinin Orta Asiya respublikalarında adambaşına olan gəlir və insan inkişafı indeksi digər SSRİ respublikaları ilə müqayisədə ən aşağı səviyyədə idi. Bu region iqtisadi cəhətdən dünya xarici bazarları ilə yox, sırf SSRİ-nin digər sənaye rayonları ilə bağlı idi. SSRİ-nin dağılmasından sonra və keçmiş postsovet dövrü dövlətləri arasında bazar iqtisadiyyatı əsaslarında yeni münasibətlərin qurulmasına qədər əlaqələr əhəmiyyətli dərəcədə kəsilmişdir.

Hadson İnstitutunda hərbi-siyasi təhlil Mərkəzinin direktoru, "Wikistrat" təşkilatının eksperti və yeni Amerika Təhlükəsizliyi Mərkəzinin (CNAS) baş elmi əməkdaşı Riçard Vayts xüsusi olaraq qeyd edir ki, 2017-ci il üçün Mərkəzi Asiya və bu regionda yerləşən ölkələr üçün təhlükəsizlik məsələləri əvvəlki illərdə olduğu kimi qalır. Bunlara: dini və digər qrupları özünə qarşı qaldırmamaq və yönəltməmək şərti ilə daxili terrorizmə və dini ekstremizmə qarşı mübarizənin aparılması; resursların (xüsusən su resurslarının) idarə edilməsi; Mərkəzi Asiyanın digər ölkələrinə Yaxın Şərqdə və Əfqanıstanda baş verən hadisələrinin neqativ təsirinə qarşı səmərəli fəaliyyət göstərilməsi; bir çox məsələlər üzrə dövlətlərarası əməkdaşlığın genişləndirilməsi; bu regionda Rusiya-Çin yaxınlaşması və ya toqquşması təhlükəsi balanslaşdırılmasının aparılması, həm də aparıcı xarici

---

[64]Olcott, M. B. "Central Asia: Common Legacies and Conflicts // Allison R. and Jonson L. Central Asian Security: The New International context / London: Royal Institute of International Affaires. - Washington, D.C.: Brookings Institution Press, 2001, - p. 25-26.

dövlətlərin bu regiona dair laqeydliyə yol verilməməsinə çalışmaq ("qızıl orta" prinsipinin saxlanılması – yəni aparıcı xarici dövlətlər tərəfindən nə az, nə də həddindən artıq diqqətin ayrılmamasına çalışmaq); bu regionda yerləşən digər dövlətlərin təhlükəsizliyinə təhlükə yarada bilən və xarici hərbi müdaxiləyə gətirə bilən regionda hər hansı bir dövlətin daxilində cərəyan edən siyasi proseslər nəticəsində yarana bilən münaqişələrin qarşısının alınması; kütləvi qırğın silahlarının (KQS) yayılmasının, narkotiklərin qanunsuz dövriyyəsinin, insanlarla və silahla ticarətin qarşısının alınmasını aid etmək olar.[65] Mil Çul Kimin fikrincə, regionun təhlükəsizlik təhdidləri arasında dini radikalizmin, narkotrafikin və transmilli mütəşəkkil cinayətkarlığın artması ilə bağlı problemlər xüsusi yer tutur və məhz bu amillər bir çox hallarda Mərkəzi Asiyada təhlükəsizlik sahəsində vəziyyəti müəyyənləşdirir.[66]

Digər tərəfdən, bu həm də Mərkəzi Asiya regionu dövlətlərində mövcud olan ənənəvi amillərlə (hər bir dövlətdə ictimai-siyasi strukturun xüsusiyyəti mürəkkəb klanlararası münasibətlər sistemi ilə səciyyələnir) və bu regionda yeni müstəqil dövlətlərin yaranması, formalaşması və müstəqil inkişafı prosesinin xüsusiyyətləri ilə sıx bağlıdır (məsələn, elitaların bir-biri ilə rəqabət aparması, həll olunmamış sərhəd problemləri və s.). Yaranmış vəziyyəti bu regionda olan dövlətlərin əksəriyyətində çox çətin, hərdən isə ağır iqtisadi durum və indiyə kimi davam edən əhalinin əsas hissəsinin aşağı yaşayış səviyyəsi daha da mürəkkəbləşdirir.

---

[65]Weitz, R.: On security in Central Asia and its new/old challenges: [Electronic resource] / Cenrtal Asian Analytical Network. URL:https://caa-network.org/archives/8680

[66]Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, - 2009, - с. 11.

Məsələn, Əfqanıstan dünyanın ən kasıb ölkələri sırasına daxil edilir. Bundan əlavə, Əfqanıstanda indiyə kimi hərbi əməliyyatlar davam edir və faktiki olaraq demək olar ki, tabiblərlə və digər terrorçu qruplaşmalarla (İŞİD, Əl-Qaidə və s.) açıq müharibə gedir. Belə ki, 2015-ci ilin payızında Taliban hərəkatı Qunduz şəhərini (bu şəhər Əfqanıstanın şimalında yerləşir, iri bir şəhərdir) ələ keçirmiş və onu üç gün ərzində öz hakimiyyəti altında saxlamışdır. Həmçinin taliblər, İŞİD və Özbəkistan İslam Hərəkatı kimi terrorçu təşkilatların dəstəyi ilə digər bir vilayət mərkəzini – Puli-Xumrini ələ keçirmiş və bu şəhərə daxil ola bilmişlər.

İran İslam Respublikasında bu təkcə ABŞ-ın bu dövlətə və onun təşkilatları və kommersiya strukturlarına qarşı tətbiq etdiyi sanksiyalarla yox, həm də İranla iqtisadi sahədə əməkdaşlığı həyata keçirən digər ölkələrin təşkilatları və kommersiya strukturlarına qarşı iqtisadi sanksiyaların tətbiq edilməsi təhlükəsi ilə də bağlıdır. Bundan əlavə, İran İslam Respublikasının bu günə kimi davam edən Suriya münaqişəsinə cəlb olunması və bununla bağlı böyük həcmdə maliyyə xərcləri ölkənin bütövlükdə iqtisadi vəziyyətini daha da mürəkkəbləşdirir və ağırlaşdırır.

Ağır iqtisadi vəziyyət Əfqanıstanla həmsərhəd olan Pakistanın şimal vilayətlərində də müşahidə olunur.

Cammu və Kəşmirin siyasi gələcəyinin müəyyən edilməsi problemi indiyə kimi həll olunmamış qalır və çox güman ki, yaxın gələcəkdə həll olunmayacaq. Bu hal Hindistan və Pakistan arasında həm siyasi münasibətlərə, həm də regionun bu hissəsində olan iqtisadi vəziyyətə təsir etməyə bilməz.

Çinin Sincan-Uyğur Muxtar Rayonunda da vəziyyət heç də sadə deyil. Burada da Çindən ayrılmağa və müstəqil

dövlət yaratmağa cəhd edən separatçı qüvvələr vaxtaşırı öz fəallıqlarını göstərirlər.

Beləliklə, həm Mərkəzi Asiya regionuna daxil olan hər bir ölkədə, həm də bütövlükdə Mərkəzi Asiya regionunda təhlükəsizliyə qarşı təhdidlərin yaranmasına və artmasına kömək edən bir sıra əhəmiyyətli dərəcəli amilləri (hər birini ayrılıqda və ya onların cəmini) qeyd etmək olar.

## *2.2. Müasir Mərkəzi Asiya ölkələrində təhlükəsizliyin təmin edilməsində əsas təhdidlərin və çağırışların təsnifatı*

Müasir dövrdə hər bir dövlətin milli təhlükəsizliyi anlayışı yalnız onun hərbi və ya siyasi müstəqilliyi ilə məhdudlaşmır. Onun təmin edilməsi üçün siyasi, iqtisadi, sosial xarakterli tədbirlərin həyata keçirilməsi, həmçinin milli ədavətin qızışdırılması ilə terrorizm, separatizm və dini ekstremizm ilə mübarizənin aparılması nəzərdə tutulur. Elmi ədəbiyyatda milli təhlükəsizliyin ekoloji, iqtisadi, enerji, informasiya, etnomədəni, ərzaq, elmi-texniki, kiber təhlükəsizliyi kimi növləri və eyni zamanda təhlükəsizliyin hərbi və qeyri-hərbi amilləri də qeyd edilir.[67]

Mərkəzi Asiya regionuna daxil olan hər bir dövlətin ayrılıqda götürüldükdə və bütün regionun bütövlükdə təhlükəsizlik sisteminə mənfi, neqativ təsir göstərən bir sıra təhdidlər və çağırışlar mövcuddur. Belə təhdid və çağırışlar bir sıra səbəblərdən irəli gəlir. Belə səbəblər arasında aşağıdakıları göstərmək olar:

---

[67] Алешин, Ю.Н. Национальная безопасность новых независимых государств на постсоветском пространстве: на материалах стран Цен-тральной Азии: / автореферат дис. кандидата полит.наук / Бишкек, - 2011, - с. 13.

- regionda fövqəldövlətlərin arasında gedən mübarizə ilə bağlı yaranmış geosiyasi və geostrateji vəziyyət (belə ki, ABŞ, Rusiya, Çin bu regionda öz mövqelərinin gücləndirilməsinə səy göstərməklə özlərinin milli maraqlarına cavab verən regional təhlükəsizlik modelinin formalaşmasına çalışırlar);

- Əfqanıstanda davam edən vətəndaş müharibəsi;

- regionun, demək olar ki, bütün ölkələrində ciddi sosial-iqtisadi problemlərin mövcudluğu (yaşayış səviyyəsinin aşağı olması, korrupsiya, kütləvi işsizlik, cinayətkarlığın yüksək səviyyəsi və s.) və bunun əsasında yerli əhalinin geniş kütlələri arasında sosial narazılığın artması (bu isə, öz növbəsində, terrorçular, radikal islamçılıq tərəfdarlarının, separatçı qüvvələrin fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır);

- bir sıra Mərkəzi Asiya dövlətləri arasında ciddi fikir ayrılıqları və ziddiyyətlərin mövcud olması.

Elmi ədəbiyyatda belə təhdid və çağırışların müxtəlif təsnifatına rast gəlmək olar. Məsələn, D.B.Malışevin fikrinə əsasən terrorizm, ekstremizm, kütləvi qırğın silahının yayılması və narkobizneslə yanaşı, qlobal istilik, meşələrin azalması, suya görə müharibə təhlükəsi kimi qlobal təhdidlər və çağırışlar Mərkəzi Asiya ölkələri üçün də çox aktualdır.[68] Bunlarla yanaşı, o həmçinin bir sıra digər, əsasən daxili, endogen xarakterli yeni çağırışları da qeyd edir və onlara siyasi daxili və sosial-iqtisadi qeyri-sabitliyi, dövlətdaxili regional elitalar və klanlar arasında qarşıdurmanı, əhalinin yoxsulluğunu, əhalinin müxtəlif təbəqələrinin gəlirləri arasında artan məsafəni və sosial disproporsiyaları, işsizliyi, xüsusən də gənclər arasında yüksək dərəcəsini, korrup-

[68] Малышева, Д.Б. Вызовы безопасности в Центральной Азии // - М.: Россия и мусульманский мир. – 2014. № 1 (259), - с. 76.

siyanı, dövlət strukturlarının səmərəliyinin aşağı səviyyədə olmasını, radikal islamçılığı, narkomaniyanın təsirinin artmasını və onu qismən maliyyələşdirən dini ekstremizmi, ali siyasi hakimiyyətin ötürülməsi problemini də aid edir.[69]

Y.N. Aleşin postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin regional səviyyədə milli təhlükəsizliyinə aşağıdakı təhdidləri və çağırışları aid edir: siyasi sistemlərin müxtəlif modelləri; islam fundamentalizmi; su-enerji problemlərinin həll olunmaması; sərhədlərin tənzimlənməsi problemi; ekoloji təhdidlər; ümumilikdə bu regionun sosial-iqtisadi inkişafının aşağı səviyyədə olması; cəmiyyətin təbəqələşməsi; işsizliyin və yoxsulluğun artması; etnikarası münaqişələr; kütləvi qanuni və qanunsuz miqrasiya; dini ekstremizm; narkotik ticarətinin genişlənməsi, korrupsiya, mütəşəkkil cinayətkarlıq, qanunsuz silah ticarəti və təhlükəsizlik sahəsində regional inteqrasiyanın həyata keçirilməsi üçün maneələr.[70] Mil Çul Kim hesab edir ki, postsovet ölkələrinin dünya inkişafı proseslərinə fəal daxil olması onların ərazilərində təhlükəsizliyə bir sıra yeni, onlara əvvəllər xas olmayan təhdid və çağırışların yaranmasına səbəb olmuş və onların hamısı, bu və ya digər dərəcədə, Mərkəzi Asiya regionunda öz əksini tapmışdır. Mil Çul Kim onların arasında qanunsuz miqrasiya, narkobiznes, beynəlxalq terrorizm və dini ekstremizmi qeyd edir.[71]

---

[69] Малышева, Д.Б. Вызовы безопасности в Центральной Азии //- - М.: Россия и мусульманский мир. – 2014. № 1 (259), - с. 76.
[70] Алешин, Ю.Н. Национальная безопасность новых независимых государств на постсоветском пространстве: на материалах стран Центральной Азии: / автореферат дис. кандидата полит.наук / Бишкек, 2011, - с. 10.
[71]Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, - 2009, - с. 3.

Qırğızıstan tədqiqatçısı A.M. Aktamaliyeva postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin təhlükəsizliyinə təhdidləri həm sərt xətt üzrə (yəni hərbi-siyasi təhlükəsizlik və dövlətlərin suverenliyinin qorunub saxlanılması), həm də yumşaq xətt üzrə (humanitar aspekt) təsnif edir. Və sonuncuya Əfqanıstandan gələn terrorizmin yayılmasının mümkünlüyünü, Sincan-Uyğur Muxtar Rayonu uyğurlarının separatist niyyətlərini, ekstremist və terror təşkilatların fəaliyyətini, narkotik ticarəti və insan alveri ilə, Qırğızıstanın "Zanbaq" ssenarisinin digər Mərkəzi Asiya ölkələrində təkrarlanmasının mümkünlüyünü, əhalinin kütləvi mühacirətini aid edir. Və bütün bu çağırışları üç problem zonalar: islamın siyasətləşdirilməsi və dini qrupların radikallaşdırılması; rejimlərin zəifliyi və elitaların potensial qarşıdurma imkanı; su-enerji problemləri üzərində qruplaşdırır.[72]

Qeyd etmək lazımdır ki, bu sahədə ümumqəbuledilmiş təhdidlər və çağırışlar sistemi və ya təsnifatı mövcud deyil. Bununla belə, Mərkəzi Asiya regionunda mövcud olan əsas təhdidlər və çağırışları müəyyən etmək və onların təsnifatını aparmaq mümkündür. Fikrimizcə, hal-hazırda postsovet dövrü müasir Mərkəzi Asiya dövlətləri artıq formalaşmış və dünya dövlətləri ailəsinə qəbul edilmişdir və bu səbəbdən onların təhlükəsizliyinə qarşı "sərt xətt üzrə" təhdidlər (müəyyən mənada Qazaxıstan istisna olmaqla) çox da real görünmür. Müasir Mərkəzi Asiya dövlətlərinə qarşı "yumşaq xətt üzrə" təhdidlər və çağırışlar daha realdır. Postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin təhlükəsizlik sisteminə təhdidlər və çağırışlar sırasında (onları elmi ədəbiyyatda

---

[72]Акматалиева, А.М. Трансатлантическое партнерство по вопросам безопасности в Центральной Азии: автореферат дис. канд. полит.наук/ Бишкек, - 2011, - с. 14-15.

“ənənəvi olmayan təhlükələr” də adlandırırlar [73]) vacib əhəmiyyət kəsb edən aşağıdakıları qeyd etmək olar: terrorizm; narkotrafik; qaçaqmalçılıq; dini ekstremizmin yayılması; separatçılıq; enerji təhlükəsizliyi; su təhlükəsizliyi; mütəşəkkil cinayətkarlıq; qeyri-leqal miqrasiya; korrupsiya.

Fikrimizcə, nisbətən yeni çağırışlar arasında bir sıra obyektiv xarakter daşıyan səbəblər ucbatından bu ölkələrdə rəhbərliyin dəyişməsi və onunla bağlı rəhbəredici elitaların dəyişməsi nəticəsində regionun siyasi qeyri-stabilliyinə gətirə bilən mümkün təhlükəni də qeyd etmək olar.

Bununla yanaşı, hər bir dövlət müstəqil olaraq öz milli maraqlarını, əsas təhdidləri və onlara qarşı mübarizəni özləri müəyyən edir.

Aybəy Toktomuşevin qeyd etdiyi kimi, beynəlxalq terrorçuluq, dini ekstremizm və etnomilli separatizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və silahın qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya “Avrasiya Balkanları” ərazisində əlverişli mühit tapdı.[74] (Z. Bzejinski Mərkəzi Asiyanı belə adlandırırdı: “Avropada “Balkanlar” sözü təsəvvürdə etnik münaqişələr və regional rəqabət yaradırdı. Avrasiyanın da öz “Balkanlar”ı var, lakin Avrasiya Balkanları daha böyükdür, orada əhali daha çoxdur, dini və etnik cəhətdən daha çoxnövlüdür).[75]Bu anlayış altında yalnız keçmiş Orta Asiya ölkələrini və Qazaxıstanı nəzərdə tutan müəlliflər, qeyri-stabillik yaradan amillərə həm də bu ölkə-

---

[73]Чуфрин, Г.И. Россия в Центральной Азии / Г.И. Чуфрин. – Алматы: КИСИ при Президенте РК, - 2010. - с. 15.

[74] Токтомушев, А. Центральная Азия: коллективные усилия государств в противодействии угрозе международного терроризма // - Ядерный контроль, -2005. № 2 (76), - с. 81.

[75] Brzezinski, Z. The Grand Chessboard.American Primacy and Its Geostrategic Imperatives / Z. Brzezinski. - Basic Books, Later Printing Used edition, - 1998, - p. 123.

lərin Əfqanıstana ərazi yaxınlığını da aid edirlər.[76,77] Regionun cənub sərhədlərində təhlükəsizliyə təhdid amili kimi çıxış edən Əfqanıstanda yaranmış belə bir vəziyyət, bütün Mərkəzi Asiya ölkələrinin xüsusi narahatçılığını yaradır. Bununla yanaşı, bütün Mərkəzi Asiya ölkələri həm özlərinin, həm də öz qonşularının daxili stabilliyinin saxlanmasında maraqlıdırlar.[78]

Fikrimizcə, nisbətən yeni çağırışlar arasında bir sıra obyektiv xarakter daşıyan səbəblər ucbatından bu ölkələrdə rəhbərliyin dəyişməsi və onunla bağlı rəhbəredici elitaların dəyişməsi nəticəsində regionun siyasi qeyri-stabilliyinə gətirə bilən mümkün təhlükəni də qeyd etmək olar.

Mərkəzi Asiya ölkələrində təhlükəsizlik strategiyasının və onun əsas parametrlərinin müəyyənləşdirilməsi üçün bu əsas təhlükələrin və çağırışların hər birisinin ətraflı araşdırılması daha məqsədəmüvafiqdir.

### *2.2.1. Müasir Mərkəzi Asiya regionunda terrorizmlə mübarizə problemi*

Bütün regionun təhlükəsizliyinin təmin edilməsi işində terrorizmlə mübarizə problemi birinci dərəcəli əhəmiyyətə malikdir. Onu da qeyd etmək lazımdır ki, Əfqanıstanda ter-

---

[76] Кулбараков, Р.Д. Проблемы терроризма в Центральной Азии. Итоги международной практической конференции «Терроризм: проблема противодействия»:22-23 июля 2011: [Электронный ресурс] / URL:http://conference.antiterror.rsbi.kz/index.php/doklads/36-kylbarakov

[77] Осмоналиев, К. М. Некоторые проблемы обеспечения безопасности в Центральной Азии: геополитические факторы и риски // - М.: Международное сотрудничество евразийских государств: политика, экономика, право, - 2016. № 2, - с. 83

[78] Саралаев, У.К. Геополитическая роль Центрально-Азиатского региона в современную эпоху // -Бишкек: Вестник Дипломатической Академии МИД КР. - 2015. Вып. 5, - с. 83.

rorizmlə mübarizə təkcə bu ölkə və onun xalqı üçün lokal əhəmiyyət kəsb etmir, o həm də bütün dünya üçün vacib əhəmiyyətə malikdir. Yaxşı bəllidir ki, Əfqanıstanda uzun müddət ərzində terrorçuların hazırlığı üzrə düşərgələr yerləşirdi (məsələn, Əl-Qaidə) və terrorçular buradan çıxaraq dünyanın müxtəlif regionları və yerlərində terror aktları törədirdilər. ABŞ və digər Qərb dövlətləri tərəfindən Əfqanıstanda antiterrorçu əməliyyat keçirilənə kimi, bu ölkə faktiki olaraq beynəlxalq terrorizmin transmilli bazası kimi çıxış edirdi. Hərbi nöqteyi-nəzərdən uğurlu antiterrorist əməliyyat nəticəsində radikal qüvvələrin mərkəzi olan taliblərin rejimi çökdü. Lakin terror təhlükəsinin bütövlükdə ləğv edilməsi haqda danışmaq, əlbəttə ki, olmaz. Terrorçu qüvvələr tamamilə məhv edilməmişdir – onların yenidən qruplaşması baş vermişdir. Onların bir qismi Əfqanıstanı tərk etmiş və Pakistan, Fars körfəzi ölkələri, Tacikistan, Özbəkistan və s. kimi digər dövlətlərdə özlərinə sığınacaq tapmışlar. Bu gün tamamilə aydındır ki, Əfqanıstanın Mərkəzi Asiyaya ərazi yaxınlığı regionda təhlükəsizliyin vəziyyətini bir çox hallarda müəyyən etmiş, müəyyən etməkdə davam edir və yaxın gələcəkdə də müəyyən edəcəkdir.[79] Heç də sirr deyil ki, İraqın və Suriyanın ərazilərində islam xilafəti formasında İraq Şam İslam Dövləti (İŞİD) adında, mahiyyətinə görə terrorçu dövlətin qurulmasına çalışan terrorçularının böyük bir hissəsini Orta və Mərkəzi Asiya ölkələrindən gələn şəxslər təşkil edirdi. Beynəlxalq böhran qrupunun ekspertlərinin hesablamalarına əsasən, İŞİD tərkibində 2 mindən 4 minə kimi döyüşçülər postsovet dövrü Mərkəzi Asiya ölkələrindən gələnlərdir. Britaniyada yerlə-

---

[79] Токтомушев, А. Центральная Азия: коллективные усилия государств в противодействии угрозе международного терроризма // - Ядерный контроль, -2005. № 2 (76), - с. 84.

şən Radikallaşma və Siyasi zorakılığın öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin rəhbəri P.Noymanın fikrincə, 2015-ci ildə Suriya və İraqda hökumət qüvvələri ilə döyüşlər aparan radikal islamçı qruplaşmaların tərkibində Qazaxıstandan 250, Qırğızıstandan 100, Tacikistandan 190, Türkmənistandan 360, Özbəkistandan isə 500 insan daxil idi.[80] Beynəlxalq böhran qrupunun ekspertlərinin hesablanmalarına görə isə bu təşkilatın tərkibində vuruşan insanlardan 2 mindən 4 minə qədərini postsovet dövrü Mərkəzi Asiya regionu dövlətlərindən gələnlər təşkil edir və onlar bu regionun bütün etnik spektrini təmsil edirlər.[81] Və çox güman ki, bu qurumun ləğv edilməsindən sonra bu terrorçular öz vətənlərinə qayıtmağa və ya digər ölkələrə səpələnməyə başlayacaqlar. Bu isə, öz növbəsində, müxtəlif siyasi məqsədlərə nail olmaq üçün bu ölkələrdə terror aktlarının törədilməsi ehtimalını artıra bilər. Hadisələrin bu istiqamətdə inkişaf etməsinin çox real olmasına yaxın son zamanlarda Mərkəzi Asiya postsovet ölkələrindən olan şəxslər tərəfindən İstanbulda, "Rusiyanın mədəni paytaxtı" adlandırılan Sankt-Peterburqda, Londonda, İsveçdə və s. törədilmiş bir sıra terror aktları dəlalət edir. Məsələn, 22 mart 2017-ci ildə Londonda DAİŞ terrorçusu avtomobillə piyadaları və üç polis nəfərini vurmuş, sonra isə bıçaq ilə digər polis nəfərlərinə hücum etmişdir. Nəticədə 4 insan həlak olmuş, 40 nəfər yaralanmış, terrorçunun özü isə öldürülmüşdür. Bir sıra hallarda

---

[80] Neumann, P.R. Foreign fighters total in Syria/Iraq now exceeds 20,000; surpasses Afghanistan conflict in the 1980s: [Electronic resource] / The International Centre for the Study of Radicalization. January 26, 2015. URL: http://icsr.info/2015/01/foreign-fighter-total-syriairaq-now-exceeds-20000-surpasses-afghanistan-conflict-1980s

[81] Международная кризисная группа насчитала до четырех тысяч выходцев из стран СНГ в рядах ИГ: [Электронный ресурс] / NEWSru.com. 21 января 2015. URL: http://www.newsru.com/world/21jan2015/isng.html

müxtəlif dövlətlərin xüsusi qurumları belə terror aktlarının qarşısını ala bilmişlər. Məsələn, 2020-ci ilin yazında Almaniyada "İslam dövləti" qruplaşmasının bölmələrindən birinin üzvləri və əslən Tacikistandan olan bir qrup terrorçu həbs edilmişdir. Onlar Almaniyanın ərazisində terror aktları törətməyi planlaşdırırdılar.[82] Misal olaraq Müasir Mərkəzi Asiya regionu ölkələrində törədilmiş terror aktlarını da göstərmək və təhlil etmək olar. İlk növbədə, XX əsrin 90-cı illərində Tacikistanda baş vermiş vətəndaş müharibəsini qeyd etmək lazımdır. Belə ki, Tacikistanda 1995-ci ildə 30-dan artıq, 1997-ci ildə isə təxminən 42 terror aktı törədilmişdir. Vətəndaş müharibəsi bu ölkədə bitdikdən sonra Tacikistanda terror aktlarının dərəcəsi əhəmiyyətli sayda azalmışdır. 2005-ci, 2007-ci, 2009-cu və 2010-cu illərin hər birində terror hadisəsi kimi qiymətləndirilə bilən cəmi 1 belə akt qeydə alınmışdır. Özbəkistan Respublikasında 1999-cu ilin fevralında terror aktı törədilmiş və bu ölkənin paytaxtı olan Daşkənd şəhərində bir neçə bomba partladılmışdır. Bu partlayışlardan sonra radikal islam qrupları tərəfindən öz fəallıqlarının artırılması aydınca özünü büruzə verdi. Ümumiyyətlə, bu regionda ən böyük terrorçuluq fəaliyyəti Fərqanə vadisində İslam xilafətinin yaradılması və daha sonra onun bütün müasir Mərkəzi Asiya dövlətlərinə yayılması məqsədilə 1999 və 2000-ci illərdə Özbəkistan İslam Hərəkatı (ÖİH) döyüşçü dəstələrinin Əfqanıstandan Tacikistan ərazisindən keçərək Özbəkistan və Qırğızıstan ərazisinə daxil olmasına cəhd etməklə bağlıdır (Batken hadisələri). ÖİH döyüşçüləri tərəfindən terror xarakterli bir sıra aktlar həmçinin Qırğızıstanda da törədilmişdir. Belə ki, ÖİH döyüşçü-

---

[82] Исламисты из Таджикистана готовили теракты в Германии. Немецкие СМИ: [Электронный ресурс] /Haqqin. az. 15 апреля 2020. URL: https://haqqin.az/news/175327

ləri tərəfindən 27 dekabr 2002-ci ildə “Oberon” adlı bazarda terror aktı nəticəsində güclü partlayış baş vermiş və nəticədə 9 insan həlak olmuş, təxminən 50 nəfər isə yaralanmışdır. Bundan əlavə, ÖİH 2002-2004-cü illərdə Özbəkistan ərazisində bir sıra partlayışlar həyata keçirdi. 2009-cu ilin may ayında Əndicanda islamçılar tərəfindən terror aktı törədilmiş və nəticədə bir insan həlak olmuş, bir neçə nəfər isə yaralanmışdır. Həmçinin terrorçular Əndicandan 80 km uzaqda yerləşən və Qırğızıstan ilə sərhəddə olan gömrük postunu atəşə tutmuş və Xanabadda yerləşən Daxili İşlər Nazirliyinin yerli bölməsinə hücum etmişlər. Bütün bu terror aktlarına görə məsuliyyəti “İslam cihadı” adlı təşkilat öz üzərinə götürmüşdür. Qırğızıstanda da törədilmiş bir sıra terror aktlarını və ya onların törədilməsinə cəhd aktlarını da qeyd etmək olar (4 yanvar 2011-ci ildə, 2015-ci ilin iyun, iyul, oktyabr və dekabr aylarında, 2016-cı ilin 29 martında və s.). Bütövlükdə 2015-ci ildə Qırğızıstanda 50-dən çox dini ekstremist qruplaşmaların fəaliyyəti müəyyən edilmiş və qarşısı alınmışdır.[83] Terror aktları, həmçinin Qazaxıstanın ərazisində də törədilmişdir. Hətta bu ölkədə 2011-2012-ci illərdə onun sabit bir dövlət olduğu haqqında təsəvvürü dağıdan terrorçuluq fəaliyyətinin sıçrayışı baş verdi.[84] Qazaxıstanda terror aktları qazaxlar, xüsusən də Özbəkistan və Əfqanıstandan gələn köçkünlər tərəfindən törədilir. Qazaxıstanda Cunt əl-xilafət sələfi qruplaşması xüsusilə aktiv-

[83] Панкратов, А. Киргизия готовит кадры для ИГИЛ: [Электронный ресурс] / Центральная Азия. 18 января 2016. URL: http://www.centrasia.ru/newsA.php? st=1453112580

[84] Егоров, Е.Н. Противодействие терроризму и религиозному экстремизму: опыт государств Центральной Азии: / автореферат дис. кандидата полит.наук. / Санкт-Петербург, 2015, - с. 15.

dir. Belə ki, o, 2011-2012-ci illərdə törədilmiş terror aktlarına görə məsuliyyəti öz üzərinə götürmüşdür.[85]

Bütövlükdə götürəndə, dünyanın digər regionları ilə müqayisədə Mərkəzi Asiya regionunda terror aktlarının dərəcəsi, demək olar ki, çox aşağıdır. Müqayisə üçün TQMB - Terrorizm haqqında Qlobal Məlumat Bazasına görə (bu məlumat bazası 1970-ci ildən bu günə kimi dünyada baş vermiş terror hadisələri haqqında məlumat toplusudur və ABŞ-ın Merilend ştatının Universitetinə daxil olan Kollec-Parkda terrorizmin tədqiq edilməsi və terrorizmə qarşı reaksiya verilməsi üzrə Milli konsorsium tərəfindən aparılır və İqtisadiyyat və Sülh İnstitutu tərəfindən dərc olunmuş terrorizmin qlobal İndeksi kimi terrorizmlə bağlı digər tədbirlər üçün də əsas kimi çıxış edir) 1992-2011-ci illərdə Şərqi Asiyada 383, Cənub-Şərqi Asiyada 4628, Cənubi Asiyada 15683, Yaxış Şərqdə isə 15567 terror aktı törədilmiş və həyata keçirilmişdir.

Son dövrdə bütövlükdə müasir Mərkəzi Asiya ölkələrində 2017-ci ildə müxtəlif növlü cəmi 11 terror aktı törədilmişdir. Onlardan beşi (biri Bişkek şəhərində Türküstan İslam Partiyası tərəfindən), üçü Qazaxıstanda, (Aktoba şəhərində Qazaxıstanın Azad edilməsi Ordusu tərəfindən), üçü Tacikistanda (ikisi Kurqantəpədə, biri isə Eltidə müxtəlif ekstremist qrupları tərəfindən) törədilmişdir.[86]

Bütövlükdə terrorçu qruplaşmaları üç əsas növə bölmək olar.

---

[85] Егоров, Е.Н. Противодействие терроризму и религиозному экстремизму: опыт государств Центральной Азии: / автореферат дис. кандидата полит.наук. / Санкт-Петербург, 2015, - с. 15.

[86] Global Terrorism Database: [Electronic resource] / START National consortium for the study of terrorism and responsesto terrorism. URL: http://www.start.umd.edu/gtd/search/Results.aspx?search=central+asia&sa.x=38&sa.y=17&sa=Search

Birinci qrupa, hətta təbliğ edilən ideyalar radikal xarakter daşısa belə, öz ideyalarının yayılmasında zorakılıq metodlarına əl atmayan qrupları və qruplaşmaları aid etmək olar. Belə növ təşkilatlara Xizb ut Təhrir və ya Təbliqhi Camaat kimi təşkilatlar aiddir.[87] Sözün əsl mənasında onları terrorçu təşkilatlar hesab etmək olmaz, lakin potensial terrorçu təşkilatlarına aid etmək olar.

İkinci qrupa zorakılığa əl ata bilən, hərdən isə öz fəaliyyətlərində zorakılığa əl atan qrupları və qruplaşmaları aid etmək olar. Onlar cihad (kafirlərlə müharibə) anlayışını öz siyasi mübarizələrində istifadə edə bilərlər. Lakin prinsipcə bu qüvvələrlə müxtəlif problemlərə dair məsələlər üzrə müəyyən razılığa gəlmək olar.

Üçüncüsü, dini şüarlar altında öz siyasi məqsədlərinə nail olmağa çalışan radikal dini qruplaşmalar (konkret bu halda İŞİD, Əl-Qaidə və bu kimi qruplaşmalar nəzərdə tutulur). Bu radikal dini qruplaşmalar, hətta demək olar ki, terrorçu qruplaşmalar bütövlükdə öz dövlətlərində öz hökumətlərinə qarşı barışmaz mövqe tuturlar. Çünki onlar hesab edirlər ki, öz ölkələrinin hökumətləri Qərbin əlaltılarıdırlar, Qərb tərəfindən hakimiyyətə gətirilib və onların dedikləri ilə oturub dururlar və bununla da əsl islam dəyərlərindən uzaqlaşırlar. Yaxşı bəlli olduğu kimi Əl-Qaidə 2001-ci ildə ABŞ-a terror hücumu etmiş və nəticədə minlərlə insan həlak olmuşdur.

Elmi ədəbiyyatda Mərkəzi Asiya regionunda terrorizmin artması təhlükəsi dinamikasına təsir edən bir neçə amillər xüsusi olaraq qeyd edilir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

---

[87] Chaudet, D. La menace djihadiste en Grande Asie central // - Politique étrangère, 2008, № 3, - p. 561.

1. iqtisadi və sosial böhran, əhali arasında işsizlik və əhalinin əhəmiyyətli hissəsinin kasıblaşması və bütövlükdə bu ölkələrdə sosial-iqtisadi inkişafın aşağı səviyyəsi və s.;

2. millətçilik, milli dözümsüzlük, dini ekstremizm və separatçılıq əhval-ruhiyyəsinin artması;

3. əhalinin əhəmiyyətli hissəsi arasında sosial nizamsızlıq və müdafiə olunmaması hissinin kəskinləşməsi;

4. narkotiklərin və silahların qanunsuz dövriyyəsinin aktivləşdirilməsi;

5. cinayətkarlığın artması, hakimiyyətin, qanunun nüfuzunun aşağı düşməsi, vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə inamın aşağı düşməsi;

6. bu ölkələrin bəzilərində klanlar arasında mübarizə;

7. dini və mədəni özünüdərketmənin kifayət qədər inkişaf etməməsi;

8. beynəlxalq islam təhlükəsi ocaqlarına yaxın olması və s.[88,89]

Mərkəzi Asiya regionu ərazisində fəaliyyət göstərən terrorçu qruplaşmalar arasında vəhhabilərin köməyi ilə 1990-cı illərin əvvəlində yaradılmış "Özbəkistan İslam Hərəkatı"nın adını çəkmək olar. Bu təşkilat Mərkəzi Asiya regionunda ən böyük terrorçu qruplaşmadır. Bu təşkilatın əsas məqsədləri arasında Özbəkistanda hakimiyyətdə olan rejim ilə mübarizəni və Mərkəzi Asiya postsovet dövrü dövlətlərinin hamısında islam dövlətinin yaradılmasını göstərmək olar. Bundan əlavə, Qazaxıstanda qadağan edilmiş digər terrorçu təşkilatların adlarını da göstərmək olar: "Əl-

---

[88] Малышев, Д.В. Террористическая угроза с постсоветского Юга (Центральная Азия и Кавказ) // - М.: Актуальные проблемы Европы. 2017. № 4, - с. 168.

[89] Ионова, Е. Об угрозе терроризма в Центральной Азии // - М.: Россия и новые государства Евразии – 2015. № 4, - с. 61.

Qaidə", "Şərqi Türküstanın İslam Hərəkatı", "Özbəkistan İslam Hərəkatı"  və s. Qazaxıstanda hətta bu təşkilatlarla yanaşı, bu siyahıya dini-siyasi partiya "İslam Azadlıq partiyası" da daxil edilmişdir.

Mərkəzi Asiya regionunda terrorizm, həmçinin qlobal dini-siyasi sistem qismində İslam Xilafətinin yaradılması yekun məqsədi olan panislamizmin yayılması ilə də bağlıdır. Bununla yanaşı, mübarizə metodları və üsulları həm zorakı, həm də propaqanda xarakterli ola bilər.

Onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiya regionuna və müəyyən dərəcədə Rusiyaya əsas terror təhlükəsi əsasən Əfqanıstanda cəmlənmiş İŞİD və digər təşkilatlardan gəlir. Rusiya rəsmisinin məlumatına görə, 2017-ci ildə İŞİD-in (DAİŞ) Əfqanıstandakı döyüşçülərinin sayı 10 mindən artıq idi və onların planlarında regionda öz təsirinin artırılması var idi.[90] Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin başçısı A.Bortnikov Düşənbədə keçirilmiş digər postsovet ölkələrinin xüsusi xidmət başçıları ilə görüşündə bəyan etmişdi ki, İŞİD Əfqanıstanın şimalında MDB dövlətləri ilə sərhəddə 5 minə kimi döyüşçü cəmləşdirmişdir.[91] ABŞ rəsmilərinin məlumatına əsasən isə İŞİD-in (DAİŞ) Əfqanıstanda döyüşçülərinin sayı 2019-cu ilin sentyabrına 2000-dən 5000 minə kimi təşkil edirdi.[92] Bu səbəbdən onla-

---

[90] ISIS has over 10,000 fighters in Afghanistan, more arriving from Syria and Iraq: [Electronic resource] / RT. Question more. December 23, 2017. URL: https://www.rt.com/news/414048-afghanistan-isis-numbers-rise

[91]ISIS has amassed 5,000 fighters close to CIS border in North of Afghanistan: Russia: [Electronic resource] / The KHAAMA PRESS News Agency.May 21, 2019. URL:https://www.khaama.com/isis-has-amassed-5000-fighters-close-to-cis-border-in-north-of-afghanistan-russia-03436/

[92]ISIS loses more than half its fighters from US airstrikes and Taliban ground operations // Times. News. February 27, 2020. URL: https://www.militarytimes.com/flashpoints/2020/02/27/isis-loses-more-than-half-its-fighters-from-us-airstrikes-and-taliban-ground-operations/

rın digər, xüsusən də müasir Mərkəzi Asiya ölkələrinin ərazisinə dağılması təhlükəsi hələ də çox yüksəkdir. 2015-ci ilin sentyabrında Mərkəzi Asiyada terrorizm təhlükəsinə qarşı, əsasən İŞİD-ə qarşı əks-hərəkat məsələlərinə həsr edilmiş KTMT Sammiti keçirilmişdir. KTMT üzv dövlətlərinin rəhbərləri terrorçuların və ekstremistlərin Əfqanıstandan digər dövlətlərin ərazilərinə yayılması təhlükəsindən özlərinin dərin narahatçılıqlarını bildirmişlər. NATO tərəfindən Əfqanıstandan öz qoşunlarının çıxardılması halında KTMT, çox güman ki, bu regionda öz rolunu gücləndirməli olacaq. Bununla belə, Əfqanıstan gündəliyi terrorizmin və narkotiklərin qanunsuz dövriyyəsinin Əfqanıstanın hüdudlarından kənara, Mərkəzi Asiya regionunun digər ölkələrinə yayılmasının qarşısının alınması üzərində qurulub. Bütün bunlarla bağlı Mərkəzi Asiya regionunda terrorizm təhlükəsinin nisbətən azalmasına baxmayaraq, hələ də yüksək olması nəticəsinə gəlmək olar və bu səbəbdən onunla mübarizə çox vacib və aktual bir problem olmaqda davam edir.

Terrorizm sosial hadisə kimi bir çox hallarda qaçaqmalçılıqla və narkotik vasitələrlə ticarətlə bağlıdır. Buna görə də onlarla mübarizə problemi də çox aktualdır və vacib əhəmiyyət kəsb edir.

### *2.2.2. Müasir Mərkəzi Asiya regionunda narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi*

Narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi Mərkəzi Asiya dövlətləri üçün ən vacib məsələlərdən biri olmaqda davam edir. Yaxşı bəlli olan və danılmaz bir faktdır ki, narkotiklərin istehsalı terrorizmi maliyyələşdirən əsas maliyyə mənbəyidir. BMT-nin qiy-

mətləndirməsinə görə, Əfqanıstanda qanunsuz silahlı qruplaşmaların gəlirlərinin təxminən yarısı, bu isə 400 mln. ABŞ dolları civarında qiymətləndirilir, belə "narkoiqtisadiyyat"ın payına düşür.[93]

Buna görə narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi həm bütövlükdə, həm də beynəlxalq terrorizmlə mübarizə nöqteyi-nəzərindən vacib əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi təkcə Mərkəzi Asiya ölkələrinin və onlara qonşu olan digər ölkələrin gündəliyində duran məsələ deyil, həm də bütövlükdə dünya birliyi dövlətləri qarşısında duran ümumbəşəri bir problemdir.

Heç də sirr deyil ki, SSRİ-nin dağılmasından sonra qeyri-qanuni olaraq narkotik vasitələrlə "biznes" bu regionda yerləşən dövlətlərin sosial-iqtisadi inkişafına təsir edən ən ciddi amillərdən biridir. Bu isə, ilk növbədə, Mərkəzi Asiya dövlətlərinin coğrafi yeri və onların dünyada narkotik bitkilərin becərdilməsi və yetişdirilməsi, narkotik maddələrin istehsalı üzrə dünyada ən böyük mərkəzlərindən birinə çevrilmiş Əfqanıstana birbaşa yaxınlığı ilə bağlıdır. Onu da nəzərə almaq lazımdır ki, bütövlükdə dünyada davam edən iqtisadi böhran bu regiona məxsus olan dövlətlərin çoxunda vəziyyəti daha da mürəkkəbləşdirir. Bu aspektdə narkotik vasitələrlə qaçaqmalçılıq və ticarət, narkotik vasitələri istehsal edən dövlətin ərazisindən regionun digər ölkələrinin ərazisinə keçməklə narkotrafikin təşkili maliyyə tərəfdən

---

[93]Комментарий Департамента информации и печати МИД России в связи с наркоситуацией в Афганистане: [Электронный ресурс] / Министерство Иностранных дел Российской Федерации. 18.08. 2017 // URL: http://www.mid.ru/web/guest/foreign_policy/international_safety/conflicts/-/asset_publisher/xIEMTQ3OvzcA/content/id/2838569

çox cəlbedici görünür. Bu hal isə bu regionun sakinlərinin, xüsusən kənd əhalisinin getdikcə artan sayının narkosahəyə cəlb edilməsini şərtləndirir. O da yaxşı məlumdur ki, narkotik vasitələrlə qaçaqmalçılıq və ticarət öz gəlirinə görə neft (neft məhsulları, maşın yağları və s.) və silahla ticarətdən sonra üçüncü yer tutur. Artıq tam əsasla demək olar ki, narkobiznes Əfqanıstanda bu ölkənin iqtisadiyyatının ayrıca bir sahəsinə çevrilmişdir. Belə ki, Əfqanıstan hazırda narkotiklərin yetişdirilməsi və sonrakı emalı üzrə dünyada birinci yerə çıxmışdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, əvvəllər əgər burada təkcə opium istehsal edilir və digər dövlətlərə daşınırdısa, hazırda opium Əfqanıstanın özündə gizli laboratoriyalarda təkrar emal edilir və bunun nəticəsində ondan ən "ağır" və bahalı narkotik növü – heroin alınır. Bu isə narkobiznes nöqteyi-nəzərindən çox əlverişlidir, çünki xammalın nəql edilməsi hazır məhsulun nəql edilməsindən daha az gəlir gətirir və daha əziyyətlidir.

Mütəxəssislərin qiymətləndirməsinə görə, hal-hazırda dünya heroin bazarında Əfqanıstanın payı 92% təşkil edir. Bu olduqca böyük bir rəqəmdir. BMT-nin UNODC (Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin) məlumatlarına görə, Əfqanıstanda tiryək xaşxaş altında olan sahələrin ümumi sahəsi 2007-ci ilə 193 min hektar təşkil etmişdir. UNODC-nin dərc edilmiş hesabatına əsasən, 2016-cı ildə tiryək xaşxaş altında olan sahələrin ümumi sahəsi 201 min hektar təşkil etmiş və bu rəqəm 2017-ci ildə daha 127 min hektar artmışdır.[94]

---

[94] В Афганистане площадь опиумных плантаций за год выросла на 127 тыс. га //EurAsiaDaily. 22 мая 2018. URL: https://eadaily.com/ru/news/2018/05/22/v-afganistane-ploshchad-opiumnyh-plantaciy-za-god-vyrosla-na-127-tys-ga

Əfqanıstanda narkotik satıcıların gəlirləri 2007-ci ildə 3 mlrd. ABŞ dollarını keçmişdir. Bütövlükdə isə opiumun payı Əfqanıstan ÜDM-in 52%-ini təşkil edir. Bu ölkədə təkcə 2007-ci ildə 8200 ton opium istehsal edilmişdir. Bununla yanaşı, 2017-ci il üçün opiumun istehsalı 9000 ton civarında olmuşdur. UNODC-nin illik məruzəsinin məlumatlarına əsasən, il ərzində Əfqanıstanda xaşxaş əkilmiş kənd təsərrüfatlı təyinatlı torpaq sahələri il ərzində 63% artaraq rekord həddə çatmış və 328 min hektar təşkil etmişdir.

UNODC-nin bu sənədində deyilir ki: "1994-cü ildən başlayaraq sistematik aparılan monitorinq göstərmişdir ki, tiryək xaşxaşın becərdilməsi səviyyəsi yeni bir rekord vurmuş və əvvəlki, 2014-cü il rekordundan 104 min hektar və ya 46% artıq olmuşdur".[95] Rusiya Federasiyasının Prezidentinin Əfqanıstan üzrə nümayəndəsi və Rusiya XİN İkinci Departamentinin direktoru Z.N.Qabulovun dəyərləndirməsinə əsasən, 2016-cı il ilə müqayisədə 2017-ci ildə xaşxaşın becərdilməsi sahəsi Əfqanıstanda 60%-dən çox, tiryəkin istehsalı isə təxminən 90% artmışdır.[96] Bundan əlavə, narkotik industriyası Əfqanıstanın və digər Mərkəzi Asiya dövlətlərinin hüdudlarından kənara çıxmış və Rusiya, İran, Gürcüstan, Ermənistan, Türkiyə və daha sonra digər Avropa ölkələrinə, ABŞ və s. kimi dövlətlərə daxil olmuşdur.

Bununla bağlı, heç də təsadüfi deyil ki, Azərbaycan birbaşa bəyan edir ki, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağın ərazisi müxtəlif növlü narkotik bitkilərin yetişdirilməsi zonasına və narkotiklərin nəql edilməsində

---

[95] О новых данных ООН по производству наркотиков в Афганистане // Институт Ближнего Востока. 21 ноября 2018. URL:http://www.iimes.ru/?p=49999

[96] Замир Кабулов: США не препятствуют ИГ в Афганистане: [Electronicresource] / ТАСС. 8 февраля, 2018.URL: https://tass.ru/interviews/4942167

vacib bir yükdaşıma rayonuna çevrilmişdir.[97] 2001-ci ilin martında dərc olunmuş ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanın işğal olunmuş ərazilərinin narkotik vasitələrin kütləvi daşınması üçün istifadə olunması faktı qeyd edilmiş, həmçinin göstərilmişdir ki, Ermənistana onun öz coğrafi mövqeyinə görə, narkotik vasitələrin beynəlxalq dövriyyəsində potensial subyekt kimi baxılır. Azərbaycanın sərhədyanı işğal edilmiş ərazilərində çətənənin yetişdirilməsi faktı Dağlıq Qarabağ üzrə AŞPA-nın məruzəsində də öz əksini tapmışdır.

Narkotiklərin yayılmasının nəticəsi kimi narkotiklərdən asılı olan insanların sayı bir çox Avropa ölkələrində (Rusiya, Qərbi və Şərqi Avropa ölkələri, Türkiyə, Gürcüstan və s. daxil olmaqla) əhəmiyyətli dərəcədə artmışdır. Elə Mərkəzi Asiya ölkələrində də narkomaniya geniş yayılmaqda davam edir. Mərkəzi Asiya regionundan və ilk növbədə, Əfqanıstandan, Tacikistan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Qazaxıstan ərazilərindən keçməklə Rusiyaya gətirilən heroinin əhəmiyyətli dərəcədə artması faktı qeyd edilir.[98] Mütəxəssislərin qiymətləndirməsinə əsasən, Rusiyada satılan heroinin 90%-i Əfqanıstandan gətirilir. Ümumiyyətlə, bəzi müəlliflərə görə, Rusiya üçün narkomaniya səbəbindən sosial-iqtisadi zərərin miqdarı bu ölkənin ÜDM-in 2,5%-ə kimi çatır və 1,5 trln. rubl təşkil edir.[99]

---

[97]Незаконная деятельность Армении на оккупированных территориях Азербайджана: [Электронный ресурс] / URL:http: //azerbaijan.az/portal/Karabakh/ArmenianAgression/armenianAgression_r.html?armenianAgression_04

[98] Рогатых, Ф.Л., Стрельченко Э.Г., Топоров С.Б. Борьба с контрабандой наркотических средств, психотропных и сильнодействующих веществ. - СПб: Питер, 2004, - с. 9.

[99]Мухаметов, Р. С. Внешняя политика России в ближнем зарубежье / Р.С. Мухаметов. – Екатеринбург: Издательство Уральского университета, - 2015, - с. 63.

Bununla yanaşı, şübhəsiz ki, narkotrafik və narkotik industriyası kölgə iqtisadiyyatının ünsürləri olması səbəbindən müasir Mərkəzi Asiya dövlətlərinin iqtisadiyyatına mənfi təsir göstərir. Çünki narkotrafik və narkotik industriyasından qanunsuz əldə edilən və sonradan bölüşdürülən gəlir bu ölkələrin iqtisadiyyatının müxtəlif sahələrinin yaradılmasına və normal fəaliyyət göstərməsinə ciddi maneə yaradır. Belə ki, qaçaqmalçılıq və narkotik vasitələrlə ticarətdən əldə edilən gəlir çox yüksəkdir və ölkə iqtisadiyyatının müxtəlif sahələrindən əldə edilən gəlirlə müqayisə edilə bilməz. Adi fermerlər üçün iqtisadi nöqteyi-nəzərdən tiryək xaşxaşın yetişdirilməsi daha əlverişlidir və o eynidəyərli sahədə əkilmiş buğdadan 10 dəfə artıq gəlir gətirir. Bu hal isə, öz növbəsində, bu regionda müəyyən qeyri-sabitliyə səbəb ola bilər. Heç də sirr deyil ki, narkobiznes siyasi və sosial sabitliyin qorunması və dəstəklənməsində maraqlı deyil və beləliklə, bu regionda təhlükəsizliyə real təhdid kimi çıxış edir. Hal-hazırda Əfqanıstanda narkotiklər sahəsində vəziyyət çox gərgindir və pisləşməkdə davam edir.

Əfqanıstanda narkovəziyyətlə bağlı Rusiyanın XİN İnformasiya və Mətbuat Departamentinin 18 avqust 2017-ci il tarixli Kommentariyasında qeyd edilir ki, əfqan narkotikləri ilə qaçaqmalçılığın həcmləri azalmır, onun coğrafiyası, xüsusən Afrika ölkələri hesabına genişlənmişdir. "Balkan" adlanan marşrut (Pakistan-İran-Türkiyə-Avropa) intensivləşmişdir. Əfqan narkotikləri ilə qaçaqmalçılığın həcmi artmış, narkotik bitkilərin əkildiyi sahələr isə bu ölkədə 2017-ci ildə hətta 2016-cı ilin göstəricilərini keçmiş və əhalinin üçdə bir hissəsi tiryək xaşxaşın yetişdirilməsinə cəlb edilmişdir. Və bu ABŞ və NATO qoşunlarının bu ölkədə olmasına rəğmən baş verir. Əfqanıstan dünyada tiryək xaşxaşın

ən böyük istehsalçısı və ixracatçısı olmaqda davam edir.[100] Bununla belə, heroin, tiryək, həşiş və marixuana kimi narkotiklərin istehsalı üçün tiryək xaşxaş və digər narkotik bitkilər təkcə Əfqanıstanda yox, həmçinin Mərkəzi və Cənubi Tacikistanın, Cənubi Qazaxıstanın, Türkmənistanın və Qırğızıstanın da bir sıra rayonlarında da becərdilir. Nəticədə təkcə Əfqanıstanın ərazisi ilə məhdudlaşmayan, həm də digər Mərkəzi Asiya ölkələrinin ərazilərini əhatə edən irimiqyaslı beynəlxalq narkomərkəz formalaşmışdır.[101]

Əfqanıstandan narkotik maddələrin nəql edilməsinin çoxlu kanalları və yolları var. Onların içində əsas olan iki kanalı xüsusilə qeyd etmək olar. Birincisi Balkan kanalı (İran, Türkiyə və ya Əfqanıstandan Pakistana, Karaçı limanına və oradan isə dəniz yolu ilə Türkiyəyə, Balkan dövlətləri və daha sonra Cənubi və Mərkəzi Avropadan keçərək Hollandiya istiqamətində), ikincisi isə Şimal və ya "İpək yolu" kanalıdır. Şimal kanalı öz-özlüyündə Tacikistandan, Qırğızıstandan (və ya Özbəkistanın Fərqanə vadisindən), Qazaxıstandan, Rusiyadan və daha sonra Ukraynadan, Belarusdan və ya Pribaltika ölkələrindən keçərək Şərqi Avropaya, Almaniyaya və Hollandiyaya aparan bir neçə marşrutu birləşdirir. Riçard Vayts qeyd edir ki: "Mərkəzi Asiya Əfqanıstandan çiçəklənən narkotik maddələrlə ticarət üçün bağlayıcı halqa kimi çıxış edir. Narkotik maddələrlə ticarət edənlər heroini və xaşxaşı Əfqanıstandan başlayaraq "Şimal marşrutu" Tacikistandan, Türkmənistandan, Özbəkis-

---

[100] Комментарий Департамента информации и печати МИД России в связи с наркоситуацией в Афганистане: [Электронный ресурс] / Министерство Иностранных дел Российской Федерации. 18.08. 2017 // URL: http://www.mid.ru/web/guest/foreign_policy/international_safety/conflicts/-/asset_publisher/xIEMTQ3OvzcA/content/id/2838569

[101] Чуфрин, Г.И. Россия в Центральной Азии / Г.И. Чуфрин. – Алматы: КИСИ при Президенте РК, - 2010, - с. 19.

tandan və Qazaxıstandan keçərək mənzil təyinatı olan Avropaya və Rusiyaya qədər çatır".[102] Bu marşrutun müxtəlif qolları əfqan-özbək sərhədindən və daha sonra Qazaxıstandan da keçir. Belə ki, XX əsrin 90-cı illərində əsas şimal yollarından biri Termez şəhərindən Qarşiyə, Buxaraya, Ürgəncə, Nukusa və daha sonra Üstyurd platosundan keçərək Qazaxıstana və Rusiyaya aparırdı. Bu marşrutun digər qolu isə əfqan-türkmən sərhədindən, daha sonra Qazaxıstandan və ya Azərbaycandan keçərək bir çox hallarda Rusiya ərazisinə aparırdı, bəzən isə daha mürəkkəb yolla Türkiyədən keçirdi. Bəzi hesablamalara görə, şimal marşrutu ilə heroinin istehsalından və nəqlindən ümumi gəlirin həcmi təxminən 17 mlrd. dollar təşkil edir və bu gəlirin əsas hissəsi müxtəlif terror təşkilatlarının əllərinə düşür.[103] Beləliklə, bir hissəsi Mərkəzi Asiya regionuna daxil olan Əfqanıstandan narkotik vasitələrin nəqli, o cümlədən bütün müasir Mərkəzi Asiya dövlətləri üçün də böyük təhlükə mənbəyinə çevrilmişdir. UNODC-nin qiymətləndirməsinə əsasən 2008-ci ildə Mərkəzi Asiya ölkələrinin ərazisindən təxminən 121 ton heroin və 293 ton tiryək daşınmışdır. Bunların böyük bir hissəsi Əfqanıstanın şimal-şərq rayonlarında yetişdirilir və emal olunur, daha sonra isə sərhəddən daşınaraq həmsərhəd olan Mərkəzi Asiya ölkələrindən keçir. UNODC-nin qiymətləndirməsinə əsasən "Şimal marşrutla" qaçaqmalçılıq yolu ilə heroinin tədarükü ümumi tədarük edilən narkotik vasitələrin təxminən 15%-ini təşkil edir.

---

[102]Weitz, R.: On security in Central Asia and its new/old challenges: [Electronic resource] / Cenrtal Asian Analytical Network. URL:https://caa-network.org/archives/8680

[103] Малышева, Д.Б. Политические процессы в постсоветских государствах Центральной Азии // Постсоветские государства: 25 лет независимого развития. Сб. ст. в 2-х тт. Т. 1. / Отв. ред. – А.Б. Крылов. – М.: ИМЭМО РАН, 2017. – с. 123-136.

Düzdür, Rusiya hüquq mühafizə orqanlarının məlumatlarına əsasən bu narkotik vasitələrin tədarükünün həcmi kəskin artmış və hal-hazırda təxminən 25% təşkil edir. 2010-cu ildə isə Mərkəzi Asiya ölkələri və Rusiya Federasiyasında tələbatın ehtimal edilən qiymətləndirilməsindən çıxış edərək təxminən heroinin 90 tonu Şimali Əfqanıstandan Mərkəzi Asiya dövlətlərinin ərazisinə tədarük edilmişdir. Onlardan 2-4 tonu Türkmənistana, 8 -10 tonu Özbəkistana, 75-80 tonu isə Tacikistana tədarük edilmişdir.[104] Elə bu dəyərləndirmələrə əsasən heroindən başqa 2010-cu ildə Əfqanıstandan Mərkəzi Asiya dövlətlərinin ərazisinə əlavə olaraq təxminən 35-40 ton tiryək xaşxaş tədarük edilmişdir. Bu mənbələrdə həmçinin qeyd edilir ki, Mərkəzi Asiya dövlətlərində bu maddələrin ehtimal edilən istehlakına əsaslanan rəqəmlər, çox güman ki, dəqiq deyil. Çünki Rusiyada tiryək xaşxaşın istifadəsinin potensial dövriyyəsinə, onun istehlak səviyyəsi və mənbəyinə dair dəqiq məlumatlar yoxdur. UNODC-nin qiymətləndirməsinə əsasən, təxminən tiryək xaşxaşın axınının yarısı Tacikistanın (təxminən 18-20 ton), Özbəkistanın (təxminən 15-17 ton), Türkmənistanın (1-3 ton) sərhədlərindən keçir.[105]

Narkotrafik üçün əsas sərhədlərdən birini Qazaxıstanın Rusiya Federasiyası ilə sərhədi təşkil edir. Demək olar ki, Qazaxıstan – Rusiya sərhədinin bütün uzunluğu üzrə narkotik maddələr sərhəd üzərindən keçirilir. Demək olar ki, Qazaxıstan – Rusiya həmsərhəd olan bütün rayonlarından narkotrafik yolları keçir. Yalnız Rusiyanın Altay Respublikası ilə sərhədi istisna olmaqla, çünki iki ölkə arasında sərhəd

[104] Opiate flows through Northern Afghanistan and Central Asia: A Threat Assessment. - United Nations Office on Drugs and Crime, - 2012 - p. 45-46.
[105] Opiate flows through Northern Afghanistan and Central Asia: A Threat Assessment. - United Nations Office on Drugs and Crime, - 2012 - p. 46.

dağlıq ərazilərdən keçir və burada mütəmadi əlaqələrin qurulması üçün istifadə edilən yollar, demək olar ki, yox dərəcəsindədir.

Qazaxıstan Respublikasının narkotiklərlə mübarizə Departamentinin fikrinə əsasən, Qazaxıstanın ərazisinə heroinin nəql edilməsi məntəqələri aşağıdakılardır:

- dəmir yolu nəqliyyatı istifadə edildikdə Beyneu və Atırau (qərb istiqamətində), Taraz, Almatı, Astana və sonradan Yekaterinburqa çatdırmaqla (şimal və şərq istiqamətində);
- avtomobil nəqliyyatı istifadə edildikdə Çimkent, Karaqanda və Astana.

Bu sahədə olan mütəxəssislər və ekspertlər Qazaxıstandan narkotiklərin nəql edilməsinin bir neçə əsas istiqamətini göstərirlər. Bütün bu istiqamətlər əsasən Rusiyada olan və qanunsuz fəaliyyət göstərən narkotik maddələrin topdan-satış bazarlarına yönəlib. Onların arasında Qərbi Qazaxıstandan Aşağı Volqa bölgəsinə aparan istiqaməti qeyd edirlər. Bu istiqamət daha sonra Ukraynaya və Avropa İttifaqı dövlətlərinə, Rusiya Federasiyasının mərkəzi və Volqa çayı regionlarına, Şimali Qafqaza bölünür. Bu istiqamətlərin kəsişməsi, ilk növbədə, Atırau və Həştərxan vilayətlərini bölən sahədə həyata keçirilir. Digər bir istiqaməti şimal-qərb istiqamətidir. Qazaxıstanın Qərbi Qazaxıstan, Aktyubinsk, Kustanay, Karaqanda və Şimali Qazaxıstan vilayətlərindən, Rusiyanın Saratov, Samarsk, Orenburq, Çelyabinsk və Kurqan vilayətlərindən keçir. Daha sonra isə bir qolu Ural Federal dairəsinə (Sverdlovsk vilayəti, Xantı-Mansi və Yamalo-Nenets muxtar dairələri), digər qolu isə Volqayanı və Rusiya Federasiyasının mərkəzi rayonlarına, əsasən Moskvaya və Sankt-Peterburqa gedib çıxır. Buradan isə narkotiklərin bir hissəsi Şərqi Avropa ölkələrinə göndərilir. Başqa

bir istiqamət isə şimal-şərq istiqamətidir. Şimali Qazaxıstan, Karaqanda, Pavlodar və Şərqi Qazaxıstan vilayətlərindən, daha sonra isə Rusiyanın Kurqan, Omsk, Tümen, Novosibirsk vilayətlərindən və Altay diyarından keçərək Sibirin neft çıxardılan vilayətlərinə gedib çıxır. Lakin Əfqanıstandan gələn narkotik maddələrin yarısından çoxu İran İslam Respublikasının ərazisindən keçirilir. Baxmayaraq ki, bu ölkədə yerli mühafizə orqanları tərəfindən ölkə ərazisindən daşınan narkotik maddələrin bir hissəsi ələ keçirilir və ölkə qanunvericiliyinə görə narkotik maddələrlə ticarət edənlərə qarşı çox ciddi cəza növləri nəzərdə tutulur. Təkcə 2008-ci ilin birinci yarısında İranda, əsasən bu ölkənin Əfqanıstan ilə sərhədində 180 ton narkotik maddə ələ keçirilmişdir (2007-ci ilin birinci yarısı ilə müqayisədə 37% artım müşahidə olunur). Əfqanıstandan narkotik maddələrin Pakistanın ərazisindən daşınması İran ilə müqayisədə daha az həcmdə həyata keçirilir. Pakistanın hakimiyyət orqanlarının məlumatına əsasən, bu ölkənin ərazisindən qanunsuz olaraq orta hesabla Əfqanıstanda istehsal edilən narkotik maddələrin 1/3-i daşınır.[106]

Avropa ölkələrinə narkotrafikin bu ölkələrə qarşı əhəmiyyətli dərəcədə təhlükə yaranmasından bir sıra beynəlxalq sənədlərdə də deyilir. Avropa Şurasının Parlament Assambleyası (AŞPA) özünün 1960 nömrəli 2013-cü il tarixli "Əfqanıstandan narkotrafik Avropa təhlükəsizliyi üçün təhlükədir" adlanan qətnaməsində ədalətli olaraq qeyd edir ki, narkotik maddələr müasir bəşəriyyət üçün ən ciddi problemlərdən biridir (belə ki, narkotik maddələrdən sui-istifadə insanın sağlamlığına zərər vurur və insan ləyaqətini alçal-

[106] Афганский наркотрафик: основные маршруты. Справка: [Электронный ресурс] / РИА НОВОСТИ, 03.06.2010.URL: https://ria.ru/20100603/242406939.html

dır. Bununla bərabər, narkotik maddələr hər il minlərlə insanın, o cümlədən Avropada yaşayanların həyatına son qoyur, bir çox insanlara və onların ailələrinə kədər və ümidsizlik gətirir), xüsusilə vurğulayır ki, narkotik maddələrin qanunsuz dövriyyəsi və satışı ictimai qaydanı pozur, cinayətkarlığı artırır, iqtisadiyyatın əsaslarını dağıdır, dövlət idarələrinin korrupsiyaya uğramasına, bu orqanların strukturlarına daxil olması və onları öz nəzarətinə götürməsi üçün əlverişli şərait yaradır və cəmiyyəti parçalayır. Bu səbəbdən narkotiklər problemi təhlükəsizliyə, ictimai birliyə və qanunun aliliyinə çox ciddi bir təhlükədir. Aİ nümayəndələrinin dəyərləndirməsinə görə, Əfqanıstanda istehsal olunan və Mərkəzi Asiya dövlətləri ərazisindən tranzit edilən narkotik maddələr Avropa ölkələrinin qanunsuz narkotik dövriyyəsi bazarına daxil olan qaçaqmalçılıq narkotikin ümumi sayının təxminən 65%-ni təşkil edir.[107]

Bundan əlavə, nəzərə almaq lazımdır ki, narkotik maddələrlə qanunsuz ticarətdən əldə edilən gəlir beynəlxalq cinayətkar və terrorist qrup və qruplaşmaların maliyyələşdirilməsi üçün istifadə edilir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, narkotik maddələr həm də beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə ciddi təhlükə təşkil edir.

Onu da vurğulamaq lazımdır ki, heroin və tiryək xaşxaş Avropada istifadə edilən ən ziyanlı narkotiklər sırasına aiddir və narkotik qəbul edilməsi nəticəsində həlak olan insanların ¾ hissəsinin səbəbkarı kimi çıxış edir. AŞPA-nın bu qərarında Əfqanıstanın Avropa Şurasına üzv olan dövlətlərdə istifadə olunan heroin və xaşxaşın ən böyük mən-

---

[107]Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, - 2009, - с. 11.

bəyi olması faktına da diqqət çəkilir. Belə ki, bu qətnamənin 5-ci bəndində göstərilir ki, Avropa, Əfqanıstandan qeyri-qanuni gətirilən heroin və tiryək xaşxaşın əsas məqsədli bazarını təşkil edir.

AŞPA aşağıda göstərilən sahələrdə beynəlxalq əməkdaşlığın aktivləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə dövlətlərə siyasi dəstəyin verilməsini xüsusilə vacib hesab edir:

- Əfqanıstanda xaşxaşın yetişdirilməsi və heroin və digər narkotik maddələrin istehsalı ilə mübarizə;
- narkotik maddələrin Əfqanıstandan Avropaya daşınması və Avropada yayılması şəbəkəsinin məhv edilməsi;
- kimyəvi prekursorların sızması kanallarının və qanunsuz dövriyyəsinin ləğv edilməsi;
- cinayətkarlıq və terrorçuluq fəaliyyətinin həyata keçirilməsi məqsədilə narkotik maddələrlə qanunsuz ticarətdən əldə edilən gəlirlərin yuyulması və istifadə edilməsi ilə mübarizə. Bunu nəzərə alaraq AŞPA Avropa dövlətlərini narkotiklərlə mübarizə siyasətini Əfqanıstan hökuməti ilə əməkdaşlıq proqramlarının və ona yardım edilməsinin prioritetlərdən biri kimi müəyyən etməyə çağırır;
- əsas səyləri korrupsiya ilə mübarizəyə yönəldərək narkotik maddələrin qanunsuz dövriyyəsi kanallarının kəsilməsi məqsədilə Əfqanıstanın hüquq-mühafizə idarələrini və orqanlarını möhkəmləndirmək;
- Əfqanıstanın hüquq-mühafizə idarələrinin potensialının artırılması üçün dəstəyin gücləndirilməsi və Əfqanıstanda hüquq-mühafizə xidmətində çalışan əməkdaşların hazırlıq proqramlarını genişləndirmək;
- narkotik maddələrlə ticarət ilə bağlı olan mütəşəkkil cinayətkar qruplarla və heroinin istehsalı üzrə qanunsuz fəaliyyət göstərən laboratoriyalarla mübarizəyə yönəlmiş

Əfqanıstanın müvafiq hüquq-mühafizə idarələri ilə birgə aparılan əməliyyatları aktivləşdirmək və bu növ əməliyyatları kənd təsərrüfatı ərazilərinin kompleks inkişafı, infrastrukturun yaradılması və alternativ məhsulu istehsal edən fermerlərin dəstəklənməsi üzrə səylərin artırılması ilə uyğunlaşdırmaq və bu sahədə müvafiq addımlar atmaq;

- Lim bəyannaməsinə və 2012-ci ilin noyabrında qəbul olunmuş Alternativ inkişafın beynəlxalq rəhbəredici prinsiplərinə əsasən narkotik maddələrlə qanunsuz ticarətdən əldə edilən gəlirlərdən asılılığı azaltmaq üçün Əfqanıstana onun iqtisadiyyatının inkişafı və kənd təsərrüfatının diversifikasıyasında kömək etmək;

- mənşəyi Əfqanıstandan olan narkotiklərlə mübarizəyə yönəlmiş “Paris Paktı” təşəbbüsünün dəstəklənməsinə hərtərəfli kömək etmək və bu təşəbbüs çərçivəsində səmərəli əməkdaşlıq etmək.[108] Bundan əlavə, AŞPA Əfqanıstanla qonşu və həmsərhəd olan Mərkəzi Asiya dövlətlərində hüquq-mühafizə idarələrinin potensialının artırılması üzrə tədbirlərin dəstəklənməsinin gücləndirilməsinə və bu ölkələrin hüquq-mühafizə idarələrinin personalının hazırlanması proqramlarını aktivləşdirməyə çağırır;

- postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin, Pakistanın, Hindistanın və Çinin iştirakı ilə regional səviyyədə narkotiklərlə mübarizənin aparılmasında əməkdaşlığın aktivləşdirilməsini davam etdirmək və mövcud olan əlaqələndirmə və əməkdaşlıq mexanizmlərini möhkəmləndirmək;

- müvafiq xüsusi sazişlərin bağlanması vasitəsilə informasiya mübadiləsi və kəşfiyyat məlumatları mübadiləsi, işin ən səmərəli formaları və metodları ilə mübadilə və bir-

---

[108] Резолюция 1960 (2013) ПАСЕ «Наркотрафик из Афганистана – угроза европейской безопасности» от 21 ноября 2013: [Электронный ресурс] / Refworld.URL: http://www.refworld.org.ru/pdfid/538edd134.pdf

gə araşdırmaların aparılması daxil olmaqla, hüquq-mühafizə idarələri arasında operativ əməkdaşlığın aktivləşdirilməsi üçün şərait yaratmaq;

- narkotik maddələrin prekursorlarının sızması ilə mübarizə üzrə beynəlxalq əməkdaşlığı aktivləşdirmək və sirkə anhidridinin qanuni istehsalçıları, ticarətçiləri və yekun istifadəçiləri haqqında məlumatlar bazasının yaradılması yolu ilə, həmçinin müvafiq informasiya mübadiləsi yolu ilə sirkə anhidridi ilə ticarətin monitorinqinin sərtləşdirilməsi yollarını tədqiq etmək (nəzərə almaq lazımdır ki, sirkə anhidridi heroin və tiryək xaşxaşdan hazırlanan digər narkotik maddələr üçün prekursordur və bu səbəbdən sirkə anhidridinin dövriyyəsi bir sıra ölkələrdə qanunvericiliklə məhdudlaşdırılıb);
- narkotik maddələrlə qanunsuz ticarət nəticəsində əldə edilən aktivlərin müsadirəsi və tutulması sahəsində əməkdaşlığı aktivləşdirmək.

Bununla yanaşı, AŞPA Avropa Şurası üzvləri olan dövlətləri, əgər bu hələ edilməyibsə, Avropa Şurasının cinayətkar fəaliyyətdən və terrorizmin maliyyələşdirilməsindən gəlirlərin yuyulması, müəyyən edilməsi, tutulması və müsadirə edilməsi haqqında Konvensiyanı imzalamağa və ratifikasiya etməyə, bu təşkilatın üzvləri olmayan dövlətləri isə bu konvensiyaya qoşulmağa çağırır.

Bundan əlavə, AŞPA-ya üzv dövlətlər Əfqanıstandan narkotiklərin qanunsuz tədarükünə və narkotiklərin prekursorlarının Əfqanıstana tədarük edilməsinə qarşı mübarizə sahəsində və həmçinin narkomaniya ilə mübarizə və narkotik maddələrin qanunsuz dövriyyəsi sahəsində Narkotiklərin zərərli məqsədlərlə istifadəsi və qeyri-qanuni ticarətinə qarşı mübarizə aparan Əməkdaşlıq qrupu (Pompidu qrupu), korrupsiyaya qarşı Dövlətlər Qrupu (*ingl. Group of States*

*Against Corruption*, GRECO) və Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (*ingl. The Committee of Experts on the Evaluation of Anti-Money Laundering Measures and the Financing of Terrorism*, MONEYVAL) kimi qruplarla Avropa Şurasının müvafiq mexanizmləri çərçivələrində əməkdaşlığı aktivləşdirməyə çağırır.

Nəhayət, AŞPA narkotik vasitələrin qanunsuz dövriyyəsi və yayılması ilə mübarizə üzrə polis tədbirlərinin narkotiklərə tələbatın azaldılmasına, bir çox hallarda narkodilerlər olan, narkotikləri istehlak edən şəxslərin sosial reabilitasiyasına və həmçinin narkotiklərin istehlakına əlverişli şərait yaradan ağır sosial şəraitin yaxşılaşdırılmasına yönəlmiş səylərin bir-birinə uyğun olmasının vacibliyini xüsusi olaraq vurğulayır. Bu konteksdə AŞPA hesab edir ki, narkotik maddələrin istifadə edilməsinin qanuniləşdirilməsi üçün edilən bütün cəhdlər bu məqsədlərə ziddir və qətiyyətlə rədd edilməlidir.[109]

Onu da nəzərə almaq lazımdır ki, narkotiklər və narkotrafik, müəyyən dərəcədə, bizim ölkəyə də zərər vura bilər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Narkotiklərlə Mübarizə üzrə Baş İdarəsinin (NMBİ) məlumatına əsasən Azərbaycana güclü təsiredici narkotik maddələrin gətirilməsi azalmışdır. Bununla yanaşı, ölkə ərazisindən narkotiklərin daşınması marşrutları da keçir (bütün dünya üzrə narkotiklərin daşınması və satışının 38 marşrutu bəllidir). NMBİ xüsusi olaraq qeyd etmişdir: "Əvvəllər İranın ərazisindən çoxlu güclü təsiredici narkotiklər gətirilirdi.

---

[109] Резолюция 1960 (2013) ПАСЕ «Наркотрафик из Афганистана – угроза европейской безопасности» от 21 ноября 2013: [Электронный ресурс] / Refworld.URL: http://www.refworld.org.ru/pdfid/538edd134.pdf

Hal-hazırda sərhəddə nəzarət çox ciddidir və bu səbəbdən narkotik maddələrin gətirilməsinin elə sərhəddə, yerindəcə qarşısı alınır. Lakin buna baxmayaraq heroin və tiryək xaş-xaş əvvəlki kimi Əfqanıstandan İrandan keçərək Azərbaycana daxil edilir”.[110] Əfqanıstanda narkotik vəziyyətlə bağlı Rusiya XİN informasiya və mətbuat departamentinin 18 avqust 2017-ci tarixli Kommentariyasında qeyd edilir ki, Əfqanıstandan tərkibində narkotik maddələr olar preparatların getdikcə artan sayı Azərbaycan, Gürcüstan, Ermənistan və Ukrayna ərazisindən daşınaraq Avropaya tədarük edilir.[111]

Çox güman ki, narkotiklərin qaçaqmalçılığı ilə mübarizə işində Ukrayna və Azərbaycan sərhəd xidmətləri arasında əldə olunan razılaşma narkotiklərin trafikinin bu marşrutu ilə mübarizəsinə yönəlib.[112] Bütövlükdə Azərbaycanda narkotiklərin qaçaqmalçılığı ilə mübarizənin gücləndirilməsinə dair müvafiq tədbirlər görülür. Belə ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Gününə həsr edilmiş konfransda çıxış edərək qeyd etmişdir

---

[110] "Хаш-хаш 2017" продолжается: [Электронный ресурс] / SPUTNIK Азербайджан, 04 августа 2017. // URL:https://ru.sputnik.az/azerbaijan/20170904/411697979/azerbaijan-narkotiki-vvoz-xash-xash.html

[111]Комментарий Департамента информации и печати МИД России в связи с наркоситуацией в Афганистане: [Электронный ресурс] / Министерство Иностранных дел Российской Федерации. 18.08. 2017 // URL: http://www.mid.ru/web/guest/foreign_policy/international_safety/conflicts/-/asset_publisher/xIEMTQ3OvzcA/content/id/2838569

[112]Азербайджан и Украина будут бороться с контрабандой наркотиков: [Электронный ресурс] / Vzglyad. az. 24.01. 2018 года //URL: http://vzglyad.az/news/102000

ki, ölkəyə narkotiklər əsasən əfqan marşrutu ilə daxil olur, bu isə regionda bütün narkotiklərin 90%-ni təşkil edir. Narkotiklər İrandan Azərbaycanın beş cənub rayonuna, o cümlədən Astaradan, Lənkərandan, Cəlilabaddan, Biləsuvardan və Masallıdan keçirilərək bizim ölkəyə gətirilir. Azərbaycanın ərazisindən daşınan əfqan narkotiklərinin daşınma marşrutunun son nöqtəsini Mərkəzi və Şərqi Avropa ölkələri təşkil edir. Bununla yanaşı, o həmçinin əlavə etdi ki, Azərbaycandan narkotiklər Yaponiyaya, Malayziyaya, Hollandiyaya, İndoneziyaya, Boliviyaya, Ukraynaya, Gürcüstana, Rusiyaya və Şərqi Avropa ölkələrinə, hətta Kanadaya da aparılır. Təkcə 2018-ci ilin beş ayında Azərbaycanda qanunsuz dövriyyədən 1,4 ton müxtəlif növlü narkotiklər çıxardılmışdır. Onlardan 0,7 tonu gömrükçülər tərəfindən, 0,56 tonu isə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən aşkarlanmışdır. [113]

Onu da qeyd etmək lazımdır ki, narkotiklərin daşınma marşrutu Azərbaycan ərazisindən keçdiyi üçün bizim ölkə əhalisi arasında onların istehlakçılarının artması prosesi də müşahidə olunur. Belə ki, 2018-ci ilin əvvəlinə bizim ölkədə dispanser nəzarətində 30 mindən çox narkotik istehlakçısı dayanırdı. Bundan əlavə, sonuncu məlumatlara əsasən inyeksiya vasitəsi (iynə) ilə istehlak edilən narkotiklər səbəbindən 1987-ci ildən 2018-ci ilə kimi 6 755 insan Qazanılmış İmmun Çatışmazlığı Sindromuna (QİÇS, ing. Ac-

---

[113] Транзитом через Азербайджан: куда попадают афганские наркотики?: [Электронный ресурс] / SPUTNIK Азербайджан, 25 июня 2018. // URL: https://ru.sputnik.az/azerbaijan/20180625/415927172/narkotiki-afganistan-azerbaijan.html

quired Immune Deficiency Syndrome - AIDS) yoluxmuşdur.[114]

Müxtəlif mənbələrdə narkotiklərin çoxsaylı daşınma marşrutları arasında bizim ölkə ərazisindən keçənləri də ehtimal olunur. Məsələn, Əfqanıstanın Badahşan vilayəti – Tacikistanın Dağlıq Bədəxşan vilayəti – Qırğızıstanın Oş vilayəti – Azərbaycanın Cənub rayonları – Bosniya – Xorvatiya və daha sonra Qərbi Avropa; Əfqanıstanın Murqab vilayəti – Tacikistanın Dağlıq Bədəxşan vilayəti – Qırğızıstanın Oş vilayəti – Azərbaycanın Gəncə şəhəri – Rusiyanın Moskva şəhəri – Litvanın Şaulyay şəhəri və daha sonra Avropa ölkələri; Əfqanıstanın Məzəri-Şərif şəhəri – Özbəkistanın Surxandərya vilayətinin mərkəzi olan Termez şəhəri – Rusiya, Çeçenistanın Şali şəhəri – Azərbaycanın Naxçıvan bölgəsi – Türkiyə. [115]

Beləliklə, belə bir nəticəyə gəlmək olar:

1. Narkobiznes bu regionun bütün ölkələri üçün ciddi təhdid olmaqda davam edir. Mərkəzi Asiya regionunda narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi bu region ölkələrinin qarşısında duran ən vacib problemlərdən biri olmaqda davam edir. Bu sahədə müəyyən tədbirlərin görülməsinə baxmayaraq, problemin həll olunmasından danışmaq olmaz.

2. Mərkəzi Asiyada narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizədə regional dövlətlərlə yanaşı, bu regiona həmsərhəd olan ölkələrlə də səmərəli əməkdaşlığın

---

[114] Qarayev, R. M. Mərkəzi Asiya regionunda təhlükəsizliyə təhdid kimi narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi // - Bakı: Şərq Araşdırmaları, - 2019. № 1, – s. 222.

[115]Афганский наркотрафик: основные маршруты. Справка: [Электронный ресурс] / РИА НОВОСТИ, 03.06.2010.URL: https://ria.ru/20100603/242406939.html

yaradılması və həyata keçirilməsi vacib əhəmiyyət kəsb edir.

3. Bu region ölkələrində hakimiyyətdə olan müxtəlif qüvvələr tərəfindən narkobiznesin gizli şəkildə himayə edilməsi və hətta narkobiznesə cəlb olunma onunla mübarizəni çətinləşdirir, bəzi hallarda isə hətta mümkünsüz edir.

4. Bununla bərabər, Mərkəzi Asiyada narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizədə kompleks xarakterli tədbirlərin hazırlanması və həyata keçirilməsi də çox əhəmiyyətlidir.

5. Narkotrafikin bizim ölkə ərazisindən keçməsinin qarşısını almaq məqsədilə

Azərbaycanda müvafiq tədbirlərin gücləndirilməsi çox vacib və əhəmiyyətlidir. Bu sahədə görülən bir çox tədbirlərə baxmayaraq, bu problemin həll olunmasından danışmaq olmaz. Bu səbəbdən, bu sahədə yeni elmi araşdırmaların aparılması zəruri və əhəmiyyətli məsələlərdən biridir.[116]

### *2.2.3. Müasir Mərkəzi Asiya regionunda dini ekstremizm təhlükəsinə qarşı mübarizə problemi*

Ekstremizm anlayışı altında adətən (lat. *extremus*, fransızca *extremisme*) -"son dərəcədə, həddindən artıq dərəcədə") son dərəcədə ifrat baxışlara, fəaliyyət metodlarına tərəfdaşlıq başa düşülür. Bununla belə, nəzərə almaq lazımdır ki, "ekstremizm" anlayışının ümumqəbuledilmiş tərifi nə elmi ədəbiyyatda, nə də beynəlxalq sənədlərdə mövcud deyil. Ümumiyyətlə, elmdə, o cümlədən siyasi elmdə, ekstremizm kimi bir fenomenin dərk edilməsi, demək olar ki, bu

[116]Qarayev, R.M. Mərkəzi Asiya regionunda təhlükəsizliyə təhdid kimi narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi // - Bakı: Şərq Araşdırmaları, 2019, № 1, - s. 223.

əsrin əvvəlindən başlayır. Elmi ədəbiyyatda müxtəlif müəlliflər "ekstremizm" anlayışının müxtəlif elmi təriflərini verirlər. P.Koulman və A. Bartoli ekstremizm anlayışı altında şəxsin adi, ümumqəbulolunmuş anlayışlardan uzaq olan fəaliyyəti, inancları, yanaşmaları, hissləri, hərəkətləri, strategiyası başa düşürlər.[117] Bu tərifin özü də müəyyən suallar yaradır. Belə ki, "ümumqəbulolunmuş" anlayışının özü də birmənalı başa düşünülmür və bir çox hallarda bu məsələni tədqiq edən tədqiqatçıların siyasi baxışlarından, onların üstünlük verdikləri dəyərlərdən birbaşa asılıdır. Yəni subyektiv xarakter daşıyır. Bu səbəbdən ekstremizm hərəkətləri kimi dəyərləndirilə bilən hərəkətləri bəziləri müsbət, digərləri isə, əksinə, mənfi qiymətləndirə bilərlər. Bu problemə başqa cür yanaşan V.D.Trofimovun fikrincə, isə "ekstremizm" təkcə siyasətlə bağlı deyil və insan fəaliyyətinin bütün növlərini əhatə edir. O, "ekstremizm" anlayışı altında istənilən nəticəni əldə etmək üçün tədbirlərin, sosial davranışın ifrat dərəcəsində istifadəsinin yolverilməzliyi ideologiyasını başa düşür.[118] Göründüyü kimi, onun tərifi çox genişdir, təkcə siyasət ilə məhdudlaşmır və demək olar, insan fəaliyyətinin bütün sahələrini əhatə edir. Bununla yanaşı, belə tərif geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, "ekstremizm" anlayışının tərifini tərtib etməyə çalışan ekstremizm problemləri tədqiqatçılarının əsərlərində əsas diqqət, bir çox hallarda, tədqiq olunan bu fenomenin bu və ya digər aspektlərinə yönəldilir və bu xüsusiyyət, onların fikrincə, konkret araşdırma müstəvisində prioritet kimi çıxış edir. Bu səbəbdən elmi

---

[117] T. Coleman, P.T., Bartoli A. Addressing Extremism. New York: The International Center for Cooperation and Conflict Resolution (ICCCR), Columbia University, 2003, - p. 2.

[118]Трофимов, В. Д. Экстремизм: [Электронный ресурс] // URL: https://web.archive.org/web/20130407170523/http://ttrofimov.ru/2011/07/ekstremizm/

ədəbiyyatda "ekstremizm" anlayışının müxtəlif təriflərinə rast gəlmək olar. Fikrimizcə, belə yanaşma daha səmərəlidir, çünki ekstremizmin müxtəlif növlərini daha dərindən tədqiq etməyə imkan yaradır.

Bir sıra beynəlxalq qurumların sənədlərində, məsələn, regional beynəlxalq təşkilat olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qətnaməsində də ekstremizm anlayışının tərifinə rast gəlmək olar. Belə ki, AŞPA-nın 29 sentyabr 2003-cü ildə qəbul etdiyi qətnaməsində qeyd edilir ki: "Ekstremizm parlament demokratiyası prinsiplərini açıq və ya tədriclə inkar edən və dözümsüzlük, yadlaşma, ksenofobiya, antisemitizm və ultra millətçilik ideologiyası və praktikasına söykənən siyasi fəaliyyət formasıdır".[119] AŞPA-nın 5 dekabr 2007-ci il tarixli "Avropada artan ekstremizm ilə mübarizə haqqında" digər bir qətnaməsində ekstremist təşkilatların siyasi fəaliyyəti qəti şəkildə pislənir.[120] Göründüyü kimi, "ekstremizm" anlayışı burada siyasi ekstremizmlə məhdudlaşır. Digər bir regional beynəlxalq təşkilatın – Şanxay Əməkdaşlıq Təşkilatının 15 iyun 2001-ci ildə qəbul etdiyi "Terrorçuluq, separatçılıq və ekstremizmlə mübarizə haqqında Şanxay Konvensiyası"nda da "ekstremizm" anlayışının tərifi verilmişdir. Bu sənədin 1.1.3 maddəsinə əsasən "ekstremizm" anlayışı altında "hakimiyyətin zorla ələ keçirilməsinə və ya hakimiyyətin zorla saxlanıl-

---

[119] Threat posed to democracy by extremist parties and movements in Europe. Council of Europe.Parliamentary Assembly.Resolution 1344 (2003) [Электронныйресурс] // URL: http://www.assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17142&lang=en

[120] On combating rising extremism in Europe.Council of Europe.Parliamentary Assembly. Resolution 13 December 2007[Электронныйресурс] // URL:https://www.europarl.europa.eu/sides/getDoc.do?reference=B6-2007-0512&type=MOTION&language=EN&redirect

masına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, eynilə ictimai təhlükəsizliyə qəsd etmə, o cümlədən yuxarıda göstərilən məqsədlər üçün qanunsuz silahlı birləşmələrin təşkilinə və ya onlarda iştirakına yönəlmiş və tərəflərin milli qanunvericiliyinə uyğun olaraq mühakimə olunan hər hansı bir hərəkət" başa düşülür[121] (Bu sənədi Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Çin imzalamışlar). Belə beynəlxalq təşkilatlar universal deyil, regional xarakter daşıyır. Bu səbəbdən onların qəbul etdiyi sənədlər də universal deyil, məhdud təsir qüvvəsinə malikdir.

Bununla yanaşı, bir sıra ölkələrin daxili qanunvericiliyində ekstremist sayılan hərəkətlərin hüquqi tərifi əks olunub (məsələn, Rusiyada, Belarusda, Qazaxıstanda və s.).

Ekstremizmin müxtəlif növlərini, o cümlədən siyasi, ideoloji, etnik, gənclik və dini ekstremizmi qeyd etmək olar. Onların arasında müasir Mərkəzi Asiyada daha çox yayılmış dini ekstremizmi xüsusi qeyd etmək lazımdır (Müqayisə üçün Azərbaycanda da dini ekstremizmlə mübarizəyə xüsusi diqqət verilir və hətta dini ekstremizmə qarşı mübarizə haqqında xüsusi qanun da qəbul edilmişdir.)[122] Müasir Mərkəzi Asiya regionunda təhlükəsizliyin qorunması və saxlanılmasını qeyri-sabit edən ekstremizmin ən kəskin növlərindən biri dini ekstremizm təhlükəsidir. Bu amili qloballaşma ilə də əlaqələndirirlər. Məsələn, M.Ç.Kim hesab edir ki, qloballaşma çoxdan regional çərçivədən kənara çıx-

---

[121] Шанхайская конвенция о борьбе с терроризмом, сепаратизмом и экстремизмом от 14 июня 2001 года: [Электронный ресурс] // http://kremlin.ru/supplement/3405

[122] Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu. 4 dekabr 2015-ciil[Elektron resurs] // URL: http://www.e-qanun.az/framework/31509

mış və postsovet məkanı daxil olmaqla, beynəlxalq təhlükəsizliyə real təhlükə kimi çıxış edən dini ekstremizmin spesifik formasını yaratmışdır.[123] Belə ki, bu regionda dini ekstremizm xilafət tipli islam dövlətinin yaradılmasına, yəni mövcud olan müstəqil suveren dövlətlərin ləğvinə yönəlib. Bu halda da dini ekstremizm təhlükəsinin gələ biləcəyi Əfqanıstanın bir çox vilayətlərinin postsovet dövrü Mərkəzi Asiya regionu ilə yaxınlığı az əhəmiyyət kəsb etmir. Onu da qeyd etmək lazımdır ki, bir çox hallarda dini ekstremizm terror təşkilatlarının fəaliyyəti ilə sıx bağlıdır.

Mərkəzi Asiya regionunda islam ekstremist qüvvələrin yaranması (məsələn, Özbəkistan İslam Hərəkatı) bir sıra daxili və xarici amillərin məcmuəsi, Mərkəzi Asiya ölkələrinin ictimai inkişafının xüsusiyyətləri ilə şərtlənir. Fərqanə vadisində baş verən hadisələr, 2005-ci il Əndican hadisələri, Tacikistanda vətəndaş müharibəsi (1992-1997-ci illərdə Tacikistanda qanlı vətəndaş müharibəsi baş vermişdir) və s. buna əyani sübutdur.[124,125] Buraya 2016-cı ildə Qazaxıstanda baş vermiş son hadisələri də aid etmək olar. Belə ki, əsli Qazaxıstandan olan İraq Şam İslam Dövlətinin (İŞİD) terrorçu döyüşçüləri öz vətəninə qayıtdıqdan sonra onların Qazaxıstan hüquq-mühafizə orqanları ilə dəfələrlə toqquşmaları baş vermişdir. Ən qanlı toqquşma 5 iyun 2016-cı ildə ölkənin qərbində yerləşən Aktoba şəhərində baş vermiş-

---

[123] Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, - 2009, - с. 11.

[124] Габдуллин, Э. Центральная Азия: геополитика, безопасность, сценарии развития // - Лулео: Центральная Азия и Кавказ. 2011. № 1 (14), - с. 31

[125] Кушкумбаев, С.К. Безопасность в Центральной Азии: меняющаяся повестка дня //Центральная Азия в условиях геополитической трансформации и мирового экономического кризиса. Материалы VII ежегодной Алматинской конференции (г. Алматы, 9 июня 2009 г.), - с.14

dir.[126] Bir neçə saat davam edən münaqişə nəticəsində həlak olan 19 nəfərdən 13-ü İŞİD üzvü idi.

Maliyyə yardımının göstərilməsinə, terrorçuların bazalarının saxlanılmasına və onların silahla və döyüş sursatları ilə təmin edilməsinə yönəlmiş son dərəcə mürtəce xarakterli beynəlxalq islam təşkilatları tərəfindən xarici dəstək və Mərkəzi Asiya ölkələrinə bir çox hallarda onlara yad olan ekstremist yönümlü ideologiyanın ixracatı da müəyyən rol oynayır.

Ekstremist təşkilatların mövcudluğu qismən də onların sosial ritorika metodları və üsullarından istifadə edilməsi və bu ölkələrdə yaşayış səviyyəsi aşağı olan əhali arasında dəstək alan "kafir hakimiyyət"in tənqidi ilə də izah olunur.

Öz münaqişə potensialına görə Mərkəzi Asiya regionunda Fərqanə vadisi xüsusi yer tutur. Fərqanə vadisi daimi olaraq münaqişə zonası kimi dəyərləndirilir. Buradan üç Mərkəzi Asiya dövlətinin sərhədləri – Özbəkistanın, Qırğızıstanın və Tacikistanın sərhədləri keçir. Fərqanə vadisi şimal-qərbdə Kuramin və Çatkal, şimal-şərqdə Fərqanə, cənubda isə Türküstan və Alay dağ silsilələri arasında yerləşir. Burada 3 ölkənin 7 inzibati rayonu yerləşir. Onlardan üçü Özbəkistana (Əndican, Fərqanə və Namanqan), üçü Qırğızıstana (Batken, Oş və Cəlil-Abad), biri isə Tacikistana (Sogdi, keçmiş Leninabad) aiddir. Fərqanə vadisi Mərkəzi Asiyada əhalinin sıxlığı ən yüksək olan bir ərazidir. Hətta Qərbdə belə bir fikir də mövcuddur ki, Fərqanə vadisi

[126] Малышева, Д.Б. Политические процессы в постсоветских государствах Центральной Азии // Постсоветские государства: 25 лет независимого развития. Сб. ст. в 2-х тт. Т. 1. / Отв. ред. – А.Б. Крылов. М.: ИМЭМО РАН, 2017, с. 129

Avrasiyanın (ən azı Mərkəzi Asiyanın) "barıt çəlləyi"dir.[127] 13 may 2005-ci il tarixli Əndican hadisələri Fərqanə vadisində ekstremistlərin fəaliyyətindən gələ bilən təhlükəni tam şəkildə göstərdi. Emmanuel Karagiannisin fikrincə, bir çox postsovet dövründə yaranmış islam partiyaları və cərəyanları öz başlanğıcını oradan, xüsusən də 1990-cı illərin əvvəllərində çox ağır vəziyyət yaranmış Fərqanə vadisindən götürürlər.[128] Ekstremist təşkilatların sırasında Özbəkistan İslam Hərəkatını,Tacikistanın Dirçəliş Partiyasını, Hizb ut-Tahrir təşkilatını və s. göstərmək olar. Ekstremist islamçıların fikrinə əsasən, Fərqanə vadisində islam dövlətinin qurulmasına cəhd uğurla nəticələndiyi halda, belə bir dövlət bütün Özbəkistanın, Tacikistanın və Qırğızıstanın bütün ərazisinə də yayıla bilərdi, bu isə, öz növbəsində, dünya Xilafətinin yaradılması işində çox mühüm bir addım ola bilərdi.

Lakin islam ekstremistlərinin bu planları həyata keçməmişdir və hal-hazırda da belə planların həyata keçirilməsinin perspektivləri aydın görünmür. Əfqanıstanda talib rejiminin, Suriya və İraq ərazisində İraq Şam İslam Dövlətinin (İŞİD) iflasa uğraması bunun əyani sübutudur. Bununla yanaşı, belə növ təhdidləri nəzərə almamaq olmaz. Əksinə, ekstremist qüvvələrlə mübarizə problemi regional problem çərçivəsindən çıxaraq, həm bütün Mərkəzi Asiya ölkələrinin, həm də birləşmiş beynəlxalq qüvvələrin səylərinin bir araya gətirilməsini və müvafiq adekvat cavab tədbirlərin görülməsini tələb edir.

---

[127]Грозин, А. «Ферганская долина – пороховая бочка Евразии»: [Электронный ресурс] / Информационное агентство REX. 22 января 2013 г.URL: http://www.iarex.ru/interviews/33252.html

[128] Karagiannis E. Political Islam in Central Asia: The challenge of Hizb ut-Tahrir / E. Karagiannis. – Central Asian Studies, Routledge, 1st edition, - 2011

### *2.2.4. Müasir Mərkəzi Asiya regionunda enerji təhlükəsizliyi ilə bağlı problemlər*

Mərkəzi Asiya dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsi ən vacib problemlərdən birini təşkil edir. Bu problem çox aktualdır, çünki beynəlxalq və dövlətlərarası münasibətlər sistemində enerji daşıyıcıları və enerji resursları xüsusi əhəmiyyətə malikdir.

Yaxşı bəllidir ki, ixracatının əsasını neft məhsulları və qaz kimi enerji daşıyıcılarının təşkil etdiyi dövlətlər olaraq Qazaxıstan, Özbəkistan və Türkmənistan həm bütün bu regionda sabitliyin qorunmasında, həm də təhlükəsizlik sisteminin formalaşmasında və qurulmasında maraqlıdırlar. Çünki belə bir halda bu region dövlətləri hər hansı bir daxili və xarici maneələr olmadan, o cümlədən dünya bazarlarına bu enerji resurslarının çatdırılması üzrə infrastruktur layihələr daxil olmaqla öz enerji layihələrini həyata keçirə bilərdilər. "Enerji təhlükəsizliyi" anlayışı kompleks xarakter daşıyır və siyasi, iqtisadi və texnogen enerji təhlükəsizliyindən ibarətdir. Bununla yanaşı, enerji təhlükəsizliyi istehlakçının enerji resurslarına etibarlı və daimi təchizatını (daimi və uzunmüddətli tədarüklər), həmçinin tədarükçünün onun istehlakçılarına çıxışını təmin edən şərtlərin yaradılmasını nəzərdə tutur. Enerji təhlükəsizliyinin əldə edilməsi dövlət tərəfindən müəyyən siyasətin və müvafiq tənzimlənmə mexanizmi çərçivəsində xüsusi tədbirlər kompleksinin həyata keçirilməsini tələb edir. Həmçinin beynəlxalq satış mərkəzləri də bu regiona aid dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verə bilər.

Karbohidrogen ehtiyatları bu regiona aid olan dövlətlərin və İranın daxili və xarici siyasətinin həyata keçirilməsində həlledici rol oynayır. Bununla belə, bütün bu dövlət-

lər bu sahədə öz milli maraqlarının həyata keçirilməsində bir-birindən fərqlənirlər.

Onu da qeyd etmək lazımdır ki, enerji təhlükəsizliyinə qarşı müəyyən təhdidlər mövcuddur. Onların arasında siyasi qeyri-sabitliyi, enerji resurslarının tədarükü ilə manipulyasiyanı, təbii fəlakətləri, terrorizmin artmasını, xarici tədarükdən asılılığın artmasını və s. qeyd etmək olar.

Həmçinin qeyd etmək lazımdır ki, regionda, hətta postsovet ölkələrində belə, mərkəzləşdirilmiş səmərəli fəaliyyət göstərən enerji təchizatı sistemi mövcud deyil. Halbuki hələ SSRİ dövründə postsovet ölkələri ərazisində vahid bir sistemə birləşdirilmiş enerji sistemi fəaliyyət göstərirdi. Bu sistemin formalaşması uzun bir vaxt aparmış və yalnız 1991-ci ildə başa çatmışdır. Bu sistemə ümumi gücü 25 min MVt olan 83 elektrik stansiyası daxil idi. Bu sistemin fəaliyyət göstərməsi sistemə daxil olan hər bir müttəfiq respublikanın enerji sisteminin davamlılığının maksimal dərəcədə artırılmasına imkan verirdi.

SSRİ dağıldığından sonra bu regionda yeni yaranmış müstəqil ölkələr 1997-ci ildə öz aralarında bu sistemin bərpa olunmasına dair beynəlxalq müqavilə imzalamışlar. Lakin buna və bununla yanaşı qəbul olunmuş çoxsaylı bəyannamələrə (məsələn, 1995-ci il tarixli Nukus Bəyannaməsi) və protokollara baxmayaraq, bu ölkələr arasında enerji sahəsində real və qarşılıqlı faydalı birləşmə baş vermədi. Belə ki, əldə edilmiş razılaşmalara uyğun olaraq çayların axını üzrə daha yuxarı ərazilərdə yerləşən ölkələr tərəflər arasında müəyyən edilmiş kvotaya müvafiq olaraq, suyu su anbarlarından yaz və yay mövsümündə buraxmalı, əvəzində isə qış mövsümündə təbii qaz və elektrik enerjisini almalı idilər. Lakin bu problemin nəzəri tərəfidir. Praktikada isə davam edən su-enerji münaqişələri göstərir ki, bu razılaş-

malar, əslində, enerji münasibətlərinin tənzimlənməsi məsələlərində zəif bir alətə çevrilmişdir. Çünki tərəflər öz üzərinə düşən öhdəliklərə heç də həmişə tam əməl etmirdilər və qarşı tərəfi günahlandırırdılar. Bir çox hallarda tərəflər yalnız öz ehtiyatlarının təmin edilməsinə cəhd edirdilər. Belə hərəkətlər bir çox hallarda sistemli xarakter daşıyan qəzaların yaranmasına gətirib çıxardırdı. Bu səbəbdən Türkmənistan 2003-cü ilin iyununda Mərkəzi Asiya dövlətlərinin Birləşdirilmiş Enerji Sistemindən çıxdı. Özbəkistan da 2009-cu ildə bu sistemdən çıxdığını bəyan etmişdir. Əslində, Özbəkistanın bu addımı özünün tədarük etdiyi qaz və enerjiyə və özünün göstərdiyi digər xidmətlərə tariflərin artırılması cəhdi kimi çıxış edirdi. Belə ki, indiyə kimi Qırğızıstan və Tacikistanın bir çox rayonlarının enerji təchizatı kritik dərəcədə Özbəkistandan elektrik enerjisinin alınmasından asılı olmasa da, bu ölkənin enerji sistemindən tranzitlə keçən elektrik enerjisindən asılıdır. Məsələn, Özbəkistan Qırğızıstanla danışıqlarda Qırğızıstanın şimalından cənubuna elektrik enerjisinin öz ərazisindən tranzitinə görə ödənişin edilməsinə nail ola bildi (əvvəllər belə tranzit pulsuz həyata keçirilirdi). Qazaxıstan da 2009-cu ildə Mərkəzi Asiya dövlətlərinin Birləşdirilmiş Enerji Sisteminin paralel iş rejimindən (UPSCA) çıxdığını bəyan etdi. Bu onunla izah olunurdu ki, Özbəkistan ərazisindən Tacikistana Türkmənistandan göndərilən elektrik enerjisinin tranziti haqqında məsələ hələ də həll olunmamış qalır. Bu isə, öz növbəsində, şimal-cənub tranzit xətlərini təhlükə altına alır. Qazaxıstan tərəfi iddia edir ki, belə şəraitdə, yəni digər tərəflərin müvafiq tədbirlər görməməsi şəraitində Qazaxıstan istehlakçıları üçün keyfiyyətli və etibarlı elektrik enerjisinin təmin edilməsi çətin bir məsələyə çevrilir.

Beləliklə, ehtimal etmək olar ki, Qazaxıstan belə bir addımı ilə göstərmək istəmişdir ki, Özbəkistanın və Tacikistanın bu hərəkətlərindən heç də məmnun deyil. Bundan əlavə, Qazaxıstanın enerji sistemi özünü bütövlükdə təmin edir və bu ölkə Birləşdirilmiş Enerji Sisteminin paralel iş rejimindən çıxdığı halda, o elektrik enerjisinə daxili tələbatı təmin etmək iqtidarındadır.

Faktiki olaraq, Mərkəzi Asiya dövlətlərinin Birləşdirilmiş Enerji Sistemi, yaradılanda düşünüldüyü kimi, vahid bir sistem şəklində, demək olar ki, 2009-cu ildən fəaliyyət göstərmir.

Bununla belə, Özbəkistanda və Qırğızıstanda elektrik enerjisinə artan tələbatın təmin edilə bilməməsi və faktiki olaraq elektrik enerjisinin çatışmazlığı səbəbindən Mərkəzi Asiya ölkələrində vahid elektrik sisteminin bərpa olunması tədbirlərinə əl atılması zərurəti haqqında yenidən söhbət açırlar. Məsələn, 16 may 2017-ci ildə Almatı şəhərində Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Tacikistanın və Türkmənistanın energetika idarələrinin başçılarının iclası keçirilmiş və bu iclasda Mərkəzi Asiya dövlətlərinin vahid enerji sisteminin bərpası haqqında məsələyə baxılmışdır.[129] Bu məsələnin həlli vacib strateji əhəmiyyətə malikdir, çünki bazar şəraitində bu problemin həllinin uzadılması 500 kV (Daşkənd – Şımkənd – Taraz – Bişkek – Toktoqul HES – Sırdərya HES - Daşkənd) yüksək cərəyanlı xətləri zəncirinin kəsilməsi təhlükəsini yaradır. Bazar münasibətlərinə keçid təkcə elektrik enerjisinin tədarükü ilə öz təhlükəsizliyinin təmin edilməsi istəyi ilə deyil, həm də elektrik enerji-

---

[129] Страны Центральной Азии вновь объединятся в единую энергосистему: [Электронный ресурс] /STANRADAR, 16.05.2017. URL: https://www.news.tj/ru/news/tajikistan/economic/20170516/strani-tsentralnoi-azii-vnov-obedinyatsya-v-edinuyu-energosistemu

sinin əldə edilmə qiymətinin müxtəlif olması ilə də diktə edilir. Əgər Mərkəzi Asiya ölkələri bu məsələni həll etməsələr, bu onlar arasında toqquşma ilə yekunlaşa bilər. Bu isə istənilməyən nəticələrə gətirə bilər, məsələn, ekstremist qrupların cəlb olunması ilə ixtişaşlara səbəb ola bilər.

Bütün bunlarla yanaşı, regionda enerji axınına digər ölkələrinin cəlb edilməsini də qeyd etmək lazımdır. Belə ki, yay mövsümündə Tacikistan Əfqanıstana 800 kVt-saat həcmində elektrik enerjisini ixrac edir. Lakin Özbəkistanın regionun vahid enerji sistemindən çıxması təxminən ildə 3,6 milyard kVt-saat təşkil edən Tacikistanın elektrik enerjisinin istehsal olunması digər imkanları tələb olunmamış qalır. Hətta bəzi hesablamalara görə Tacikistan yay mövsümündə 5 milyard kVt-saat təşkil edən elektrik enerjisini ixrac edə bilər.

Həmçinin qeyd etmək lazımdır ki, enerji təhlükəsizliyi problemi, iqtisadiyyatlarının strukturunda enerji sahəsi digər sahələrin üzərində üstünlük təşkil edən Mərkəzi Asiya ölkələrinin karbohidrogenlər bazarında təhlükələrin azaldılması, energetika sahəsində səmərəli qarşılıqlı fəaliyyət sisteminin yaradılması və öz resurslarını xarici təhlükələrdən müdafiə etməsi istəyi ilə bağlıdır.

Əgər müasir dünyada elektrik resursları üzərində gedən mübarizəni yada salsaq bu məsələ xüsusilə aktual görsənir. Digər tərəfdən alman eksperti Saşa Müller-Kranner xüsusi olaraq vurğulayır ki: "Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatının diversifikasiya olunmaması və onların müstəsna olaraq öz enerji resurslarının istehsalı və ixracatına yönümlü olması çatışmazlıq kimi çıxış edir". Bu səbəbdən 12 avqust 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması perspektivdə Xəzər dənizinin dibi ilə Türkmənistandan və Qazaxıstandan (hətta, bəlkə

də, Özbəkistandan) Azərbaycana və daha sonra Avropaya neft və qaz kəmərlərinin çəkilməsi imkanlarını yaradır. Bu isə bu regiondan elektrik enerjisinin tədarükünü diversifikasiya etməsinə kömək edir, elektrik enerjisinin istehsalının artırılmasına xidmət edir və deməli, bu ölkələrin gəlirlərinin artırılması imkanını yaradır, dünya karbohidrogenlər bazarında təhlükələri azaldır.

### *2.2.5. Müasir Mərkəzi Asiya regionunda su təhlükəsizliyi ilə bağlı problemlər*

Mərkəzi Asiya regionu ölkələrində su təhlükəsizliyi problemi enerji təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə sıx bağlıdır. Belə ki, Mərkəzi Asiya regionu ölkələrində hidroenergetika və suvarma əkinçiliyinin inkişafı vahid bir sistem ilə bir-birinə bağlıdır. Belə ki, regionda Sovet İttifaqının mövcud olduğu dövrdə (Qırğızıstan, Türkmənistan, Özbəkistan və Qazaxıstanın cənub hissəsi) mərkəzi Özbəkistanda yerləşən və oradan idarə olunan bir-birinə inteqrasiya olunmuş vahid su-enerji kompleksi yaradılmışdır. Belə bir sistemin fəaliyyət göstərməsi elektrik enerjisinə tələbatın və suvarma resursu kimi suya ehtiyacın mövsüm dəyişikliklərinin, dağ çaylarında su ehtiyatların azalmasından və çoxslmsından asılı olaraq, balansını yaratmaq imkanını verirdi. Qış mövsümündə Tacikistan və Qırğızıstan su anbarlarında su ehtiyatlarını artırırdılar və əvəzində Qazaxıstandan, Türkmənistandan və Özbəkistandan elektrik enerjisini və enerji resurslarını (kömür və təbii qaz) əldə edirdilər. Yay mövsümündə isə Tacikistan və Qırğızıstan suvarma əkinçiliyi üçün suyu Özbəkistan və Qazaxıstana istiqamətləndirirdilər. Bundan əlavə, Tacikistan və Qırğızıstan artıq həcmdə istehsal etdikləri hidroenerjini qonşularına tə-

darük edirdilər. Lakin bu sistem region dövlətləri tərəfindən müstəqillik əldə edildikdən sonra dağıldı.

Mərkəzi Asiya regionu ölkələrində su resursları bu regionun dövlətlərinin iqtisadi fəaliyyətinə həmişə əhəmiyyətli dərəcədə təsir göstərmiş və göstərməkdə davam edir, çünki burada bütün iri çaylar transsərhəd çaylardır, yəni iki və daha çox ölkənin ərazisindən keçir. Ümumi su ekosistemləri ilə birləşdirilmiş dövlətlərin hər birində sudan istifadə edilməsində hər bir dəyişiklik və ya su təsərrüfatı qurğularının tikilməsi vasitəsilə su obyektlərinin vəziyyətinə hər bir təsir, mütləq bu regionun digər ölkələrinin maraqlarına da toxunur. Bundan əlavə, bu dövlətlərin atdığı addımların bir-biri ilə razılaşdırılmaması münaqişə yaradan vəziyyətə gətirə bilər, çünki nəticələr bir çox hallarda çayın axını üzrə daha aşağıda yerləşən ölkələr üçün həm iqtisadiyyatın inkişafı, həm də sosial-ekoloji vəziyyət baxımından daha əlverişsizdir.[130]

Onu da qeyd etmək lazımdır ki, bu region ölkələrinin su ilə təchizatı əhəmiyyətli dərəcədə Amudərya və Sırdərya çaylarının suları ilə təmin edilir.

Sırdərya çayının su resursları hövzəsindən istifadə olunmasının hüquqi əsası kimi 17 mart 1998-ci ildə Bişkekdə Sırdərya çayı hövzəsinin su-enerji resurslarının istifadə edilməsi haqqında Qazaxıstan Respublikasının Hökuməti, Qırğızıstan Respublikasının Hökuməti və Özbəkistan Respublikasının Hökuməti arasında bağlanmış saziş çıxış edir. Daha sonra əlavələrin və düzəlişlərin edilməsi haqqın-

[130]Кожакматова, Н.С. Водные ресурсы как фактор влияния на взаимоотношения Центрально-Азиатских государств: /автореферат дисс. кандидата полит.наук. / М., - 2009, - с. 4

da protokol ilə bu sazişə Tacikistan Respublikası da qoşulmuşdur.[131]

Amudərya çayı üzrə bir neçə saziş bağlanmışdır. Onların arasında Türkmənistan Respublikasının Özbəkistan Respublikası ilə bağladığı 26 may 2007-ci il tarixli Amudərya çayının aşağı hissəsində su resurslarından birgə istifadə edilməsi haqqında sazişi və yenə də Türkmənistan Respublikasının Özbəkistan Respublikası ilə 16 yanvar 1998-ci il tarixli sazişini göstərmək olar. Lakin bu günə kimi Amudərya çayı hövzəsinin su resurslarının idarə edilməsi üzrə heç bir saziş imzalanmayıb.

Bir sıra hallarda su təchizatı ilə bağlı problem region dövlətləri arasında fikir ayrılığına səbəb olur. Məsələn, belə bir problem Qazaxıstanla Özbəkistan və Özbəkistanla Türkmənistan arasında münasibətlərdə yaranmışdır. Belə hallar isə bütövlükdə regionun sabitliyi üçün təhlükə yaradır. Məsələ ondadır ki, Qazaxıstan Respublikası, Türkmənistan Respublikası və Özbəkistan Respublikası Amudərya və Sırdərya çaylarının axını üzrə daha aşağı ərazilərdə yerləşir. Su anbarlarındakı su isə Qazaxıstanın cənubundakı taxıl sahələrinin və Özbəkistanın pambıq sahələrinin suvarması üçün istifadə olunur. Digər tərəfdən, Qırğızıstan və Tacikistan çayların axını üzrə daha yuxarı ərazilərdə yerləşir.

Mərkəzi Asiya regionu ölkələrində su resurslarının 80%-i Qırğızıstanın və Tacikistanın ərazilərində formalaşır, lakin Qazaxıstan, Türkmənistan və Özbəkistan tərəfindən istehlak olunur. Bu səbəbdən əsas münaqişə bir tərəfdən su-

---

[131] Соглашение между Правительством Республики Казахстан, Правительством Кыргызской Республики и Правительством Республики Узбекистан об использовании водно-энергетических ресурсов бассейна реки Сырдарья от 17 марта 1998 г.: [Электронный ресурс] / URL: http://www.cawater-info.net/library/rus/gov1.pdf

varma əkinçiliyi ilə məşğul olan Qazaxıstan və Özbəkistan nümayəndələri, digər tərəfdən isə Qırğızıstan və Tacikistanın energetikləri tərəfindən yaranır. Belə ki, Qazaxıstan və Özbəkistan tərəfi Toktoqul su anbarından suvarlanma-enerji rejimində istifadə olunmasında təkid edirlər. Belə bir rejim hələ sovet dövründə, bu su anbarının layihələşdirilməsində nəzərdə tutulmuşdur. Bu rejimə əsasən suyun su anbarından illik buraxılması həcminin 72%-i yayda, 28% qədəri isə qış aylarında olmalıdır. Belə bir sistem fəaliyyət göstərdiyində Toktoqul su anbarının üzərində tikilmiş hidroelektrik stansiyası qışda minimal yüklənmə altında işləyirdi. Bu isə keçmiş Frunze istilik elektrik stansiyasının (hazırda "Bişkek istilik elektrik stansiyası" adlanır) tam güclə istismarı ilə əvəzlənirdi. Bu stansiyaya Özbəkistandan qaz, Qazaxıstandan isə kömür gətirilirdi. Bundan əlavə, regionun birləşdirilmiş enerji sisteminə daxil olan ölkələrdən elektrik enerjisi əlavə tədarük edilirdi. Lakin keçmiş Orta Asiya müttəfiq respublikaları müstəqillik əldə etdikdən sonra, yəni hazırkı dövrdə, demək olar ki, bu sistem, ən azından səmərəli işləmir. Özbəkistanın xüsusilə Qırğızıstan və Tacikistan ilə gərgin münasibətləri yaranmışdır. Belə ki, Özbəkistan bu dövlətləri ittiham edir ki, onlar yay aylarında, suvarma mövsümündə suyun qabağını alırlar. Bunun nəticəsində Özbəkistan öz pambıq tarlalarının suvarılmasında su çatışmazlığı ilə üzləşir. Qırğızıstan və Tacikistan isə, öz növbəsində, Özbəkistanı onlara tədarük edilən qazın şişirdilmiş qiymətlə satılmasında və onların hidroelektrik stansiyalarında istehsal olunmuş elektrik enerjisinin haqqını tam ödəməməkdə ittiham edirlər. Bütün bu məsələlərin həll olunmamasına görə, Özbəkistan tədarük etdiyi qazın ödənilməməsi və ya belə ödəmələrin gecikdirilməsi səbəbindən qazın verilməsini vaxtaşırı dayandırırdı. Buna cavab olaraq

Qırğızıstan payız-qış mövsümündə elektrik enerjisinin alınmasının artırılması məqsədilə özünün su anbarlarından suyun buraxılması haqqında öz niyyətlərini bəyan edirdi. Eynilə bu hal Tacikistana da aiddir. Çünki bu ölkələrdə qış sərt keçir və istiliyin təmin edilməsi üçün bu ölkələrin qış mövsümündə elektrik enerjisinə tələbatı kəskin artır. Digər tərəfdən, bu Fərqanə vadisində ekoloji fəlakətə gətirə bilər. Çünki belə olan halda çaylar aşaraq bütün ətraf əraziləri su altında qoya bilər.

Bununla belə, ehtimal etmək olar ki, çayların axını üzrə daha yuxarıda yerləşən ölkələrin maraqları, çayların axını üzrə daha aşağıda yerləşən ölkələrin maraqları ilə toqquşmaqda davam edəcək. Həm Qırğızıstan, həm Tacikistan elektrik enerjisinin həcminin artırılması məqsədilə yeni hidroenerji layihələrinin  həyata keçirilməsində maraqlıdır. Düzdür, belə layihələrin dəyəri böyük olduğundan və kifayət qədər maliyyə resurslarının olmaması səbəbindən onların həyata keçirilməsi dayandırılıb.

Həmçinin ehtimal etmək olar ki, su məsələsi siyasi və iqtisadi təzyiq aləti kimi istifadə edilməkdə davam edəcəkdir. Göründüyü kimi, bu sahədə olan problemlər ciddi xarakter daşıyır və potensial münaqişələr üçün əsas yaradır.

Digər tərəfdən, hidroresurslardan və suvarma məqsədilə su resurslarından istifadə edilməsi, göründüyü kimi, bir-biri ilə sıx bağlıdır. Bu amil isə region ölkələri tərəfindən bu problemlərin həllinə yönəlmiş razılaşmaların əldə edilməsinə əhəmiyyətli dərəcədə kömək edə bilər. Elmi ədəbiyyatda belə bir fikir də irəli sürülmüşdür ki, trans-Atlantik aktorlar (bunlara ABŞ və Aİ aid edilir) bu regionda su potensialından səmərəli istifadə edilməsinə və sudan istifadə edilməsi infrastrukturunun təkmilləşdirilməsinə yönəlmiş layihələrin inkişafına kömək edə bilərdilər. Bunula yanaşı, “su döv-

lətləri" və "enerji nəhəngləri" arasında mediator rolu bu məsələdə ölkələr arasında münaqişələrin həllinə yardım edə bilərdi. Həmçinin ABŞ və Aİ maraqlarında Rusiyanın və Çinin energetika sahəsində aparıcı rolunu məhdudlaşdırardı.[132] Faktiki olaraq, burada fövqəldövlətlərin regionda rəqabət aparmasına işarə edilir və bu amildən region dövlətlərin istifadə edilməsinə çağırılır. Bununla belə bu məsələnin həlli üçün, ilk növbədə, region dövlətlərinin iradəsi və onları qane edən razılaşmanın əldə edilməsi vacibdir.

### *2.2.6. Müasir Mərkəzi Asiya regionunda siyasi hakimiyyətin dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsi*

Bu regionun dövlətlərində siyasi hakimiyyətin dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsi də müəyyən bir çağırış kimi çıxış edə bilər və bu çox real görünür. Xüsusilə də bu təhlükə bütün postsovet məkanı üzrə keçmiş "rəngli inqilab"lardan (məsələn, Gürcüstanda və Ukraynada) sonra real oldu. Hətta Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev "rəngli inqilab"ları xarici müdaxilə kimi qiymətləndirdi. Müasir Mərkəzi Asiya ölkələrində digər təhlükəsizlik problemləri ilə yanaşı siyasi hakimiyyətin dəyişməsi ilə bağlı siyasi qeyri-stabilliyin əmələ gəlməsi təhlükəsi də bu ölkələrdə mürəkkəb sosial-iqtisadi vəziyyətin yaranmasına, əsas dövlət institutlarının zəif olması və hələ də formalaşması proseslərinin davam etdiyinə,

---

[132]Акматалиева, А.М. Трансатлантическое партнерство по вопросам безопасности в Центральной Азии: автореферат дис. канд. полит.наук/ Бишкек, - 2011, - с. 19.

hakim elitada klanlar arasında mübarizə aparılmasına və bununla yanaşı, bu dövlətlərin cəmiyyətlərinə xas olan müxtəlif daxili ziddiyyətlərə əsaslanır. Y.N. Aleşin qeyd edir ki, postsovet dövrü Mərkəzi Asiya ölkələrində birinci yerə daxili siyasətin prioritetləri qoyulur, çünki milli təhlükəsizlik üçün ən vacib təhdid və çağırışların mənbəyi kimi təkcə xarici amillər yox, həm də bu regiona aid ölkələrdə problemlər yaradan, xarici mənfi amilləri dərinləşdirən və onlara qarşı müqaviməti çətinləşdirən daxili vəziyyət qoyulur.[133] Məsələn, Qırğızıstan Respublikasında iki dəfə hakimiyyət zorakı yolla dəyişmiş və bu faktın özü belə bir təhlükənin çox real olduğuna dəlalət edir. Hətta bir zamanlar Qırğızıstan Respublikasının "baş tutmamış dövlət" (*ing. "failed state"*) qurumlarına aid edilməsinə dair bir sıra ekspertlər və alimlər tərəfindən fikirlər irəli sürülməyə başlandı. Hətta son dəfə 15 oktyabr 2017-ci ildə keçirilmiş prezident seçkilərindən sonra ölkədə vəziyyət qeyri-müəyyən xarakter daşıyır və müxtəlif siyasi qüvvələr və onların arxasında duran klanlar arasında mübarizə gedir. Belə ki, 2011-2017-ci illərdə ölkə prezidenti Almazbəy Atambayevin həbsə salınması və bununla bağlı kütləvi ixtişaşların baş verməsi müxtəlif ölkədaxili qüvvələr arasında kəskin mübarizənin aparılmasına dəlalət edir.

Türkmənistan və Özbəkistan kimi regionun digər dövlətlərində siyasi hakimiyyətin dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsi sovruldu və hakimiyyətin dəyişməsi dinc yolla baş verdi. Belə ki, Türkmənistanda ölkə

---

[133] Алешин, Ю.Н. Национальная безопасность новых независимых государств на постсоветском пространстве: на материалах стран Центральной Азии: / автореферат дис. кандидата полит.наук / Бишкек, - 2011, - с. 16.

prezidenti S. Niyazovun vəfatından sonra bir sıra ekspertlər bu ölkədə böhranın baş verəcəyini proqnozlaşdırır və bunu ölkədə siyasi varisliyin mövcud olmaması səbəbindən hakimiyyət vakuumunun yaranacağı ilə əlaqələndirirdilər. Bunun nəticəsində hakimiyyət üzərində gedə bilən mübarizə ölkədə vəziyyəti qeyri-sabit formaya sala bilərdi. Məsələn, E.Lubarskaya ehtimal edirdi ki, S.Niyazovun vəfat etməsi ölkədə siyasi böhrana səbəb ola bilər, çünki idarəçilik sistemi S.Niyazovun üzərində cəmləşir. Türkmənistanda siyasi qeyri-sabitliyin nəticələri və miqyası kütləvi işsizlik, yoxsulluq və əhalinin təhsilinin aşağı səviyyədə olması şəraitində bütün region üçün gözlənilməz ola bilər.[134] Kolumbiya Universitetinin lektoru R.Abazov isə iddia edirdi ki, S.Niyazovun ölümü ağır nəticələrə gətitib çıxaracaq və bütün cəmiyyət xaos içində olacaq.[135] "Xalq monarxı" Saparmurat Niyazovun qəfil ölümü, NATO-nun müdaxiləsi, Türkmənistan qazının özəlləşdirilməsi, "Qazprom"un utancverici uğursuzluğu və s. Moskvada bir milyon türkmən qaçqını vəd edir.[136] Belə proqnozlar üçün müəyyən əsaslar mövcud idi. Çünki ölkədə mövcud olan qruplaşmalar (Marı qruplaşması, Qızıl Arvat qrupu, Çardjou qrupu, Balkan qrupu, Taşauz qrupu, Axal və ya Axal-tekin qrupları) və müxtəlif tayfalar, klanlar güclüdür. Hətta 1994-cü il-

---

[134] Любарская, Е. 1/6 часть суши: Многая лета великому Туркменбаши: [Электронный ресурс] / Лента.Ру. 7 апреля 2005. URL: https://lenta.ru/articles/2005/04/07/turkmen

[135] Туркменистан: насколько здоров Ниязов?: [Электронный ресурс] / Eurasianet.Туркменистан. 22 июня 2005. URL:http://www.materick.ru/print.php?section=analitics&bulsectionid=11227

[136] Смерть Туркменбаши: ждем гостей с Юга: [Электронный ресурс] / СНД - Инфо. 23 октября 2007.URL:https://web.archive.org/web/20101205121433/http://www.snd-su.ru/cgi-bin/rg.pl?param=div2&page=4&type=1663&what=1005

də Türkmənistanın Balkan əyalətindəki ağsaqqalların toplantısı S. Niyazovun özünü şah elan etmək istəyinə dəstək verməmişdir.[137]

Lakin bütün bu proqnozlara baxmayaraq, bu ölkədə siyasi hakimiyyətin dəyişməsi nisbətən dinc yolla keçmişdir. Onu qeyd etmək lazımdır ki, hakimiyyətin dəyişməsi heç də problemsiz və konstitusiya ilə nəzərdə tutulan yolla baş verməmişdir. Belə ki, ölkə konstitusiyasına əsasən ölkə prezidenti vəzifəsini parlamentin sədri O.Atayev icra etməli idi. Lakin ölkə prezidenti vəzifəsini vitse-premyer Q.Berdımuxamedov icra etməyə başladı. Türkmənistanda siyasi hakimiyyətin dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsinin əsas səbəblərindən birini Türkmənistan millətinin hələ də tam formalaşmaması ilə əlaqələndirirlər. Y.Fedorovun fikrincə, türkmənlərdə bu gün çoxsaylı özünü eyniləşdirmə baş verir. İnsanlar özlərini həm türkmən, həm müəyyən bir qəbilənin nümayəndəsi, həm də bu və ya digər ailə-qohum klanların, icmaların üzvləri kimi hesab edirlər.[138] Hətta Ş.Kadırov türkmənlərin 30 tayfadan ibarət olduğunu qeyd edir və onları "tayfalar milləti" adlandırırdı.[139] Digər cəmiyyətlərdə olduğu kimi, etnik və qəbilə qruplarına, qohum klanlara bölünmüş Türkmənistanda da daxili siyasət əsasən bu cür icmaların yuxarı təbəqələri arasında si-

[137]Кулиев, А. Туркменская элита: взгляд изнутри:[Электронный ресурс] / Центральноазиатский толстый журнал.URL:http://ctaj.elcat.kg/tolstyi/a/a063.htm ctaj.elcat.kg

[138] Федоров, Ю.Е. Туркмения: время перемен? // - М.: Индекс безопасности, - 2009. № 3-4 (90-91). Том 15, - с. 94.

[139]Кадыров, Ш. Туркменистан: институт президентства в клановом постколониальном обществе // Евразия. Люди и мифы. Сборник статей из журнала «Acta Евразия» -. М.: Наталис, - 2003. - с. 337.

yasi hakimiyyət, bürokratik aparata nəzarət və cəlbedici iqtisadi obyektlər uğrunda rəqabətə gətirib çıxarır.

Özbəkistanda da 2016-cı ildə siyasi hakimiyyətin dəyişməsi nisbətən "ağrısız" keçdi. Bu faktın özü bu dövlətdə bütövlükdə ölkə hüdudlarında vəziyyəti nəzarət altında saxlamağa qadir olan fəaliyyət qabiliyyətli siyasi institutların formalaşdığını göstərir. Riçard Vaytsın qeyd etdiyi kimi, Özbəkistanda hakimiyyətin tranziti nisbətən yumşaq keçmiş və ölkədə sabitliyin qorunması mümkün olmuşdur.[140] Bununla belə, R.Vayts xüsusi olaraq vurğulayır ki, Qazaxıstan qarşısında da yaxın illərdə analoji vəzifənin həlli məsələsi yaranacaq.[141] Həqiqətən, Qazaxıstanın milli təhlükəsizliyinə mümkün olan təhdidlərə hakimiyyətin tranziti ilə bağlı təhdidi də aid edirlər. Belə ki, Milli Maraq Mərkəzi (daha çox Riçard Nikson tərəfindən qurulmuş Nikson Mərkəzi kimi tanınmışdır) qeyri-hökumət politoloji təşkilatının dərc etdiyi hərbi-siyasi mövzu ilə bağlı olan "The National Interest" Amerika analitik nəşri faktiki olaraq Qazaxıstanda inqilabın baş verəcəyini proqnozlaşdırırdı və bəyan edirdi ki, məhz bu ölkədə növbəti siyasi böhranın yaranmasını gözləmək olar.[142] Qeyd etmək lazımdır ki, belə bir təhlükə mövcud idi və onun tam olaraq sovuşduğunu demək olmaz. Bu hakim Qazaxıstan elitası daxilində mümkün olan danışıq qabiliyyətsizliyi ilə əlaqədar olaraq ölkədəki ictimai-siyasi vəziyyətin qeyri-sabitləşmə ehtimalının mövcudluğu

---

[140]Weitz, R.: On security in Central Asia and its new/old challenges:[Electronic resource] / Cenrtal Asian Analytical Network.URL:https://caa-network.org/archives/8680

[141]Weitz, R.: On security in Central Asia and its new/old challenges

[142] Американцы заговорили о вероятности переворота в Казахстане: [Электронный ресурс] /Haqqin. Az. 4 октября 2018.URL: https://haqqin.az/news/137814

ilə bağlıdır. Bununla yanaşı, demək olar ki, Qazaxıstanda belə bir mümkün olan təhlükəni dərk edirdilər və bu səbəbdən ölkədə hakimiyyətin ötürülməsinə planlı hazırlıq gedirdi. Belə bir hazırlığın arxasında ölkə prezidenti N. Nazarbayev özü dayanırdı. Qazaxıstan politoloqu Sultanbəy Sultanqaliyev qeyd edir ki, hüquqi nöqteyi-nəzərdən hakimiyyətin tranziti prosesi hələ 2017-ci ilin martında başlamışdır. Belə ki, ölkə konstitusiyasına hakimiyyət qolları arasında səlahiyyətlərin bölüşdürülməsi ilə bağlı düzəlişlər edilmişdir.[143] Hakimiyyətin "yumşaq" ötürülməsi 19 mart 2019-cu ildə N.Nazarbayevin istefasından və 9 iyun 2019-cu ildə ölkə prezidenti vəzifəsinə Qazaxıstan parlamenti Senatının sədri K.J. Tokayevin seçilməsindən sonra həyata keçirilmişdir. Tam əminliklə demək olar ki, hazırkı Qazaxıstanda yeni, sabit və davamlı dövlət idarəçilik sisteminin yaradılması prosesi məqsədyönlü və N.Nazarbayevin tam nəzarəti altında həyata keçirilir. Bununla belə, Qazaxıstanda hakimiyyətin ötürülməsi prosesinin başa çatmasını hələ demək tezdir. Belə ki, hələ də ölkəyə faktiki olaraq N.Nazarbayev başçılıq edir. Çox güman ki, K.J.Tokayev müvəqqəti bir fiqurdur. Belə bir ehtimal var ki, N.Nazarbayev ölkə rəhbərliyinə öz qızını Dəriqə Nazarbayevanı hazırlayır. Belə ki, artıq D.Nazarbayeva Qazaxıstan parlamenti Senatının sədri vəzifəsinə seçilmişdir (Qazaxıstan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən ölkədə prezidentdən sonra 2-ci ali vəzifədir). Qazaxıstanda siyasi hakimiyyətin dinc yolla dəyişməsi halında qeyri-stabilliyin yaranması təhlükəsi müəyyən bir çağırış kimi hələ də real görünür.

---

[143] Американцы заговорили о вероятности переворота в Казахстане: [Электронный ресурс] /Haqqin. Az. 4 октября 2018.URL: https://haqqin.az/news/137814

Bununla belə, bu məsələ bir sıra səbəblərdən Tacikistan üçün də çox aktualdır. Belə ki, İmomali Raxmon ölkəyə 27 noyabr 1992-ci ildən, yəni 28 ildir ki, rəhbərlik edir. Hal-hazırda müasir Mərkəzi Asiya regionunda Tacikistan hələ hakimiyyətin ötürülməsi halı mövcud olmayan yeganə dövlətdir.

Ümumiyyətlə, müasir Mərkəzi Asiya dövlətlərində səhnəarxası siyasət həmişə açıq siyasəti üstələyir. Azad və ədalətli seçkilər keçirilməyən ölkələrdə hakimiyyətdə olanlar öz vəzifələrini seçki yolu ilə deyil, təyinatla tutduğu halda bütün siyasət elitadaxili münasibətlərin müəyyənləşdirilməsinə gətirir. Cəmiyyətə isə yalnız tamaşaçı rolu ayrılır.

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, müasir Mərkəzi Asiya dövlətlərində digər təhlükəsizlik problemləri ilə yanaşı, siyasi qeyri-stabilliyin əmələ gəlməsi təhlükəsi də bu ölkələrdə mürəkkəb sosial-iqtisadi vəziyyətin yaranmasına və onların cəmiyyətlərinə xas olan çoxlu sayda daxili ziddiyyətlərə əsaslanır. Bu problemin həlli bu ölkələrdə siyasi elitanın formalaşması, həmçinin müxtəlif siyasi və dövlət institutlarının formalaşması və səmərəli fəaliyyət göstərməsi, hakimiyyətin ötürülməsinin dəqiq mexanizminin mövcud olması və qanunda (ilk növbədə, konstitusiyada) əks olunması nəticəsində mümkündür. Bu isə, öz növbəsində, əhəmiyyətli dərəcədə nəinki postsovet dövrü Mərkəzi Asiyada, bütövlükdə bütün Mərkəzi Asiya regionunda təhlükəsizliyin əsaslarının möhkəmləndirilməsinə kömək edə bilər.

# III FƏSİL

# MÜASİR MƏRKƏZİ ASİYADA TƏHLÜKƏSİZLİK STRATEGİYASI

## *3.1. ABŞ-ın müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası*

Mərkəzi Asiya üzərində üstünlük əldə edilməsi məqsədilə ABŞ, Rusiya, Çin kimi aktorlar arasında sərt geosiyasi mübarizə aparılan dünyanın ən vacib regionlarından birini təşkil edir. Bu amil isə bütövlükdə regionun təhlükəsizlik strategiyasına öz təsirini göstərməyə bilməz. Müasir Mərkəzi Asiyada təhlükəsizlik sisteminin formalaşmasına və sonrakı inkişafına ABŞ, Rusiya və Çin tərəfindən tərtib edilmiş müxtəlif layihələr istiqamətləndirilib. Bununla bağlı olaraq bu ölkələrin Mərkəzi Asiya regionuna aid təhlükəsizlik strategiyasının tədqiqi böyük elmi maraq doğurur.

Heç də sirr deyil ki, bu regionda təhlükəsizlik məsələləri birbaşa bu ölkələrin xarici siyasətinin həyata keçirilməsi ilə bağlıdır. Müasir Mərkəzi Asiya ABŞ-ın, Rusiyanın və Çinin geosiyasi maraqlarının mərkəzində olsa da, bu fövqəldövlətlər bütövlükdə bu regionda sabitliyinin pozulması təhlükəsini və bunun bütün dünyada sülhün dəstəklənməsi üçün təhlükə yaradılmasına səbəb ola biləcəyini dərk edirlər.[144] Onlar bir-birindən ayrı olsa da, Mərkəzi Asiya regionunda təhlükəsizlik problemlərinin həlli məqsədilə müvafiq tədbirlər görürlər. Bununla belə, bu ölkələrin təhlükəsizlik strategiyasının tədqiqi onların milli maraqlarının hə-

---

[144] Гумеров, Р. А. Геополитические интересы США, Китая и России в Центральной Азии: / автореферат дисс. кандидата полит.наук / М., - 2009, - с. 3-4.

yata keçirilməsi vasitələrini və üsullarını daha yaxşı dərk etməyə kömək edir.

SSRİ-nin süquta uğramasından və Mərkəzi Asiyada bir sıra müstəqil dövlətlərin yaradılmasından sonra beynəlxalq münasibətlər sahəsində aparıcı dünya aktorları bütövlükdə bu regiona aid öz strategiyalarını tərtib etməyə başladılar. Belə ki, 1991-1992-ci illərdə dünyada Mərkəzi Asiyada yeni yaranmış müstəqil dövlətlərin tanınması və onlarla diplomatik münasibətlərin yaradılması prosesi gedirdi. SSRİ-nin dağılması nəticəsində Mərkəzi Asiya regionunda yeni müstəqil dövlətlərin yaranması ABŞ-ın bağlı olan dünyanın bu regionuna daxil olmasını mümkün etmişdir.[145] Bu mərhələdə dünya siyasətində mühüm rol oynayan dövlətlərin və ilk növbədə, yeganə fövqəldövlətə çevrilmiş ABŞ-ın bu regionda yeni yaranmış dövlətlərə aid dəqiq siyasəti formalaşmamışdır. Bütövlükdə bu dövlətlərin xarici siyasət xətti postsovet məkanı ölkələrinə dair ümumi strategiyadan fərqlənmirdi.[146] Bununla bərabər, ilk zamanlarda belə strategiyanın əsas vəzifəsi SSRİ-nin dağılmasından sonra qalmış nüvə arsenalının təhlükəsizliyinin təmin edilməsi idi. Ümumiyyətlə, nüvə silahına malik olan dövlətdə idarəçiliyin itirilməsi bütün dünya üçün təhlükə mənbəyinə çevrilir. Nüvə arsenalı SSRİ-nin dağılmasından sonra Rusiyada, Ukraynada, Belarusda və Qazaxıstanda mövcud idi. Belə ki, SSRİ-nin dağılmasından sonra Qazaxıstana öz qüvvəsinə görə dünyada dördüncü yerdə olan nüvə potensialı miras qalmış-

---

[145] Быстрова, А. Проблемы глобальной инфраструктуры в центральноазиатском регионе. Оптимизация роли России / А. Быстрова. - М.: ИМЭМО РАН, 2013, - с. 29.

[146] Огурцов, М.И. Стратегия США в Центральной Азии (1990–2013) // - М.: Вестник РГГУ. Серия «Политология. История. Международные отношения. Зарубежное регионоведение. Востоковедение». 2014, - с. 208.

dır. Qazaxıstan Respublikasının ərazisində SSRİ-nin ən böyük nüvə silahının sınaq poliqonu – Semipalatinsk nüvə sınağı poliqonu yerləşirdi. Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev öz ölkəsinin SSRİ-dən miras qalmış nüvə silahından rəsmi olaraq imtina etdiyini bəyan etdi. Formal olaraq, hüquqi cəhətdən belə imtina Qazaxıstan Respublikası tərəfindən Strateji hücum silahlarının azaldılması və məhdudlaşdırılması haqqında 22 may 1992-ci il tarixli Lissabon protokolunun imzalanması ilə rəsmiləşdirilmişdir.[147] Qazaxıstanın belə bir qərarını ABŞ və Rusiya da dəstəklədi. Semipalatinsk nüvə sınağı poliqonunun özü isə daha əvvəl, hələ 1991-ci ildə bağlanmışdır. Qazaxıstan Respublikasının ali qanunverici orqanı (parlament) 13 dekabr 1993-cü ildə “Nüvə silahının yayılmaması haqqında” Müqaviləyə qoşulması ilə bağlı qərar qəbul etdi. Bununla yanaşı, Qazaxıstan Respublikası və ABŞ arasında ballistik raketlərin şaxta tipli buraxılış qurğularının məhv edilməsi, qəza vəziyyətlərinin nəticələrinin ləğvi və nüvə silahının yayılmasının qarşısının alınmasına dair saziş imzalanmışdır. Bundan əlavə, ABŞ, Rusiya Federasiyası və Böyük Britaniya ilə bərabər, Qazaxıstan Respublikası ilə Qazaxıstanın Nüvə silahının yayılmaması haqqında Müqaviləyə qoşulması ilə bağlı təhlükəsizlik zəmanətləri haqqında memorandum imzalamışlar. Həmçinin bu memoranduma Çin və Fransa kimi nüvə silahına sahib olan və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan dövlətlər də qoşulmuşlar. Qazaxıstan əldə edilmiş bu razılaşmaya uyğun

---

[147]Протокол к Договору между Союзом Советских Социалистических Республик и Соединенными Штатами Америки о сокращении и ограничении стратегических наступательных вооружений: [Электронный ресурс] / Центр по изучению проблем контроля над вооружениями, энергетики и экологии. URL: http://www. armscontrol.ru/start/rus/docs/start1/lisb-agr.txt

olaraq, 1995-ci ilin aprel ayında ona SSRİ-dən miras qalmış özünün bütün nüvə silahını Rusiyanın ərazisinə çıxartmışdır. 27 may 1995-ci ildə keçmiş Semipalatinsk nüvə sınağı poliqonunun şaxtasında sonuncu nüvə başlığının məhv edilməsini də qeyd etmək olar. Onu da əlavə etmək lazımdır ki, hücum silahlarının azaldılması (HSA-1) haqqında müqaviləyə və Lissabon protokoluna müvafiq olaraq artıq 1996-cı ilin sentyabrında Jhangiz-Tobedə (daha sonra isə Derjavinskdə) ballistik raketlərin və şaxta tipli buraxılış qurğularının sökülməsi üzrə bütün işlər yekunlaşmışdır. Qazaxıstanda yerləşdirilmiş Rusiya strateji təyinatlı raket qoşunlarının hər iki diviziyası Rusiyanın ərazisinə çıxardılmışdır. Bundan sonra Qazaxıstan 30 sentyabr 1996-cı ildə rəsmi olaraq Ümumi Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqaviləyə qoşulmuş və artıq 2000-ci ilin iyul ayında keçmiş Semipalatinsk sınaq poliqonunda nüvə sınaqları üçün sonuncu şaxta məhv edilmişdir. Beləliklə, nüvə silahının bütün dünya üzrə yayılmaması və terrorçuların əlinə düşməməsi ilə bağlı ABŞ-ın milli təhlükəsizlik strategiyasının bu mərhələsi uğurla həyata keçirilmişdir. Demək olar ki, bu komponent istisna olmaqla, ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında bu regiona aid digər bir xüsusi maraq özünü büruzə verməmişdir. M.Laumulin qeyd edir ki, 90-cı illərin əvvəllərində ABŞ-ın Mərkəzi Asiyaya cəlb olunmasının əsas motivləri Qazaxıstanda SSRİ-nin nüvə potensialları məsələsinin tənzimlənməsi zərurəti, regionda Rusiyanın hökmranlığının bərpa edilməsinə yol verilməməsi və İranın təsirinin məhdudlaşdırılması təşkil edirdi.[148]

[148]Лаумулин, М. «Стратегия и политика США в Центральной Азии» // - Лулео: Центральная Азия и Кавказ. – 2007. № 4 (52), - с. 52.

ABŞ-ın Mərkəzi Asiya regionuna "daxil olması" prosesi tədricən baş verirdi və bu proses XX əsrin 90-cı illərinin böyük bir hissəsini əhatə edirdi. Bununla bağlı amerikalı politoloq F.Hill 2001-ci ildə "*Keçmiş onillikdə Qafqaza və Mərkəzi Asiyaya aid ABŞ-ın siyasətinin magistral xəttinin aşkar şəkildə olmaması*"nı qeyd etmişdir. [149] Tanınmış rusiyalı politoloq A.A.Suşensov vurğulamışdır: "Regionun işlərində zəif maraqlı olması ABŞ üçün onun real problemləri və açılan imkanları ilə tanışlığı çətinləşdirirdi. Bu Mərkəzi Asiya istiqamətində Amerika siyasətinə passivlik əlamətlərini verirdi".[150] Həmçinin bu mərhələdə ABŞ Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi enerji daşıyıcıları olan dövlətlərlə əməkdaşlıq etməyə üstünlük verirdi. ABŞ-ın Mərkəzi Asiya regionuna dair yanaşmasının dəyişməsinə və bütövlükdə bu regiona aid strategiyasının formalaşdırılmasına bir neçə yeni amil səbəb oldu. Onların arasında başlıcası 11 sentyabr 2001-ci ildə ABŞ-da terror aktlarının törədilməsi idi. Bu hadisədən sonra ABŞ-ın milli təhlükəsizlik strategiyasının əsas məqsədini beynəlxalq terrorizmlə mübarizə təşkil etdi. Həmçinin 11 sentyabrda terror aktının törədilməsindən sonra bu regionda ABŞ-ın milli təhlükəsizlik strategiyası ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi əməliyyatlara Mərkəzi Asiya regionuna daxil olan dövlətlər tərəfindən yardım və kömək edilməsi zərurətinə əsaslanırdı.

---

[149] Hill, F. A Not-So-Grand Strategy: U.S. Policy in the Caucasus and Central Asia Since 1991: [Electronic resource] / Brookings Institution. - February 1, 2001. URL: http://www.brookings.edu/articles/2001/02foreignpolicy_hill.aspx

[150] Сушенцов, А.А. Эволюция центральноазиатской политики США: между выводом советских войск из Афганистана и началом «войны с террором» (1989–2001) // Ежегодник ИМИ – 2014 / Гл. ред. А.А. Орлов, ред. выпуска А.А. Казанцев. – М.: МГИМО-Университет, 2014. Вып. 1 (7), -с. 29.

Çünki ABŞ-a terror hücumlarına görə məsuliyyəti öz üzərinə götürən Əl-Qaidənin əsas hərbi-təlim bazaları məhz Əfqanıstanın ərazisində yerləşirdi. Əl-Qaidəyə Əfqanıstanda uzun illər davam edən qanlı vətəndaş müharibəsindən sonra bu ölkədə hakimiyyəti ələ almış Taliban hərəkatı himayədarlıq edirdi. Əl-Qaidənin əsas hərbi-təlim bazalarında bir neçə minə yaxın insan təlim keçirdi və onların dünyanın müxtəlif yerlərində və ölkələrində terror aktlarının həyata keçirilməsi təhlükəsi olduqca yüksək idi. Belə hərbi-təlim bazalarının məhv edilməsi məqsədilə ABŞ başda olmaqla, yaradılmış beynəlxalq koalisiya (bu koalisiyaya bir sıra dövlətlər, o cümlədən Azərbaycan da daxil olmuşdur) dünyanın, demək olar ki, bütün dövlətlərinin dəstəyi ilə, Əfqanıstana müdaxilə etdi. ABŞ Əfqanıstanda "Sarsılmaz azadlıq" ("Operating Enduring Freedom", OEF) rəsmi adlanan hərbi əməliyyatların və tədbirlərin aparılmasına başladı. ABŞ prezidenti Barak Obama bu əməliyyatın 13 ildən sonra, 29 dekabr 2014-cü ildə başa çatdığını elan etdi.[151] Onu da qeyd etmək lazımdır ki, ABŞ hökumətinin rəsmi açıqlamasına əsasən "Sarsılmaz azadlıq" əməliyyatına ABŞ 584,3 mlrd. dollar xərcləmişdir.[152] Hal-hazırda ABŞ hərbi qüvvələrinin Əfqanıstanda davam edən əməliyyatları "Azadlıq keşikçisi" ("Operation Freedom's Sentinel") adlanır.[153,154,155] Bununla belə, "Sarsılmaz azadlıq" əməliyyatı

---

[151] Operation Enduring Freedom comes to an end: [Electronic resource] / DOD News, Defense Media Activity. 29 December 2014
URL:
https://www.army.mil/article/140565/Operation_Enduring_Freedom_comes_to_an_end

[152] COST OF WAR Through March 31, 2018: [Electronic resource] / Department of Defense Q2 Cost of War as of March 31, 2018. URL: https://fas.org/man/eprint/cow/fy2018q2.pdf

[153] Tilghman, A. "Despite war's end, Pentagon extends Afghanistan campaign medal": [Electronic resource] / Military Times, February 19, 2015.

NATO-nun həyata keçirdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (BTYQ) əməliyyatlarından fərqlidir. BTYQ Bonn sazişinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının 1386 nömrəli qətnaməsi ilə yaradılmışdır. Mərkəzi Asiya beynəlxalq koalisiya qüvvələrinə zəruri tədarükün təmin edilməsi məkanı kimi çox vacib idi. ABŞ bir sıra Mərkəzi Asiya regionuna daxil olan dövlətlərlə onların dəniz limanlarından (Pakistanla) və hava limanlarından (Qırğızıstan, Özbəkistan) öz hərbi qoşunları tərəfindən istifadə edilməsi məqsədilə hərbi qoşunların statusu haqqında sazişlərin (Status of Forces Agreement, SOFA) imzalanmasının təşəbbüskarı kimi çıxış etdi. Məsələn, 11 dekabr 2001-ci ildə Qırğızıstanda ABŞ-ın belə bir bazası açılmışdır.[156] 2005-ci ildə ABŞ müdafiə naziri D.Ramsfeld Qırğızıstan Respublikasına bu ölkənin ərazisində ABŞ hərbi bazasının fəaliyyət göstərməsinin davam edilməsinin müzakirəsi məqsədilə səfər etmişdir.[157]ABŞ-ın digər bir bazası isə Özbəkistanda Qarşı-Xanabadda açılmışdır. Həmçinin NATO-ya üzv olan Almaniya Termezdə (Özbəkistan), Fransa Tacikis-

---

URL: //https://www.militarytimes.com/2015/02/19/despite-war-s-end-pentagon-extends-afghanistan-campaign-medal

[154] Sisk, R. Amid Confusion, DoD Names New Mission 'Operation Freedom's Sentinel': [Electronic resource] / Military. com. 29 December 2014. URL: https://www.military.com/daily-news/2014/12/29/amid-confusion-dod-names-new-mission-operation-freedoms.html

[155]Rosenberg M., Scmitt E., Mazzetti M. "U.S. Is Escalating a Secretive War in Afghanistan" // The New-York Times. - 2015, February 12

[156]Nichol, J. Kyrgyzstan and the Status of the U.S. Manas Airbase: Context and implications: [Electronic resource] / Congressional Research Service. July 1, 2009. URL: https:// www.fas.org/sgp/crs/row/R40564.pdf

[157] Marat, E. Rumsfeld in Kyrgyzstan: Halting America's Faltering Position in Central Asia: [Electronic resource] / The Central Asia-Caucasus Analyst. 27 July, 2005. URL: http://www.cacianalyst. org/publications/analytical-articles/item/10138-analytical-articles-caci-analyst-2005-7-27-art-10138.html.

tanda aviabazalar açmışdır.[158] 2005-ci ildə Tacikistan ABŞ-ın Əfqanıstanda əməliyyatlarına dəstəyini və öz hava məkanının NATO-nun koalisiya qüvvələri tərəfindən istifadə edilməsi hüququnun saxlanılmasını bəyan etmişdir.[159]

Bu mərhələdə ABŞ-ın xarici siyasətini müəyyən edən sənəd kimi "ABŞ milli təhlükəsizlik strategiyası" çıxış etmişdir. Bu sənəddə bəyan edilmişdir ki, ABŞ azadlığın faydalarının bütün dünyada yayılması imkanından istifadə edəcək və Amerika demokratiyanın, tərəqqinin ideallarını dünyanın hər nöqtəsinə çatdırmaq üçün fəal şəkildə çalışacaqdır.[160]

2005-ci ildə amerikalı ekspert, Qafqaz və Mərkəzi Asiya İnstitutunun direktoru Frederik Star ABŞ-ın Mərkəzi Asiya regionunda yeni konsepsiyasını təklif etmişdir. Orta əsrlərdə öz mədəni-tarixi çiçəklənmə dövründə Orta Asiyanın sivilizasiya sərhədlərinin beş postsovet dövrü respublikaların indiki sərhədlərindən qat-qat uzağa yayılması faktına əsaslanaraq, o belə bir nəticəyə gəlmişdir ki, artıq yeni bir regionun – "Böyük Mərkəzi Asiya" (*Greater Central Asia*) adlanan regionun formalaşmasından danışmaq olar. Buraya o, Əfqanıstanı, Mərkəzi Asiyanın postsovet ölkələrini, Hindistanın şimal-qərb rayonlarını, Pakistanın bir hissəsini, İranın bir hissəsini və Çinin Sincan vilayətini aid edirdi. Bu konsepsiyanın məqsədi isə bu regionu Rusiya və

---

158 Nichol, J. "Central Asia: Regional Developments and Implications for U.S. Interests": [Electronic resource] / CRS Report. Congressional Research Service, March 21, 2014. URL: http://www.fas.org/sgp/crs/row/RL33458.pdf

159 Marat, E. Rumsfeld in Kyrgyzstan: Halting America's Faltering Position in Central Asia…

160 National Security Strategy of the United States of America: [Electronic resource] / The White House. Washungton, DC - December 2017. URL: https://www.whitehouse.gov/wp-content/uploads/2017/12/NSS-Final-12-18-2017-0905.pdf

Çini kooperasiya dalğasından xaric etməklə Cənubi Asiya ilə əməkdaşlığa istiqamətləndirmək idi. F.Starrın fikrincə, Mərkəzi Asiya dövlətlərinin Əfqanıstanla ticarət və nəqliyyat əlaqələrinin inkişafı prinsipial xarakter daşıyır. O, bu regiona daxil olan ölkələrin sabitliyinin təmin edilməsi vasitəsilə ABŞ tərəfindən aparılan siyasətin səmərəliliyinin artırılması, idarəçiliyin bazar mexanizmlərinin möhkəmləndirilməsi və regionun inteqrasiyasına kömək etmək üçün Mərkəzi Asiya regionu ölkələrinə dair ümumi bir yanaşmanın tərtib edilməsini təklif edirdi.[161] Lakin bu konsepsiya geniş tanınmadı və tətbiq edilmədi. Demək olar ki, əksinə ABŞ-ın fəaliyyətinə bir sıra Mərkəzi Asiyanın postsovet ölkələrində müəyyən bir gərginliklə baxılırdı. Belə ki, ABŞ siyasətinin əsas istiqamətlərindən birini demokratiya institutlarının postsovet ölkələrində möhkəmləndirilməsi strategiyası təşkil edirdi. Lakin belə bir siyasətin aparılması bir sıra müasir Mərkəzi Asiya ölkələrində bu dövrdə hökmranlıq edən avtoritar rejimlərin maraqlarına zidd çıxırdı. Bu isə ABŞ-ı bu regionda bir sıra ciddi problemlərlə üzləşdirdi. Xüsusən bu özünü daha kəskin formada ABŞ-ın Özbəkistanla münasibətlərində büruzə verdi. Qeyd etmək lazımdır ki, XX əsrin sonlarında və XXI əsrin əvvəlində Özbəkistan ABŞ-ın bu regionda əsas müttəfiqlərindən biri kimi çıxış edirdi. Belə ki, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan 15 may 1992-ci ildə imzalanmış Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvləri idilər. Lakin sonradan 1999-cu ildə Özbəkistan bu müqavilənin müddətinin uzadılmasından imtina etmiş və ABŞ tərəfindən dəstəklənən QUAM təşkilatına üzv olmuşdur. ABŞ - Özbəkistan

---

[161]Starr, F. A Greater Central Asia Partnership for Afghanistan and its Neighbors / F. Starr, Washington: The Central Asia-Caucasus Institute Paul H. Nitze School of Advanced International Studies, 2005, - p. 8.

münasibətləri yüksək intensivliklə səciyyələnir və inkişaf edirdi. ABŞ üçün Özbəkistanın rolu təkcə Əfqanıstanda NATO-nun apardığı əməliyyatlarla bağlı logistik funksiyalarla məhdudlaşmırdı və bütövlükdə, məsələn, "Böyük Mərkəzi Asiya", TRASEKA kimi layihələrin dəstəklənməsi vasitəsilə regionda Rusiya və Çinin təsirinin artmasının qarşısını almaq məqsədi güdürdü.[162] Lakin ABŞ tərəfindən Özbəkistanda insan hüquqlarının kütləvi surətdə pozulmasının, demokratlaşma prosesinin inkişaf etməməsinin və qeyri-səmərəli olmasının və vətəndaş cəmiyyətinin inkişafına maneələrin yaradılmasının daima tənqid edilməsi və bununla yanaşı, 2005-ci ildə yüzlərlə insanın həlak olmasına gətirib çıxaran Əndican hadisələrində Özbəkistan hakimiyyətinin davranışının pislənilməsi iki ölkə arasında münasibətlərin kəskinləşməsinə səbəb olmuşdur. Nəticədə Özbəkistanın tələbi üzrə ABŞ bazası Qarşı-Xanabaddan çıxarılmışdır. Bundan əlavə, Özbəkistan 16 avqust 2006-cı ildə KTMT-da üzvlüyünü bərpa etmiş və Rusiyanın yaratdığı və başçılıq etdiyi Avrasiya İqtisadi Birliyinə üzv olmuşdur.

Bununla belə, Mərkəzi Asiya regionunda ABŞ-ın əsas təhlükəsizlik strategiyası Əfqanıstanda terrorçu qüvvələrə və onları dəstəkləyən Talibana qarşı hərbi əməliyyatların aparılmasından ibarət idi. Bu isə ABŞ-ın hərbi və siyasi cəhətdən bu regionda əsas aktor kimi çıxış etməsinə dəlalət edirdi. Həmçinin Əfqanıstanda terrorçu qüvvələrin və onları dəstəkləyən Talibanın fəaliyyətinin fəallaşmasından sonra bu ölkədə ABŞ və NATO-nun qoşunlarının sayı artmağa başladı. Bütövlükdə bu dövrdə Mərkəzi Asiya regionuna aid ABŞ-ın strategiyasının mərkəzində Əfqanıstan dururdu.

---

[162] Огурцов, М.И. Эволюция внешнеполитических стратегий России и США в Республике Узбекистан на рубеже XX – XXI вв: / автореферат дис. кандидата историческ. наук./ М., 2015, с. 5

Bununla yanaşı, digər bir məqsəd regionda Rusiyanın və Çinin mövqelərinin möhkəmlənməsinə qarşı çıxış etmək idi. Bu, ilk növbədə, Rusiya tərəfindən iqtisadi sahədə irəli sürülən müxtəlif inteqrasiya layihələrinə aid idi.[163]

B.Obama administrasiyası Əl-Qaidənin güclənməsi ilə bağlı Əfqanıstana və Pakistana münasibətdə özünün kompleks strategiyasını bəyan etdi. Bu strategiyada Mərkəzi Asiya regionuna ABŞ-ın yanaşmasında müəyyən dəyişikliklər baş verdi. Onların arasında 2009-cu ildə Şimal Paylayıcı Şəbəkəsi layihəsinin həyata keçirilməsini göstərmək olar.[164] Belə bir paylayıcı şəbəkə vasitəsilə koalisiya qüvvələri üçün qeyri-hərbi və humanitar yüklərin tədarükü həyata keçirilirdi. Artıq 2011-ci ilə bu şəbəkə ilə Əfqanıstana tədarükün 40%-i təmin edilirdi.[165] Belə bir layihə ABŞ-ın Pakistanla gərgin münasibətlərindən və logistik marşrutların mümkün dərəcədə təhlükəsiz edilməsindən irəli gəlirdi. Bu səbəbdən ABŞ həmçinin Mərkəzi Asiya dövlətlərinin avtoritar rejimlərini tənqid etməyi də azaltmağa məcbur oldu. Bütün bu kompleks tədbirlər Mərkəzi Asiya dövlətlərinin köməyi ilə həyata keçirilməli idi. Bu məqsədlə ABŞ bu regionun ölkələri ilə ikitərəfli əlaqələrin dərinləşməsinə böyük əhəmiyyət verirdi.[166] ABŞ tərəfindən bu ölkələrə mad-

---

[163]Попов, Д. Центральная Азия во внешней политике США. Противодействие российскому интеграционному проекту // - М.: Россия и мусульманский мир, - 2017. № 4, - с. 59.

[164]Попов, Д. Участие стран Центральной Азии в снабжении американских войск в Афганистане // - М.: Проблемы национальной стратегии. - 2014. № 1(22), - с. 62-64.

[165] Mankoff J. The Unites States and Central Asia after 2014 / J.Mankoff. - Washington: Report of CSIS Russia and Eurasia program, - 2013, p. 4.

[166] Obama's Afghanistan - Pakistan Strategy: 'A Reasonable first Step': [Electronic resource] / Council on Foreign Relations, March 30, 2009. URL: https://www.cfr.org/interview/obamas-afghanistan-pakistan-strategy-reasonable-first-step

di yardım da artırılmışdır. Belə ki, ABŞ Dövlət Departamenti tərəfindən əlaqələndirilən müxtəlif yardım proqramlarının həyata keçirilməsi üçün təkcə 2010-cu ildə ayrılmış vəsaitin ümumi miqdarı 2009-cu illə müqayisədə 59% artmışdır.[167] Bununla yanaşı, B.Obama həmçinin Pakistana maddi yardımın göstərilməsi zərurətini də bəyan etmişdir.

Beləliklə, 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ regionu əsasən beynəlxalq terrorizmlə mübarizə, Əfqanıstandakı vətəndaş müharibəsi və bu regionda mövcudluğunun gücləndirilməsi prizmasından nəzərdən keçirməyə başladı. ABŞ-ın Mərkəzi Asiya regionundakı təhlükəsizlik strategiyasının vacib bir hissəsini 2001-ci il 11 sentyabr terror hücumlarından sonra ABŞ başda olmaqla NATO və digər antiterror koalisiya dövlətlərinin silahlı qüvvələrinin Mərkəzi Asiya dövlətlərinin ərazilərində yerləşdirilməsi təşkil edirdi. Bunu nəzərə alaraq belə bir nəticəyə gələ bilərik ki, Əfqanıstan istiqaməti ABŞ-ın Mərkəzi Asiya regionunda prioritetlərinin formalaşdırılmasında əsas yer tuturdu.

ABŞ-ın prezidenti Donald Tramp Mərkəzi Asiya regionuna əhəmiyyətli bir yer verildiyi ABŞ-ın milli təhlükəsizlik strategiyasına düzəlişlər etdi. Belə ki, o, 18 dekabr 2017-ci ildə ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasını təqdim etdi.[168] Bu kompleks xarakterli sənəd (55 səhifədən ibarətdir) prezidentin Amerika xalqına müraciətindən, giriş hissəsindən, üç "istiqamət"dən, siyasətin regional bölməsi-

---

[167]Троицкий, Е.Ф. Политика США в Центральной Азии: Подходы второй администрации Дж. Буша (2005-2009 гг.) и Б.Обамы (2009-2010 гг.) // - М.: Сравнительная политика, 2011. № 4, - с 71.

[168]National Security Strategy of the United States of America: [Electronic resource] / The White House. Washungton, DC - December 2017. URL:https://www.whitehouse.gov/wp-content/uploads/2017/12/NSS-Final-12-18-2017-0905.pdf

nə həsr edilmiş hissəsindən və nəticədən ibarətdir. Bu strategiyada ABŞ-ın müasir dünyada rolu yenidən nəzərdən keçirilmiş və müvafiq olaraq bütövlükdə ölkənin daxili və xarici siyasətinin prioritetləri dəyişdirilmişdir. Təqdim olunan sənəddən görünür ki, bu strategiyanın əsas mövzusunu geosiyasət təşkil edir. Bu sənəddə Mərkəzi Asiya regionuna ABŞ, Rusiya və Çin kimi fövqəldövlətlərin mübarizə meydanı kimi baxılır. Belə ki, ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasında qeyd olunur: "Əvvəlki əsrin qalığı kimi qeyd edilən fövqəldövlətlərin mübarizəsi yenidən başladı. Çin və Rusiya öz təsirlərini regional və dünya arenasında göstərməyə başladılar... Onlar bizim geosiyasi üstünlüklərimizi şübhə altına alırlar və dünya düzənini öz xeyrinə dəyişməyə çalışırlar". Müqayisə üçün, Barak Obamanın prezidentliyi dövründə, 2015-ci ildə dərc olunmuş ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasının əvvəlki versiyasında Rusiyanın Ukraynada, xüsusən Krımda, törətdiyi təcavüzündən danışılsa da, lakin bu hala Rusiya ilə qlobal qarşıdurma kimi baxılmırdı. ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında Çinə münasibətdə B.Obama administrasiyası bildirmişdir: "Rəqabət olacağına baxmayaraq, biz qarşıdurmanın qaçılmazlığını inkar edirik". Bundan fərqli olaraq, D. Tramp administrasiyasının ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında bütün Avrasiya qitəsi ABŞ və Rusiya arasında qarşıdurma və rəqabət zonası hesab edilir. Çin və Rusiya ABŞ-ın 2015-ci il Milli Təhlükəsizlik Strategiyasında "XXI əsrin aparıcı təsir mərkəzləri" kimi adlandırılsa da, ABŞ-ın 2017-ci il Milli Təhlükəsizlik Strategiyasında "dünyada ABŞ təsirinə təhlükə" kimi göstərilirdi. Bu sənəddə iddia edilir ki, Çin və Rusiya "ABŞ-ın geosiyasi üstünlüklərini mübahisə edirlər və beynəlxalq qaydanı öz xeyrinə dəyişməyə çalışırlar". Belə ki, ABŞ Milli Təhlükə-

sizlik Strategiyasında deyilir: “Rusiyanın ambisiyaları və artan hərbi imkanlarının birliyi Avrasiyadakı sərhədləri qeyri-sabit hala gətirir və burada Rusiyanın səhv hesablamalarına görə münaqişənin yaranması ehtimalını artırır… Rusiya, eyni zamanda Avropa və Mərkəzi Asiyanın bəzi hissələrində əsas enerji və digər infrastruktur üzərində nəzarəti həyata keçirmək vasitəsilə öz təsirini iqtisadi sahəyə də keçirir”.[169] ABŞ Milli Təhlükəsizlik Strategiyasında Rusiyanın bu regionda yürütdüyü siyasətə qarşı çıxmaq üçün Mərkəzi Asiyada “rəqib ölkələrin hökmranlıq cəhdlərinə qarşı müqavimət göstərən” ölkələrin müəyyən edilməsi zərurəti xüsusi olaraq qeyd edilir. Mahiyyət etibarilə bu, bu regionda ya müttəfiq ölkələrin, ya da ən azı ABŞ ilə bir çox istiqamətdə əməkdaşlıq edə biləcək ölkələrin axtarışlarının aparılması zərurəti deməkdir. Eyni zamanda ABŞ “özəl kapitalı cəlb edəcək və özəl sektorun fəaliyyətini gücləndirməyə kömək edəcək” yanaşmaların lehinə qrant siyasətinin həyata keçirilməsi yolu ilə müxtəlif qeyri-hökumət təşkilatlarının və strukturlarının dəstəyindən imtina edir. Bu həm də Mərkəzi Asiya regionu ölkələrinə birbaşa aid ola bilər, həmçinin ABŞ tərəfindən Mərkəzi Asiya ölkələri hökumətlərinə və ictimai təşkilatlarına dəstəyin göstərilməsi quruluşunu və məntiqini kökündən dəyişdirə bilər. Bununla belə bütövlükdə götürəndə ayrı-ayrı ölkələrə aid münasibətdə ABŞ Milli Təhlükəsizlik Strategiyasında bir sıra hallarda bir-birinə uyğun gəlməyən və müəyyən ziddiyyətlər təşkil edən müddəalara da rast gəlmək olar. Bu isə bir sıra ekspertlərə (məsələn, Timur Kərimova) ABŞ Milli Təhlükəsiz-

---

[169]National Security Strategy of the United States of America: [Electronic resource] / The White House. Washington, DC - December 2017. URL: https://www.whitehouse.gov/wp-content/uploads/2017/12/NSS-Final-12-18-2017-0905.pdf

lik Strategiyasının Rusiya ilə əməkdaşlığın genişləndirilməsi zərurətinə dair D. Trampın rəsmi bəyanatları ilə ziddiyyət yaratmasının qeyd edilməsinə imkan verir.[170]

ABŞ hərbi qüvvələrinin Əfqanıstanda olması bu regionda regional təhlükəsizlik sisteminin əsas sütununu təşkil edir və onun əsas parametrlərini müəyyən edən amillərdən biridir. Halbuki 2015-ci ildə ABŞ öz hərbi qüvvələrinin əsas hissələrini Əfqanıstanın ərazisindən çıxartmağa başlamışdır. Bununla belə, D.Tramp DAİŞ təhlükəsinə istinad edərək 2017-ci ildə ABŞ hərbi kontingentinin müəyyən bir hissəsinin bu ölkənin ərazisində saxlanıldığını bəyan etmişdir. ABŞ Taliban hərəkatı ilə 29 fevral 2020-ci ildə bağladığı sazişə əsasən bu ölkədən öz hərbi qüvvələrinin qismən çıxardılmasına başlamışdır. Bütövlükdə ABŞ və NATO hərbi qulluqçularının sayı  3000-dən 8000-ə kimi azalmalıdır  (Nəticə etibarilə 100 mindən çox ABŞ əsgəri Əfqanıstandan keçmişdir. Onlardan 1900-dən çoxu həlak olmuş 19000 min nəfəri isə yaralanmışdır. ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlara xərclədiyi vəsait 1 trl. dolları ötmüşdür). Əvəzində Taliban hərəkatı islamçılar ilə mübarizə aparması və mərkəzi hökumət ilə danışıqlara başlaması öhdəliyini öz üzərinə  götürməlidir. ABŞ-ın Mərkəzi Asiya regionunda narahatlığı Rusiya və Çin kimi bir-biri ilə "rəqabət aparan" dövlətlərin regionda hökmranlıq etmə üzərində mübarizə aparma prosesində Mərkəzi Asiya dövlətlərinin davamlılığı ilə bağlıdır. D. Tramp ABŞ Milli Təhlükəsizlik Strategiyasında hələ B.Obamanın administrasiyası tərəfindən təklif edilmiş "C5+1" formatını qüvvədə saxlamış-

[170] Центральная Азия в новой стратегии национальной безопасности США: [Электронный ресурс] / CA-portal.25 дек., 2017г.URL:http://www.ca-portal.ru/article:39805

dır.[171] Belə ki, hələ 2015-ci ildə o vaxt ABŞ dövlət katibi olan D. Kerri “C5+1” adlanan yeni bir geosiyasi layihənin təşəbbüskarı kimi çıxış etmişdir (bir sıra Mərkəzi Asiya ölkələrinə səfəri zamanı). Bu format ABŞ-ın və 5 Mərkəzi Asiya dövlətinin xarici işlər nazirləri səviyyəsində müxtəlif məsələlər üzrə dialoqunu nəzərdə tuturdu. Mahiyyətcə bu format regionun bütün postsovet ölkələrini ABŞ-ın himayəsi altında inteqrasiya etməyə cəhd idi.[172] Yəni bu format ABŞ və Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan kimi dövlətləri əhatə edirdi və ABŞ-ın bu dövlətlərlə əməkdaşlıq edilməsi üçün ümumregional yanaşmaların yaradılması zərurətinin dərk edilməsi demək idi.[173] Belə bir formatın əsas məqsədi regional məsələlərin müzakirə edilməsindən ibarət idi. Həmçinin bu format çərçivəsində Əfqanıstanın regional inteqrasiyaya cəlb edilməsi problemini həll etmək üçün Mərkəzi Asiya regionu ölkələri hökumətlərinin daha sıx qarşılıqlı fəaliyyət göstərməsi nəzərdə tutulurdu.[174] Və gözlənilirdi ki, bu həm Əfqanıstanın özünün, həm də digər qonşu ölkələrin təhlükəsizliyi ilə bağlı vəziyyətə müsbət təsir göstərə bilər. Bu formatda birinci görüş 2015-ci ilin noyabrında Səmərqənddə keçirilmiş

---

[171]United States and Kazakhstan: An Enhanced Strategic Partnership for the 21st Century: [Electronic resource] / January 16, 2018. URL: https://www.whitehouse.gov/briefings-statements/united-states-kazakhstan-enhanced-strategic-partnership-21st-century

[172] Тоцкойнова, Н.М. Сотрудничество государств Центральноазиатского региона по противодействию терроризму //- М.: Россия и мусульманский мир, - 2018. № 2, - с. 53.

[173]Акматалиева, А.М. Трансатлантическое партнерство по вопросам безопасности в Центральной Азии: автореферат дис. канд. полит.наук/ Бишкек, - 2011, - с. 15.

[174] Sullivan, J.J. The Administration’s South Asia Strategy on Afghanistan: [Electronic resource] / US Department of State. - February 6, 2018. URL: https://www.state.gov/s/d/2018/278003.htm

və onun nəticəsi üzrə Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Birgə Bəyannamə qəbul edilmişdir. Əsas məqsəd isə 5 Mərkəzi Asiya dövlətinin ABŞ ilə bir neçə istiqamət – ticarət, nəqliyyat, kommunikasiya və enerji resursları sahəsində regional əməkdaşlıq; region ölkələrində biznes mühitinin yaxşılaşdırılması; ətraf mühitin qorunması və iqlimin dəyişdirilməsi ilə mübarizə; təhlükəsizliyə, transsərhəd təhdidlərinə qarşıdurma (narkotrafik, silah alveri, insan alveri); Əfqanıstanın sabitləşdirilməsi; nüvə silahının yayılması ilə mübarizə; mədəniyyət və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi; insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi və demokratik institutların inkişafı üzrə əməkdaşlığın genişləndirilməsi üzrə əməkdaşlığı idi. 2016-cı ilin avqust ayında Vaşinqtonda bu formatda ikinci görüş keçirilmişdir. Bu görüşdə tərəflər yuxarıda qeyd edilmiş sahələrdə ilk beş birgə layihənin həyata keçirilməsinə dair razılığa gəlmişlər. Bu layihələrin həyata keçirilməsi üçün müvafiq büdcə 15 mln. dollar təşkil edirdi və bütün bu məbləğ ABŞ tərəfindən ayrılmışdır. Göründüyü kimi, belə geniş layihələrə ayrılmış məbləğ heç də böyük deyildi.[175] Bununla belə, yeni formatın xüsusiyyətini də qeyd etmək lazımdır. Belə ki, ABŞ tərəfindən təklif edilən belə bir format birbaşa postsovet dövrü Mərkəzi Asiya ölkələrini nəzərdə tutur. Bundan fərqli olaraq, nə KTMT, nə Avrasiya İqtisadi Birliyi (AİB), nə də Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) bu regiona aid olan bütün ölkələri əhatə etmir. Həmçinin vurğulamaq lazımdır ki, Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Birgə Bəyannamədə əməkdaşlığın əsas prioriteti kimi iqtisadi, nəqliyyat və ticarət əlaqələri və bununla yanaşı həm də regionun təhlükəsizlik məsələləri

---

[175]C5+1 Fact Sheet: [Electronic resource] / US Department of State. - September 22, 2017. URL: https://www.state.gov/c51-fact-sheet

qeyd olunur. 2015-ci ildə ABŞ Dövlət Departamenti tərəfindən bəyan edilmiş Mərkəzi Asiya dövlətlərinə kömək etmək problemlərinə yeni proqramda da üstünlük verilir.[176] Bununla belə, insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi və demokratik institutların inkişafı kimi istiqamətlər arxa plana keçmişdir. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, ABŞ avtoritar hakimiyyətə malik olan Mərkəzi Asiya dövlətlərinə dair daha praqmatik, təzyiqini azaldaraq daha "yumşaq" mövqe tutmağa başlayır. "C5+1" formatı ABŞ üçün müəyyən strateji və siyasi üstünlüklər verə bilər. Belə ki, Mərkəzi Asiya regionu ərazisinə görə böyük bir ərazi məkanını əhatə edir, böyük iqtisadi potensiala malikdir və təbii resurslarla zəngindir. Məsələn, ABŞ şirkətləri (Şevron, EkssonMobil, KonokoFillips) Qazaxıstanın neft sənayesində vacib rol oynayır. Bununla yanaşı, ABŞ-ın regionda daha fəal olması digər fövqəldövlətlərin ambisiyalarının müəyyən dərəcədə qarşısını ala bilər və onların bu regionda fəallığını azalda bilər. Bundan əlavə, ABŞ-ın postsovet dövrü Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əlaqələri genişləndirməsi digər fövqəldövlətlərin (Rusiyanın, Çinin) bu region dövlətləri ilə müxtəlif inteqrasiya proseslərinin daha da genişləndirilməsinin müəyyən dərəcədə qarşısını alır (məsələn, Rusiyanın əsas rol oynadığı Avrasiya İqtisadi Birliyi çərçivəsində inteqrasiya proseslərinin dərinləşdirilməsi, Çin və Rusiyanın başçılıq etdiyi Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətinin səmərəliləşdirilməsi). Həmçinin ABŞ bu region dövlətləri ilə əlaqələrini, o cümlədən hər bir dövlətlə ayrılıqda daha çevik, operativ formada idarə edə bilər. Beləliklə, belə bir for-

[176]New U.S. Assistance Programs in Central Asia, 2015: [Electronic resource] / US Department of State, Press Releases, November 2015. URL: http://www.state.gov/r/pa/prs/ps/2015/11/249051.htm

matın qurulması bütövlükdə ABŞ-ın bu regionda iştirakının artmasına dəlalət edir və regionda gedən prosesləri daha yaxından izləmək, onlara nəzarət etmək və bunun nəticəsindən asılı olaraq operativ şəkildə müəyyən tədbirlərə əl atmaq imkanını verir. Tramp administrasiyası ABŞ-ın bu regiona dair strategiyasında "C5+1" formatı çərçivəsində qəbul edilmiş proqramların həyata keçirilməsində əsas diqqəti postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin müvafiq səylər göstərməsinə yönəldir.

Onu da nəzərə almaq lazımdır ki, müasir Mərkəzi Asiya dövlətləri arasında müəyyən ziddiyyətlər mövcuddur. Bəzi hallarda belə münasibətlər çox gərgin forma alır və hətta bir sıra hallarda sərhədyanı toqquşmalara gətirib çıxarır. Bu müasir Mərkəzi Asiya dövlətləri arasında inteqrasiya prosesləri, demək olar ki, inkişaf etmir. Müasir Mərkəzi Asiya dövlətləri üçün təklif olunmuş "C5+1" formatı bir sıra üstünlüklər verir və müəyyən imkanlar açır. Belə ki, "C5+1" heç də hər hansı bir beynəlxalq təşkilat və ya institusional orqan deyil. Və bu formatda iştirak etmə müasir Mərkəzi Asiya dövlətlərinin üzərinə heç bir öhdəlik qoymur. Digər tərəfdən bu format postsovet dövrü Mərkəzi Asiya dövlətlərinə dünyanın iqtisadi, siyasi və hərbi cəhətdən ən qüdrətli dövləti ilə müəyyən proqramlar tərtib edərək həyata keçirməyə və bununla yanaşı bu ölkələrin ABŞ ilə daha sıx iqtisadi, ticarət və investisiya əməkdaşlığına imkan yaradır. Həmçinin bu dövlətlərin bütövlükdə hər hansı bir dövlətin tam təsiri altına düşməsinin qarşısını alır. Bundan əlavə, KTMT-yə üzv olmayan Türkmənistan və Özbəkistan Əfqanıstandan gələn təhlükə qarşısında ABŞ ilə hərbi əməkdaşlıqda (ordunun müasir tələblərə uyğunlaşdırılması üçün hərbi islahatların aparılması, sərhədlərin qorunması, hərbi yardımın göstərilməsi və s.) çox maraqlıdırlar. Bu format

xarici aktorun iştirakı ilə Mərkəzi Asiya dövlətlərinin regional dialoqunun yeniləşdirilməsinə, regionun ümumi maraqlarına toxunan ən vacib məsələlər üzrə dövlətlərin mövqelərinin yaxşılaşdırılmasına təkan verə bilər və dövlətlər arasında ikitərəfli münasibətlərdə mövcud olan ziddiyyətlərin regional əməkdaşlığa mənfi təsirinin azaldılmasına və ümumi problemlərin həll edilməsində strategiyanın tərtib edilməsinə kömək edə bilər.

Onu da qeyd etmək lazımdır ki, Rusiya bu formata çox mənfi münasibət göstərir və onu regionda öz maraqlarına təhlükə kimi dəyərləndirir. Belə ki, Rusiya xarici işlər naziri S.Lavrov qeyd edir ki, ABŞ "Böyük Mərkəzi Asiya" adlanan layihəsinə aid olan ideyalarını həyata keçirmək üçün bu formatdan sui-istifadə etmək istəyini heç də gizlətmir. Onun mahiyyəti ABŞ-ın əvvəlki administrasiyaları zamanı Mərkəzi Asiya dövlətlərinin iştirakı ilə bütün layihələri Rusiyanın iştirakı olmadan Cənuba yönəltməkdir.[177]

ABŞ Milli Təhlükəsizlik Strategiyasında Mərkəzi Asiya regionu müəyyən dərəcədə islam terrorizmi təhlükəsi altında olan ərazi, məkan kimi də qeyd edilir və göstərilir ki, bu region ölkələrinin ərazisi müxtəlifyönümlü terrorçular üçün sığınacaq ola bilər. Bu səbəbdən özünün kontr-terrorçu təşəbbüslərinə dəstək verilməsi məqsədilə "regiona çıxışa zamin vermək" üçün ABŞ Mərkəzi Asiya regionu ölkələri ilə əməkdaşlıq etmək öhdəliyini öz üzərinə götürür. Bununla yanaşı, ABŞ Milli Təhlükəsizlik Strategiyasında "cihadçıların məskəni olmaq istəməyən" ölkələrin müəyyən edilməsi zərurəti də qeyd edilir. Bu strategiyaya müvafiq olaraq, digər dövlətlərlə yanaşı ABŞ təhlükəsizliyinə əsas

---

[177]Участники формата "C5+1" обсудили вопросы укрепления безопасности в Центральной Азии: [Электронный ресурс] / ТАСС. - 20 января 2018.URL: https://tass.ru/mezhdunarodnaya-panorama/4888564

transmilli təhlükəni “terrorçu-cihadçılar” adlananlar və beynəlxalq cinayətkar təşkilatlar və birliklər təşkil edir. Onlar Qərb dövlətlərində olan “açıq cəmiyyəti istismar” edərək, dinamik dəyişən şərtlərə uyğunlaşır, kölgə internetdə (dark web) aktiv fəaliyyət göstərir, xaker hücumlarını həyata keçirirlər. Bütövlükdə onların fəaliyyəti dövlətçiliyin sütunlarının zəiflədilməsinə və tez sına bilən insanlara təsir etmə və onları öz məqsədləri naminə istifadə etməyə yönəldilib. Bununla yanaşı, bu növ ayrı-ayrı cinayətkar təşkilatlar və birliklər digər dövlətlər tərəfindən dəstəklənir və idarə olunurlar. “Cihadçılar” adlanan terrorçu təşkilatlar hökumətlərin və günahsız insanların zorakı məhv edilməsinə çağıran ideologiyanı təşviq edirlər. Onlar ayrı-ayrı və təcrid olunmuş insanları, həm də əhalinin tez təsir altına düşə bilən müxtəlif qruplarını radikallaşdırmaq məqsədilə bütün dünya üzrə fiziki və virtual şəbəkələrdən məharətlə istifadə edirlər. Həmçinin 2017-ci il ABŞ Milli Təhlükəsizlik Strategiyasında qeyd edilir ki, hətta İraq və Suriyada DAİŞ, Əl-Qaidə və digər terrorçu təşkilatların məğlub olunmasından sonra öz vətənlərinə qayıdanların problemi formatında “cihadçı” terroristlər tərəfindən təhlükənin qalması davam edəcəkdir. Bu səbəbdən ABŞ ölkə daxilində və digər tərəfdaşları ilə kəşfiyyat məlumatları üzrə mübadiləni genişləndirmək, ABŞ-ın təhlükəsizliyinə təhlükə yaradan terrorçuları onların olduğu yerdən asılı olmayaraq təqib etmək, onların sığınacaqlarını və düşərgələrini məhv etmək və terrorçuların onların maliyyələşdirilmə mənbələri ilə əlaqələrini kəsmək, beynəlxalq terrorizm ilə mübarizədə öz müttəfiqləri ilə məsuliyyəti bölüşmək, publik diplomatiyanı inkişaf etdirmək və s. niyyətindədir. Bununla yanaşı, ABŞ bu problemlə üzləşmiş dövlətləri zorakı ekstremizmə qarşı əks-fəaliyyət üzrə fəal tədbirlərə al atmağa çağırır.

ABŞ Milli Təhlükəsizlik Strategiyasına Mərkəzi Asiya regionundan keçən perspektivli, yeni infrastruktur layihələrin dəstəklənməsi də daxildir. Düzdür, bu sahədə onun Rusiya və Çin ilə maraqları toqquşur. Belə ki, ABŞ belə bir infrastruktur layihəsi çərçivəsində yaranacaq nəqliyyat dəhlizi vasitəsilə Mərkəzi Asiya regionunu Əfqanıstan, Pakistan və Hindistan ilə birləşdirməyə və daha sonra isə belə nəqliyyat dəhlizini Yaponiyaya, Cənubi Koreyaya istiqamətləndirməyə çalışır. Bu isə bu nəqliyyat dəhlizi vasitəsilə daşınan yüklərin Rusiya ərazisindən yan keçməsinə aparacaqdır. Və təbii ki, Rusiyanın iqtisadi maraqlarına güclü, ciddi zərbə endirəcəkdir.[178,179] Bunun əsasında iddia etmək olar ki, ABŞ Milli Təhlükəsizlik Strategiyasında Rusiyanın ərazisindən yan keçməklə "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin yaradılmasının dəstəklənməsini də nəzərdə tutur (Ümumiyyətlə, "Yeni İpək Yolu" konsepsiyasının strategiyası ilk dəfə o zaman ABŞ Dövlət katibi H.Klinton tərəfindən 20 iyul 2011-ci ildə irəli sürülmüşdür. O öz məzmununa görə Mərkəzi və Cənubi Asiyanın mərkəzində Əfqanıstan duran vahid bir iqtisadi makroregiona inteqrasiya olunması planı kimi nəzərdə tutulurdu. Bu konsepsiyanın strategiyası postsovet dövrü Mərkəzi Asiya ölkələrinin Əfqanıstandan keçməklə Cənubi Asiya dövlətləri olan Hindistana və Pakistana aparan infrastrukturunun yaradılmasını nəzərdə tutur. Həmçinin Mərkəzi Asiya dövlətlərinin, Əfqanıstanın və Cənubi Asiyanın ticarət inteqrasiyası da nəzərdə tutulurdu). Belə ki, 2013-cü ilin əvvəlində Əfqanıstanda yeni-

---

[178] Быстрова, А. Проблемы глобальной инфраструктуры в центрально-азиатском регионе. Оптимизация роли России / А. Быстрова. - М.: ИМЭМО РАН, - 2013, - с. 29.

[179] Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. - 2014, № 1 (259), - с. 100.

dən qurulma layihələri üzrə xüsusi müfəttişin aparatı tərəfindən ABŞ Konqresi üçün hazırlanmış məruzədə ABŞ Müdafiə Nazirliyinin köməyi ilə Mərkəzi Asiyada Özbəkistan, Tacikistan, Türkmənistanı Əfqanıstanla birləşdirən dəmir yolunun çəkilməsi təklif edilir. Belə bir layihənin həyata keçirilməsi "Mərkəzi Asiya dövlətlərini Rusiyanın təsirindən azad edəcək və onlara dünya bazarlarına çıxmağa yardım edəcəkdir". Bu dəmir yolu KTMT-nın 2013-cü ilin may sammitində tikilməsi təklif edilmiş Rusiya-Qazaxıstan-Qırğızıstan-Tacikistan dəmir yoluna alternativ olmalı idi[180] (Lakin hələ bu layihələrin heç biri həyata keçirilməmişdir). Düzdür, Türkmənistanı, Əfqanıstanın bəzi rayonlarını və Tacikistanı birləşdirən lokal əhəmiyyətli dəmir yolu 2017-ci ilin əvvəlinə tikilib istifadəyə verilmişdir. Təbii ki, Mərkəzi Asiyada magistral dəmir yollarının tikilməsi Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Belə ki, "Yeni İpək Yolu" adlanan layihənin bir sıra tranzit marşrutunun Azərbaycan ərazisindən keçməsi nəzərdə tutulur. Azərbaycan öz coğrafi vəziyyətinə görə "Yeni İpək Yolu" marşrutunda unikal mövqe tutur. Çindən dəmir yolu Qazaxıstanın ərazisindən keçərək bu ölkənin və də Türkmənistanın dəniz limanlarına çıxır. Oradan yüklər gəmilərlə Azərbaycana, daha sonra dəmir yolu ilə Gürcüstana və Türkiyəyə, oradan Cənubi və Mərkəzi Avropa ölkələrinə daşına bilər. Həmçinin Gürcüstan və Türkiyə limanlarında yüklənə, daha sonra Bolqarıstan və ya Rumıniya limanlarına, oradan da Avropaya göndərilə bilər. Və əksinə olaraq, Avropa və Türkiyə yükləri eyni marşrutla Şərq istiqamətində daşına bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

[180]Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. - 2014. № 1 (259), - с. 100-101.

2015-ci ilin dekabr ayında ÇXR-a səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalamış və bununla da bu layihənin Azərbaycan tərəfindən dəstəklənməsi ifadə olunmuşdur. Ümumiyyətlə, ABŞ-ın geosiyasi strategiyası Mərkəzi Asiya regionunun Rusiyadan asılılığının azaldılmasını və yekunda isə Rusiyadan ayrılmasını nəzərdə tutur. Belə bir strategiyanın həyata keçirilməsi artıq Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin, həmçinin Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin (TANAP) yaradılmasına, həmçinin Trans-Adriatik Boru Kəməri (TAP) tikintisinə dəstək verilməsi ilə nəticələnmişdir. Bu strategiya çərçivəsində Türkmənistandan Azərbaycana trans-Xəzər qaz borusunun, Qazaxıstandan Bakıya kimi trans-Xəzər neft borusunun çəkilməsi (Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulmaq məqsədilə), layihələrin həyata keçirilməsinə də dəstək verilməsi nəzərdə tutulur. Bütün bu layihələrin həyata keçirilməsi Mərkəzi Asiya ölkələrinə onların enerji daşıyıcılarının beynəlxalq bazarlara çıxması istiqamətlərini diversifikasiya etməsinə imkan yaradacaq və onların bu məsələdə Rusiyadan asılılığını azaldacaqdır.

Bununla yanaşı, ABŞ-ın strategiyası həm də Çini Mərkəzi Asiya regionunun təbii resurslarından uzaqlaşdırmağa və ona əks olaraq Hindistanın və Pakistanın inkişafını həvəsləndirməyə yönəlib. Bu strategiya çərçivəsində Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəmərinin tikintisinə və bunun nəticəsində türkmən qazının cənuba, Hind okeanı limanlarına nəql edilməsinə dəstək verilməsi nəzərdə tutulur. Demək olar ki, belə bir strategiya postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin ABŞ-ın təsir dairəsinə qoşulmasını və onların iqtisadi əlaqələrini artıq ABŞ eqidası

altında olan bu regiona yaxın olan dövlətlərə yönəldilməsini nəzərdə tutur.[181]

Fikrimcə, ABŞ Milli Təhlükəsizlik Strategiyasında bu ölkənin hərbiçilərinin antiterrorçu səylərinin dəstəklənməsinə zəmanət yaradılması məqsədilə Mərkəzi Asiya dövlətlərinin ərazisinə çıxışının zəruriliyinin qeyd edilməsi də çox vacib əhəmiyyətə malikdir. Düzdür, son zamanlar ABŞ öz silahlı qüvvələrinin sayının Əfqanıstan ərazisində azaldılmasına və tədricən öz silahlı qüvvələrinin bu ölkənin ərazisindən çıxardılmasına dair bir sıra tədbirlərə əl atmışdır. Buna Əfqanıstanın mərkəzi hökumətinin mövqelərinin güclənməsi Əl-Qaidə, DAİŞ və s. kimi terrorçu təşkilatların mövqelərinin zəifləməsi və s. səbəb ola bilər. Belə ki, 29 fevral 2020-ci ildə ABŞ Taliban hərəkatı ilə müqavilə imzalamışdır. Bu sənədə əsasən, ABŞ silahlı qüvvələrinin böyük bir hissəsi Əfqanıstanı tərk etməlidir. Bu proses tədricən baş verməlidir və onun sonunda ABŞ əsgəri bu ölkənin ərazisində 19 il olduqdan sonra Əfqanıstanın ərazisini tam tərk etməlidir. Əvəzində Taliban Əl-Qaidə, DAİŞ və s. kimi terrorçu təşkilatlara kömək etməməsi və sığınacaq verməməsi öhdəliyini öz üzərinə götürdü. Belə ki, 2014-cü ilin iyul ayından ABŞ-ın Qırğızıstandakı hərbi bazası bağlanmışdır. Halbuki bu ölkədə olan Manas bazası böyük bir hərbi obyektə çevrilmiş və burada təkcə 2012-ci ildə 1,2 min ABŞ hərbi qulluqçusu və personalı var idi.[182] Yuxarıda göstərilənləri xülasə edərək belə bir nəticəyə gəlmək olar

---

[181] Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир, - 2014. № 1 (259), - с. 99.

[182]Старчак, М.В. Сотрудничество России и США в сфере военного сотрудничества с Кыргызстаном и прогноз на будущее // Ежегодник Института международных исследований МГИМО МИД Российской Федерации, - 2014. № 1 (7), - с. 49.

ki, ABŞ-ın Mərkəzi Asiya regionunda strategiyası bir neçə dəfə dəyişmişdir.

1. İlkin dövrdə ABŞ Milli Təhlükəsizlik Strategiyası SSRİ-nin dağılması nəticəsində Mərkəzi Asiya regionunda yaranmış yeni müstəqil dövlətlərə hərtərəfli dəstək verilməsindən ibarət idi. Həmçinin ABŞ bu regiona daxil olan Qazaxıstanın ərazisindən nüvə silahının çıxardılmasına və ümumiyyətlə, bu regionda nüvə silahının yayılmamasına dair səylərin göstərilməsinə öz dəstəyini göstərirdi.

2. Artıq XX əsrin sonunda Mərkəzi Asiya regionu ABŞ-ın Rusiya ilə və onun qüvvətlənməsindən sonra Çinlə strateji rəqabət zonasına çevrilməyə başladı və bu proses indiyə kimi davam edir və çox güman, gələcəkdə də davam edəcəkdir.

3. 11 sentyabr 2001-ci il tarixli hadisələrdən sonra ABŞ özünün əsas səyini beynəlxalq terrorizmlə mübarizəyə yönəltdi. Bu məqsədlə ABŞ əsasını NATO-nun qoşunları təşkil edən beynəlxalq koalisiya qüvvələrinə başçılıq etmiş və terrorçu qüvvələrin (DAİŞ, əl Qəidə və s.) əsas düşərgələrinin və bu qruplaşmaları dəstəkləyən Taliban hakimiyyətinin darmadağın edilməsi məqsədilə Əfqanıstana soxulmuşdur.

4. Bütövlükdə mərkəzi Asiya regionunda cinayətkarlığın yüksək səviyyədə olması, korrupsiya, narkotiklərin qanunsuz dövriyyəsi, radikallıq və s. kimi məsələlərə daha az diqqət yetirilirdi. Bununla belə terrorizmin yayılması təhlükəsi regionda münaqişə potensialını artırır və buradan dünyanın digər regionlarına transmilli və transsərhəd təhlükələrin yayılması ehtimalını çoxaldır. Məhz buna görə Əfqanıstan istiqaməti ABŞ Milli Təhlükəsizlik Strategiyasında və ABŞ-ın prioritetlərinin bu regionda formalaşmasında hələ də əsas yer tutur.

### *3.2. Rusiyanın müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası*

SSRİ-nin dağılmasından sonra yeni yaranmış vəziyyət Rusiyanın Mərkəzi Asiyada təhlükəsizlik strategiyasının yaradılması zərurətini meydana gətirdi. Rusiyanın Mərkəzi Asiyada təhlükəsizlik strategiyası nəinki onun sadəcə bu regionda fəal iştirakını, həmçinin bu regionda aparıcı rol oynamasını nəzərdə tutur. Belə bir geosiyasi baxışa görə, Rusiyanın və Çinin bu regionda maraqları müəyyən mənada üst-üstə düşür və ABŞ-ın bu regiondan "çıxardılmasına" yönəlib.[183] Digər tərəfdən, Rusiya Çinin bu regionda təsirinin artmasına qarşı da çıxış edir və bu amillər nəzərə alınmaqla öz siyasətini həyata keçirməyə çalışır. Rusiya üçün Mərkəzi Asiyada olmaq həm regional, həm də milli təhlükəsizliyin təmin edilməsinin vacib bir vasitəsidir. Belə ki, bu regionun böyük bir hissəsi bir neçə əsr əvvəlcə Rusiya imperiyasına, sonradan isə SSRİ-nin tərkibinə daxil idi. Hal-hazırda da postsovet dövrü Mərkəzi Asiya dövlətləri, şübhəsiz, Rusiyanın vacib milli maraqlar zonasını formalaşdırır və müasir dövrdə bu mənada onların əhəmiyyəti artmaqda davam edir.[184] Rusiya üçün bu geosiyasi məkan bir neçə səbəbdən olduqca əhəmiyyətlidir. Belə ki, Mərkəzi Asiya regionu təbii ehtiyatlarla zəngindir. Onların dünya bazarlarına nəql edilməsi üzərində nəzarətin təmin edilməsi Rusiya üçün böyük əhəmiyyətə malikdir, çünki inhisar olaraq bu dövlətlərə öz şərtlərini diktə etmək və onları özün-

---

[183] Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. 2014. № 1 (259), - с. 99.

[184]Чуфрин, Г.И. Россия в Центральной Азии / Г.И. Чуфрин. – Алматы: КИСИ при Президенте РК, - 2010, - с. 7.

dən asılı vəziyyətdə saxlamağa imkan yaradır. Bununla yanaşı, məhz bu istiqamətdən Rusiyaya uydurulmuş yox, real təhlükələr gələ bilər və Mərkəzi Asiya regionu Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyinin təmin edilməsində vacib əhəmiyyət kəsb edir.[185] Hətta XX əsrin sonlarına kimi Rusiyanın politoloji və elmi elitasının bir hissəsi hesab edirdi ki, avrasiyalıq – Rusiyanın "xacıdır".[186] Bununla belə, fikrimizcə, Rusiyanın müasir geosiyasi konsepsiyaları bu dövlətin Mərkəzi Asiyada praktiki maraqlarının həyata keçirilməsinə istiqamətləndirilib. Halbuki Rusiya elmi ədəbiyyatında iddia edilir ki, ABŞ-dan fərqli olaraq Rusiyanın Mərkəzi Asiya dövlətləri ilə rəsmi bəyan edilmiş əməkdaşlıq konsepsiyası mövcud deyil.[187] Bu fikirlə razılaşmaq çətindir. Belə ki, artıq 2008-ci ildə qəbul olunmuş Rusiyanın Xarici Siyasət Konsepsiyasında onun Mərkəzi Asiya regionunda prioritetləri haqqında bir sıra müddəalar öz əksini tapmışdır. Belə ki, bu sənəddə Əfqanıstan probleminin həll edilməsi zərurəti, regionda MDB-nin xüsusi rolu qeyd olunurdu. Bununla belə, Mərkəzi Asiyaya aid dəqiq müəyyən edilmiş strategiya əks olunmamışdır.[188] İlk növbədə, qeyd etmək lazımdır ki, Rusiya bu regionun bir neçə ölkəsində hərbi cəhətdən iştirak edir və hərbi bazalara malikdir (Tacikistanda və Qırğızıstanda). Digər ölkələr postsovet dövrü

---

[185] Мухаметов, Р.С. Внешняя политика России в ближнем зарубежье / Р.С. Мухаметов. – Екатеринбург: Издательство Уральского университета, - 2015, - с. 60.
[186] Гумеров, Р.А. Геополитические интересы США, Китая и России в Центральной Азии: / автореферат дисс. кандидата полит.наук / М.,2009, - с. 13.
[187] Гумеров, Р. А. Геополитические интересы США, Китая и России в Центральной Азии....с.14.
[188]Баранов, А.Ю. Шанхайская организация сотрудничества и политика США в Центральной Азии: / автореферат дис. канд. полит.наук / М., - 2010, - с. 4.

Mərkəzi Asya dövlətlərində hal-hazırda heç bir hərbi bazaya malik deyillər.

Rusiyanın bu regionda maraqları əsasən beynəlxalq terrorizm, dini ekstremizm, narkotrafikə qarşı mübarizə, həmçinin region dövlətlərinin daxili sabitliyinin təmin edilməsinə yardım etmək kimi komponentlərdən ibarət idi.[189] Bu maraqların təmin edilməsi üçün təhlükəsizlik sahəsində Rusiyanın bir sıra Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığının dərinləşdirilməsi müxtəlif çoxtərəfli regional təşkilatlar çərçivəsində həyata keçirilir. Z.A.Dadabayevanın fikrincə, müasir şərait Rusiyanın Mərkəzi Asiya dövlətləri və ilk növbədə, Mərkəzi Asiya regionunun postsovet dövrü dövlətləri ilə qarşılıqlı fəaliyyətinin yeni formatının tərtib edilməsini tələb edirdi. Belə bir format ŞƏT, Avrasiya iqtisadi İttifaq (Avİİ) kimi təşkilatların çərçivəsində çoxtərəfli əməkdaşlığın gücləndirilməsində ifadə oluna bilər.[190] A.S.Felonenko qeyd edir ki, 1990-2000-ci illər arasında Rusiya rəhbərliyində bu regionun strateji vacibliyi anlayışı formalaşmış və bu özünün ifadəsini bir neçə struktur çərçivəsində institusional əməkdaşlığın inkişafına dəstək verilməsində tapmışdır.[191] A.M.Akmataliyeva xüsusi olaraq vurğulayır ki, məhz Rusiya MDB, KTMT, Avİİ və ŞƏT formatında Mərkəzi Asiya dövlətləri üçün güc mərkəzi-

[189] Дадабаева, З.А. Россия и проблемы безопасности в Центральной Азии. // - М.: Россия и современный мир, - 2008. № 4, - с. 183.

[190] Дадабаева, З.А. Россия – Центральная Азия: Динамика межгосударственного сотрудничества (приоритеты, потенциал, перспективы) // Россия: тенденции и перспективы развития. Ежегодник. М.: ИНИОН РАН, - 2011, - s. 216.

[191] Филоненко, А.Е. Роль и место Российской Федерации в обеспечении безопасности в центрально-азиатском регионе (1991-2017 гг.): / автореферат дис. кандидата историческ. наук. / М., 2018, - с. 22.

dir.[192] Belə ki, MDB kimi beynəlxalq təşkilat çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın (bu təşkilata Rusiya ilə yanaşı Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan kimi dövlətlər də daxildir), Avİİ (Qazaxıstan, Qırğızıstan) kimi beynəlxalq təşkilat çərçivəsində iqtisadi əməkdaşlığın, KTMT kimi beynəlxalq hərbi təşkilat çərçivəsində bu təşkilata üzv olan bir sıra Mərkəzi Asiya dövlətləri (Qazaxıstan, Qırğızıstan və Tacikistan) ilə hərbi əməkdaşlığın, ŞƏT kimi siyasi qurum çərçivəsində bu quruma üzv olan postsovet dövrü Mərkəzi Asiya dövlətləri ilə (bitərəflik siyasətini yürüdən Türkmənistan istisna olmaqla) isə əsasən siyasi və müəyyən dərəcədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi təşkil edir.[193] Bununla belə, Rusiya güclü silahlı qüvvələrə malik olduğu üçün KTMT-da, iqtisadi cəhətdən isə Avİİ-də əsas rol oynayır. Siyasi-iqtisadi funksiyaları yerinə yetirən ŞƏT-də isə həm də Çin iştirak edir və bu hal, şübhəsiz ki, Çinin təhlükəsizlik strategiyasının bir hissəsini təşkil edir. Rusiya təhlükəsizlik sahəsində bu təşkilatlar çərçivəsində tərtib edilmiş müəyyən layihələrdə iştirak edir. Məsələn, MDB çərçivəsində Mərkəzi Asiya regionunda təhlükəsizliyin təmin edilməsinə dair bir neçə layihə tərtib edilib. Onların sırasında vahid hava hücumundan müdafiə sistemini, sülhməramlı fəaliyyəti və Antiterror Mərkəzini qeyd etmək olar. Bununla yanaşı, oxşar strukturlar digər beynəlxalq təşkilatlar çərçivəsində də qurulur. Belə ki, regional antiterror strukturu ŞƏT çərçivəsində də yaradılmışdır. KTMT çərçivəsində isə ümumi hava hücumundan müdafiə sistemi fəa-

[192]Акматалиева, А.М. Трансатлантическое партнерство по вопросам безопасности в Центральной Азии: автореферат дис. канд. полит.наук/ Бишкек, - 2011, - с. 16.

[193]Чуфрин, Г.И. Россия в Центральной Азии / Г.И. Чуфрин. – Алматы: КИСИ при Президенте РК, - 2010, - с. 8.

liyyət göstərir. Yəni təhlükəsizlik sahəsində bir sıra funksiyalar daha sonra yaradılmış müxtəlif təşkilatlarda təkrarlanır. Bu isə təhlükəsizlik sahəsində MDB-nin funksiyalarının qismən daha səmərəli fəaliyyət göstərən təşkilatlara keçməsinə dair fikrin irəli sürülməsinə imkan verir. Bunu müxtəlif sahələrdə (hərbi, iqtisadi, siyasi) ixtisaslaşmış təşkilatların daha sonra yaradılması ilə izah etmək olar. Bu səbəbdən bu təşkilatlar üzərində daha ətraflı dayanmaq məqsədəuyğundur. Belə ki, bu sahədə fəaliyyət göstərən müxtəlif birliklər və qurumlar formal cəhətdən müxtəlif məqsədlər güdmələrinə baxmayaraq, praktikada funksiyalarının bir-biri ilə üstə düşməsi və ya bir-birinə oxşar olması səbəbindən bu və ya digər məsələlər üzrə birgə qəbul edilmiş qərarların yerinə yetirilməsində Rusiya üçün əlaqələndirmə və əməkdaşlığın müəyyən mexanizmi qismində çıxış edirlər.

Yaxşı bəlli olduğu kimi, 8 dekabr 1991-ci ildə MDB-nin yaradılması haqqında saziş, 21 dekabr 1991-ci ildə isə Almatı Bəyannaməsi və MDB-nin yaradılması haqqında sazişə protokol imzalanmışdır. KTMT-nın sələfi olan KTM-in yaradılması haqqında saziş isə 15 may 1992-ci ildə imzalanmış və 20 aprel 1994-cü ildə qüvvəyə minmişdir. Bu sazişi imzalayan Mərkəzi Asiya dövlətləri sırasında Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan da yer almışdır (Onu da vurğulamaq olar ki, bu sazişi Azərbaycan Respublikası da 24 sentyabr 1993-cü ildə imzalamışdır). Sazişin qüvvədə olma müddəti 5 il müəyyən edilmişdir. Sazişin mətnində müddətinin uzadılması (prolonqasiyası) da nəzərdə tutulmuşdur. Buna əsasən 2 aprel 1999-cu ildə Rusiya və digər dövlətlər ilə yanaşı, Qazaxıstan, Qırğızıstan və Tacikistan da sazişin müddətinin daha 5 ilə uzadılmasına dair protokola imza atmışlar. Lakin Azərbaycan bu sazişin müddətini uzatmaqdan imtina etmişdir. Çünki bu təşki-

lat Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüzə heç bir mənfi münasibət göstərməmişdir. Bu halda, təbii ki, ölkənin təhlükəsizliyinin bu təşkilat tərəfindən təmin edilməsindən və ya ölkənin təhlükəsizliyinin təmin edilməsində bu təşkilatın köməyindən danışmaq əsassız idi. Bu sazişin müddətinin uzadılmasına Azərbaycan ilə yanaşı müxtəlif səbəblərdən həm də Gürcüstan və Özbəkistan da qarşı çıxmışdır. KTM-nın Moskva şəhərində 14 may 2002-ci ildə keçirilən sessiyasında KTM-nın tamhüquqlu beynəlxalq təşkilata – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) çevrilməsi haqqında qərar qəbul olunmuşdur. KTMT-nın Nizamnaməsi və hüquqi statusu haqqında Saziş imzalanmış və bu sənədlər 18 sentyabr 2003-cü ildən qüvvəyə minmişdir. Bundan bir müddət keçdikdən sonra Soçidə 26 avqust 2006-cı ildə Özbəkistanın KTMT-yə tamhüquqlu qoşulması (üzvlüyünün bərpa olunması) haqqında qərar qəbul olunmuşdur. KTMT Nizamnaməsinin 3-cü maddəsinə uyğun olaraq, digər məsələlərlə yanaşı, Təşkilatın məqsədlərinə sülhün qorunması, beynəlxalq və regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi də daxildir. Nəzərə almaq lazımdır ki, məhz KTMT-yə görə Rusiyanın Mərkəzi Asiya regionunda hərbi iştirakı qanuni əsasla mümkündür.

Bu qurum çərçivəsində 4 fevral 2009-cu ildə Moskvada KTMT-yə üzv olan dövlətlərin başçıları Kollektiv Sürətli Reaksiya Qüvvələrinin (KSRQ) yaradılmasına dair qərar qəbul etdilər. Bu sənədə uyğun olaraq KSRQ "hərbi təcavüzü dəf etmək, beynəlxalq terrorizm və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik ticarəti, həmçinin fövqəladə halların nəticələrini aradan qaldırmaq üçün xüsusi əməliyyatlar aparmaq üçün" istifadə ediləcəkdir. KSRQ qüvvələri təxminən 20 min şəxsi heyətdən ibarətdir. Bu-

nunla belə bu günə kimi KSRQ-dən praktikada bir dəfə də istifadə olunmamışdır. Hətta bunun üçün əsaslar, o cümlədən hüquqi xarakterli əsaslar olsa belə. Belə ki, Qırğızıstanda 2010-cu ilin aprel ayında mürəkkəb vəziyyət yaranmışdı. Ölkə, demək olar ki, vətəndaş müharibəsi astanasında idi. Ölkə prezidenti Q.Bakıyev yaranmış vəziyyətlə bağlı öz vəzifəsini tərk etməyə məcbur olmuşdu. O, KTMT dövlət başçılarına müraciətində KSRQ-nin Qırğızıstan ərazisinə daxil olması çağırışı ilə çıxış etmişdir.[194] Bu məsələyə baxmaq üçün 8 may 2010-cu ildə KTMT dövlət başçılarının qeyri-formal sammiti keçirilmişdir. Sammitdə Q.Bakıyevin bu müraciətini Belarus prezidenti A.Lukaşenko təqdim etmişdir. Lakin çox sərt keçən müzakirələr nəticəsində bu təklif rədd edilmişdir. Onun əvəzinə KTMT dövlət başçıları "aprel ayında Qırğızıstan Respublikasında hakimiyyətin qeyri-konstitusion çevrilişinə gətirən hadisələri" KTMT tərəfindən bu ölkənin "daxili işi" kimi baxılmasına dair bəyanat qəbul etmişlər. Hətta bu səbəbdən bu təşkilatı Belarus prezidenti A.Lukaşenko kəskin tənqid etdi. A.Lukaşenko KTMT sonrakı fəaliyyətini "perspektivsiz" adlandırmışdır, çünki təşkilat "üzv dövlətlərin birində baş vermiş çevrilişə heç bir reaksiya vermir".

Digər bir halı da qeyd etmək olar. O da Qırğızıstan ilə bağlıdır. 2010-cu ilin iyun ayında ölkədə qırğızlar və özbək diasporası arasında qarşıdurma yaranmışdır. Ölkə, demək olar ki, vətəndaş müharibəsi astanasında idi. Qırğızıstana başçılıq edən Roza Otunbayeva Rusiya prezidenti D.Medvedyevə (o dövrdə bu təşkilata Rusiya başçılıq edirdi) KSRQ-nin Qırğızıstan ərazisinə daxil olması xahişi ilə mü-

---

[194] Бакиев просит страны ОДБК ввести войска в Кыргызстан: [Электронный ресурс] / LB.ua, 12 мая 2010. URL: http:// https://lb.ua/world/2010/05/12/43568_bakiev_prosit_strani_odbk_vvest_.html

raciət etmişdir. Qırğızıstana hərbi yardım göstərilməsi üçün 2010-cu ilin iyun ayında KTMT əsas orqanlarından biri olan Təhlükəsizlik Şuraları Katibləri Komitəsinin iclası çağırılmışdır (Bu orqan milli təhlükəsizliyin təmin edilməsi sahəsində üzv dövlətlərin qarşılıqlı fəaliyyəti məsələləri üzrə KTMT-nin məşvərətçi və icraçı orqanıdır). Lakin hətta müvafiq hüquqi prosedurlara əməl edilməsinə baxmayaraq, KTMT bu müraciətə rədd cavabı verdi. Rusiya prezidenti D.Medvedyev 11 iyun 2010-cu ildə Daşkənddə keçirilən ŞƏT dövlətləri başçılarının sammitində jurnalistlər qarşısında çıxış edərək qeyd etmişdir ki, KTMT qüvvələrinin istifadə edilməsi meyarı kimi bir dövlət tərəfindən bu təşkilata üzv olan digər dövlətin sərhədlərinin pozulması faktı çıxış edir. Qırğızıstanda baş verən ixtişaşlar ilə bağlı Medvedyev qeyd etmişdir ki, Qırğızıstanın bütün problemləri bu ölkənin daxilindədir.[195] Bununla belə, KTMT Qırğızıstana ixtişaş təhrikçilərinin axtarışının təşkil edilməsinə və Əfqanıstanda yaranmış vəziyyətə təsir etməyə çalışan terrorçu qüvvələrin qanunsuz, hüquqazidd fəaliyyətinin qarşısının alınmasına dair əməkdaşlığın əlaqələndirilməsinə, Qırğızıstanın cənubunda güclü mövqelərə sahib olan narkomafia ilə mübarizəyə və s. kömək etmişdir.

Bəzi ekspertlərin fikrincə, KTMT bu məsələdə düzgün mövqe tutmuşdur, çünki KTMT qüvvələrinin Qırğızıstana göndərilməsi bu ölkədə vəziyyəti daha da kəskinləşdirəcəkdi. Məsələn, Belarus Dövlət Universitetinin dosenti R.M.Turarbəkova qeyd edirdi: “Qırğızıstana xarici qoşunların göndərilməsi münaqişənin tənzimlənməsindən daha

[195]Президент России Д.Медведев: ОДКБ не будет вводить войска в Кыргызстан: [Электронный ресурс] / Фергана. Информационное агентство, 19 мая 2020. URL:
https://www.fergananews.com/news.php?id=14928&mode=snews

çox onun dərinləşməsinə kömək edə bilərdi... KTMT üzvləri dəqiq təsəvvür edirdilər ki, Qırğızıstan ərazisində hücuma uğramış kifayət qədər böyük rus icması, əhəmiyyətli dərəcədə qazax və özbək icmaları yaşayır. Əgər Qazaxıstandan, Rusiyadan və ya Özbəkistandan KSRQ-nin göndərilməsi ilə bağlı sual yaranardısa, bu oda yanacaq tökmək olardı. Qırğızıstanda 2010-cu ilin aprel hadisələrindən bu yana müşahidə olunan millətçiliyin yüksəlişi son parlament seçkilərinin nəticələrinə əsasən azalmır. Qırğızıstanda parlamentə keçən beş siyasi partiya sırasında ilk yerlərdən birini Qırğızıstanın cənubundakı mənfur millətçi lider Kamçıbek Taşiyevin maraqlarını təmsil edən partiya tutdu. Buna görə də KSRQ-nin münaqişə zonasına göndərilməməsi qərarı kifayət qədər ağlabatandır”.[196]

KTMT həmçinin sərhəd problemlərinin (məsələn, Əfqanıstan ilə sərhəddə) və narkotrafik ilə bağlı problemlərin həll edilməsində fəal iştirak edir.

Onu da qeyd etmək lazımdır ki, Özbəkistan öz xarici siyasətində nisbi bitərəflik siyasətinin yürüdülməsinə doğru istiqamət götürdüyündən 28 iyun 2012-ci ildə nota göndərərək özünün KTMT üzvlüyünün dayandırılmasını bildirdi. (Rəsmi olaraq bu, 19 dekabr 2012-ci ildə qərara alındı).

KTMT ilə yanaşı Rusiyanın təhlükəsizlik strategiyasına onun ŞƏT çərçivəsində fəaliyyətini də aid etmək olar. Belə ki, Rusiya bu təşkilata böyük önəm verir. A.Y.Baranov qeyd edir ki, Rusiya üçün ŞƏT-də iştirak etmə Rusiya Federasiyasının cənub-şərq sərhədlərində “təhlükəsizlik döv-

[196] Турарбекова Р.М. ОДКБ сегодня находится в стадии институционализации, поэтому она не должна участвовать в урегулировании горячих конфликтов: [Электронный ресурс] / FPS. Диалог ради безопасности. Центр изучения внешней политики и безопасности.URL: http://forsecurity.org/turarbekova-bgu-odkb-segodnya-nahoditsya-v-stadii-institucionalizacii-poetomu-ona-ne-dolzhna

rəsini" yaratmaq və regionda ənənəvi və qeyri-ənənəvi təhdidlərə kollektiv əks-müqaviməti gücləndirməyə imkan yaradır.[197]

ŞƏT 15 iyun 2001-ci ildə Rusiya, Çin, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan tərəfindən yaradılmışdır.[198] Hindistan və Pakistan kimi dövlətlər ŞƏT-ə üzv olmaq arzusunu irəli sürdükdən sonra 10 iyul 2015-ci ildə onların bu təşkilata üzv olma proseduruna başlanmışdır. Artıq 9 iyun 2017-ci ildən bu ölkələr ŞƏT-in tamhüquqlu üzvlərinə çevrilmişlər.[199]

Öz mahiyyətinə görə beynəlxalq təşkilat kimi ŞƏT-i nə hərbi blok (KTMT, NATO) nə də, məsələn, sülhün və sabitliyin təmin edilməsi ilə bağlı məsələlərin bütün spektri üzrə məsələlər üzrə ASEAN çərçivəsində çoxtərəfli ümumregional siyasi dialoqun əsas mexanizmi olan Cənub-Şərqi Asiya Dövlətlərin Regional Təhlükəsizlik Forumu kimi mütəmadi fəaliyyət göstərən təhlükəsizlik üzrə müşavirə qurumu kimi dəyərləndirmək olmaz. O orta mövqe tutur.[200] ŞƏT-ə üzv olan ölkələrin ümumi ərazisi 34 mln. km-dən artıqdır, yəni Avrasiya qitəsinin 60%-ni əhatə edir. Bununla

---

[197]Баранов, А.Ю. Шанхайская организация сотрудничества и политика США в Центральной Азии: / автореферат дис. кандидата полит.наук / - М., - 2010, - с. 5.

[198]Декларация о создании Шанхайской организации сотрудничества (Шанхай, 15 июня 2001 г.): [Электронный ресурс] / Право РФ и КНР, 1 декабря 2010. URL: http://www.chinaruslaw.com/RU/CnRuTreaty/hf7le8ho/2010112121259_792690.html

[199] Индия и Пакистан стали членами ШОС: [Электронный ресурс] / РИА НОВОСТИ, 9 июня 2017. URL: https://ria.ru/20170609/1496181707.html

[200]Зимонин, В.П. Шанхайская организация сотрудничества и евразийское измерение безопасности // Шанхайская организация сотрудничества: к новым рубежам развития: Материалы кругл.стола. - М.: Ин-т Дальн. Вост. РАН, - 2008, - с. 202.

yanaşı, ŞƏT-ə üzv olan ölkələrin əhalisinin sayı Yer kürəsi əhalisinin yarısından çoxunu təşkil edir.

Bundan əlavə, Çin iqtisadiyyatı ÜDM nominal pariteti baxımından dünyada ikinci (ABŞ-dan sonra), ÜDM alıcılıq qabiliyyəti pariteti üzrə isə birinci yerdədir. Rusiya və Qazaxıstan da iqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri sırasındadır.

Təşkilatın əsas vəzifələri üzv dövlətlərini birləşdirən geniş bir məkanda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizm, separatizm, ekstremizm, narkotik ticarəti ilə mübarizə, iqtisadi əməkdaşlığın inkişafı, enerji tərəfdaşlığı, elmi və mədəni qarşılıqlı fəaliyyətin göstərilməsidir. Belə ki, Mərkəzi Asiyada təhlükəsizlik təhdidlərini şərti olaraq iki qrupa bölmək olar: xarici (narkotrafik, silah qaçaqmalçılığı, terrorizm metodlarından istifadə edən və xaricdən dəstək alan ekstremist qrupların fəaliyyəti) və daxili (iqtisadiyyatdakı disbalans, artan sosial bərabərsizlik, su problemləri və əkinçilik üçün yararlı olan müəyyən torpaq sahələrinin azalması, bölgələrarası və klanlararası rəqabət).[201]

ŞƏT ilk mərhələdə təhlükəsizlik sahəsində özünün əsas məqsədini beynəlxalq terrorizm, dini ekstremizm və etnik separatçılıq ilə mübarizədə də görürdü. Mərkəzi Asiya regionunda beynəlxalq terrorizm və etnik separatçılıq ilə mübarizənin yüksək dərəcədə səmərə verməsi nəticəsində tədricən bu problemlər arxa plana keçmiş, on plana isə dini ekstremizmə qarşı mübarizə çıxmışdır. Bundan əlavə, ŞƏT yeni yaranmış təhdidlərə və çağırışlara da öz reaksiyasını

---

[201] Султанов, Б.К. Россия и ШОС – взгляд из Казахстана // Сборник материалов КИСИ при Президенте Республики Казахстан к юбилейному саммиту ШОС 2006 г. в Шанхае, - Алматы: КИСИ. Фонд им. Ф.Эберта, - 2006, - с. 24.

göstərir. Xüsusən energetika sahəsini göstərmək olar. Bu sahədə ŞƏT bütün Mərkəzi Asiya regionunda təhlükəsizlik sisteminin ayrılmaz hissəsinə çevrilməli və ən perspektivli olan "Enerji Klubu" adlı layihəyə dəstək verir. Belə bir klubun yaradılması ideyası Rusiya prezidenti V.Putin tərəfindən 2006-cı ildə irəli sürülmüşdür. İlk olaraq Enerji Klubu konsepsiyasının 4 ölçüsünü qeyd etmək olar: a) qlobal xarakterli; b) Avrasiya-regional xarakterli (Rusiya, Çin və Mərkəzi Asiyanın 4 ölkəsi); c) Mərkəzi Asiya regionarası xarakterli; d) ölkədaxili xarakterli (ŞƏT-ə üzv dövlətlərin milli enerji modellərinin inkişafı).[202] Çox güman ki, belə bir təşəbbüsün irəli sürülməsi Rusiya Federasiyasının 2020-ci ilə kimi Milli Təhlükəsizlik Strategiyasından irəli gəlir. Belə ki, bu sənədin 11-ci bəndində qeyd edilirdi ki, uzunmüddətli perspektivə beynəlxalq siyasətin diqqəti enerji resurslarının mənbələrinin, o cümlədən Mərkəzi Asiyadan əldə edilməsinə yönəlmişdir. Bununla yanaşı, Rusiya Federasiyası prezidentinin 31 dekabr 2015-ci il tarixli fərmanı ilə təsdiq edilmiş yeni Milli Təhlükəsizlik Strategiyasında Rusiya tərəfindən ŞƏT-in siyasi və iqtisadi potensialının artırılmasına, onun çərçivəsində Mərkəzi Asiyada tərəfdaşlığın və qarşılıqlı etibarın möhkəmləndirilməsinə kömək edən praktiki tədbirlərin həvəsləndirilməsinə böyük önəm verilir.

Bununla belə, energetika sahəsində əməkdaşlıq tərəfdaşlar arasında müəyyən ziddiyyətlər də yaradır. Belə ki, bu sahədə Rusiya və Qazaxıstan arasında (neft sahəsində), Rusiya və Türkmənistan arasında (qaz sahəsində) rəqabətdən danışmaq olar. Məsələn, Rusiya Türkmənistandan Azərbaycana və daha sonra Avropaya qaz kəmərinin çəkil-

---

[202] Литвинов А.И. Энергетический клуб ШОС: [Электронный ресурс] / Международный экономический форум 2015. URL: http://be5.biz/ekonomika1/r2015/2944.html.

məsi layihəsinə qarşı çıxır və onun həyata keçirilməsinə imkan vermir. Digər tərəfdən, Rusiya Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan (TƏPH) qaz kəmərinin tikintisini dəstəkləmir, çünki belə bir qaz kəmərinin tikintisi Türkmənistanın öz qazını dünya bazarlarında satmasında Rusiyadan asılılığını azaldır. Yaxşı bəllidir ki, Rusiya Türkmənistan qazının birbaşa Avropa bazarlarına çıxışında yalnız tranzit ölkə olmağa razılıq vermirdi və Türkmənistan qazını daha ucuz qiymətə alaraq (dünya bazarlarında olan qiymətdən daha aşağı), bu qazı özü dünya bazarlarında olan qiymətlərlə satırdı və belə bir əməliyyatdan böyük bir gəlir əldə edirdi. Dünya bazarlarında və xüsusən də Avropada qaz ticarətində rəqabətin artması səbəbindən Rusiya öz qazını satmaq məqsədilə Türkmənistan qazından hal-hazırda imtina etmişdir. Buna baxmayaraq, demək olar ki, Mərkəzi Asiya regionunun bir sıra ölkələrinin energetika sahəsində siyasəti Rusiya və Çinlə əməkdaşlığa yönəlib, çünki bu onların və bütövlükdə bu regionun sabitliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsinə kömək edir.[203]

Rusiyanın ŞƏT çərçivəsində bu quruma daxil olan digər ölkələrlə əməkdaşlığının digər vacib sahəsini Əfqanıstandan narkotiklərlə ticarət və narkotik qaçaqmalçılığı ilə mübarizə təşkil edir.

Bütövlükdə, demək olar ki, ŞƏT regionda təhlükəsizliyin təmin edilməsində müəyyən uğurlar əldə etmişdir.

Rusiyanın təhlükəsizlik strategiyasına müəyyən dərəcədə onun Avİİ çərçivəsində fəaliyyətini də aid etmək olar. Avİİ 1 yanvar 2015-ci ildə yaradılmışdır. Onun sələfi olan Avrasiya İqtisadi Birliyinin yaradılması haqqında saziş 10

---

[203] Быков, А.И. Экономическое сотрудничество в рамках ШОС: основные направления и перспективы развития: монография / А.И.Быков. - Москва: ФЛИНТА: Наука, - 2011, - с. 128-135.

oktyabr 2000-ci ildə imzalanmış və 30 may 2001-ci ildə qüvvəyə minmişdir. Rusiyanın əsas məqsədi Mərkəzi Asiya regionunda bu beynəlxalq təşkilata daxil olan ölkələrlə iqtisadi sahədə inteqrasiya proseslərinin yaradılması və inkişaf etdirilməsidir. Təbii ki, bu sahədə uğurların əldə edilməsi Rusiya dövlətinin iqtisadi qüdrətinin artırılmasına, bununla da bu dövlətin regionda çəkisinin daha da artmasına səbəb olur.

Onu da qeyd etmək olar ki, bu beynəlxalq təşkilatların bir sıra funksiyaları bir sıra hallarda bir-birini təkrarlayır. Çox güman ki, bu səbəbdən, bu təşkilatların zamanca fəaliyyət sahələrinin "ixtisaslaşdırılması" və müxtəlif sahələr üzrə onların üzv dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi Mərkəzi Asiya regionunda təhlükəsizlik problemlərinin daha da səmərəli həllinə gətirə bilər.

Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar:

1. Yeni postsovet dövrü dövlətlərinin yaranmasından və yeni formatda Mərkəzi Asiya regionunun formalaşmasından sonra ilkin dövrdə Rusiyanın milli təhlükəsizliyinin həyata keçirilməsinin əsas vəzifəsini bu regiona daxil olan bütün dövlətlərlə və ilk növbədə, yeni yaranmış dövlətlərlə əməkdaşlığın yaradılması və onlarla dövlətlərarası münasibətlərin yeni konfiqurasiyasının qurulması təşkil edirdi.

2. Bu regiona aid Rusiyanın milli təhlükəsizlik strategiyasının vacib aspektini nüvə silahı təhlükəsinin aradan qaldırılmasına dair tədbirlərin tərtib və qəbul edilməsi təşkil edirdi. (Belə ki, Qazaxıstan Respublikasının ərazisində nüvə silah və sursatları hələ SSRİ dövründən yerləşdirilmişdir. Və nəzəri cəhətdən bir sıra hallarda onun ərazisində yerləşdirilmiş nüvə silahının müxtəlif terrorist və ya ekstremist qrupların və qruplaşmaların əllərinə düşə bilməsi təhlükəsi mövcud idi).

3. Əfqanıstan ərazisində beynəlxalq terrorizm ilə (Taliban, Əl-Qaidə və s.) koalisiya qüvvələrinin mübarizəsinin dəstəklənməsinə yönəlmiş tədbirlərin tərtib edilməsi Rusiya milli təhlükəsizlik strategiyasının vacib bir mərhələsini təşkil edirdi.

4. Müasir dövrdə Rusiyanın milli təhlükəsizlik strategiyasının tərkib hissəsini bu regionda ABŞ və Çin kimi əsas dünya aktorları ilə geostrateji və geosiyasi mübarizə təşkil edir. Bununla bərabər, bu regiondan ABŞ-ın çıxardılması və ya bu regionda onun əhəmiyyətli dərəcədə təsirinin azaldılması üzrə bir sıra məsələlərə dair Rusiyanın və Çinin maraqları üst-üstə düşür.

5. Rusiya terrorizm, dini ekstremizm, Əfqanıstandan narkotrafik daxil olmaqla, narkobiznes kimi bir sıra müasir Mərkəzi Asiya dövlətlərinin milli təhlükəsizliyinə edilən təhdidlərə qarşı mübarizəyə dəstək verir. Bu dövlətlər müəyyən mənada Əfqanıstan və Rusiya Federasiyasının ərazisi arasında bufer rolunu oynayırlar. Və hüdudlarından kənarda yuxarıda qeyd edilən təhdidlərlə və çağırışlarla mübarizə Rusiya üçün əhəmiyyətli dərəcədə önləyici xarakter daşıyır.

6. Postsovet dövrü Mərkəzi Asiya dövlətlərinə hərtərəfli yardımın göstərilməsi Rusiya milli təhlükəsizlik strategiyasının vacib ünsürünü təşkil edir, çünki bu növ tədbirlərin qəbul edilməsi Rusiya Federasiyasının hüdudlarında terrorizmin, dini ekstremizmin, narkobiznesin və s. yayılması kimi təhdidlərdən irəli gələn mənfi nəticələri əhəmiyyətli dərəcədə azaldır.

### 3.3. Çinin müasir Mərkəzi Asiyada təhlükəsizlik strategiyası

Çin dövləti müasir dövrdə bir neçə əsas göstəriciyə (əhalisinin sayı, iqtisadi cəhətdən inkişafı, ərazisi, hərbi qüvvəsi, texnoloji inkişafı, elmi və texnikanın inkişafı və s.) görə dünya siyasətində ən əsas aktorlardan birinə çevrilir. Milli Statistik Bürosunun məlumatına əsasən, 2019-cu ilin sonuna bu ölkənin əhalisinin sayı 1,4 mlrd.-dan çox insan təşkil edirdi.[204] Ərazisinə görə dünyada 3-cü, ordusunun sayına görə 1-ci, hərbi büdcəsinə görə isə 2-ci yeri tutur. Bir neçə il ərzində ildə orta götürdükdə 10% təşkil edən böyük iqtisadi artım nəticəsində Çin dünya iqtisadiyyatının liderinə çevrilmişdir. Əmtəə ixracatının miqyası təkcə 2014-cü ildə bu göstəriciyə görə 2-ci və 3-cü yerləri tutan ABŞ əmtəə ixracat miqyasından 60% daha çox, Almaniya əmtəə ixracat miqyasından isə 75% çox idi. İdxalat üzrə isə Çin ABŞ-dan sonra dünyada 2-ci yerdədir. Həmçinin Çin dünyada sənaye istehsalına və qızıl-valyuta ehtiyatlarına görə 1-ci yeri tutur. Bununla yanaşı, Çin iqtisadiyyatı nominal ÜDM-ə görə dünyada ikinci yerdə, ÜDM alıcılıq qabiliyyəti paritetinə görə isə 1-ci yerdədir.

Nəzərə almaq lazımdır ki, geniş mənada Mərkəzi Asiya regionuna coğrafi cəhətdən Çinin ərazisinin bir hissəsi daxildir. Həm də Mərkəzi Asiya regionuna daxil olan digər dövlətlərlə Çin ya həmsərhəddir, məsələn, Tacikistan və Türkmənistanla, ya da ki, onlara yaxın olan ərazidə yerləşir. Yüksək iqtisadi göstəricilərə baxmayaraq, Çin məhdud

---

[204] Statistical Communiqué of the People's Republic of China on the 2019 National Economic and Social Development: [Electronic resource] / National Bureau of Statistics of China. February 28, 2020. URL: http://www.stats.gov.cn/english/PressRelease/202002/t20200228_1728917.html

resurs ehtiyatlarına malikdir. Onunla sərhəd olan müasir Mərkəzi Asiya dövlətləri isə (xüsusən də Qazaxıstan, Özbəkistan və Türkmənistan) təbii resurslarla və faydalı qazıntılarla zəngindir. Bununla yanaşı, Çinin bu regiona cəlb olunması, həmçinin onun qərb sərhədlərinin təhlükəsizliyinin artırılması vasitəsidir.[205] Bu amillər isə, təbii ki, bu regionda Çinin maraqlarının olmasına dəlalət edir.

Çinin bir sıra Mərkəzi Asiya dövlətləri ilə, xüsusilə də postsovet Mərkəzi Asiya dövlətləri ilə qarşılıqlı fəaliyyətinin bir neçə mərhələsini qeyd etmək olar. SSRİ mövcud olduğu zamanda Çinin, təbii ki, SSRİ-nin tərkibində olan hər hansı bir respublika ilə ayrıca bir əməkdaşlığının həyata keçirilməsindən danışmaq belə yersiz idi. Bütün belə əlaqələr Çinin SSRİ ilə ikitərəfli əməkdaşlığı çərçivəsində həyata keçirilirdi. SSRİ-nin dağılması prosesi və Mərkəzi Asiya regionunda yeni dövlətlərin yaranması dünyanın bu regionunda vəziyyəti köklü surətdə dəyişdi və yeni bir geosiyasi durum yaratdı. Bu isə Çinin Mərkəzi Asiya regionunda yeni yaranmış dövlətlərlə əməkdaşlıq strategiyasının tərtib edilməsini zəruri etdi. İlk mərhələdə Çinin bu dövlətlərlə iqtisadiyyat (ticarət əməliyyatlarının həyata keçirilməsi), mədəniyyət, elmi-texniki əməkdaşlıq və s. sahələrdə qarşılıqlı fəaliyyətinin ən sadə formaları qurulurdu və bu təbii idi. Belə ki, 90-cı illərin əvvəllərində Çin iqtisadiyyatının özü transformasiya olunma mərhələsində idi.

Çinin Mərkəzi Asiya regionunda yeni yaranmış dövlətlərlə qarşılıqlı fəaliyyətinin inkişafının yeni mərhələsi Çinin iqtisadi potensialının kəskin artması və bu dövlətin dünyanın iqtisadi cəhətdən ən qüdrətli dövlətlərin birinə çevrilməsi ilə bağlıdır. Belə ki, Çin iqtisadiyyatı 1990-cı il-

---

[205] Liao, X. Central Asia and China’s Energy Security // - The China and Eurasia forum quarterly, - 2006, Vol. 4. No. 4, - p. 61.

lərin sonundan bu günə kimi 10 dəfədən çox artmışdır. Əgər 1999-cu ildə Çinin ÜDM-i 1,09 trln. ABŞ dolları təşkil edirdisə, artıq 2018-ci ildə 13,5 trln. dollara çatmışdır. Bu amil isə qlobal beynəlxalq münasibətlər sistemində Çinin həm də siyasi çəkisinin artmasına gətirib çıxarırdı. Faktiki olaraq hal-hazırda Çin müasir beynəlxalq münasibətlər sistemində dünyanın əsas aktorlarından birinə çevrilib. Təbii ki, bu amil Çinin Mərkəzi Asiya regionunda təhlükəsizlik strategiyasının əsas parametrlərinin tərtib edilməsini tələb edirdi.

Çinin Mərkəzi Asiya regionunda təhlükəsizlik strategiyasını müəyyən edən bir neçə amili qeyd etmək olar. Bunlara aşağıdakılar aiddir:

- Çinin Qazaxıstan, Qırğızıstan və Tacikistan ilə uzunluğu təxminən 3300 km olan qərb sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi;
- Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əməkdaşlıq (o cümlədən investisiya sahəsində);
- iqtisadi əməkdaşlıq vasitəsilə Mərkəzi Asiya regionuna daxil olmaq;
- müsəlmanların məskunlaşdığı Çinin şimal-qərb hissəsinə (Sincan - Uyğur Muxtar Rayonu) dini ekstremizmin daxil olmasına və yayılmasına qarşı müqavimət göstərmək;
- Sincan - Uyğur Muxtar Rayonunda separatizm ilə mübarizə;
- Mərkəzi Asiya regionu ölkələrində sabitliyin yaranması və qorunması proseslərinə kömək etmək və s.

Qeyd etmək lazımdır ki, SSRİ-nin dağılmasından sonra Çinin təhlükəsizlik problemlərindən birini Çinin Sincan-Uyğur Muxtar Rayonunda postsovet dövrü Mərkəzi Asiya dövlətləri ilə qərb sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi problemi təşkil edirdi. Orada baş verən hadisələr

uyğur separatçıları və onların Qazaxıstandakı böyük uyğur diasporasının da köməyi ilə müstəqil Şərqi Türküstan dövlətinin yaradılması uğrunda hərdən zorakılıq üsullarından da istifadə edərək verdiyi mübarizəsi ilə bağlıdır.[206] Bu səbəbdən, ilk növbədə, Çinin postsovet dövrü Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığının əsas məqsədlərindən birini bu dövlətlərdən uyğur separatçı təşkilatlarına dəstəyin verilməməsi təşkil edirdi.

Həmçinin Çin Mərkəzi Asiya regionu ölkələri ilə iqtisadi əməkdaşlığa xüsusi diqqət ayırır. Bu strateji iqtisadi təhlükəsizlik problemi ilə sıx bağlıdır, çünki böyük surətlə artan Çin iqtisadiyyatı üçün alternativ energetika arteriyasının yaradılması (o cümlədən bir sıra Mərkəzi Asiya regionu ölkələrindən enerji resurslarının alınması) çox vacibdir. Belə ki, Çin bu regionda iqtisadi xarakterli müxtəlif layihələrə böyük miqdarda vəsait qoyaraq fəal investisiya siyasətini həyata keçirir. Təkcə 8-9 iyun 2017-ci ildə Astanada keçirilən ŞƏT sammitində Çin müasir Mərkəzi Asiya ölkəsi olan Qazaxıstanla ümumi miqdarı 7 mlrd. dollar olan 22 iqtisadi xarakterli saziş imzalamışdır. 2017-ci ilin may ayında isə Çin Özbəkistanla ümumi miqdarı 20 mlrd. dollar olan bir sıra sazişlər imzalamışdır. Qırğızıstanda Çin investorlarının qoyduqları vəsaitlər hesabına energetika, dağ-mədən və nəqliyyat sahələrində bir sıra layihələr həyata keçirilir. Məsələn, Bişkekdə İstilik Enerji Mərkəzinin modernləşdirilməsi, ölkənin şimal və cənubunu birləşdirən yolun tikintisi, Datka-Kəmin yeni enerji ötürücü xəttin qurulması Çin investisiyalarının hesabına həyata keçirilir. Təkcə 2018-ci ildə regionun 5 ölkəsinə birbaşa Çin investisiyalarının həcmi 15 mlrd. dollara çatmışdır. 2019-cu ilin yekununa görə,

---

[206] Liao, X. Central Asia and China's Energy Security // - The China and Eurasia forum quarterly, - 2006, Vol. 4. No. 4, - p. 62.

Çinin Mərkəzi Asiya dövlətləri ilə əmtəə dövriyyəsinin həcmi 33 mlrd. dolları keçmişdir.

Çinin postsovet dövrü Mərkəzi Asiya regionu dövlətləri ilə qarşılıqlı münasibətlərinin əsasən Çindən başlayaraq Mərkəzi Asiya dövlətləri, Rusiya, Azərbaycan, Gürcüstan, Türkiyə və s. ölkələrinin ərazisindən keçərək Avropaya gedən nəqliyyat dəhlizinin yaradılmasına yönəlmiş Yeni İpək Yolu (YİY) konsepsiyasının özünə sərf edilən Çin variantının həyata keçirilməsi ilə bağlıdır. Belə ki, YİY Çin variantı müasir dünyada Çinin inkişaf strategiyasının ən vacib hissəsindən birini təşkil edir. Bu konsepsiya ən rahat və iqtisadi cəhətdən əlverişli tranzit yollarını qurmaqla yanaşı, Çinin daha zəif inkişaf etmiş daxili regionlarının iqtisadi inkişafını gücləndirmək, ərazisindən keçən dövlətlərin iqtisadiyyatına müsbət təsir göstərmək, həm də Çin malları üçün yeni bazarların yaradılması (Asiyadan Avropaya daşınan malların 1%-dən çoxu yerüstü nəqliyyat vasitələri ilə daşınır) məqsədlərini güdür. Bu konsepsiya Çin Xalq Respublikasının Sədri Si Szinpin tərəfindən 2013-cü ilin sentyabr ayında Astanada "Bir kəmər, bir yol" şüarı altında irəli sürülmüşdür.[207] Bu təşəbbüsü həm də "İpək yolunun iqtisadi kəməri" adlandırırlar. "Bir kəmər, bir yol" Avrasiyanın böyük bir hissəsini əhatə etməlidir. O inkişafda olan ölkələri, o cümlədən "yeni iqtisadiyyatlar" adlanan ölkələri və inkişaf etmiş ölkələri birləşdirməlidir. "İpək Yolu İqtisadi Kəməri" transqitə dəmir yollarından İrana, Hindistana, Pakistana, Əfqanıstana yeni dəmir yollarının tikintisini, transqitə dəmir yollarının Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yollarına birləşdirilməsini, Boğazın altındakı Marmara tunelini, Xəzər dənizi üzrə bərə keçidlərini (Azərbaycan-

[207]Fallon, Th. The New Silk Road: Xi Jingping's Grand Strategy for Eurasia // -American Foreign Policy Interests, - 2015.№. 37(3), - pp. 140-145.

Türkmənistan, Azərbaycan-Qazaxıstan) və s. özünə daxil edir. Beləliklə, Çini Avropa ilə birləşdirən iqtisadi baxımdan çox əlverişli yeni bir nəqliyyat dəhlizi açılır. Belə dəhlizin xüsusiyyəti hər hansı bir tranzit ölkədən asılılığını azaldan müxtəlif yolların tikilməsidir. Məsələn, Çin Qırğızıstana, oradan isə Özbəkistana Qazaxıstandan yan keçən yeni bir nəqliyyat yolu açmışdır. Bu yol Qazaxıstandan və Rusiyadan tranzit olmadan Çindən Avropaya çəkilən beynəlxalq nəqliyyat dəhlizin birinci hissəsidir. Bu dəhlizin ikinci hissəsini Türkmənistandan keçərək Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropaya çıxış təşkil edir.

Bu isə bütövlükdə Çinə Avropa ölkələri, Mərkəzi Asiya ölkələri, Rusiya, Cənubi Qafqaz, Türkiyə, Yaxın və Orta Şərq ölkələri ilə idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində Mərkəzi Asiya dövlətlərinin tranzit imkanlarının istifadə etməsini çox əlverişli edir.[208] Təkcə son 10 ildə bu regionda Çinin köməkliyi ilə 26 yeni nəqliyyat marşrutu yaradılmışdır. Artıq Çin müasir Mərkəzi Asiyada "Bir kəmər, bir yol" layihəsi çərçivəsində infrastrukturun qurulmasına 1 mlrd. ABŞ dollarından çox vəsait yatırtmışdır.

Onu da qeyd etmək lazımdır ki, Asiyadan başlayaraq Avropaya gedən nəqliyyat dəhlizinin böyük bir hissəsi artıq tikilmiş və onun istifadə olunmasına başlanmışdır. Belə ki, Azərbaycanda və Türkmənistanda böyük limanlar, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu artıq tikilərək istifadəyə verilmiş və bu marşrut ilə Çindən Avropa ölkələrinə yüklərin daşınmasına başlanmışdır.

---

[208] Быстрова, А. Проблемы глобальной инфраструктуры в центрально-азиатском регионе. Оптимизация роли России / А. Быстрова. - М.: ИМЭМО РАН, - 2013, - с. 35.

Mərkəzi Asiyaya aid bu konsepsiyanın həyata keçirilməsi, Çinin bu region dövlətləri ilə iqtisadi əməkdaşlığın miqdarı və belə əməkdaşlığın sürətləndirilməsi və s. geosiyasi nöqteyi-nəzərdən Çinin Mərkəzi Asiya regionuna özünün "lebensraum"u (yaşayış məkanı) kimi baxmasına dələlət edir.[209] Çinin Mərkəzi Asiya dövlətlərində iqtisadi cəhətdən olması getdikcə daha sistemli xarakter alır. Belə ki, 1990-cı və 2000-ci illərin əvvəllərində Çin investisiyaları əsasən yanacaq-enerji sektoruna qoyulurdu, bu da təbiidir, çünki Çin enerji daşıyıcılarının istehlak edilməsində liderlərdən biridir və və son 25 ildə Çində bu göstərici 3,5 dəfə artmışdır.[210] Bununla belə, XXI əsrin ikinci yarısında investisiyalar iqtisadiyyatın digər sahələrinə - infrastruktura, tikintiyə, kənd təsərrüfatına və s. də qoyulurdu.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi cəhətdən Rusiya və Çin arasında Mərkəzi Asiya regionunda ciddi rəqabət getdiyini görmək olar. Rusiya bu ölkələrlə Avİİ çərçivəsində iqtisadi inteqrasiyanı Çin isə YİY çərçivəsində inteqrasiya proqramını irəli sürür. Rusiya və Çinin irəli sürdüyü proqramların əsas mahiyyəti müasir Mərkəzi Asiya dövlətlərini öz iqtisadi və mümkün dərəcədə siyasi məkanına cəlb edilməsindən ibarətdir. Avİİ-nin təsis edilməsi müəyyən dərəcədə Çindən malların bu regiona ixracatının qarşısının alınmasına yönəlib. Və bunun əksinə Rusiya mallarının bu regionda sərbəst dövriyyəsinə imkan yaratmaq məqsədi güdür.

---

[209] Маркетос, Т. Н. Стратегия Китая в отношении Центральной и Южной Азии: энергетические интересы и безопасность // - Лулео: Центральная Азия и Кавказ. 2012. Т. 15. Выпуск 1, - с. 50.

[210] Полаева, Г.Б., Драганюк, Д.О. Перспективы энергетического сотрудничества стран БРИКС // Глобальные энергетические и экономические тренды / под ред. С.В.Жукова. – М.: ИМЭМО РАН, - 2019, - с. 171.

Bununla belə, Çinin daha ciddi maliyyə resurslarına malik olması bu ölkənin müasir Mərkəzi Asiya regionunda iqtisadi siyasətini daha da gücləndirir. Həmçinin Çin iqtisadiyyatının, demək olar ki, bütün sahələr üzrə uğurlu inkişafı bu ölkəyə müasir Mərkəzi Asiya dövlətlərinə bütün istiqamətlər üzrə əməkdaşlığın inkişafı üçün təkliflərin irəli sürülməsinə imkan verir. Onu da nəzərə almaq lazımdır ki, Çin postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin resurslarının vacib istehlakçısıdır. Məsələn, Türkmənistanın ixracatının, demək olar ki, 70%-i Çinin üzərinə düşür. Qazaxıstanın 1995-ci ildə ümumi ixracatının 5,9%-i Çinin üzərinə düşürdüsə, bu göstərici 2011-ci ildə 18,5% qədər artmışdır. Təkcə 2017-ci ildə iki ölkə arasına ticarət dövriyyəsi 18 mlrd. dollar təşkil etmişdir (düzdür, 2019-cu ilin yekunlarına görə, bu məbləğ bir qədər azalmış və 14,5 mlrd. dollar təşkil etmişdir). Çin investisiyalarının həcmi 7%, Qazaxıstan şirkətlərinin Çin qarşısında kreditlərinin həcmi isə 5% çatmışdır. Nəticə etibarilə, bəzi hesablamalara görə, Qazaxıstanın Çinə borcu 12,6 mlrd. ABŞ dollarına çatmışdır. Yeni geosiyasi şəraitdə Qazaxıstan son onillikdə Çinin əsas biznes və ticarət tərəfdaşlarından birinə çevrilmişdir.[211]

Özbəkistanın ixracatında Çin 2-ci yerdədir. Çin müasir Mərkəzi Asiya dövlətlərinə daxil olmaq məqsədilə müxtəlif iqtisadi vasitələrdən istifadə edir. Onların içində kreditlərin verilməsi xüsusi yer tutur. Məsələn, Çin Eksimbankının payı Qırğızıstanın xarici borcunun təxminən 44,8%-ni (1,7 mlrd. ABŞ dolları) təşkil edir. Digər Mərkəzi Asiya dövləti – Tacikistanın xarici borcunun təxminən 54,1% (1,2 mlrd. ABŞ dolları) də elə həmin bankın payına düşür. Bəzi he-

[211] Жуков, С.В., Резникова, О.Б. Центральная Азия и Китай: экономическое взаимодействие в условиях глобализации. - М.: ИМЭМО РАН, - 2009.

sablamalara görə Türkmənistanın Çinin qarşısında kredit borcu təxminən 12 mlrd. ABŞ dolları təşkil edir. Belə kreditlər müxtəlif layihələrin maliyyələşdirilməsi üçün aşağı faizlərlə verilir. Bu, təbii ki, çox cazibədar görsənir. Lakin burada bir şərt var. Belə kreditlər yalnız işlərin yerinə yetirilməsində Çin materiallarından, texnikasından, işçi qüvvəsindən istifadə edilməsi şərti ilə verilir. Bununla yanaşı, digər iqtisadi üsullardan istifadə edilir. Məsələn, biznesdə payların verilməsi, məhsulun bölüşdürülməsi haqqında sazişlərin tətbiq edilməsi və s. Belə üsulların tətbiqi Çin istehsalat resurslarının istifadəsinə imkan yaradır və nəticədə Çinin Mərkəzi Asiya dövlətlərinin iqtisadiyyatında iştirakının genişləndirilməsinə aparır. Onu da qeyd etmək lazımdır ki, son illərdə Çinin postsovet dövrü Mərkəzi Asiya dövlətləri ilə iqtisadi qarşılıqlı fəaliyyəti daha da dərinləşir. Belə ki, artıq bu ölkələrin iqtisadi inkişafının uzunmüddətli daxili proqramları bir sıra hallarda və müəyyən istiqamətlər üzrə Çin iqtisadi strategiyası və inkişafı ilə uyğunlaşdırılır. Burada əsas məqsəd Çin maliyyə resurslarının cəlb edilməsi üzrə bütün imkanlardan maksimal dərəcədə istifadə edilməsidir. Belə ki, postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin çoxunda maliyyə resursları çox məhduddur və irimiqyaslı layihələri həyata keçirmək üçün kifayət etmir. Məsələn, Qazaxıstanda 2015-ci ildən başlayaraq "Nurlı Jol" (Nurlu Yol) infrastrukturunun inkişafı üzrə dövlət proqramı həyata keçirilir. Bu layihə ölkə infrastrukturunun yeniləşdirilməsini və tikinti sektoruna irimiqyaslı sərmayələrin cəlb edilməsini nəzərdə tutur. Bu layihə "İpək Yolu İqtisadi Kəməri" konsepsiyası üzrə Mərkəzi Asiyada nəqliyyat-logistik infrastrukturun yaradılmasına dair Çinin irəli sürdüyü təşəbbüslə sıx əlaqədə və qismən Çin vəsaitlərinin hesabına həyata keçirilir. Eyni yolla Tacikistan da 2030-cu ilə kimi

ölkə inkişafının Milli Strategiyasının həyata keçirilməsi üzrə addımlarını Çinlə əlaqələndirməyə çalışır. Belə addımlar hidroenergetika, telekommunikasiya, dağ-mədən, kənd təsərrüfatı və s. sahələrində atıla bilər.

Çinin müasir Mərkəzi Asiya regionunda iqtisadi cəhətdən Rusiyadan daha möhkəm mövqelərə sahib olmasına dair digər bir misalı da göstərmək olar. Belə ki, əsas maliyyəçisi qismində Çinin çıxış etdiyi və əsas məqsədi Mərkəzi Asiya regionunda infrastruktur layihələrin maliyyələşdirilməsi olan Asiya İnfrastruktur İnvestisiyalar Bankının nizamnamə fondu 100 mlrd. dollar təşkil edir. AvİI əsas maliyyə qurumu olan və əsas maliyyə resursları Rusiya tərəfindən verilən Avrasiya İnkişafı Bankının nizamnamə fondu isə cəmi 7 mlrd. dollar təşkil edir.

Çinin bir sıra Mərkəzi Asiya dövlətləri ilə energetika sahəsində layihələr həyata keçirməsi Rusiyanın maraqlarına ciddi zərbə vurdu. Məsələn, 2005-ci ilin sonuna tikilmiş Atasu (Qazaxıstan) – Alaşankou (Çin) neft kəməri birbaşa çəkilmiş və heç bir üçüncü ölkənin ərazisindən keçməmişdir.[212] Və Qazaxıstan nefti bu neft kəməri ilə birbaşa Çinə nəql edilir. Türkmənistan, Özbəkistan, Qazaxıstan qaz yataqlarını birləşdirən və 2009-cu ildə tikilmiş Mərkəzi Asiya-Çin qaz kəməri vasitəsilə isə Çinə qaz nəql edilir. Bu isə Rusiyanın Mərkəzi Asiya regionundan qazın ixracatına monopoliyasına və əlavə gəlirin əldə edilməsinə son qoydu. Belə ki, daha əvvəl Rusiya türkmən qazını Avropa ölkələrinə tranzit etməkdən imtina etmişdir. Nəticədə Türkmənistan öz qazını ucuz qiymətə Rusiyaya satmağa məcbur olmuşdur. Rusiya isə həmin qazı özü Avropaya qat-qat baha

[212] Резникова, О.Б. Нефть и газ Центральной Азии: разворот на рынок КНР //Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа/ Подред. С.В. Жукова. – М.: ИМЭМО РАН, - 2014, - с. 6.

qiymətə satırdı. Ümumiyyətlə, ehtimal edilir ki, 2035-ci ilə postsovet dövrü Mərkəzi Asiya ölkələrindən əldə edilən təbii qaz Çinin qaz idxalında tələbatının yarısını təmin edə bilər (Türkmənistandan qaz ixracatı 80 mlrd. $m^3$, Özbəkistandan 20 mlrd. kub $m^3$, Qazaxıstandan isə 10 mlrd. kub $m^3$).

Bundan əlavə, Rusiyaya (Krımı işğal etməsi səbəbindən) qarşı tətbiq edilən beynəlxalq sanksiyalar da bu dövlətin iqtisadi imkanlarını azaldaraq, onun postsovet dövrü Mərkəzi Asiya regionunda iqtisadi fəaliyyətini müəyyən mənada məhdudlaşdırır.

Bütün bu amillərin nəticəsində Çin tədricən Rusiyanı postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin prioritet ticarət tərəfdaşı olması mövqeyindən uzaqlaşdırır. Belə ki, əgər 1995-ci ildə Qazaxıstanın xarici ticarət dövriyyəsinin 45.1% Rusiyanın üzərinə düşürdüsə, 2011-ci ildə bu rəqəm cəmi 8.4% təşkil edirdi.[213] Həmçinin qazın alınması üzrə Çinin Türkmənistan ilə strateji tərəfdaşlıq qurması onun Rusiya ilə qazın alınmasına dair aparılan danışıqlarda mövqeyini möhkəmləndirir və qaz ixracatçısı olan Rusiyaya əlavə təsir etmək imkanlarını yaradır.[214]

Bununla yanaşı, Çinin Mərkəzi Asiya ölkələrində siyasi və iqtisadi təsirinin artmasının qarşısını alan bir neçə amilləri də qeyd etmək olar. Çinlə əməkdaşlığın bir sıra üstünlüklərinə baxmayaraq, bu dövlətlər Çindən iqtisadi və siyasi cəhətdən asılı vəziyyətə düşməkdən ehtiyatlanırlar. Belə amillərə bu dövlətlərin öz iqtisadiyyatlarının sütunlarının möhkəmləndirilməsi və inkişaf etdirilməsi ilə bağlı addım-

---

[213] Калюжнова, Е., Джулиан, Л. Китайско - казахстанское сотрудничество в области углеводородного сектора в начале XXI столетия // Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа/ Под ред. С.В. Жукова. –М.: ИМЭМОРАН, 2014, - с. 14.

[214] Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа. / Под ред. С.В.Жукова. – М.: ИМЭМО РАН, - 2014, - с. 4.

lar atmasını da aid etmək olar. Bundan əlavə müasir Mərkəzi Asiya ölkələri bir qütbdən asılı olmamaq üçün balanslaşdırılmış siyasətin aparılmasına çalışırlar. Bu məqsədlə onlar digər qüvvə mərkəzləri ilə müxtəlif sahələrdə əməkdaşlıq etməyə can atırlar. Postsovet dövrü Mərkəzi Asiya ölkələrində son zamanlar sinofobiyanın səviyyəsinin artmasını da nəzərə almaq lazımdır.

Bunu bu dövlətlərin cəmiyyətlərinin Çinin regionda ekspansiyasının gücləndirilməsindən ehtiyat etməsi ilə izah etmək olar. Buna misal kimi 2016-cı ildə Qazaxıstanda Torpaq Məcəlləsinə düzəlişlərə qarşı etiraz dalğasını da göstərmək olar. Belə düzəlişlər xaricilər tərəfindən torpaq sahələrinin icarə müddətlərinin 10 ildən 25 ilə qədər uzadılmasını nəzərdə tuturdu. Cəmiyyətdə çinlilər tərəfindən torpaqların böyük əksəriyyətinin icarəyə götürülməsindən ehtiyat edilirdi.[215] Həmçinin 2019-cu ildə Qazaxıstanın bir sıra şəhərlərində Anti-Çin şüarları altında mitinqlər keçirilmişdir. Qazaxıstanda sinofobiyanın artmasını həm də Çinin mümkün olan geosiyasi və iqtisadi ekspansiyası, Qazaxıstanın Rusiya və Çin arasında bölüşdürülməsi təhlükəsi, Çinin Qazaxıstanı demoqrafik cəhətdən udması, Qazaxıstan sənaye sektorunun və kənd təsərrüfatının rəqabət qabiliyyətli olmaması və bunun nəticəsi kimi Qazaxıstan bazarlarında Çinin iştirakının güclənməsi, Çinin Qazaxıstanın yanacaq sektorunda payının daima artması, Qazaxıstan cəmiyyətində Rusiyaya meyilli olan qüvvələrin fəaliyyəti, Çində uyğurların, qazaxların, qırğızların və digər müsəlmanların Sincan - Uyğur Muxtar Rayonunda "yenidən tər-

---

[215] Малышева, Д.Б. Политические процессы в постсоветских государствах Центральной Азии // Постсоветские государства: 25 лет независимого развития. Сб. ст. в 2-х тт. Т. 1. / Отв. ред. – А.Б. Крылов. – М.: ИМЭМО РАН, - 2017, - с. 129.

biyə edilməsi üzrə düşərgələrin" yaradılması  və s. təhlükələrlə əlaqələndirmək olar. Məsələn, 2020-ci ilin yazında Çin mətbuatında (onu da nəzərə almaq lazımdır ki, Çin mətbuatı dövlətin tam nəzarətindədir və əsasən onun mövqeyini əks etdirir) Qazaxıstanın Çinə qayıtmasının zəruri olmasına və Qazaxıstanın guya ki, tarixi Çin torpaqlarında yerləşməsinə dair məqalə dərc edilmişdir. Hətta bu məqalə ilə bağlı Qazaxıstan Çin səfirinə etiraz notasını vermişdir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Çin şirkətlərinin əksəriyyəti birbaşa və ya dolayısilə öz dövləti ilə bağlıdır. Çin dövləti onlara maliyyə və siyasi dəstək verərək xaricdə fəaliyyət göstərən Çin biznesini dünyada öz geosiyasi və geoiqtisadi mövqeyinin möhkəmləndirilməsinə yönəlmiş siyasətinin ayrılmaz bir hissəsi kimi nəzərdən keçirir. Sinofobiya həm də  gələcəkdə Qazaxıstanda hakimiyyətin ötürülməsi zamanı bir alət kimi cəmiyyətdə gərginliyin artırılması məqsədilə bu və ya digər siyasi aktorlar (bunlar həm xarici, həm də daxili qüvvələr ola bilər) tərəfindən istifadə edilə bilər.

Demək olar ki, oxşar səbəblərlə bağlı Qırğızıstanda da 2019-cu ilin yanvarında çinlilərə qarşı etiraz mitinqi keçirilmişdir.[216]

Çin postsovet dövrü  Mərkəzi Asiya dövlətlərinə daxil olmasında faktiki olaraq "yumşaq qüvvə" üsullarından da istifadə edir. Belə ki, bütün bu dövlətlərdə (Türkmənistan istisna olmaqla) Konfutsi İnstitutları yaradılır. Bu qurumların əsas məqsədi Çin dilinin bu ölkələrdə öyrənilməsi və yayılmasıdır. Yeri gəlmişkən, belə bir institut Azərbaycan-

[216] Антикитайские настроения в Кыргызстане. СДПК обвиняет власть в бездействии: [Электронный ресурс] / 24 KG, 15 января 2019.URL: https://24.kg/obschestvo/106144_antikitayskie_nastroeniya_vkyirgyizstane_sdpk_obvinyaet_vlast_vbezdeystvii_/

da da fəaliyyət göstərir. Konfutsi İnstitutları Rusiyada və bir sıra Avropa ölkələrində də fəaliyyət göstərir. Bununla yanaşı, humanitar sahədə Çin ali məktəblərinə postsovet dövrü Mərkəzi Asiya ölkələrindən tələbələrin cəlb edilməsi siyasətini həyata keçirir. Bu ölkələrdən Çinə gələn tələbələrin sayı hər il durmadan artır. Məsələn, təkcə Qazaxıstandan gələn tələbələrin sayı 2016-cı ildə 13 min nəfər təşkil edirdi. Müqayisə üçün qeyd edək ki, Qazaxıstandan Rusiyaya gələn tələbələrin sayı 2016-cı ildə təxminən cəmi 6,5 min nəfər təşkil edirdi. Eyni vəziyyət regionun digər ölkələrinə də xasdır. Hətta Çin hakimiyyəti Sincan-Uyğur Muxtar Rayonunun postsovet dövrü Mərkəzi Asiya dövlətlərinə yönəlmiş tədris zonasına çevrilməsi imkanını nəzərdən keçirir. Bütün bunlara görə Çin humanitar sahədə regionda özünün "yumşaq qüvvəsini" artıra bilər. Bu amil isə Çinin bütövlükdə regionda mövqeyinin gücləndirilməsinə kömək edə bilər. Beləliklə, son dövr ərzində Çin postsovet dövrü Mərkəzi Asiya regionu dövlətləri ilə özünün siyasi və iqtisadi qarşılıqlı fəaliyyətini əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Çin postsovet dövrü Mərkəzi Asiya dövlətlərində gedən prosesləri də ciddi surətdə izləyir. Belə ki, Çin Beynəlxalq Problemlər İnstitutunun ŞƏT tədqiqatları Departamentinin nümayəndələrinin Minsk şəhərinə 2010-cu ilin sentyabrında etdikləri səfər zamanı qeyd etmişlər ki, Qırğızıstanda 10-17 iyun 2010-cu ildə baş verən "qanlı həftə" zamanı bu ölkədə yeganə bağlanmamış sərhəd məntəqəsi məhz Çin-Qırğızıstan sərhəd məntəqəsi idi. Qırğızıstanın digər dövlətlərlə isə sərhəd məntəqələri bağlanmışdır. Çin nümayəndələri bunu humanitar xarakterli mülahizələrlə əlaqələndirirdilər, yəni belə bir addımın atılmasının əsas məqsədi föv-

qəladə vəziyyətdə mülki əhalinin zəruri mallarla təmin edilməsi idi.

Çinin Mərkəzi Asiya regionunda təhlükəsizlik strategiyasının vacib ünsürlərini müsəlmanların məskunlaşdığı Çinin şimal-qərb hissəsinə (Sincan - Uyğur Muxtar Rayonu) "dini ekstremizmin" daxil olmasına və yayılmasına qarşı müqavimət göstərmə və Sincan - Uyğur Muxtar Rayonunda separatizm ilə mübarizə təşkil edir.

M.Klark qeyd edir ki, Çinin siyasi strategiyası Əfqanıstanda və postsovet dövrü Mərkəzi Asiya dövlətlərində mümkün qeyri-sabitliyin öz separatist əhval-ruhiyyəsi ilə fərqlənən Sincan - Uyğur Muxtar Rayonunda gərginliyin artmasına kömək edə biləcək narahatlığa görə milli təhlükəsizliyin dərk edilməsi əsasında formalaşır.[217]

Lakin bu məsələ o qədər də sadə deyil və müəyyən mənada mübahisəlidir.

Onu da qeyd etmək lazımdır ki, Çinin şimal-qərbində yerləşən bu region daş kömürü, neft və təbii qaz, duz ehtiyatları, uran, qızıl yataqları, dəmir filizi, nadir torpaq metalları (məsələn, berillium) və s. ilə zəngindir.[218] Çində ən böyük qaz ehtiyatları əsasən üç yerdə Şensı və Sıçuan vilayətlərində və həmçinin Sincan - Uyğur Muxtar Rayonu ərazisində olan Ordos, Sıçuan, Junqar və Tərim qaz hövzələrində yerləşir.[219] Bu bölgə Çin üçün strateji baxımdan çox va-

---

[217] Clarke, M. One Belt, One Road' and China's emerging Afghanistan dilemma // - Melbourne: Australian Journal of International Affairs, - 2016. Vol. 70. – Issue 5, - pp. 563-579.

[218] Xinjiang's Natural Resources: [Electronic resource] / China through a Lens. URL: http:// china. org.cn./English/MATERIAL/139230.html

[219] Хотимский, К.В. Перспективы экспорта российского газа в КНР до 2030 года. Топливно-энергетический баланс Китая в 2010 - 2030 гг. // Глобальные энергетические и экономические тренды / под ред. С.В. Жукова. – М: ИМЭМОРАН, 2019, - с. 11.

cibdir, çünki bir tərəfdən Pakistana və onun dəniz limanlarına,[220, 221] digər tərəfdən isə Rusiyaya, Monqolustana, Əfqanıstana, Mərkəzi Asiya postsovet dövrü dövlətlərinə və daha sonra Avropaya yol açır. Keçmişdə bu region üzərindən Böyük İpək Yolu keçirdi. Sincan - Uyğur Muxtar Rayonu Yeni İpək Yolu layihəsinin həyata keçirilməsində Çinin əsas bölgəsi kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, Sincan - Uyğur Muxtar Rayonu həm də "Şərqi Türküstan" adlanır. Bu rayonda uyğur və digər müsəlman xalqları yaşayır və çoxlu sayda milli hərəkatlar fəaliyyət göstərirdi. Onların arasında ən böyükləri Şərqi Türküstanın İslam Hərəkatı (ŞTİH) və Şərqi Türküstanın Azadlığı Təşkilatıdır (ŞTAT). ŞTİH Çin hakimiyyəti orqanları ilə mübarizəni həm Sincan - Uyğur Muxtar Rayonunun özündə aparır, həm dəm Çinin digər rayonlarında terror hücumlarına əl atır. Bu təşkilat 1993-cü ildə yaranmışdır. Çin hakimiyyəti İslam Azadlıq Partiyasını (İAP), həm də ŞTİH terrorçu təşkilatlar kimi qiymətləndirirlər. Həmçinin 2004-cü ildə yaradılmış Ümumdünya Uyğur Konqresini (ÜUK) qeyd etmək lazımdır. Bu qurumu da Çin hakimiyyəti terrorçu təşkilatlara aid edir. Halbuki ÜUK-un terrorçu təşkilatlara aid edilməsini düzgün hesab etmək çox çətindir, bəlkə də, heç düzgün deyil.

Ümumiyyətlə, SSRİ-nin dağılması və Əfqanıstandakı baş verən proseslər bütün bu regiona öz təsirini göstərməyə bilməzdi. Nəzərə almaq lazımdır ki, demək olar ki, bütün postsovet dövrü Mərkəzi Asiya regionu dövlətlərin

---

[220] Chaudhuri, D. China-Pakistan Railway Project: [Electronic resource] / Vivekananda international foundation. Yuly 19, 2010. URL: https://www.vifindia.org/China-Pakistan-Railway-Project.

[221] Ahmad Khan, R. The Pakistan-China strategic partnership: [Electronic resource] / China. org. cn. May 20, 2011. URL: http://www.china.org.cn/opinion/2011-05/20/content_22605398_2.html

əhalisi öz etnik mənşəyinə görə türklər (Tacikistan istisna olmaqla) və istisnasız, dinlərinə görə müsəlmandırlar. Təbii ki, bu amil mənşəyi türk və dini müsəlman olan uyğurlara da öz təsirini göstərməyə bilməzdi. Həm də nəzərə almaq lazımdır ki, uyğurların böyük bir icması Qazaxıstanda, Qırğızıstanda, Türkiyədə, ABŞ-da mövcuddur. Onu da nəzərə almaq lazımdır ki, Çin onları zəbt edənə qədər uyğurlar özlərinin müstəqil dövlətçiliyinə sahib idilər.

Bizim eranın VI əsrində bu torpaqlar Türk xaqanlığının bir hissəsini təşkil edirdi. VIII əsrdə bu torpaqlar Uyğur xaqanlığının bir hissəsi idi. Daha sonra 840-cı ildən 866-cı illərə kimi Uyğur xaqanlığı digər bir türk xalqı olan qırğızlar tərəfindən darmadağın edildikdən sonra bir neçə uyğur dövləti, o cümlədən mərkəzi Dunxuanda olan Qansu dövləti və ya Qan Çou Uyğur İdıkutu dövləti (847-ci ildə) və mərkəzi Turfanda olan İdikut dövləti (866-cı ildə) yarandı ("İdikut" xaqanın titulu idi). Qan Çou Uyğur İdikutu 1035-ci ilə kimi (bəzi məlumatlara görə, 1028-ci ilə kimi) mövcud idi və tanqutlar tərəfindən ləğv edilmişdir. VIII əsrin sonuna yaxın (60-cı illərin sonu – 70-ci illərin əvvəlində) Uyğur Turfan İdikutu (onu həm də "İdıkut Uyğur dövləti" və ya "Koço Uyğur dövləti" adlandırırdılar) digər bir uyğur dövlətini – Kuçar uyğur dövlətini ləğv edir. XII əsrin birinci yarısında Uyğur Turfan İdikutu "Qərbi Lyao" adlandırılan dövlətdən vassal asılılığına düşür. Uyğur İdikut dövləti XIII əsrin əvvəlində Monqolustan imperiyasından, daha sonra Çağatay ulusundan asılı vəziyyətə düşür və onun vassalı olur. Belə ki, 1209-cu ildə bu dövlətin hökmdarı Baurçuk Art Təkin (İdikut Baurçuk) Çingiz xana sədaqətini bəyan etmiş və bunun nəticəsində Uyğur İdikut dövləti 1211-ci ildə Monqolustan imperiyasının 5-ci ulusuna çevrilmiş-

dir[222] (Çingiz xan ona öz qızı Altun-beqini vermiş və onu Cuçi, Çağatay, Ögedey və Toluydan sonra özünün 5-ci oğlu bəyan etmişdir). Bununla belə, hətta bundan sonra Uyğur İdikutunun mövcudluğu davam edirdi.[223,224,225] 1346-cı ildə Çağatay ulusunun parçalanmasından və "Moğolustan" adlanan dövlətin yaranmasından sonra Uyğur İdikutu müstəqil bir dövlətə çevrilir. Lakin 1368-ci ildə elə Moğolustan xanı Hizr-Hoca-xan tərəfindən ləğv edilir.

Uyğur Turfan İdikutu uyğurları buddist idilər. Moğolustanın üçüncü xanı olan Hizr-Hoca-xan Uyğur İdikutunu zəbt etdikdən sonra onun sakinlərini islam dininə çevirir. Moğolustan özü oyratların hücumlarına tam gətirməyərək 1462-ci ildə iki hissəyə - Qərbi Moğolustan və Şərqi Moğolustana bölünmüşdür. Bundan sonra müasir Sincan - Uyğur Muxtar Rayonunun ərazisində Oyrat xanlığı, daha sonra isə 1634-cü ildə (digər məlumatlara əsasən isə 1676-cı ildə) Cunqar xanlığı yaranmışdır. Bu xanlıq isə 1759-cu ildə Çində imperatorluq edən Dzin sülaləsi tərəfindən məhv edilir və bunun nəticəsində Şərqi Türküstan ərazisi "Sincan" adlandırılmağa başlayır.

Göründüyü kimi, orta əsrlərdə bu yerlərdə müxtəlif dövlətlər mövcud idi. Yalnız 1759-cu ildə Şərqi Türküstan Çinin tərkibinə qatıldı. Lakin 1865-ci ildə bu regionda yerli

---

[222] Brose, M. C. Subjects and Masters: Uyghurs in the Mongol Empire / M. C. Brose. - Bellingham: Western Washington University Center for East Asian Studies, - 2007, - p. 83.

**[223]** Кутлуков, М. Монгольское господство в Восточном Туркестане // Татаро-монголы в Азии и Европе. / отв. ред. С.Л. Тихвинский.Сборник статей. Изд. 2-е, перераб. и доп. М.: Наука, - 1977, - с. 85-98.

**[224]**Тихонов, Д.И. Хозяйство и общественный строй Уйгурского государства X– XIV вв. / Д.И. Тихонов. - М. - Л.: Наука, - 1966, - с. 55.

**[225]**Мустакимов, И.А. Рецензия на книгу: Vér, Márton. Old Uyghur Documents Concerning the Postal System of the Mongol Empire // Золотоордынское обозрение, 2020. Т. 8. № 1, - с. 203.

türklər üsyana qalxaraq onu Çindən tamamilə ayırdı və burada bir neçə şəhər-dövlətlər yarandı. Daha sonra bu şəhərləri uyğurların hökmdarı Yaqub bəy vahid bir dövlətdə birləşdirdi. Lakin 1874-cü ildə Çin ordusu bu üsyanı yatırdı və Şərqi Türküstanı işğal edərək öz ərazisinə qatdı. XX əsrin 30-cu illərində Şərqi Türküstanda bir neçə müstəqil türk dövləti yarandı. Onların arasında ən böyüyü Şərqi Türküstan İslam Respublikası SSRİ-nin qeyri-rəsmi dəstəyi ilə yaradılmışdır. Hətta bu dövlətin rəhbərliyi SSRİ-nin tərkibinə daxil olmaq istəyirdi. Lakin SSRİ 11 oktyabr 1944-cü ildə onun tərkibinə daxil olan Tuvadan fərqli olaraq (Çin bu ərazini də öz ərazisi hesab edirdi) Şərqi Türküstan İslam Respublikasını öz tərkibinə qəbul etməkdən imtina etdi. Belə ki, II Dünya müharibəsi başa çatdıqdan sonra və SSRİ Çinə ideoloji cəhətdən bir müttəfiq kimi baxandan sonra bu regionun Çinə qatılmasına etiraz etmədi və 1946-cı ildə Çin ordusu Şərqi Türküstana yenidən daxil oldu və onu zəbt etdi.

Şərqi Türküstanın müstəqillik əldə etməsinə və ya ən azından bu regionun muxtariyyətinin daha yüksək səviyyədə olmasına can atan uyğurların müxtəlif təşkilatlarını qeyd etmək olar.

Müasir dövrdə xaricdə yaşayan uyğurların böyük bir hissəsini birləşdirən birinci uyğur təşkilatı 1992-ci ilin dekabrında Türkiyənin İstanbul şəhərində Şərqi Türküstan Milli Konqresi adı altında yaradılmışdır. Altı il sonra 1998-ci ilin dekabrında elə həmin şəhərdə (İstanbulda) keçirilən qurultayda təşkilatın adı dəyişdirilmiş və “Şərqi Türküstan Milli Mərkəzi” (ŞTMM) adlandırılmışdır (qurultayda 18 ölkədən gəlmiş təxminən 300 nümayəndə və 40-dan çox uyğur lideri iştirak edirdi). İlk zamanda ŞTMM qərargahı Türkiyədə yerləşirdi. Lakin Çinin təzyiqi altında bu mərkəz Almaniyanın Münhen şəhərinə keçirildi. Daha sonra

ŞTMM 16 aprel 2004-cü ildə yenidən qurularaq və bütün qovulmuş uyğur qruplarının nümayəndələrini birləşdirərək (o cümlədən Uyğurların Amerika Assosiasiyası (UAA) və Uyğur Gənclər Konqresi (UGK)) Ümumdünya Uyğur Konqresi (ÜUK) adı almışdır.[226] Bu təşkilat "uyğur xalqının ümumi maraqlarını təmsil etmək" üçün qurulmuşdur.[227] Sədri Rəbiyə Qədirdir. O bu vəzifəyə 2006-cı ildə seçilmişdir. Rəbiyə Qədir Çində həbsxanada "dövlət sirrini yayma" kimi uydurma ittiham üzrə 6 il yatdıqdan sonra ABŞ-a sürgün edilmişdir.[228]

ÜUK-nın əsas məqsədi Sincan - Uyğur Muxtar Rayonunun Çin hüdudlarında, və Çin konstitusiyasına uyğun olaraq əsl muxtariyyətə nail olmasıdır. ÜUK prinsipial olaraq qeyri-zorakı  mübarizə üsullarına tərəfdar çıxır və ekstremizmin bütün təzahürlərini pisləyir. Bu qurum özünün fəaliyyətini əsasən hüquq müdafiəsi sahəsində, uyğurların hüquqlarının həm Çində, həm də onun hüdudlarından kənarda pozulmasının monitorinqinin aparılmasında cəmləşdirir. ÜUK həmçinin Çin dissidentləri, müxtəlif ölkələrin hüquq müdafiə təşkilatları və s. ilə əməkdaşlıq edir. Bu təşkilat Türkiyə, ABŞ, Qırğızıstan, Böyük Britaniya, Kanada, İsveç və s. ölkələrdə öz nümayəndəliklərini açmışdır. Bu-

---

[226]Newly founded World Uyghur Congress calls for peaceful solution in East Turkestan: [Electronic resource] / UNPO. 22 April, 2004. URL: http://www.unpo.org/content/view/547/236

[227]Alingod, Ch. Ethnic Clashes in China Continue as White House Calls For Restraint: [Electronic resource] / Wayback Machine, Yuly 7, 2009
URL:https://web.archive.org/web/20090716001205/http://www.allheadlinenews.com/articles/7015713505?Ethnic%20Clashes%20In%20China%20Continue%20As%20White%20House%20Calls%20For%20Restraint

[228] Beach, S. Chinese Dissident Here Describes Attacks by Beijing's Secret Agents: [Electronic resource] / CHINA DIGITAL TIMES. April 3, 2009. URL:  https://chinadigitaltimes.net/2009/04/chinese-dissident-here-describes-attacks-by-beijings-secret-agents

nunla belə, Çin hökuməti ÜUK və ona qoşulmuş qrupları terrorçu təşkilat kimi qəbul edir və iddia edir ki, bu təşkilat uyğurların Çindən ayrılması məqsədini güdür və bunu qanuna zidd hesab edir. Məhz bu səbəbdən ÜUK liderlərinin bir çoxu beynəlxalq axtarışa verilib. Onu da qeyd etmək lazımdır ki, Çin ÜUK-nı Urumçi şəhərində 5 iyul 2009-cu ildə kütləvi iğtişaşların təşkil edilməsində ittiham etmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Çin hökuməti tərəfindən uyğurlar və onların bütün təşkilatları Çin dövlətinə qarşı etnomillətçilik təhlükəsi kimi dəyərləndirilir.

ÜUK-dan fərqli olaraq ŞTİH Çin ərazisində bir sıra terror aktları törətmişdir. ŞTİH-in (onu hərdən Türküstan İsam Partiyası və ya Türküstan İslam Hərəkatı adlandırırlar) əsas məqsədi Şərqi Türküstanda müstəqil islam dövlətinin yaradılmasıdır. ŞTİH 200-dən çox törədilmiş terrorizm aktını öz üzərinə götürmüşdür. Belə aktların nəticəsində 162 nəfər həlak olmuş və 440 nəfər yaralanmışdır. ŞTİH-in Əfqanıstanda Taliban hərəkatı və Əl-Qaidə ilə əlaqələrdə olması da ehtimal edilir. Bu təşkilat Çinin özündə və həmçinin Qırğızıstanda, Qazaxıstanda və Özbəkistanda da terrorçu bir təşkilat kimi tanınmışdır. Bundan əlavə, ŞTİH BMT, Aİ, ABŞ və Əfqanıstan tərəfindən də terrorçu bir təşkilat kimi tanınır.

ŞTİH tərəfindən həyata keçirilmiş terror aktlarının arasında bir neçəsini göstərmək olar. Belə ki, 23 may 1998-ci ildə Urumçidə, 25 mart 1999-cu ildə Xotanda, 4 avqust 2008-ci ildə Qaşqarda, 19 avqust 2010-cu ildə Aksuda, 16 iyul 2011-ci ildə Xotanda, 30-31 iyul 2011-ci ildə Qaşqarda, 28 dekabr 2011-ci ildə Qumda, 28 fevral 2012-ci ildə Qaşqarda, 30 aprel 2014-cü ildə Urumçidə və s. terror aktları törədilmişdir. ŞTİH terrorçusu tərəfindən 30 avqust 2016-cı ildə Bişkekdəki Çin səfirliyinə hücum edilmişdir.

Yəni artıq ŞTİH terror aktlarını Çinin hüdudlarından kənarda törətməyə başladı.

Onu da demək lazımdır ki, Çin hakimiyyəti faktiki olaraq, mahiyyətcə, uyğurlara qarşı soyqırım siyasətini həyata keçirməyə başlamışdır. Bu siyasət çərçivəsində Sincan-Uyğur Muxtar Rayonuna köçən çinlilərə və dunqanlara Çin hökuməti hərtərəfli dəstək verir. Belə köçkünlər üçün yeni su ilə təchiz olunmuş rahat evlər tikilir (bu çox vacib bir amildir, çünki bu ərazi quraqlıq bir yerdir). Eyni zamanda uyğurların böyük bir hissəsi adi, gildən düzəldilmiş evlərdə yaşamaqda davam edirlər. Çin dilində tədris aparılan məktəblərdə təhsilin səviyyəsi uyğur dilində aparılan məktəblərdən daha yüksək idi.[229] Məktəbəqədər yaşda olan uşaqlar məcburi qaydada tədrisi yalnız Çin dilində aparılan internatlara göndərilir. Ali təhsilin tədrisi uyğur dilində, ümumiyyətlə, aparılmır. XX əsrin 80-ci illərinə formalaşmış uyğur dilində ibtidai və orta təhsili də eyni aqibət gözləyə bilər.[230] Urumçi şəhərində 2009-cu ildə baş vermiş ixtişaşlardan əvvəl və bu hadisələrdən sonra isə ibtidai uyğur məktəblərdə tədricən uyğur dili Çin dili ilə əvəz edilmişdir. Dövlət qulluğunda çalışan uyğurlara saqqal saxlamaq, qadınlara isə başına yaylıq bağlamaq qadağan edilmişdir. Həmçinin iş yerində müsəlmanlara namaz qılmaq da qada-

---

[229]Рыбин, А. Сирийская угроза Китаю. Как уйгурский сепаратизм грозит дестабилизировать постсоветские республики: [Электронный ресурс] / Газета RU. - 11сентября 2016. URL:
https:www.gazeta.ru/politics/2016/09/11_a_10188119.shtml

[230]Желобов, Д. Уйгурский сепаратизм и «пирамида Мелоу» // Международная междисциплинарная конференция «Глобальная и региональная безопасность в XXI веке» в рамках Конвента ИСПН УРФУ, - Екатеринабург: -25 мая 2013 – 30 апреля 2014, - с. 165

ğan edilmişdir.[231] Təbii ki, uyğurlar bütün bunları assimilyasiya siyasətinin davamı kimi görür və dəyərləndirirlər.

Şərqi Türküstanın Çinə birləşdirilməsindən sonra bu regionda məcburi qaydada çinlilərin məskunlaşdığı Çin qəsəbələri yaradılmağa başlandı. Artıq bu günə bu regionda yaşayan əhalinin 60%-ini çinlilər təşkil edir. Bunun nəticəsi kimi uyğurlar əsasən belə bir fikirdədirlər ki, Çin hökuməti onlara qarşı "sakit soyqırım" siyasətini həyata keçirir. Şərqi Türküstan Çin tərəfindən zəbt edildikdən sonra bu regionda 15 dəfə irimiqyaslı üsyan baş vermişdir. Və onların hamısı uyğurların müsəlman olduğundan, demək olar ki, dini rəng daşıyırdı.

Çin dövlətinə Sincan-Uyğur Muxtar Rayonunda ciddi zərər vura bilməyəcəklərindən uyğur separatçıları bunu daha rahat yerdə etməyə çalışırlar.

ŞTİH terrorçusu 30 avqust 2016-cı ildə Bişkekdəki Çin səfirliyinə hücum etdikdən sonra Çin Xarici İşlər Nazirliyinin press-katibi X.Çunin bu təşkilatın təkcə Çin üçün deyil, Suriya və postsovet dövrü Mərkəzi Asiya ölkələri üçün də ciddi təhlükə yaratdığını bəyan etdi. Londonda yerləşən Müdafiə Tədqiqatları üzrə Kral Birləşmiş İnstitutunun Beynəlxalq təhlükəsizlik şöbəsinin müdiri R.Pantuççinin sözlərinə görə, Çin nümayəndəliklərinə və xaricdə olan Çin vətəndaşlarına yeni "hücumların edilməsinin böyük bir təhlükəsi" mövcuddur.[232] Sincan-Uyğur Muxtar Rayonunda

[231] China: Religious Repression of Uighurs in Xinjiang: [Electronic resource] / Human Rights Watch. 11 April 2005. URL:https://www.hrw.org/report/2005/04/11/devaststing-blows/religious-repression-uighurs-xinjiang

[232]Рыбин, А. Сирийская угроза Китаю. Как уйгурский сепаратизм грозит дестабилизировать постсоветские республики: [Электронный ресурс] / Газета RU. - 11сентября 2016. URL: https:www.gazeta.ru/politics/2016/09/11_a_10188119.shtml

separatçılıq problemi, çox güman ki, qalmaqda davam edəcək, bəlkə də, daha da artacaq. Çin rəhbərliyinin fikrincə, məhz bu rayonda olan separatçılıq “Sincanda sabitliyə təsir edən əsas təhlükəni təşkil edir”. Həqiqətən, bu regionda bir neçə amillər nəzər alınmalıdır.

Birincisi, Sincan-Uyğur Muxtar Rayonunda uyğurlar, Çinin rəsmi məlumatlarına əsasən, əksəriyyət təşkil etməsələr də, əhalinin böyük bir hissəsini təşkil edirlər (Lakin bir sıra məlumatlara əsasən ehtimal olunur ki, onların sayı daha çoxdur).

İkincisi, uyğur separatçı təşkilatların əsas məqsədi “Şərqi Türküstan” və ya “Uyğurstan” adlı müstəqil bir dövlət yaratmaqdır. Bu səbəbdən onlar öz fəaliyyətlərini müstəqillik üzərində mübarizə kimi dəyərləndirirlər.

Üçüncüsü, Sincan-Uyğur Muxtar Rayonunda yaşayan uyğur və digər türkdilli xalqlar müsəlmandır. Burada islamın və islam ənənələrinin təsiri çox böyükdür. Bu isə separatçı təşkilatların fəaliyyəti üçün əlverişli şərait yaradır.

Dördüncüsü, Çinin hüdudlarından kənarda yaşayan uyğur diasporası kifayət qədər yaxşı təşkil olunmuşdur və beynəlxalq təşkilatlarla, həm də yaşadıqları ölkələrin hökumətləri, siyasi partiyaları, təşkilatları, siyasətçiləri və s. ilə sıx əlaqələr qurmuşlar. Hətta bir çox hallarda onlardan rəsmi və ya qeyri-rəsmi dəstək və maddi yardım alırlar. Onlar Sincan-Uyğur Muxtar Rayonunda yaşayan həmvətənləri ilə sıx əlaqələrə malikdirlər.

Beşincisi, nəzərə almaq lazımdır ki, regionda yerli uyğurların bu regiona köçürülmüş çinlilərə qarşı düşmənçilik və hətta nifrət halları da az deyil. Belə ki, köçkünlərə yerli əhali ilə müqayisədə yaşamaları və fəaliyyət göstərmələri üçün daha əlverişli şərait yaradılır. Bəlli olduğu kimi, Sincan-Uyğur Muxtar Rayonunun paytaxtı olan Urumçi şəhə-

rində 5 iyul 2009-cu ildə kütləvi ixtişaşlar baş vermişdir. Yerli türkdilli uyğurların etiraz və çıxışının səbəbi Quandun vilayətinin Şaoquan şəhərində iki uyğurun çinlilər tərəfindən qətlə yetirilməsi idi. Belə ki, 26 iyun 2009-cu ildə oyuncaqların istehsalı üzrə müəssisələrin birində Sincandan və Çinin digər vilayətlərindən gələn fəhlələr arasında münaqişə yaranmışdır. Bunun nəticəsində 120 nəfər, o cümlədən Sincandan 89 nəfər xəsarət almışdır. Sonradan Sincandan olan iki nəfər aldıqları xəsarətlərdən keçinmişlər. Hətta Əl-Cəzirənin məlumatına əsasən, üç nəfər həlak olmuşdur.[233] Bu hadisələr 5 iyul 2009-cu ildə baş verən etiraz nümayişlərinə səbəb olmuşdur. [234] Nümayişdə 3000-ə qədər uyğur iştirak etmişdir.[235] Bu nümayişi gücdən istifadə etməklə dağıtmağa cəhd etmiş hakimiyyət və nümayişçilər arasında qanlı toqquşmalar baş vermişdir. Çin rəsmi məlumatlarına əsasən, 20 iyul 2009-cu ilə 129 insan həlak olmuşdur. BBC-nin məlumatına görə isə, ən azı 156 insan həlak olmuşdur.[236] Lakin 19 iyul 2009-cu ilə Çin rəsmi mənbələrinə əsasən, 197 insan həlak olmuş və 1600 nəfər yaralanmışdır. Bundan əlavə, çoxlu sayda avtomobil yandırılmışdır.[237] Bu məlumatlardan fərqli olaraq, ÜUK-nın verdiyi məlumata əsasən, həlak olmuş insanların sayı bir neçə yüz nəfər təşkil edir. Həmçinin 2008-ci ildə Hotanda baş vermiş hadisələri də qeyd etmək lazımdır. Belə ki, 2008-ci ilin mart ayında Hotanda və Sincan-Uyğur Muxtar Rayonun Qaraqaş bölməsində əsasən yerli səbəblər üzərindən, o cümlədən polis bölməsində milliyyətcə uyğur olan biznes-

---

[233] Civilians die in China riots // Al Jazeera. 2009, 5 July
[234] Scores killed in China protests // BBC News. 2009, 6 July
[235] Epstein G. Uighur Unrest // Forbes. 2009, 5 July
[236] Scores killed in China protests// BBC News. 2009, 6 July
[237]Civilians die in China riots // Al Jazeera. 2009, 5 July

men və mesenat Mütəllim Xadjimin ölümü, müsəlman qadınlara başlarına yaylıq bağlamağa qadağa qoyulması və Tibetdə analoji ixtişaşlar haqqında məlumatın gəlməsi ilə bağlı ixtişaşlar baş vermişdir. "International Herald Tribune" qəzetinin verdiyi məlumata görə, müsəlman terrorçu qadın Urumçidə şəhər avtobusuna bomba qoymuş və onu partlatmaq istəmişdir (Çin hakimiyyət orqanları bu məlumatı təkzib etmişdir). Daha sonra, yəni 23 mart 2008-ci ildə Sincan-Uyğur Muxtar Rayonunun qərbində yerli müsəlmanlar tərəfindən antihökumət xarakterli çıxışlar edilmişdir. Nümayişlər polis bölməsində M. Xadjimin adlı şəxsin ölümündən sonra yenidən başlamışdır. Sayı 600 nəfərdən artıq olan nümayişçi yürüş keçirmişdir. Onlara digər insanlar da qoşulmuşlar. Lakin polis təxminən 400 insanı həbsə atmışdır. "New York Times" qəzetinin məlumatına əsasən, nümayişçilər müstəqillik tələbi olan transparantlar daşımış və buna uyğun olar şüarlar səsləndirmişlər. Bundan sonra polis güc tətbiq edərək nümayişi dağıtmağa başlamışdır. Nümayişlər 24 martda da davam etmişdir. Digər bir şəhərdə, Qaşqarda polis 3 aprel 2008-ci ildə 70 uyğuru həbs etmişdir. Gülçü şəhərində 4 apreldə "terrorist aktların təşkilinə şübhə edilməsi üzrə" təxminən 25 uyğur həbs edilmişdir. 4 avqust 2008-ci ildə ŞTİH-nın iki döyüşçüsü Qaşqar yaxınlığında polis postuna hücum etmişdir. Nəticədə 16 nəfər öldürülmüş və daha 16 nəfər yaralanmışdır. 10 avqusta Qucar şəhərində müxtəlif polis məntəqələrində və ofis binalarında partlayışlar və atışma baş vermişdir. Nəticədə 12 insan həlak olmuşdur. 12 avqust 2008-ci ildə Yanamya şəhərində mülki mühafizəçilərə hücum edilmişdir, üç nəfər həlak olmuş bir nəfərin aqibəti haqqında məlumat daxil olmamışdır.

Yerli uyğur və digər türk əsilli əhalinin narazılığına səbəb olan bir neçə əsas amili qeyd etmək olar:

- doğumun məhdudlaşdırılması üzrə Çin mərkəzi orqanları tərəfindən qoyulan məhdudiyyətlər (belə ki, rəsmi olaraq milli azlıqlar üçün şəhərlərdə 2 uşağa, kənd yerində isə 3 uşağa icazə verilir);

- ali və orta məktəblərdə tədrisin nəinki uyğur dilində aparılmaması, hətta ibtidai məktəblərdə tədrisin Çin dilində aparılmasının tətbiq edilməsi (təbii ki, bu hal uyğur dilinin mövqeyinin zəifləməsinə aparır);

- sosial liftlərdə, karyera artımında milli azlıqlar üçün müəyyən səbəblərdən qoyulan məhdudiyyətlər (məsələn, guya uyğurların peşə uyğunsuzluğu və ya Çin dilini zəif bilmələri və s.);

- Sincan-Uyğur Muxtar Rayonundan xammalın Çinin mərkəzinə və cənub regionlarına çıxardılması;

- dini fəaliyyət azadlığının məhdudlaşdırılması (bu növ məhdudiyyətlər bir çox hallarda uydurulmuş və Sincan-Uyğur Muxtar Rayonu ərazisində dini təşkilatların fəaliyyətinin məhdudlaşdırılmasına və ya onların fəaliyyətinə maneələr yaradılmasına yönəlmişdir);

- Sincan-Uyğur Muxtar Rayonu ərazisinə Çinin digər regionlarından milliyyətcə çinlilərin köçürülməsi (bunun nəticəsində yerli əhalinin payının azalması və əhalinin tərkib nisbətinin milliyyətcə çinlilərin xeyrinə dəyişməsi prosesi baş verir);

- uyğur və digər türk əsilli əhalinin gənclərini Çinin daxili regionlarında işləmək üçün işə götürmək və s.

Lakin Çin hakimiyyəti onlara qarşı çıxış edən uyğurlara və digər türkdilli və müsəlman xalqların nümayəndələrinə qarşı repressiya tədbirlərinə əl atmağa üstünlük vermişdir. Belə ki, hakimiyyət orqanları tərəfindən bütün insanlar haq-

qında gizli şəkildə hakimiyyətə potensial olaraq təhlükə yarada bilən insanlar haqqında məlumatlar toplanır və bəzi məlumatlara görə, çox güman ki, ən azı bir neçə yüz min, bəlkə də, bir milyondan artıq müsəlman "yenidən tərbiyə olunma" düşərgələrinə, mərkəzlərinə, həbsxanalara salınmış və ya onlardan keçmişlər.[238, 239] Onlara qarşı heç bir istintaq aparılmamış, heç bir ittiham irəli sürülməmiş və barələrində heç bir məhkəmə qərarı çıxarılmamışdır. Bundan əlavə, insanlar haqqında müxtəlif mənbələrdən məlumatlar toplanan "Birgə əməliyyatların inteqrasiya olunmuş platforması" (*ingiliscə: IJOP*) adlanan sistem yaradılmışdır.[240] Çin hakimiyyət orqanları bu kampaniyanın guya "terrorçu ünsürlərə" qarşı olduğunu desələr də, praktikada belə tədbirlər siyasi cəhətdən "sədaqətli olmayan" bütün şəxslərə qarşı həyata keçirilir və Sincan-Uyğur Muxtar Rayonunda olan hər bir uyğuru və ümumiyyətlə, hətta öz dini və ya mədəni kimliyini dinc yolla bildirənləri əhatə edir.

Çinin müsəlman mədəniyyətini çinliləşdirmə üzrə səyləri hətta dünyanı bürümüş koronavirus pandemiyası şəraitində də azaldılmır. Məsələn, Çjençjou şəhərində məscidə rəhbərlik edən şəxsin sözlərinə görə, Çjençjou şəhərində

---

[238]Zenz, A. New Evidence for China's Political Re-Education Campaign in Xinjiang: [Electronic resource] / Jamestown Foundation. May 15, 2018. URL: https://jamestown.org/program/evidence-for-chinas-political-re-education-campaign-in-xinjiang/

[239] Coca, N. Islamic Leaders Have Nothing to Say About China's Internment Camps for Muslims: [Electronic resource] / Foreign Policy. July 24, 2018. URL: https://foreignpolicy.com/2018/07/24/islamic-leaders-have-nothing-to-say-about-chinas-internment-camps-for-muslims/

[240] China: Big Data Fuels Crackdown in Minority Region. Predictive Policing Program Flags Individuals for Investigations, Detentions: [Electronic resource] / Human Rights Watch. 26 February 2018. URL: https://www.hrw.org/news/2018/02/26/china-big-data-fuels-crackdown-minority-region

olan məscidlər islam simvolikasından məhrum edilmişdir. Binaların daha "çinli" göstərilməsi üçün minarələrin kümbəzlərindən ayparalar sökülmüşdür. Bunlara qarşı çıxanlar isə işdən məhrum olunur və hökumət tərəfindən cəzalandırılır.[241] Bütün bunlar beynəlxalq standartların və hüquq normalarının, insan hüquqları və əsas azadlıqlarının kobud şəkildə pozulması deməkdir. Hüquq müdafiə təşkilatları belə qurumlarda olan məhbusların saxlanılma şəraitini alman məhbusların nasist konsentrasion düşərgələrində yəhudilərin saxlanılma şəraitinə uyğun olduğunu qeyd edərək, onları nasist konsentrasion düşərgələrinin Çin analoqları kimi dəyərləndirirlər.[242] Hətta bəzi məlumatlara görə, Qazaxıstan Çində yerli qazaxların həbsə salınması və düşərgələrə yerləşdirilməsi ilə bağlı 2018-ci ilin fevral və noyabr aylarında Çinə iki etiraz notası göndərmişdir (bəzi məlumatlara görə 10 mindən çox belə fakt aşkarlanmışdır).[243] Bununla belə Türkiyə "İnsanlığa utanc" adlandıraraq insanları islamdan üz döndərməyə məcbur etmək üçün1 mln. uyğur müsəlmanlarının kütləvi şəkildə həbsini pisləmiş və Çini belə düşərgələri bağlamağa çağırmışdır. Həmçinin Türkiyə ən qüdrətli müsəlman dövləti olaraq konsentrasion düşərgələrdə və həbsxanalarda uyğur müsəlmanlarının işgəncələrə və beyinlərinin "siyasi yuyulmasına" məruz qaldığını bə-

---

[241] В разгар пандемии Китай продолжает «исправлять» мечети: [Электронный ресурс] /İslamnews. 27 мая 2020. // https://yandex.ru/turbo/s/islamnews.ru/news-musulmane-germanii-vernulis-v-mecheti?promo=navbar&utm_referrer=https%3A%2F%2Fzen.yandex.com

[242] Алпаут, Р. Китайские лагеря для мусульман как немецкие концлагеря для евреев: [Электронный ресурс] /"Idel. Реалии". 18 января 2019. // https://www.idelreal.org/a/29715311.html

[243] Алпаут, Р. Китайские лагеря для мусульман как немецкие концлагеря для евреев: [Электронный ресурс] /"Idel. Реалии". 18 января 2019. // https://www.idelreal.org/a/29715311.html

yan etmişdir.[244] ABŞ isə hətta Çinə qarşı sanksiyalar belə tətbiq etmişdir. Belə ki, ABŞ prezidenti D.Tramp uyğurların hüquqlarına dair siyasət haqqında ABŞ Konqresinin qəbul etdiyi qanunu imzalanmışdır. Bu qanuna əsasən uyğurların insan hüquqlarının sıxışdırılmasında günahı olan Çin məmurlarına qarşı sanksiyalar tətbiq edilir.

Beləliklə, aşağıdakı nəticəyə gəlmək olar:

1. Çin Mərkəzi Asiya regionunda fəaliyyət göstərən və dünyanın bu regionu üzərində geosiyasi mübarizə aparan əsas aktorlardan biridir.

2. SSRİ-nin dağılmasından və yeni Mərkəzi Asiya dövlətlərinin yaranmasından sonra Çin bu regionda özünün davranışının müəyyən strategiyasını tərtib etmişdir. Belə bir strategiyanın əsas məzmununu təhlükəsizliyin təmin edilməsi və Mərkəzi Asiya regionundan gələn potensial təhdidlərin qarşısının alınması, bu regiona "yumşaq qüvvədən" istifadə edərək daxil olmaq və orada tədricən öz təsirini artırmaq təşkil edir.

3. Bir sıra məsələlərdə Mərkəzi Asiya regionunda Çinin və Rusiyanın maraqları üst-üstə düşür və mahiyyətcə hətta bu regiondan ABŞ-ın və Aİ-nın çıxardılmasına və ya ən azı onların bu regionda təsirinin azaldılmasına yönəlib.

4. Mərkəzi Asiya regionunda Çinin təhlükəsizlik strategiyasının əsas ünsürlərindən birini terrorizm, dini ekstremizm və etnik separatizm ilə mübarizə şüarı altında Sincan-Uyğur Muxtar Rayonunda "uyğur separatizmi" ilə mübarizə təşkil edir. Halbuki "uyğurların yenidən tərbiyə olunması" üçün islah düşərgələrinin ləğvi, uyğur mədəniyyətinin

---

[244] 'Shame for humanity': Turkey urges China to close Uighur camps: [Electronic resource] / Aljazeera. 10 February 2019. URL: https://www.aljazeera.com/news/2019/02/humanity-turkey-urges-china-close-uighur-camps-190209202215688.html

inkişafı, uyğur dilində təhsil sisteminin təşkili və inkişafı, uyğurlar üçün digər Çin vətəndaşları ilə bərabər şəraitin yaradılması, uyğurlara qarşı bütün ayrı-seçkilik formalarının ləğv edilməsi, o cümlədən din azadlığı sahəsində bütün məhdudiyyətlərin ləğvi, bu regiona özünüidarəetmədə daha çox hüquqların verilməsi və bu kimi digər problemlərin həlli bu regionda gərginliyin aradan qaldırılmasında və yerli əhalinin hüquqlarının müdafiə olunmasında vacib tədbirlər olardı. Belə ki, uyğurlar ikinci dərəcəli insanlar kimi yox, əksinə öz torpaqlarının sahibi kimi özlərini hiss etməlidirlər.

5. Çinin bu regionda təhlükəsizlik strategiyasının vacib ünsürlərindən birini terrorizm, dini ekstremizm, narkobiznes və narkotrafik kimi bir sıra təhdid və çağırışların gəldiyi Əfqanıstanda mövcud vəziyyətin tənzimlənməsində maraqlı olması təşkil edir.

6. Bununla belə, bir çox hallarda "terrorçuluq və dini ekstremizm ilə mübarizə" şüarı altında Çin hakimiyyəti, xüsusən də Sincan-Uyğur Muxtar Rayonunda türkdilli və müsəlman əhaliyə qarşı insan hüquqlarını kobud şəkildə pozan tədbirlər həyata keçirir.

7. Postsovet dövrü Mərkəzi Asiya regionu dövlətlərinə aid Çin bu regiona müxtəlif infrastruktur və iqtisadiyyat sahələrində layihələrin həyata keçirilməsi vasitəsilə daxil olmasına üstünlük verərək əsasən "yumşaq qüvvə"dən istifadə edir.

### *3.4. Müasir Mərkəzi Asiya ölkələrinin təhlükəsizlik strategiyası*

Müasir Mərkəzi Asiya dövlətlərinin milli təhlükəsizliyinə qarşı təhdidlər və çağırışlar bütövlükdə götürəndə bir sıra hallara və eyni olan amillərə görə oxşardır. Bununla yanaşı, onların hər birində belə təhdidlərlə mübarizədə və çağırışların həllinə yönəlmiş tədbirlərdə də müəyyən oxşarlıqlar var. Eyni zamanda belə tədbirlərdə müəyyən fərqlər də mövcuddur. Belə ki, Qazaxıstan, Qırğızıstan, Tacikistan kimi dövlətlərin milli təhlükəsizliyik strategiyası və belə strategiyanın həyata keçirilməsinə yönəlmiş tədbirlər bu dövlətlərin Rusiya ilə birlikdə hərbi-siyasi təşkilat olan KTMT-ya üzv olması amili ilə həlledici dərəcədə müəyyən olunur. Onlar hərbi cəhətdən Rusiya ilə müttəfiqdirlər. Bu səbəbdən də dövlətlərin milli təhlükəsizliyik strategiyası oxşar cəhətlərə malikdir. Özbəkistanın və Türkmənistanın milli təhlükəsizliyik strategiyası bir qədər fərqlidir. Belə ki, Özbəkistan heç bir siyasi-hərbi bloka üzv olmadığından (daha əvvəl bu ölkə KTMT-ya üzv idi) onun milli təhlükəsizliyinə qarşı təhdidlərlə mübarizəsinə və çağırışların həllinə yönəlmiş tədbirlər kompleksində müəyyən fərqlər mövcuddur. Türkmənistan isə, ümumiyyətlə, öz müstəqilliyini elan etdikdən sonra heç bir hərbi-siyasi qurumun üzvü olmamışdır. Bu dövlət özünün bitərəfliyini elan etmişdir. Təbii ki, bu ölkənin milli təhlükəsizliyinə qarşı təhdidlərlə mübarizəsinə və çağırışların həllinə yönəlmiş tədbirlər də müəyyən fərqlərlə səciyyələnir. Fikrimizcə, təkrarlanmamaq üçün onların arasında Qazaxıstan və Özbəkistan kimi daha qüdrətli olan aparıcı müasir Mərkəzi Asiya dövlətlərinin milli təhlükəsizlik strategiyasının üzərində daha ətraflı dayanmaq məqsədəuyğundur.

### *3.4.1. Qazaxıstan Respublikasının təhlükəsizlik strategiyası*

Qazaxıstan bir sıra obyektiv halların və amillərin gücünə bütün Mərkəzi Asiya regionunda, ən azı müasir Mərkəzi Asiya dövlətləri arasında regional lider statusuna iddia edərək xüsusi yer tutur.

Birincisi, Qazaxıstan öz ərazisinə görə regionda ən böyük dövlətlərdən biridir.

İkincisi, Qazaxıstan təbii resurslarla (neft, qaz, kömür, dəmir filizi, qızıl, uran və s.) zəngindir.

Üçüncüsü, özünün iqtisadi-sənaye inkişafına görə Qazaxıstan müasir Mərkəzi Asiya regionunda aparıcı dövlətlərdən biridir.

Dördüncüsü, Qazaxıstan Asiyadan Avropaya gedən yolda əlverişli yer tutur və regionda infrastrukturun inkişafı sahəsində bütün layihələr bu ölkənin ərazisindən keçir.

Qazaxıstana aid bir neçə əsas müasir təhdidləri və çağırışları qeyd etmək olar. Bununla bağlı Qazaxıstanın milli təhlükəsizlik konsepsiyasının tərtib edilməsi, onun strategiyasının əsas parametrlərinin müəyyən edilməsi və həyata keçirilməsi, bu ölkə üçün ən vacib məsələlərdən biri, bəlkə də, birincisidir. Ümumiyyətlə, hər bir ölkənin milli təhlükəsizliyi çox mürəkkəb quruluşdur. Çoxfunksiyalı, qarşılıqlı əlaqəli və qarşılıqlı asılı bir sistem olaraq, milli təhlükəsizlik onun strukturuna daxil olan siyasi, hərbi, iqtisadi, ekoloji, ərzaq, texnoloji və s. kimi ünsürlərin formalaşması üçün əsas yaradır. Belə bir sistemin özəyini milli təhlükəsizlik strategiyası təşkil edir. Bu səbəbdən onun müəyyən edilməsi çox vacibdir. Belə bir strategiya uzunmüddətli xarakter daşıyır və müxtəlif təhdidlərin və çağırışların yaranması imkanını və həm də belə təhlükələrin yaranmasının qarşısı-

nı almaq və ya bu mümkün olmadığı halda, onların mənfi nəticələrinin azaldılması üzrə dövlətlərin davranış taktikasını nəzərə almalıdır.

Özünün müstəqilliyinin birinci dövründə Qazaxıstan qarşısında bir sıra ciddi təhdidlər və çağırışlar yaranmışdı. Belə ki, SSRİ-nin dağılmasından sonra Qazaxıstan ərazisində olan nüvə silahının böyük arsenalına (dünyada dördüncü) dair öz mövqeyini müəyyənləşdirmək zərurəti ilə qarşılaşmışdır. Bundan əlavə, Qazaxıstanın ərazisində SSRİ-də ən böyük olan Semipalatinsk nüvə poliqonu yerləşirdi. Nüvə silahı arsenalı üzərində lazımi texniki idarəetmənin dəstəklənməsi böyük maliyyə vəsaitlərini tələb edirdi, bu isə yeni yaranmış dövləti iqtisadi cəhətdən əhəmiyyətli dərəcədə yükləyirdi. Belə böyük bir nüvə silahı arsenalının olması bu ölkəyə nüvə silahını əldə etməyə çalışan müxtəlif ekstremist və terrorçu qüvvələrin və qrupların öz diqqətini cəlb etmişdir. Həmçinin, nüvə silahının saxlanması və yayılmaması üçün təhlükəsizlik qarantiyaları ilə bağlı da narahatçılıqlar mövcud idi. Onu da nəzərə almaq lazımdır ki, SSRİ-də ordu yalnız birbaşa mərkəzi orqanların tabeçiliyində idi və buna müvafiq olaraq müttəfiq respublikaların milli ordusu yox idi. Bu səbəbdən nüvə silahı arsenalı üzrə komandanlıq Qazaxıstana aid deyildi və onun nəzarəti altında olmamışdı. Təbii ki, hətta müstəqil dövlət olduqdan sonra belə Qazaxıstan hərbiçilərin bu silaha heç bir çıxışları yox idi. Ümumiyyətlə, bu qoşunların komandanlığının (Rusiyanın rəhbərliyinə tabe idi) Qazaxıstan rəhbərliyinə tabe olacağı da bəlli deyildi və şübhə yaradırdı. Bu hal isə nəinki bu regionda, ümumiyyətlə, bütün dünyada siyasi böhrana səbəb ola bilərdi. Qazaxıstan isə ciddi problemlərlə üzləşə bilərdi. Müqayisə üçün Ukraynanı misal çəkmək olar. Belə ki, Ukrayna 1994-cü ilə kimi öz nüvə arsenalından ayrılmaq istə-

mirdi. O zamankı Ukrayna prezidenti olan Leonid Kravçukun xatırlamalarına görə, bununla bağlı NATO praktiki olaraq açıq bəyan etmişdi ki, nüvə silahı arsenalı Ukrayna tərəfindən təhvil verilmədiyi halda onun üzərinə sanksiyalar qoyulacaqdır.

Bütün bunlara görə Qazaxıstan, ilk növbədə, bu problemi həll etməyə çalışırdı. Və Qazaxıstan prezidenti Nursultan Nazarbayev öz ölkəsinin nüvə silahından imtina etməsi haqqında qərar qəbul etdi. Qazaxıstanın nüvə silahından imtinası hüquqi cəhətdən Sovet Sosialist Respublikaları İttifaqı ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Sazişinə (SHS-1) 23 may 1992-ci ildə Lissabon protokolunun imzalanması ilə rəsmiləşdirilmişdir. Qazaxıstan ilə yanaşı bu protokolu Rusiya, ABŞ, Belarus və Ukrayna da imzalamışdır. Lissabon protokolu 1991-ci ildə SSRİ və ABŞ arasında bağlanmış SHS-1 sazişinə əlavədir. Bu protokolun imzalanmasından sonra Ukrayna, Qazaxıstan və Belarus da SHS-1 sazişinin tərəfləri kimi tanındılar. Bu dövlətlər həmçinin Nüvə silahının yayılmaması haqqında müqaviləyə də qoşularaq nüvə silahına malik olmayan dövlətlərin sırasına qatıldılar. Bu, 13 dekabr 1993-cü ildə Qazaxıstan Ali Soveti "Nüvə silahının yayılmaması haqqında" müqaviləyə qoşulması haqqında" qətnamənin qəbul edilməsi ilə rəsmiləşdirilmişdir. Bununla yanaşı, Lissabon protokolu üzrə bu ölkələr öz ərazilərində olan strateji nüvə başlıqlarını ya məhv etməli, ya da Rusiyaya verməli idilər.

Qazaxıstanın, həmçinin Belarus və Ukraynanın bu qərarlarını ABŞ, Rusiya, Avropa Birliyi, BMT və həmçinin bir sıra dövlətlər alqışlamışlar. Semipalatinsk nüvə poliqonu isə daha əvvəl, hələ 1991-ci ildə SSRİ-nin mövcud olduğu zaman bağlanmışdır.

Bundan əlavə, 1994-cü ildə Qazaxıstan, ABŞ, Rusiya və Böyük Britaniya Qazaxıstanın “Nüvə silahının yayılmaması haqqında müqaviləyə qoşulması ilə bağlı təhlükəsizlik qarantiyaları haqqında” Memorandum imzalamışlar. Daha sonra Çin və Fransa da bu qarantiyalara qoşulmuşlar. Həmçinin Qazaxıstan və ABŞ arasında ballistik raketlərin şaxta buraxılış qurğularının məhv edilməsi, fövqəladə vəziyyətlərin nəticələrinin ləğv edilməsi və nüvə silahının yayılmasının qarşısının alınmasına dair saziş imzalanmışdır. Bunlarla bağlı bütün xərcləri ABŞ öz üzərinə götürmüşdür. Və artıq 1995-ci ilin aprel ayına Qazaxıstan bütün nüvə silahını Rusiyaya təhvil vermişdir. 7 may 1995-ci ildə keçmiş Semipalatinsk nüvə poliqonunun ştolnyasında sonuncu nüvə başlığı məhv edilmiş, 29 iyul 2000-ci ildə isə elə həmin poliqonda nüvə sınaqlarının aparılması üçün sonuncu ştolnya partladılmışdır.

Hal-hazırda Qazaxıstan, Belarus və Ukraynanın nüvə silahından imtina etməsi birmənalı qarşılanmır. Belə ki, çox güman ki, Ukrayna nüvə silahından imtina etməsəydi, Rusiyanın Krımı işğal edərək öz ərazisinə qatması, həm də öz qoşunlarının Ukraynanın cənub-şərq hissəsinə yeridərək orada DXR və LXR adlanan qondarma qurumlar yaratması mümkün olmazdı. Belə addımların atılması üçün hətta Lissabon protokolu belə maneə olmadı və Rusiya bu sənəddən irəli gələn öz öhdəliklərini asanca pozdu.[245,246] Belarus prezidenti A.Lukaşenko Belarusun nüvə silahından imtina etməsini ən böyük səhv kimi qiymətləndirmişdir. Belə ki,

---

[245] Караев, Р.М. Аннексия Крыма как нарушение принципа территориальной целостности Украины //Київ: Часопис Київського университету права, - 2016. № 1, s. 346-352.

[246] Караев, Р.М. Региональные конфликты на постсоветском пространстве. (Международно-правовой анализ) // Київ: ПРАВО. UA., - 2016.№ 1, - с. 155, 157.

onun sözlərinə görə, digər güclü dövlətlər Belarusun təhlükəsizliyinə zəmanət verməlidirlər, lakin onlar bunu etmirlər. "Əgər bizdə bu silah olsa idi, bizimlə başqa cür danışardılar".[247] Halbuki Qazaxıstandan fərqli olaraq, nüvə silahının idarəetməsində Ukrayna və Belarus əsilli çoxlu sayda hərbçilər vardı (ənənəvi olaraq SSRİ silahlı qoşunların rəhbərliyində və ümumiyyətlə, siyasi rəhbərliyində Ukrayna əsilli çoxlu insanlar təmsil olunurdu. Bunu Rusiya imperiyasından gələn türkdilli və müsəlman xalqlara şübhə ilə yanaşma və onların nümayəndələrini orduya çağırmama ənənəsi ilə izah etmək olar). Bu səbəbdən, fikrimcə, Rusiya rəhbərliyi Ukrayna və Belarus rəhbərliyini güclə nüvə silahından imtina etməsinə məcbur etmə imkanından məhrum idi. Belə bir addımın atılması isə, ümumiyyətlə, nəticəsi bilinməyən hadisələr gətirə bilərdi. Onu da xatırlamaq kifayətdir ki, məhz Ukraynanın qəti mövqeyi SSRİ-nin bu və ya digər formada saxlanılması ümidlərinə son qoydu.

Bununla belə, Qazaxıstan prezidenti N.Nazarbayev öz ölkəsinin nüvə silahından imtina etməsini düzgün bir addım kimi dəyərləndirmişdir. Onun sözlərinə, görə belə bir addım Qazaxıstana daha səmərəli təhlükəsizlik təmin etmiş və ölkə iqtisadiyyatına çoxlu investisiyalar cəlb etmək imkanı yaratmışdır.[248] N.Nazarbayev iddia edir ki, Qazaxıstan nü-

---

[247]Лукашенко: Отказ Беларуси от ядерного оружия стал крупнейшей ошибкой: [Электронный ресурс] /ТСН. 15 апреля 2010. URL: https://tsn.ua/ru/svit/lukashenko-otkaz-belarusi-ot-yadernogo-oruzhiya-stal-krupneishei-oshibkoi.html

[248] Нурсултан Назарбаев: Наш отказ от ядерного оружия помог человечеству свободно вздохнуть: [Электронный ресурс] / KAZINFORM. Международное информационное агентство. 13 декабря 2018. URL: https://www.inform.kz/ru/nursultan-nazarbaev-nash-otkaz-ot-yadernogo-oruzhiya-pomog-chelovechestvu-svobodno-vzdohnut_a3477610

və silahını təhvil verməmiş, xarici sərmayələrin ölkə iqtisadiyyatına cəlb edilməsinə dəyişmişdir.[249]

Nəzərə almaq lazımdır ki, Qazaxıstandan nüvə silahının çıxardılması faktı artıq baş vermişdir. Belə bir addımın atılması Qazaxıstanı nüvə silahı arsenalının saxlanılması ilə bağlı xərclərdən azad etmiş, ölkənin beynəlxalq nüfuzunu qat-qat artırmış, bu ölkəyə dünya ictimaiyyətinin və fövqəldövlətlərin rəğbətini qazanmış, Qazaxıstana xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərait yaratmışdır. Bəlkə də, bu addımın atılması, müəyyən mənada daha sonra Rusiyada səslənən və Qazaxıstanın qərb vilayətlərini Rusiyanın tərkibinə qatmasını istəyən qüvvələrin qarşısını almağa imkan yaratdı və Rusiyanı belə bir addımın atılmasından çəkindirdi.

Bununla belə, fikrimizcə, Qazaxıstanın nüvə silahından azad olunması faktiki olaraq ona qarşı hərbi təhdidin yaradılmasına səbəb oldu. Ukrayna buna əyani sübutdur.

Belə bir iddia etmək olar ki, Qazaxıstan o dövrdə nüvə silahı ilə bağlı çağırışın öhdəsindən gələ bildi və bu problemi həll etdi. Bu çağırışla yanaşı, Qazaxıstanda milli həyat qabiliyyətli dövlətin yaradılması çox vacib əhəmiyyətə malik idi. Artıq demək olar ki, Qazaxıstan xalqının uğurlu fəaliyyəti nəticəsində bu ölkə nəinki Mərkəzi Asiyada, həm də bütün dünyada ən uğurlu ölkələrdən birisinə çevrilmişdir.

Təkcə ATƏT-in 2010-cu il tarixli Sammitinin Astanada keçirilməsini bu ölkənin dünyada nüfuzunun nümunəsi kimi dəyərləndirmək olar. Qazaxıstanın uğurlu dövlət olmasına müxtəlif iqtisadi göstəricilər və bütövlükdə götürəndə bu

---

[249] Не сдали, а обменяли: что приобрел Казахстан после отказа от ядерного арсенала: [Электронный ресурс] / Караван. Медиа портал. 30 июля 2019. URL: https://www.caravan.kz/gazeta/ne-sdali-a-obmenyali-chto-priobrel-kazakhstan-posle-otkaza-ot-yadernogo-arsenala-567381/

ölkənin səmərəli fəaliyyət göstərməsi də dəlalət edir və fikrimcə, bu məsələ üzərində daha ətraflı dayanmağa ehtiyac yoxdur.

Milli dövlətin fəaliyyət göstərməsi və inkişafı onun milli maraqlarının formalaşması, o cümlədən milli təhlükəsizlik strategiyasının müəyyən edilməsi zərurətini meydana çıxardır. Qazaxıstanın milli təhlükəsizlik strategiyasını və onun əsas parametrlərini müəyyən etmək məqsədilə 1999-cu ildə 1999-2005-ci illər üçün Qazaxıstanın milli təhlükəsizlik strategiyası tərtib edilərək qəbul edilmişdir. Belə bir strategiyanın müəyyənləşdirilməsi Qazaxıstanda səmərəli və təsirli təhlükəsizlik sisteminin formalaşdırılmasında vacib bir mərhələ idi, çünki ölkənin təhlükəsizliyinin təmin edilməsi üzrə bütün işə sistemli xarakter vermək imkanını yaradırdı. Belə ki, bu sənəddə ölkə təhlükəsizliyinə altı əsas sahə çərçivəsində baxılırdı. Bunlar xarici təhlükəsizlik, hərbi, iqtisadi, sosial-siyasi, ekoloji və informasiya təhlükəsizliyidir. Qazaxıstanın milli təhlükəsizlik strategiyasının inkişafına yönəlmiş "Qazaxıstan Respublikasının milli təhlükəsizliyi haqqında" qanun 12 yanvar 2012-ci ildə qəbul edilmişdir.[250] Milli təhlükəsizlik strategiyası təhlükəsizlik üzrə məsələlər kompleks şəkildə baxılmasına imkan yaradır və təhlükəsizlik anlayışının dərk edilməsini genişləndirir. Onu da qeyd etmək lazımdır ki, Qazaxıstanda 1999-cu ilə kimi informasiya, ekologiya, iqtisadi, sosial təhlükəsizlik sahələrinə kifayət qədər diqqət yetirilmirdi. Belə bir strategiyada ilk dəfə müəyyən edilmişdir ki, müəyyən mənfi inkişafda bütün yuxarıda sadalanan problemlər milli təhlükəsizliyə

---

[250] О национальной безопасности Республики Казахстан. Закон Республики Казахстан от 6 января 2012 года № 527-IV //"Казахстанская правда" от17.01.2012 г., № 19-20 (26838-26839); "Егемен Ќазаќстан" 2012 жылєы 17 ќаңтардаєы № 18-19 (27090)

təhdid dərəcəsinə keçə bilər. Strategiyada ortamüddətli perspektivdə Qazaxıstanın təhlükəsizliyinə əhəmiyyətli təhdidlər xüsusi qeyd edilmişdir. Onların arasında xüsusi olaraq, Qazaxıstanın sərhədləri yaxınında lokal münaqişə ocaqlarını (məsələn, Fərqanə validində), terrorizmin bütün təzahürlərində yayılmasını, dini ekstremizmi (onun təzahürünün ifrat formaları da daxil olmaqla), ilk növbədə, Asiya regionunda, kütləvi qırğın silahlarının yayılması təhlükəsini, ölkənin Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin azalmasını, ölkənin texnoloji və elmi-texniki cəhətdən geriyə qalmasını, ölkə iqtisadiyyatı sahələrinin inkişafında disproporsiyaları, ağır ekoloji (Aral dənizinin quruması) və iqtisadi nəticələrə aparan su resurslarının qıtlığını, elektron məlumat bazalarına və müxtəlif məlumat banklarına icazəsiz girişi və s. qeyd etmək lazımdır. Strategiya proqram xarakterli sənəddir. Onun əsasında ölkənin milli maraqlarının müdafiəsi üzrə tədbirlər görülür, milli təhlükəsizliyə təhdidlərin qarşısının alınması və neytrallaşdırmasında bütün dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilir.

Qazaxıstan üçün vacib çağırışı onun iqtisadi vəziyyəti təşkil edirdi. Bu halı bir sıra Qazaxıstan ekspertləri də qeyd edirdi. Belə ki, Qazaxıstan Müdafiə Nazirliyi yanında Hərbi-strateji Tədqiqatlar Mərkəzinin prezidenti Bakıtcan Abdrahim iddia edir ki, Qazaxıstan üçün əsas təhlükə balanslaşdırılmamış iqtisadiyyatdan irəli gəlir. Onun fikrincə: "Qazaxıstan üçün ən kritik təhdidlər iqtisadi təhlükəsizlik sahəsindədir, çünki bu sahə hər bir dövlət üçün əsasdır və təhlükəsizliyin praktiki olaraq bütün tərəflərini əhatə edir".[251] Bakıtcan Abdrahim öz əhəmiyyətinə görə ikinci yerə siyasi

[251] Казахстан: Угрозы национальной безопасности: [Электронный ресурс] / CA-portal. 16 июня 2013 года. URL: http://www.ca-portal.ru/article:8004

təhlükəsizliyi aid edir və onu iqtisadi sabitlik ilə bağlayır: “Dünya praktikası göstərir ki, iqtisadi cəhətdən güclü dövlət ölkənin konstitusiya quruluşuna, insanların hüquqlarına, azadlıqlarına, yaşayış səviyyəsi və keyfiyyətinə, dövlətin suverenliyi və ərazi bütövlüyünə daha az dərəcədə mümkün risklərə və təhdidlərə məruz qalır”.[252] Bakıtcan Abdrahimə görə, Qazaxıstan Respublikasının milli təhlükəsizliyinə təhdidlər sırasında vaciblik və aktuallıq dərəcəsinə görə üçüncü yeri ictimai təhlükəsizlik sahəsində olan təhdidlər tutur. Lakin cəmiyyətin sabitliyi, onun qorunması, mənəvi təməllərin vəziyyəti də birbaşa ölkənin iqtisadi inkişafından asılıdır.[253] Bununla yanaşı, o təhdidlər sırasında dördüncü yerə hərbi sahədə olan təhdidləri qoymuş və vurğulamışdır ki, dövlətin hərbi qüdrəti, ölkənin iqtisadi, mənəvi-siyasi, sosial, elmi və hərbi potensialından törəmədir. Beşinci yerə o, ölkənin ekoloji təhlükəsizliyini qoymuş və qeyd etmişdir ki, ekoloji təhlükəsizlik insanın təsərrüfat fəaliyyəti və ya təbiətin təbii dəyişikliklər nəticəsində ətraf mühitə antropogen təsirinə görə sarsıdıla bilər. Ölkənin milli təhlükəsizliyinə mövcud olan və mümkün olan təhdidlər sırasında sonuncu yerə informasiya sahəsində təhdidlər qoyulmuşdur. Bunlarla yanaşı, son zaman Qazaxıstanın milli təhlükəsizliyinə mümkün olan təhdidlərə hakimiyyətin tranziti ilə bağlı təhdidi də aid edilir.

Nəzərə almaq lazımdır ki, Rusiya Federasiyası və Çin kimi avtoritar dövlətlər heç də öz sərhədləri yanında “rəngli inqilabların baş verməsində” maraqlı deyillər. Həm də Qərb ölkələri (ABŞ, Aİ ölkələri) bu regionda vəziyyətin pozul-

---

[252] Казахстан: Угрозы национальной безопасности: [Электронный ресурс] / CA-portal. 16 июня 2013 года. URL: http://www.ca-portal.ru/article:8004

[253] Там же.

masında və qeyri-sabitliyin yaranmasında maraqlı deyillər. Çünki Qazaxıstanın iqtisadiyyatına Qərb ölkələrinin irimiqyaslı investisiyaları yatırılıb. Belə ki, Qazaxıstan öz müstəqilliyini bəyan etdikdən sonra 2019-cu ilə kimi onun iqtisadiyyatına 320 mlrd. ABŞ dollarından çox vəsait qoyulmuşdur və onların 250-dən çoxu son 10 ilə aiddir.[254] Qazaxıstanda bir sıra iri transmilli koorporasiyalar fəaliyyət göstərir (*Chevron, Exxom Mobile, Royal Dutch Shell, Eni, Lookoil, Philip Morris* və d.). Hər cür qeyri-sabitlik onlara böyük iqtisadi zərər vura bilər. Bundan əlavə, Qazaxıstanda ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi üçün həm də bir sıra daxili amillərin olması da zəruridir. Lakin ölkədə vəziyyəti qeyri-sabit edə bilən qüvvələr (ekstremist yönlü qruplaşmalar və ya müxtəlif strukturların maliyyələşdirdiyi təsir gücünə malik olan kütləvi qeyri-hökumət təşkilatları) praktiki olaraq mövcud deyil.

Rusiya ilə yaxın qonşuluq, böyük uzunluğu olan ümumi sərhəd və çoxlu sayda rus əhalisinin Qazaxıstanda yaşaması bütövlükdə həm Qazaxıstanın müstəqil dövlət kimi mövcudluğu üçün, həm də müxtəlif bəhanələrlə ("tarixi ədalətin bərpası", "hüquqları pozulan rus əhalisinin müdafiəsi", "ABŞ-ın regiona soxulmasının qarşısının alınması" və s. misal kimi Rusiyanın Gürcüstana və Ukraynaya soxulmasını və onların torpaqlarının ilhaq edilməsini göstərmək olar) Rusiya tərəfindən Qazaxıstanın qərb rayonlarının mümkün qədər zəbt edilməsi və ilhaqı üçün daimi təhlükə mənbəyidir. Bu səbəbdən Qazaxıstan əhəmiyyətli dərəcədə Rusiya siyasətinin farvaterində "üzməyə" və onun yaratdığı KTMT, Avİİ kimi təşkilatlarda iştirak etməyə məcburdur.

---

[254] 250 млрд. $ иностранных инвестиций привлек Казахстан за последние 10 лет: [Электронный ресурс] / Forbus. 30 июля 2019. URL: https://forbes.kz/news/2019/07/30/newsid_204748

Lakin son zamanlar Qazaxıstan tərəfindən Qərbə və xüsusən də ABŞ-a doğru müəyyən addımlar atılmışdır. Belə ki, Qazaxıstan Əfqanıstanda sabitliyin yaranması üzrə ABŞ-ın etibarlı regional tərəfdaşı kimi çıxış edir. Qazaxıstan Əfqanıstanda antiterror fəaliyyəti hərtərəfli dəstəkləyir və bununla bağlı NATO qüvvələrin çıxardılması üçün öz ərazisindən istifadə edilməsinə razılıq verir. Bundan əlavə, Qazaxıstan nüvə silahının yayılmaması siyasətini, o cümlədən İran nüvə silahı məsələsi üzrə, tam dəstəkləyir. Həmçinin qeyd etmək lazımdır ki, Qazaxıstan (digər müasir Mərkəzi Asiya dövlətləri ilə yanaşı) BMT Baş Məclisində Suriya ilə bağlı ABŞ və onun müttəfiqləri tərəfindən irəli sürülən qətnamənin lehinə səs vermişdir (halbuki Rusiya bu qətnamənin əleyhinə səs vermişdir).[255]

Qazaxıstan üçün digər təhdid Əfqanıstana coğrafi cəhətdən nisbətən yaxın olması ilə bağlıdır. Belə ki, Əfqanıstandan ekstremist islamçı qruplaşmaları sərhədlərdən keçərək postsovet dövrü Mərkəzi Asiya dövlətlərinin ərazisinə daxil ola bilərlər. Belə bir təhdid Əfqanıstanda vətəndaş müharibəsi bitənə qədər və müxtəlifyönümlü ekstremist və terrorçu qüvvələrin məhv edilməsinə qədər daimi xarakter daşıyır.

Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar:

1. Qazaxıstanın milli təhlükəsizliyinə olan təhdidləri və çağırışları siyasi, hərbi, iqtisadi, ekoloji, texnoloji, su, enerji və s. kimi təsnif etmək olar.

2. Qazaxıstanın təhlükəsizlik strategiyası bir-birinə təsir edən və real hallardan asılı olaraq öz düzəlişini tələb edən bir sıra qarşılıqlı əlaqəli amillərdən ibarətdir.

---

[255] Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.:Россия и мусульманский мир. - 2014. № 1 (259), - с. 102

3. Rusiya ilə həmsərhəd olması və Qazaxıstan ərazisində çoxlu sayda rus əhalisinin yaşaması və s. bütövlükdə həm Qazaxıstanın müstəqil dövlət kimi mövcudluğu üçün, həm də müxtəlif bəhanələrlə Rusiya tərəfindən Qazaxıstanın qərb rayonlarının mümkün zəbt edilməsi və ilhaqı üçün daimi potensial təhlükə mənbəyidir. Bu səbəbdən Qazaxıstan uzun müddət ərzində Rusiya siyasətinin farvaterində "üzməyə" məcburdur.

4. Qazaxıstanın milli təhlükəsizliyinə təhdid və çağırışlara bu ölkənin bütövlükdə bütün Mərkəzi Asiya regionuna təhlükə gətirə biləcək Əfqanıstana nisbətən yaxın olması böyük təsir göstərir. Bununla belə, Qazaxıstan və Əfqanıstan arasında ümumi sərhədin olmaması birbaşa Qazaxıstan ərazisinə Əfqanıstandan soxulma imkanını mümkünsüz edir, bu isə bu ölkədən gələ bilən təhdidləri və riskləri əhəmiyyətli dərəcədə azaldır.

5. Qazaxıstan bir sıra digər müasir Mərkəzi Asiya ölkələrinə (xüsusən də KTMT çərçivəsində Qırğızıstana və Tacikistana) beynəlxalq terrorizm, dini ekstremizm, Əfqanıstandan gələn narkotrafik daxil olmaqla, narkobiznes və s. kimi milli təhlükəsizliyə qarşı olan təhdid və çağırışlarla mübarizədə müəyyən dərəcədə dəstək verir. Bu dövlətlər Qazaxıstan və Əfqanıstan arasında bufer rolunu oynayır və onlara yuxarıda qeyd edilən təhdid və çağırışlarla mübarizədə hər cür yardım edilməsi əhəmiyyətli dərəcədə Qazaxıstanın özü üçün preventiv xarakter daşıyır.

6. Digər müasir Mərkəzi Asiya ölkələrinə hərtərəfli yardım edilməsi Qazaxıstan Respublikasının milli təhlükəsizliyinin vacib bir ünsürünü təşkil edir, çünki ölkə ərazisində dini ekstremizmin yayılması, narkobiznes, terror aktlarının törədilməsi və s. ilə mübarizənin aparılması nəticəsində belə təhdidlərin qarşısı ya alınır, ya da onlardan irəli gələn mənfi nəticələr əhəmiyyətli dərəcədə azalır.

### *3.4.2. Özbəkistan Respublikasının təhlükəsizlik strategiyası*

Qazaxıstan ilə yanaşı, bütün Mərkəzi Asiya regionunda, ən azı bu regionun ölkələri arasında vacib yeri Özbəkistan da tutur. Öz coğrafi vəziyyətinə görə Mərkəzi Asiya regionunda xüsusi geostrateji və geosiyasi yer tutaraq, onun "ürəyində" yerləşir. Özbəkistanın sərhədlərinin uzunluğu 6621 km təşkil edir. O bütün postsovet dövrü Mərkəzi Asiya ölkələri və həmçinin Əfqanıstan ilə həmsərhəddir. Onu da nəzərə almaq lazımdır ki, bu həmsərhəd ölkələrdə çoxsaylı özbək diasporası yaşayır və onlar Özbəkistan üçün vacib təsir alətlərinə çevrilə bilər. Özbəkistan təbii resurslarla zəngindir (qızıl, mis, təbii qaz, neft, uran və s.). Həmçinin pambığın becərdilməsi üzrə dünyada aparıcı dövlətlərdən biridir. Bundan əlavə, ölkə ərazisindən keçən tranzit dəhlizlərin cəmləşməsi yeri olaraq bu ölkə iqtisadi və siyasi inkişaf müstəvisində böyük potensial perspektivlərinə malikdir. Öz iqtisadi potensialına görə Özbəkistan Mərkəzi Asiya regionunda postsovet ölkələri arasında Qazaxıstandan sonra ikinci yerdədir. Bundan əlavə, Özbəkistan postsovet dövrü Mərkəzi Asiya ölkələri arasında ən güclü orduya sahibdir. Belə ki, nüfuzlu "Global Firepower" təşkilatına görə, Özbəkistan 2015-ci ildə müasir Mərkəzi Asiya ölkələri arasında ən qüdrətli dövlətə çevrilmiş və bu statusu saxlamaqda davam edir. Dünya orduları sırasında bu ölkənin ordusu 2017-ci ildə dünya reytinqində 39-cu yerə kimi qalxmışdır.[256]

---

[256] Курилкин, А. Марш-бросок: почему армия Узбекистана взлетела в рейтинге военной мощи: [Электронный ресурс] / Sputnik Узбекистан. 19 апреля 2019.URL: https://uz.sputniknews.ru/analytics/20180419/7999878/uzbekistan-armia-mirzieev.html.

Düzdür, 2019-cu ilin yekunlarına görə, bu reytinqdə bir qədər geriləmiş və 52-ci yerə enmiş, lakin bununla belə, böyük fərqlə Qazaxıstan (63-cü yer), Türkmənistan (77-ci yer), Tacikistan (94-cü yer) və Qırğızıstan (98-ci yer) kimi dövlətlərin ordusunu qabaqlayır.[257] Özbəkistanın hərbi büdcəsi 2018-ci ildə ölkənin ÜDM-nin 4%-ni təşkil etmiş və 1,4 mlrd. dollar məbləğində idi.[258]

Müasir dövrdə Özbəkistanın qarşılaşdığı bir sıra təhdid və çağırışları göstərmək olar. Onların arasında əsas təhdidi terrorçular və müxtəlif yönümlü ekstremistlər, xüsusən Əfqanıstanın və digər həmsərhəd ölkələrin ərazisindən gələ biləcək dini ekstremistlər təşkil edir. Bunların arasında Əfqanıstanda İŞİD-in (DAİŞ) hüceyrələrinin artması və bununla bağlı seyri-sabitliyin Özbəkistanın sərhədindən keçməsi təhlükəsini göstərmək olar. Onu da nəzərə almaq lazımdır ki, Özbəkistanın Əfqanıstanla, Qırğızıstanla və Tacikistanla sərhədinin böyük bir hissəsi nəzarət etməyin çox çətin olduğu ucqar dağlıq ərazilərdən keçir. Özbəkistan (eləcə də Tacikistan) ABŞ və NATO qüvvələrinin Əfqanıstandan çıxarılmasından sonra terror təhlükəsinin artmasından xüsusilə narahatdır. Görünür, məhz bu səbəbin gücünə Özbəkistan ABŞ-ın köməyində maraqlıdır və onun ABŞ və bütövlükdə NATO ilə əməkdaşlıq səviyyəsi son zaman davamlı yüksəlməkdədir. Onu da qeyd etmək lazımdır ki, 2001-ci ilin sentyabrında Nyu-Yorkda baş vermiş terror hadisələrindən sonra ABŞ 5 oktyabr 2001-ci ildə Özbəkistanla bağlanmış müqavilə üzrə Qarşı-Xanabad hərbi hava li-

[257]2020 Military Strength Ranking: [Electronic resource] / Global Firepower. URL:https://www.globalfirepower.com/countries-listing.asp

[258] Хроленко, А. Хочешь мира — готовься: как узбекская армия стала сильнейшей в ЦА:[Электронный ресурс] / Sputnik. 14 января 2018 года.URL:https://ru.sputniknews-uz.com/columnists/20180114/7260074/hochesh-mira-gotovsya.html

manından istifadə etməyə başlamışdır (burada 1,5 min hərbçi, qırıcı və nəqliyyat təyyarələri yerləşdirilmişdir). Bu hərbi liman Əfqanıstana ABŞ və NATO-nun yerlə və hava ilə ərzaq və maddi-texniki resurslarla tədarük üçün vacib logistik mərkəz idi. Belə ki, C-17 təyyarələri yükün ağırlığından asılı olaraq 1000-3500 km-ə qədər məsafəyə, C-130 (Herkules) təyyarələri isə 4000-5400 km məsafəyə uca bilir. Bu isə bu hərbi limandan əlavə yanacaq doldurmadan Əfqanıstanın istənilən nöqtəsinə uçmağa imkan verir.[259] Ümumiyyətlə, Mərkəzi Asiya dövlətləri, o cümlədən Özbəkistan Əfqanıstandan gələn təhlükəni özlərinin təhlükəsizliyinə təhdid kimi hesab edərək ABŞ-a belə bir təhlükə ilə mübarizədə kömək etməyə hazır olduqlarını bildirmişlər.[260] Terrorizm ilə mübarizə üzrə Özbəkistanın ABŞ ilə geniş əməkdaşlığı 11 sentyabr 2001-ci ildə Nyu-Yorkda baş vermiş terror aktlarından sonra başlamışdır. Artıq 12 sentyabrda ölkə prezidenti İ.Kərimov ABŞ prezidenti C.Buşa bu faciə ilə əlaqədar öz rəğbətini bildirdi. Bir həftədən sonra iki prezident arasında telefon danışığında digər məsələlərlə yanaşı, terrorizm ilə mübarizədə əməkdaşlığın perspektivləri və terrorizmin yaranma köklərinin və onun maliyyələşdirmə mənbələrinin məhv edilməsinə yönəlmiş dünya birliyinin səylərinin fəallaşdırılması zərurəti müzakirə edilmişdir.[261] Bununla əlaqədar artıq 28 sentyabr 2001-ci ildə İ.Kəri-

[259] Хроленко, А. Хочешь мира — готовься: как узбекская армия стала сильнейшей в ЦА: [Электронный ресурс] / Sputnik. 14 января 2018 года.URL:https://ru.sputniknews-uz.com/columnists/20180114/7260074/hochesh-mira-gotovsya.html.

[260]Стар, Ф. В защиту Большой Центральной Азии // Геополитика: США и Центральная Азия: Сборник статей. Часть 1. – Бишкек, - 2008, - с. 10-19.

[261]Шукурзода, М. Хронология американо-узбекских отношений 1992–2012: Соединенные Штаты Америки и Республика Узбекистан – 20 лет со дня установления дипломатических отношений / М.Шукурзода. – Ташкент: Niso Poligraf, - 2012, - с. 42.

mov terrorçularla mübarizədə və həmçinin humanitar məqsədlərlə Özbəkistanın hava məkanından istifadə edilməsi haqqında məsələyə baxılmasına öz razılığını bildirmişdir. 2001-ci ilin oktyabrında ABŞ müdafiə naziri D.Ramsfeldin səfəri zamanı iki ölkə arasında ABŞ-a Özbəkistanın hava məkanından və Xanabadda yerləşən hərbi hava bazasından istifadə edilməsinə hüquq verən saziş bağlanmışdır (yerləşdirilən hərbi qulluqçuların sayı 1500-ü keçməmək şərti ilə).[262] Bundan sonra Özbəkistan hava limanlarında ABŞ hərbi hava qoşunları yerləşməyə başlamışdır. Onu da vurğulamaq lazımdır ki, Özbəkistan ABŞ hərbi qüvvələrinin öz ərazisində yerləşdirilməsinə razılıq vermiş və Rusiya tədqiqatçısı M.İ.Oqursovun fikrincə, Əfqanıstana aid MDB ölkələrin ümumi xəttindən kəskin fərqlənən öz müstəqil siyasətini həyata keçirən birinci dövlət idi.[263] Hətta 2002-ci ilin martında ABŞ və Özbəkistan strateji tərəfdaşlıq və əməkdaşlıq çərçivəsi haqqında Bəyannamə imzalamışlar. Lakin 2005-ci il Əndican hadisələrindən sonra Özbəkistan və ABŞ arasında münasibətlər kəskinləşmiş və ABŞ-ın qüvvələrinin Xanabad hava limanından istifadə edilməsinə Özbəkistan tərəfindən ciddi məhdudiyyətlər qoyulmuşdur. Bundan fərqli olaraq, bir müddət hətta Özbəkistan-Çin və xüsusən də Özbəkistan-Rusiya münasibətləri dərinləşməyə başlamışdır. Fikrimizcə, bu taktiki xarakter daşıyırdı və ABŞ-ın o dövrdə avtoritar rejimləri dəstəkləməməsi qorxusundan irəli gəlirdi. Məhz bununla bir müddət sonra 14 no-

---

[262] Wishnick, E. Growing U.S. Security Interests in Central Asia / E. Wishnick. - Carlisle Barracks, Pa.: Strategic Studies Institute, US Army War College, -2002. - p. 14.

[263] Огурцов, М.И. Афганский фактор в американо-узбекских отношениях в 2001-2014 гг.: [Электронный ресурс] /CYBERLENINKA. URL: https://cyberleninka.ru/article/n/afganskiy-faktor-v-amerikano-uzbekskih-otnosheniyah-v-2001-2014-gg

yabr 2005-ci ildə Rusiya və Özbəkistan arasında müttəfiq münasibətlər haqqında Saziş imzalanmasını, 16 avqust 2006-cı ildə isə Özbəkistanın Rusiyanın himayəsi altında olan KTMS üzvlüyünü bərpa etməsini izah etmək olar.

Bununla belə, Özbəkistan və ABŞ arasında münasibətlər tədricən yenidən inkişaf etməyə başlamışdır. Rusiya Strateji Tədqiqatlar İnstitutunun Ural Regional İnformasiya-analitik Mərkəzinin rəhbəri D.Popov qeyd edir ki, Özbəkistan prezidenti İ. Kərimovu kollektiv təhlükəsizlik və postsovet inteqrasiya sahəsində bir çox Rusiya layihələri qane etmədiyindən Özbəkistanın ABŞ ilə yaxınlaşması vaxt məsələsi idi.[264] Rəsmi olaraq isə iki dövlət arasında münasibətlərin pisləşməsi 2008-ci ildə B.Obamanın ABŞ prezidenti vəzifəsinə seçilməsindən sonra mümkün oldu. B.Obamanın yeni strategiyası bir tərəfdən "Böyük Mərkəzi Asiya" və "Yeni İpək Yolu" layihələrini həyata keçirməklə qonşu ölkələrlə əlaqələrin möhkəmləndirilməsi hesabına Əfqanıstanın təsərrüfatının bərpasını, digər tərəfdən isə taliblərlə hərbi əməliyyatların intensivləşməsini nəzərdə tuturdu. Bunun üçün isə ABŞ və beynəlxalq koalisiya qüvvələri üçün yeni təchizat yollarının açılması tələb olunurdu. Bunların arasında ən əlverişlisi Şimal Paylayıcı Şəbəkəsi idi. Bu məqsədlərə nail olunması isə postsovet dövrü Mərkəzi Asiya dövlətləri, o cümlədən Özbəkistanla sıx əlaqələrin qurulmasını nəzərdə tuturdu.[265] 2 dekabr 2010-cu ildə ABŞ Dövlət katibi H.Klinton Özbəkistana rəsmi səfər etmişdir. Hətta 2013-cü ildə ABŞ bu ölkəyə 4 mlrd. dollardan artıq olan məbləğdə müxtəlif investisiya layihələri tək-

---

[264] Попов, Д. Место Узбекистана в Центральноазиатской политике США //- М.: Проблемы национальной стратегии. 2015. № 1(28), - с. 80.
[265] Там же.

lif etmişdir.[266] Özbəkistanın ABŞ ilə əlaqələrinin inkişafı Ş.Mirziyoyevin prezident vəzifəsinə seçilməsindən sonra daha da sürətləndi. Onun 2018-ci ilin martında ABŞ-a rəsmi səfəri zamanı iki ölkə arasında bağlanılan kontraktların məbləği 4,8 mlrd. dollar təşkil etmişdir.

Özbəkistanın ABŞ ilə hərbi sahədə əməkdaşlığının artmasının nümunəsi kimi 3 iyun 2013-cü ildə paytaxtı Daşkənddə NATO-nun regional ofisinin açılışını göstərmək olar. NATO-nun bu ofisinə Mərkəzi Asiyadakı bütün NATO tərəfdaşları - Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla əməkdaşlığı gücləndirmək vəzifəsi həvalə edilmişdir.[267] Bundan əlavə, 2015-ci ilin avqustunda Daşkənddə ilk dəfə NATO-nun Mərkəzi Asiyadakı tərəfdaş dövlətləri arasında Multimedia küncü açılmışdır. Burada Özbəkistan Respublikası Silahlı Qüvvələr Akademiyasının dinləyiciləri regional və beynəlxalq təhlükəsizliklə, beynəlxalq münasibətlərlə və hərbi elmlə bağlı ən son materiallardan istifadə edə bilirlər.[268] Özbəkistanın ordusu, həmçinin NATO standartlarına keçmişdir.

Bu isə, Özbəkistanın KTMT-dən çıxması və ŞƏT çərçivəsində hərbi-siyasi tədbirlərdə iştirak etmək istəməməsi ilə birlikdə bəzi rusiyalı təhlilçilərə ölkənin ABŞ-ın və onun müttəfiqlərinin Mərkəzi Asiyadakı dayaq nöqtəsinə

---

[266] Огурцов, М.И.Афганский фактор в американо-узбекских отношениях в 2001-2014 гг.: [Электронный ресурс] /CYBERLENINKA. URL: https://cyberleninka.ru/article/n/afganskiy-faktor-v-amerikano-uzbekskih-otnosheniyah-v-2001-2014-gg

[267] Средняя Азия: кругом НАТО: [Электронный ресурс] / Росбалт, 24 мая 2013. URL: https://www.rosbalt.ru/world/2013/05/24/1132803.html

[268] В Ташкенте открыт Мультимедийный уголок НАТО: [Электронный ресурс] / Организация Североатлантического договора 24 августа 2015.URL:https://www.nato.int/cps/en/natohq/news_122168.htm?selectedLocale=ru.

(forpostuna) çevrilməsinə inanmağa əsas verir.[269] Fikrimizcə, buradan aydın görünür ki, belə növ tədqiqatçılar Özbəkistanın Rusiya təsir dairəsindən tədricən çıxmasına və daha balanslaşdırılmış siyasətin aparılmasına qısqanclıqla yanaşırlar. Özbəkistanda terror təhlükəsinin artması ilə bağlı narahatçılığın artmasına Əfqanıstanın şimalında postsovet dövrü Mərkəzi Asiya dövlətlərin sərhədlərinin yanında terrorçu və ekstremist xarakterli qruplaşmaların fəaliyyət göstərməsi də səbəb olur.[270] Özbəkistan prezidenti Ş.Mirziyoyev xüsusi olaraq vurğulamışdır: "Beynəlxalq terrorizm və ekstremizmin artan təhdidləri, davam edən silahlı münaqişələr, dünyanın müəyyən bölgələrindəki qeyri-sabit vəziyyət Özbəkistanın dinamik inkişafı yolunda yeni çağırışlar yaradır".[271] Həqiqətən, Özbəkistanın ərazisində törədilmiş bir sıra terror aktlarını qeyd etmək olar. Onların sırasında 16 fevral 1999-cu ildə Daşkənddə törədilmiş terror aktlarını xüsusi qeyd etmək olar. Belə ki, şəhərin müxtəlif yerlərində bir-birinin ardınca 6 partlayış törədilmişdir (Daxili İşlər Nazirliyi, Nazirlər Kabineti, Xarici İqtisadiyyat Fəaliyyəti Bankı binalarının yaxınlığında və s.). Hücumların əsas məqsədi, hökumət obyektləri idi. Terrorçular Özbəkistan Nazirlər Kabinetinin binası yaxınlığında onun bir hissəsinin uçurulması məqsədilə partlayıcı maddələrlə doldurulmuş avtomobili partlatmışlar. Partlayış vaxtı binada ölkə prezi-

---

[269]Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. – 2014. № 1 (259), - с. 100.

[270] Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. – 2014. № 1 (259), - с. 99.

[271] Мирзиёев назвал главные угрозы на пути развития Узбекистана: [Электронный ресурс] / Sputnik. Узбекистан. 12 января 2018 года. URL:https://ru.sputniknews-uz.com/politics/20180112/7253548/mirzieev-pozdravil-s-dnem-zashitnika-rodiny.html

denti İ.Kərimovun iştirakı nəzərdə tutulan Nazirlər Kabinetinin iclası keçirilməli idi. Nəticədə 16 nəfər həlak olmuş 150-dən çox insan isə yaralanmışdır. Hakimiyyət orqanları terror aktlarının törədilməsində radikal islamçı qüvvələri günahlandırdılar. Elə həmin günün axşamında ölkə prezidenti İ.Kərimov milli televiziya ilə çıxışında onun həyatına sui-qəsdin baş verdiyini və terror aktlarının törədilməsində radikal islamçıları ittiham etdi. Özbəkistan daxili işlər naziri Z.Almatov 17 fevral 1999-cu il milli televiziya ilə çıxışında bu terror aktlarının arxasında "Hizb ut-Təhrir"in durduğunu, partlayışların icraçısı ilə bu qurumun döyüş hissəsi olan "Hizbullah" tərəfindən törədildiyini bəyan etdi. Özbəkistan hakimiyyəti, həmçinin bu hadisələrə görə məsuliyyəti "Özbəkistan İslam Hərəkatı" və digər beynəlxalq terror təşkilatlarının üzərinə qoydu. Düzdür, alternativ versiyalar da səslənir. Belə ki, onlardan birinə əsasən, Özbəkistan rəhbərliyi bu hazırlanan terror aktları haqqında məlumatlı idilər, lakin onların törədilməsini öz məqsədləri naminə istifadə etmək üçün bu aktların qarşısını almamışlar. Bundan əlavə, Katrin Kollinzin (Catherine Collins) qeyd etdiyi kimi, digər versiyaya əsasən bu təxribat İ.Kərimovun özü və xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir.[272] Bu versiyanı A.Polat və N.Butkeviç də dəstəkləyirlər.[273] Bu versiyanın xeyrinə əsas ittiham olunan şəxslərin mühacirətdə olmasını və qiyabi olaraq məhkum olunmasını göstərmək olar.

---

[272]Collins, K. "Clans, Pacts, and Politics in Central Asia" // - Baltimore: Journal of Democracy, - 2002. V. 13. Issue 3, - p.148.

[273]Polad, A., Butkevich, N. Unraveling the Mystery of the Tashkent Bombing: Theories and Implications // - Baltimore: Demokratizatsiya, - 2000. Vol. 8.N. 4, - p. 541.

Digər terror aktlarını da göstərmək olar. Belə ki, 6 avqust 1999-cu ildə Qırğızıstanın Batken kəndi yaxınlığında C.Namanqoninin rəhbərliyi altında 20 nəfərdən ibarət olan bir qrup döyüşçü girovları tutaraq qrupun maneəsiz Qırğızıstan ərazisindən Özbəkistana keçməsini tələb etdi. Düzdür, daha sonra, 13 avqust 1999-cu ildə onlar girovları sərbəst buraxdılar. İki gündən sonra isə Özbəkistanın hərbi hava qüvvələrinin iki qırıcısı SU-24 bu döyüşçüləri məhv etməyə çalışmış, Qırğızıstan hərbi qüvvələri isə onlara qarşı hərbi əməliyyat aparmışlar. Terrorçular bir neçə kəndi tutmağa müvəffəq olmuşlar. Özbəkistan hakimiyyəti C.Namanqoninin dəstələrini beynəlxalq terrorçular kimi xarakterizə etmişdir. Yalnız bir neçə aydan sonra 1999-cu ilin noyabr ayına Qırğızıstan hərbi qüvvələri bu dəstəni gəldiyi yerə, Tacikistana qayıtmağa məcbur etmişdir.

Ümumiyyətlə, Özbəkistanda 28 mart-1 aprel 2004-cü ildə bir sıra terror aktları törədilmişdir. Onların sırasında 29 mart 2004-cü ildə Daşkənddə və Buxarada törədilmiş terror aktlarını qeyd etmək olar. Nəticədə 19 nəfər həlak olmuş, 26-sı isə yaralanmışdır. Özbəkistanın baş prokuroru R.Kadırovun sözlərinə görə, partlayışları törədən terrorçuların əsas hissəsi neytrallaşdırılmışdır. O, həmçinin bəyan etmişdir ki, Buxara və Daşkənd vilayətlərində bir neçə "Camaat" adlanan qruplar fəaliyyət göstərirdilər. Bütövlükdə götürəndə 28 mart-1 aprel 2004-cü ildə törədilmiş terror aktları nəticəsində 28 nəfər həlak olmuş, təxminən 50 nəfər isə yaralanmışdır. ŞƏT Regional Antiterror Mərkəzin İcra Komitəsinin direktoru V.Qasımovun məlumatına görə, terror aktlarının maliyyələşdirilməsi xaricdən, Mərkəzi Asiyada vəziyyəti pozmağa can atan qüvvələr tərəfindən həyata keçirilirdi.[274]

---

[274] Теракты и беспорядки в Узбекистане в 1999–2005 гг. Справка: [Электронный ресурс] / РИА Новости. 26 мая 2009. URL: https://ria.ru/20090526/172345801.html

Növbəti terror aktı 30 iyul 2004-cü ildə baş verdi. Belə ki, Daşkənddə bir neçə partlayış törədildi. Partlayışlar ABŞ və İsrail səfirliklərinin binaları yaxınlığında edildi. Terror aktları isə terrorçu-intiharçılar tərəfindən törədildi. Nəticədə 3 insan həlak olmuş, 8 nəfər isə yaralanmışdır. Bu aktlara görə məsuliyyəti öz üzərinə "Özbəkistan İslam Hərəkatı" qruplaşması götürdü.

2-13 may 2005-ci ildə Əndicanda baş vermiş hadisələri xüsusi qeyd etmək lazımdır. Bu hadisələr müxtəlif cür dəyərləndirilir. Özbəkistan hakimiyyəti bu hadisələri əsasən dövlət çevrilişinə cəhd və terror aktları kimi dəyərləndirmiş və Əndican hadisələrində "Türküstan İslam Hərəkatı" ("Özbəkistan İslam Hərəkatı"nın əvvəlki adı), "Hizb ut-Tahrir", və onun qollarından biri olan "Əkrəmiylər" kimi beynəlxalq terror təşkilatların əllərinin olmasını iddia etmişdir.  Bir sıra Rusiya ekspertləri də belə mövqeni dəstəkləmişlər.[275] Rəsmi məlumatlara görə, 187 insan həlak olmuşdur. Digər məlumatlara görə isə həlak olanların sayı 4500 nəfərə qədər olmuşdur.[276] ATƏT-in hazırladığı "13 may Əndicanda baş vermiş hadisələr üzrə ilkin nəticələr" adlanan hesabatda həlak olanların sayı 300-500 civarında göstərilir.[277] "The Times"-ın məlumatına görə 600 insan həlak olmuşdur.[278] Qərb dövlətləri Əndican hadisələrinin müstəqil araşdırılmasını tələb etmiş və Özbəkistan haki-

---

[275] Попов, Д. Место Узбекистана в Центральноазиатской политике США //- М.: Проблемы национальной стратегии. – 2015. № 1(28), - с. 78.

[276] Usmanova, D. Andijan: A Policeman's Account: [Electronic resource] / Institute for War and Peace Reporting. Retrieved 1 May 2017. URL: https://iwpr.net/global-voices/andijan-policemans-account-0.

[277] Preliminary findings on the events in Andijan, Uzbekistan, 13 May 2005: [Electronic resource] / OSCE, 20 June 2005. URL: https://www.osce.org/odihr/15653

[278] Page, G. Mayhem follows Uzbek massacre // The Times, 2005, 16 May

miyyətini silahlı üsyanın yatırılmasında lazım olan həddən daha artıq dərəcədə gücdən istifadə etməkdə ittiham etmişdir. Aİ və ABŞ Konqresi hətta Özbəkistana qarşı sanksiyalar tətbiq etmişlər. Belə ki, 14 noyabr 2005-ci ildə Aİ Nazirlər Kabineti Özbəkistanla Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişin qismən dayandırılması, Özbəkistana silah embarqosunun qoyulması və Əndican hadisələrində əli olan şəxslərin Aİ girişini qadağan edilməsini nəzərdə tutan sanksiyalar tətbiq etmişlər.[279] 23 noyabr 2005-ci ildə BMT Baş Məclisi Əndicanda baş vermiş hadisələrlə bağlı bu hadisələrin istintaqı üzrə müstəqil komissiyanın yaradılmasına dair BMT İnsan Hüquqları üzrə Baş Komissarın çağırışlarının rədd edilməsinə dair Özbəkistan hökumətinin qərarından dərin təəssüf keçirdiyini bəyan etmişdir (lehinə 74 ölkə, əleyhinə 39 ölkə, bitərəf isə 58 ölkə).[280]

Fikrimcə, Əndican hadisələrinin kökünün müəyyən edilməsi əsasən daxili səbəblərlə bağlıdır. Bu səbəbdən bu hadisələrin araşdırılması hazırkı tədqiqatın çərçivəsindən kənara çıxır və ayrıca bir araşdırma predmeti təşkil edir.

Ölkədəki terrorizm ilə mübarizə ilə yanaşı, Özbəkistanın Əfqanıstanın ərazisində olan terror qruplaşmaları ilə mübarizədə də vacib rolunu qeyd etmək lazımdır. Bu həm Özbəkistanın ABŞ və digər NATO üzvlərinə öz hərbi limanlarından birinin istifadə edilməsi məqsədilə verməsində, Əfqanıstana kömək etmək istəyən müxtəlif dövlətlərə və beynəlxalq humanitar təşkilatlara öz ərazisindən istifadə etməyə razılıq verməsində və s. öz əksini tapmışdır.

---

[279]İnternational Crisis Group. Uzbekistan: Europe’s Sanctions Matter. Asia Briefing № 54. Bishkek // - Brussels. November 2006. № 6.

[280] Situation of human rights in Uzbekistan.Resolutions and Decisions adopted by the General Assembly during its sixtieth session Volume II Decisions 13 September – 23 December 2005. General Assembly Official Records.Sixtieth Session Supplement No. 49 (A/60/49)

Terrorizm ilə mübarizədə onunla sıx əlaqədə olan və terror aktlarının törədilməsi üçün əsas yaradan ölkə təhlükəsizliyinə digər təhdid olan ekstremizmə qarşı mübarizənin aparılmasını qeyd etmək lazımdır. Belə bir təhdid Özbəkistan üçün xüsusilə aktualdır. Belə ki, bu ölkədə (Tacikistanla yanaşı) islam dininin kökləri olduqca dərindir və bu amil ölkədə sosial problemlərin dini müstəviyə keçirilməsi üçün əsas kimi istifadə oluna bilər. Özbəkistanda dini ekstremizmin qarşısının alınması və onunla mübarizə aparmaq üçün qanunvericilik formalaşmışdır. İlk növbədə, qeyd etmək lazımdır ki, Özbəkistan 9 iyun 2017-ci ildə Astanada imzalanmış ŞƏT-in ekstremizmə qarşı əks-fəaliyyət üzrə əməkdaşlıq konvensiyasını ratifikasiya etmişdir (3 aprel 2018-ci il tarixli qanun). Bununla yanaşı, ölkə Cinayət Məcəlləsini (mad. $241^1$, mad. $244^2$, mad. 246), 30 iyul 2018-ci ildə "Ekstremizmə müqavimət göstərmə haqqında" qanunu, 19 sentyabr 2018-ci il tarixli "Yanılaraq terrorçu, ekstremist və ya qadağan olunmuş digər təşkilat və qruplara düşmüş Özbəkistan Respublikası vətəndaşlarının cinayət məsuliyyətindən azad edilməsi qaydasının təkmilləşdirilməsi haqqında" Özbəkistan prezidentinin fərmanı kimi normativ sənədləri də göstərmək olar. Bu sənədlər arasında 30 iyul 2018-ci ildə "Ekstremizmə müqavimət göstərmə haqqında" qanun xüsusi qeyd edilməlidir. Çünki bu qanunda ekstremizmin qarşısının alınması və yayılmaması üzrə tədbirlər sistemi nəzərdə tutulur. Bu sistemə aşağıdakı tədbirlər daxildir:

- ölkənin bütün əhalisinin hüquqi şüurunu və hüquqi mədəniyyətini artırma, maarifləndirmə, hüquqi tərbiyə və təhsil, müxtəlif elmi və praktiki tədbirlər, müvafiq ədəbiyyat və s. vasitəsi ilə ekstremizmə qarşı cəmiyyətin bütün təbəqələrində dözümsüz münasibət formalaşdırmaq;

- ekstremist fəaliyyətin həyata keçirilməsinin yolverilməzliyi barədə rəsmi xəbərdarlıq etmək (bu tədbir ekstremist fəaliyyət əlamətləri olan qanunsuz əməllərin hazırlanması barədə kifayət qədər və əvvəllər təsdiqlənmiş məlumatlar olduqda, lakin məsuliyyətə cəlb edilməsi üçün əsas olmadıqda tətbiq edilir. Belə xəbərdarlıq qəbul edilməsinin konkret əsasları göstərilməklə vəzifəli və fiziki şəxslərə yazılı şəkildə edilir);

- hüquqi şəxsə tərəfindən ekstremist fəaliyyətin həyata keçirilməsinin yolverilməzliyi haqqında təqdimat çıxartmaq (Belə bir təqdimat hüquqi şəxsin fəaliyyətində ekstremizm əlamətlərin olunmasına dəlalət edən səlahiyyətli dövlət orqanı tərəfindən vəzifəli şəxsə qarşı çıxarılır. Belə bir təqdimatda müəyyən edilmiş pozuntuların aradan qaldırılması üçün dəqiq müddət müəyyənləşdirilir. Bu müddət ərzində belə pozuntular aradan qaldırılmadığı halda və ya təqdimatın verildiyi tarixdən bir il müddətdə ekstremizm əlamətlərinə dəlalət edən yeni faktlar müəyyən edildikdə, prokurorun və ya digər səlahiyyətli orqanın təqdimatı üzrə belə hüquqi şəxsin fəaliyyəti 6 ay müddətinə dayandırılır və ya Ali Məhkəmə tərəfindən qadağan edilir);

- ekstremist materialların idxalını, hazırlanmasını, saxlanılmasını, yayılmasını və nümayişini qadağan etmək və bununla yanaşı, KİV-də, internet daxil olmaqla, müxtəlif telekommunikasiya şəbəkələrində aşkarlanmış ekstremist materialları, ekstremist təşkilatların atributikasını, rəmzlərini ləğv etmək (bu mümkün olmadıqda onların yerləşdirildiyi resurslara çıxışı məhdudlaşdırmaq);

- ekstremizmin maliyyələşdirilməsini qadağan etmək (bunun üçün belə əməliyyatları həyata keçirən təşkilatlar və onların pul vəsaitləri və ya digər əmlakla aparılan əməliyyatlar üzərində nəzarət həyata keçirilir və həmçinin ekstremist fəaliyyətində əli olan şəxslər tərəfindən edilən əməliy-

yatlar dərhal və əvvəlcədən xəbərdarlıq edilmədən dayandırılır, onların pul vəsaitləri və digər əmlakı isə dondurulur);

- ekstremist fəaliyyətində əli olan hüquqi şəxslərin fəaliyyətini dayandırmaq (bu tədbir belə hüquqi şəxsin ekstremist fəaliyyətdə iştirak etdiyi halda müvafiq dövlət orqanının təqdimatı əsasında məhkəmə qərarı ilə həyata keçirilir);

- təşkilatı ekstremist qurum kimi tanımaq (belə bir tədbir təşkilatın heç olmasa struktur bölmələrinin birinin ekstremist fəaliyyət göstərməsi kimi tanınması halında nəzərdə tutulur və Baş Prokurorun Ali Məhkəməyə verilmiş vəsatəti əsasında həyata keçirilir).

Bununla belə qanunla ekstremizmə qarşı mübarizəni həyata keçirən səlahiyyətli dövlət orqanları dəqiq müəyyən edilib. Bunlar Dövlət Təhlükəsizlik Xidməti (əlaqələndirici orqan), Baş Prokurorluq, DİN, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Baş Prokurorluq yanında iqtisadi cinayətlərlə mübarizə Departamentidir.

Beləliklə, bütövlükdə aşağıdakı nəticəni çıxarmaq olar:

1. Özbəkistan terror aktlarından və dini ekstremizmdən ciddi zərər çəkmiş ölkələrdən biridir.

2. Özbəkistanın milli təhlükəsizliyinə təhdidlər və çağırışlara bütün postsovet dövrü Mərkəzi Asiya regionu ölkələri üçün ciddi təhlükə törədə bilən Əfqanıstana yaxın olması da böyük təsir edir.

3. Bütövlükdə, Özbəkistanın milli təhlükəsizliyinə əsas təhdid və çağırışları siyasi, iqtisadi, ekoloji, texnoloji, ərzaq və su-enerji kimi təsnif etmək olar.

4. Özbəkistan müxtəlif beynəlxalq strukturların fəaliyyətində, o cümlədən BMT Təhlükəsizlik Şurasının yanında Terrorizmlə Mübarizə üzrə Komitənin işində, MDB Antiterror Mərkəzində, ŞƏT-in çərçivəsində iştirak edir və Əfqanıstanda beynəlxalq antiterror qüvvələrin koalisiyasının səylərinə fəal şəkildə kömək edir.

# NƏTİCƏ

SSRİ-nin dağılmasından və postsovet məkanında bir sıra yeni müstəqil dövlətlərin yaradılmasından sonra SSRİ-nin tərkibində olan Qazaxıstan və Orta Asiya regionu bütövlükdə bütün dünyanın və xüsusən də Avrasiya məkanının geosiyasi və geostrateji koordinatlar sistemində vacib yer tutan və məzmunca daha geniş olan Mərkəzi Asiya regionunun bir hissəsi kimi hesab edilməyə başlandı. Bununla belə, bir çox amillərə və xüsusiyyətlərə əsasən Qazaxıstan və Orta Asiya respublikalarını Mərkəzi Asiya regionunun digər hissələrindən fərqləndirərək müasir Mərkəzi Asiya regionu kimi səciyyələndirmək olar. Müasir Mərkəzi Asiya ölkələrinin çoxu uzun əsrlərdən sonra öz dövlətçiliyini bərpa edərək müstəqilliklərini əldə edə bildilər. Təbii bir haldır ki, onlar öz dövlətçiliyini yenidən formalaşdırdıqda bir sıra iqtisadi, siyasi, sosial, mədəni və s. problemlərlə üzləşdilər. Bununla yanaşı, bu ölkələrin çoxunda cərəyan edən proseslərin inkişafına birbaşa bir sıra xarici amillər təsir edir. Onların arasında bu regionun yeni keyfiyyətdə formalaşmasından sonra, yəni postsovet dövrü bir sıra ölkələrin Mərkəzi Asiya regionu anlayışına daxil edilməsindən sonra burada Rusiya, ABŞ və Çin kimi çoxqütblü dünyanın aparıcı ölkələri arasında təsir göstərmə sahələri üzrə geosiyasi mübarizənin aparılması halına xüsusi diqqət yetirilməlidir. Postsovet dövrü Mərkəzi Asiya regionunun geniş ərazi, enerji resursları daxil olmaqla, zəngin təbii resurslara malik olması və bunun gücünə müasir beynəlxalq münasibətlər sistemində vacib geosiyasi və geostrateji yer tutması Rusiya, ABŞ və Çin kimi fövqəldövlətlərin və buna müvafiq olaraq NATO, KTMT, Aİ, ŞƏT və s. kimi bir-biri ilə rəqabət aparan beynəlxalq siyasi, hərbi, iqtisadi strukturla-

rın və təşkilatların maraqlarının toqquşması üçün əsas kimi çıxış edir. Bundan əlavə, bu regiona həm dünya qloballaşmasının ümumi prosesləri, həm də nisbətən yaxın, qonşu olan Yaxın Şərq regionunda baş verən proseslər də öz təsirini göstərmişdir.

Aydındır ki, ilk növbədə, region dövlətləri üçün onların inkişafının strateji istiqamətlərinin müəyyən edilməsi ilə yanaşı, həm bu dövlətlərin özlərinin, həm də ayrıca bir vahid kimi götürüldükdə bütün regionun təhlükəsizliyinə əsas təhdidlərin və çağırışların müəyyən edilməsi vacib əhəmiyyət kəsb edir.

Mərkəzi Asiya regionunda təhlükəsizlik təhdidlərinin mövcudluğu və artması əhəmiyyətli amillər və bir sıra halların mövcudluğu ilə əlaqələndirilir. Belə ki, qlobalizm dövründə dünyanın bir regionunda baş verən proseslər Yer kürəsinin digər regionlarına da birbaşa öz təsirini göstərir. Bu səbəbdən Mərkəzi Asiya regionunda təhlükəsizlik sistemi birbaşa bütün dünyada sülhün və təhlükəsizliyin dəstəklənməsi ümumi qlobal sistemlə sıx əlaqəlidir. Bütün müasir Mərkəzi Asiya regionu bir sıra real təhdidlər və çağırışlarla üzləşir. Onların arasında bu regiona aid olan ölkələrin təhlükəsizliyinin təmin edilməsi problemi mərkəzi yer tutur. Buna görə səmərəli təhlükəsizlik strategiyasının tərtib edilərək hazırlanması həm bu regiondakı dövlətlərin hər biri üçün, həm də bütövlükdə bütün region üçün vacib əhəmiyyət kəsb edir. Bu kimi təhdid və çağırışlar arasında terrorizm və ona qarşı mübarizə problemini, dini ekstremizm və onunla mübarizə problemini, narkobiznes və ona qarşı mübarizə problemini və s. qeyd etmək olar.

Aparılmış təhlil aşağıdakı nəticələrin əldə edilməsinə imkan verir:

1. “Orta Asiya” adlanan region anlayışı altında Xəzər dənizindən başlayaraq Şərqdə Çinin sərhədinə qədər və Şimalda Aral-İrtış su bölgüsündən Cənubda İran və Əfqanıstan ilə sərhədə kimi SSRİ-yə daxil olan Avrasiya qitəsinin bir hissəsini əhatə edən tarixi-coğrafi məkan başa düşülürdü. Elmi ədəbiyyatda bu termindən SSRİ dövründə daha geniş istifadə olunurdu.

2. “Orta Asiya” termininin müəyyən tarixçəsi var və ondan bir sıra alimlər, tədqiqatçılar və səyahətçilər SSRİ yaranana qədər olan dövrdə də istifadə etmişlər (Hegel, S.M.Solovyev və s.).

3. SSRİ dövründə Orta Asiya onun tərkib hissəsi olduğundan o digər dövlətlərin təsir və nüfuz dairəsinə daxil ola bilməzdi.

4. Xarici elmi ədəbiyyatda uzun müddət ərzində eyni regiona dair “Orta Asiya” anlayışı ilə birlikdə “Mərkəzi Asiya” anlayışı da istifadə olunurdu. Xüsusən Avropa və ABŞ elmi mənbələrində SSRİ-nin yaranmasına qədər olan dövrdə də əsasən “Mərkəzi Asiya” terminindən geniş istifadə edilirdi.

5. SSRİ elmi ədəbiyyatında “Mərkəzi Asiya” anlayışı altında SSRİ-nin hüdudlarından kənarda olan ərazilər, o cümlədən Monqolustan, müasir Çinin ərazisində olan Daxili Monqolustan, Sincan və Tibet başa düşülürdü.

6. Mərkəzi Asiya regionu öz təbii iqlimi və şəraitinə, uzun müddət burada məskunlaşan xalqların yaşayış tərzinə, təsərrüfat fəaliyyətinə, tarixlərinə, mədəniyyətlərinə, dinlərinə, dillərinə və s. görə eyniləşdirilə bilər.

7. “Mərkəzi Asiya” anlayışı altında qərbdə Xəzər dənizindən başlayaraq şərqdə Çinin mərkəzi rayonlarına kimi, şimalda isə Rusiya Sibirinin cənubundan başlayaraq Əfqa-

nıstan daxil olmaqla, İranın, Hindistanın və Pakistanın şimal rayonlarına kimi uzanan bir ərazi başa düşülür.

8. Müəyyən amillərə və bir sıra obyektiv səbəblərə görə Mərkəzi Asiya regionu ölkələrində, xüsusilə də postsovet dövrü Mərkəzi Asiya dövlətlərində təhlükəsizliyin təmin edilməsi problemi Azərbaycan üçün də vacib əhəmiyyət kəsb edir.

Birincisi, Azərbaycan Respublikası Qazaxıstan Respublikası və Türkmənistan Respublikası ilə Xəzər dənizinin dibi üzrə həmsərhəddir.

İkincisi, 70 ildən çox bir müddət ərzində bizim ölkə və müasir Mərkəzi Asiya ölkələri müttəfiq respublikalar statusunda vahid bir federativ dövlətin - Sovet İttifaqının tərkibinə daxil idilər və bu dövlət çərçivəsində müxtəlif iqtisadiyyat, rabitə, mədəniyyət və digər sahələrdə sıx əlaqələr qurulmuşdur. Bu əlaqələr indi də mövcuddur və hətta inkişaf etdirilir.

Üçüncüsü, demək olar ki, Mərkəzi Asiya dövlətlərinin hamısı ya türkdilli dövlətlərdir, (Tacikistan istisna olmaqla) ya da bu dövlətlərdə türkdilli əhalinin sayı kifayət qədər çoxdur (İran İslam Respublikası, Çinin şimal-qərb rayonları) və bizim ölkə onlarla ümumi tarixi, dil, mədəni, dini köklərə malikdir.

Dördüncüsü, Mərkəzi Asiya ölkələri və Azərbaycan Respublikası arasında hal-hazırda müxtəlif layihələr çərçivəsində müxtəlif iqtisadi əlaqələr çox böyük surətlə inkişaf edir (məsələn, Çindən başlayaraq Mərkəzi Asiya ölkələrindən, Azərbaycandan, Gürcüstandan, Türkiyədən keçməklə Avropa və ya Fars körfəzi ölkələrinə, Hindistana, Pakistana və digər ölkələrə aparan “İpək yolu” layihəsi və digər layihələr). Bütün bu layihələr dünya əhəmiyyətlidir. Belə layihələrdən biri də nəqliyyat dəhlizi olan və artıq həyata keçi-

rilmiş Azərbaycanın, Gürcüstanın və Türkiyənin dəmir yollarını birləşdirən Bakı-Tbilisi-Qars dəmir yoludur. Avropa İttifaqı bu dəmir yolunun açılışını bəyənmiş və onu Avropa İttifaqını Türkiyə, Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya ilə birləşdirən nəqliyyat birləşmələrinin əsas ünsürü adlandırmışdır.

Beşincisi, Mərkəzi Asiya regionu ölkələrində neqativ proseslərin inkişafı, potensial təhlükə mənbəyi kimi Cənubi Qafqaz regionu ölkələrinə özünün müəyyən təsirini göstərməyə bilməz.

9. Müasir Mərkəzi Asiya regionunun təhlükəsizliyi üçün potensial təhlükə yaradan amillərin tədqiq edilməsi bu regionda müxtəlif proseslərin inkişafı istiqamətlərinin proqnozlaşdırılması bizim ölkənin bu regiona aid olan dövlətlər ilə qarşılıqlı əlaqələrində davranış modelinin konkret strategiyasının tərtib edilməsi işində böyük elmi əhəmiyyətə malikdir.

10. SSRİ-nin parçalanmasından və Mərkəzi Asiya ərazisində bir sıra müstəqil dövlətlərin yaranmasından sonra bu region müasir beynəlxalq münasibətlər sistemində vacib əhəmiyyət kəsb etməyə başladı. Şübhəsiz ki, bu regionda Rusiya, ABŞ və Çin kimi aparıcı dünya ölkələri strateji maraqlara malikdirlər. Bu regionun bir sıra dövlətləri (məsələn, Qazaxıstan, Qırğızıstan, Tacikistan) ilə tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər bağlamış Avropa İttifaqı da bu regionda müəyyən maraqlar güdür. Müasir çoxqütblü dünyada əsas aktorlar olan bu dövlətlərin Mərkəzi Asiyada siyasi və iqtisadi üstünlüklərdə maraqlı olmaları birbaşa Mərkəzi Asiya regionunda təhlükəsizlik problemlərinin həll edilməsi zərurəti ilə bağlıdır. Bununla yanaşı, Mərkəzi Asiya təkcə onunla qonşu olan regionlarda (məsələn, Yaxın Şərq regionunda, Suriyada) baş verən müəyyən mənfi pro-

seslərin inkişafında bufer kimi çıxış etmir, o özü də sülhə qarşı müəyyən təhdidlər yaradır. Məsələn, Əfqanıstanda sonu görünməyən müharibənin davam etməsi, XX əsrin 90-cı illərində Tacikistanda vətəndaş müharibəsi və s.

11. ABŞ-ın müasir Mərkəzi Asiya regionunda strategiyası bir neçə dəfə dəyişmişdir. Bu, regionun formalaşmasının ilkin dövründə nəzarətsiz, qeyri-sabit zonaların və potensial təhlükələrin yaranmasının qarşısını almaq məqsədilə Mərkəzi Asiyada yaranmış yeni müstəqil dövlətlərə hərtərəfli dəstək verilməsindən ibarət idi. Həmçinin ABŞ bu regiona daxil olan Qazaxıstanın ərazisindən nüvə silahının çıxardılmasına və ümumiyyətlə, bu regionda nüvə silahının yayılmamasına dair müxtəlif səylərin göstərilməsinə öz dəstəyini göstərirdi. Bununla yanaşı, ABŞ milli təhlükəsizlik strategiyasının həyata keçirilməsi bu regionda Rusiya ilə fəal əməkdaşlıq edilməsini nəzərdə tuturdu. XX əsrin sonunda müasir Mərkəzi Asiya regionu ABŞ-ın Rusiya, daha sonra isə onun güclənməsi nəticəsində Çin ilə strateji rəqabət zonasına çevrildi. 2001-ci il 11 sentyabr terror hücumlarından sonra ABŞ əsas diqqəti beynəlxalq terrorizmlə mübarizəyə yönəltmiş və bu məqsədlə terrorçu qruplaşmaların əsas düşərgələrini və onları dəstəkləyən Taliban hökumətini məhv etmək üçün əsasını NATO qoşunları təşkil edən beynəlxalq koalisiya qüvvələrinə başçılıq edərək Əfqanıstana müdaxiləni təşkil etmişdir. Cinayətkarlığın səviyyəsinin yüksək olması, korrupsiya, qanunsuz narkotik dövriyyəsi və ekstremizm kimi digər regional məsələlərə nisbətən az diqqət ayrılırdı. Eyni zamanda  hal-hazırda da Əfqanıstandan gələn terrorizmin yayılması təhlükəsi bu regionun münaqişə potensialını artırır və transmilli və transsərhəd təhdidlərin buradan dünyanın digər bölgələrinə yayılması ehtimalını artırır.

12. Yeni postsovet dövrü dövlətlərin yaranmasının və Mərkəzi Asiya regionunun yeni formatda formalaşmasının ilk dövründə Rusiyanın milli təhlükəsizliyinin həyata keçirilməsinin əsas məqsədi bu regionun bütün ölkələri ilə əməkdaşlıq əlaqələrinin və ilk növbədə, postsovet məkanı ölkələri ilə dövlətlərarası münasibətlərin yeni konfiqurasiyanın qurulması idi. Rusiyanın bu regiona aid milli təhlükəsizlik strategiyasının vacib elementi nüvə silahlarının müxtəlif terror və ya son dərəcə radikal ekstremist qrup və qruplaşmaların əlinə düşməsi nəticəsində nəzəri cəhətdən mümkün olan bir nüvə təhlükəsinin (Qazaxıstandan nüvə silahının çıxarılması) aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi idi. Rusiyanın milli təhlükəsizlik strategiyasının vacib elementini ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq koalisiya qüvvələrinin Əfqanıstanın ərazisində yerləşən beynəlxalq terror təşkilatları (Taliban, Əl-Qaidə və s.) ilə mübarizəsini dəstəkləməyə yönəlmiş tədbirlərin hazırlanması və həyata keçirilməsi təşkil edirdi. Müasir dövrdə Rusiyanın milli təhlükəsizlik strategiyasının tərkib hissəsini bu regionda ABŞ və Çin kimi dünyanın əsas aktorları ilə geostrateji və geosiyasi mübarizə təşkil edir. Üstəlik, bir çox məsələlərdə Rusiya və Çinin ya bu regiondan ABŞ-ı və Aİ-nı, ümumiyyətlə, çıxartmağa, ya da regionda onların təsirini əhəmiyyətli dərəcədə azaltmağa yönəlmiş maraqları bütövlükdə üst-üstə düşür. Rusiya bir sıra müasir Mərkəzi Asiya ölkələrinə terrorizm, dini ekstremizm, narkobiznes (o cümlədən Əfqanıstandan narkotrafik daxil olmaqla) kimi milli təhlükəsizliyinə təhdidlərlə mübarizəyə dəstək verir. Sözün əsl mənasında, bu ölkələr Əfqanıstan və Rusiya Federasiyasının ərazisi arasında bufer rolunu oynayır və Rusiyanın hüdudlarından kənarda yuxarıda göstərilən təhdid və

problemlərə qarşı mübarizə Rusiyanın özü üçün əsasən preventiv, önləyici xarakter daşıyır.

13. Çin postsovet dövrü Mərkəzi Asiya regionu uğrunda geosiyasi mübarizəyə qoşulmuş əsas aktorlardan biridir. Sovet İttifaqının süqutundan və Mərkəzi Asiyada yeni dövlətlərin yaranmasından sonra Çinin bu regionda strategiyasının əsas məzmununu öz təhlükəsizliyini təmin etmək və Mərkəzi Asiyadan gələn potensial təhdidlərin qarşısını almaq, regiona "yumşaq qüvvə"dən istifadə etməklə daxil olmaq və tədricən regionda öz təsirini gücləndirmək təşkil edirdi. Bir sıra məsələlərdə Mərkəzi Asiya regionunda Çinin və Rusiyanın maraqları üst-üstə düşür və mahiyyətcə, hətta bu regiondan ABŞ-ın və Aİ-nın çıxardılmasına və ya ən azı onların bu regionda təsirinin azaldılmasına yönəlib. Mərkəzi Asiya regionunda Çinin təhlükəsizlik strategiyasının əsas ünsürlərindən birisini "terrorizm, dini ekstremizm və etnik separatizm" pərdəsi altında əsasən Sincan-Uyğur Muxtar Vilayətində məskunlaşan uyğurların və digər türkmənşəli etnik azlıqların hüquqlarının "yatırılması" və onların tədricən assimilyasiya olunması təşkil edir. Halbuki "uyğurların və digər türkdilli xalqların yenidən tərbiyə olunması" üçün islah düşərgələrinin ləğvi, uyğur və digər türkdilli xalqların mədəniyyətinin inkişafı, onların öz dillərində təhsil sisteminin təşkili və inkişafı, onlar üçün digər Çin vətəndaşları ilə yanaşı, bərabər şəraitin yaradılması, onlara qarşı bütün ayrı-seçkilik formalarının ləğv edilməsi, o cümlədən din azadlığı sahəsində bütün məhdudiyyətlərin ləğvi, onlara özünüidarəetmədə daha çox hüquqların verilməsi və bu kimi digər problemlərin həlli regionda gərginliyin aradan qaldırılmasında və yerli əhalinin hüquqlarının müdafiə olunmasında vacib tədbirlər olardı. Belə ki, uyğurlar və digər türkdilli xalqlar bu yerlərdə özlərini ikinci dərə-

cəli insanlar kimi yox, əksinə öz torpaqlarının sahibi kimi hiss etməlidirlər. Çinin regionda təhlükəsizlik strategiyasının vacib elementi  terrorizm, dini ekstremizm, narkotik ticarəti və narkotrafik kimi bir sıra təhdid və çağırışların gəldiyi Əfqanıstandakı vəziyyətin tənzimlənməsində maraqlı olmasıdır. Mərkəzi Asiya regionuna münasibətdə Çin əsasən "yumşaq qüvvə"dən istifadə etməyə üstünlük verir və infrastruktur və iqtisadiyyat sahəsindəki müxtəlif layihələrin həyata keçirilməsində iştirak edərək bu regiona daxil olur. Bu amil Çinin bütövlükdə bölgədəki geosiyasi və geostrateji mövqelərinin güclənməsinə təsir göstərməyə bilməz.

14. Qazaxıstanın milli təhlükəsizliyinə əsas təhdid və çağırışların birisi bu ölkənin bütün Mərkəzi Asiya regionu üçün ciddi təhlükə yarada bilən Əfqanıstana nisbətən yaxında yerləşməsidir. Bununla belə, Qazaxıstan və Əfqanıstan arasında ümumi bir sərhədin olmaması, Əfqanıstan tərəfindən bu ölkəyə birbaşa daxil olma imkanını qeyri-mümkün edir və bu Əfqanıstandan gələn riskləri və təhdidləri əhəmiyyətli dərəcədə azaldır.

Qazaxıstan Mərkəzi Asiyanın bir sıra postsovet ölkələrinə (xüsusilə də KTMT çərçivəsində Qırğızıstan və Tacikistana) beynəlxalq terrorizm, dini ekstremizm, o cümlədən Əfqanıstandan narkotrafik daxil olmaqla, narkotik ticarəti kimi ölkənin milli təhlükəsizliyinə təhdid və çağırışlara qarşı mübarizədə dəstək göstərir. Digər tərəfdən, bu ölkələr,  əslində, Əfqanıstan və Qazaxıstan Respublikası ərazisi arasında bufer rolunu oynayır və Qazaxıstanın hüdudlarından kənarda yuxarıda göstərilən təhdid və çağırışlara qarşı mübarizəyə hərtərəfli yardım göstərmə bu ölkənin özü üçün önləyici xarakter daşıyan bir tədbir kimi çıxış edir.

15. Özbəkistan Mərkəzi Asiya regionunun vacib bir ölkəsidir və terrorizm və dini ekstremizm aktlarından ciddi zərər görən ölkələrdən biridir. Özbəkistanın milli təhlükəsizliyinə təhdid və çağırışlara ölkənin Əfqanıstanla həmsərhəd olması böyük təsir göstərir.

16. Müasir Mərkəzi Asiya dövlətlərinin milli təhlükəsizliyinə təhdid və çağırışları siyasi, hərbi, iqtisadi, ekoloji, ərzaq, texnoloji, su və s. kimi sistemləşdirmək və təsnif etmək olar.

# ƏDƏBİYYAT


1. Kərimov, E.A. "Böyük Orta Şərq layihəsi"ndə İran amili: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, 2017, - 28 s.

2. Musayev, M.G. Xəzəryanı dövlətlər müasir geostrategiyada / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. Avtoreferatı. / Bakı, 2017, - 28 s.

3. Qarayev, R.M. Mərkəzi Asiya regionunda təhlükəsizliyə təhdid kimi narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi // - Bakı: Şərq Araşdırmaları, 2019, № 1, c. 216-223.

4. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında. Naxçıvan, 3 oktyabr 2009-cu il: [Elektron resurs] / TÜRKLİB AZ. URL:http://www.turklib.az/r2.html

5. "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 26 noyabr 2009. URL:http://www.turklib.az/tdes.html

6. Абаев, В.И. Скифский быт и реформа Зороастра / В.И. Абаев. Избранные труды: Религия, фольклор, литература. Т.1. - Владикавказ: Ир, -1990, - с. 9-51

7. Азербайджан и Украина будут бороться с контрабандой наркотиков: [Электронный ресурс] / Vzglyad. az. 24.01. 2018 года //URL: http://vzglyad.az/news/102000

8. Акматалиева А.М. Трансатлантическое партнерство по вопросам безопасности в Центральной Азии: автореферат дис. канд. полит.наук/ Бишкек, - 2011, - 23 с.

9. Алдубашева Ж.М. «Внешнеполитическая стратегия США в Центральной Азии»: / дис. доктора философии по политологии / - Алматы, 2013, - 138 с.

10. Алешин, Ю.Н. Национальная безопасность новых независимых государств на постсоветском пространстве: на материалах стран Центральной Азии: / автореферат дис. кандидата полит.наук /- Бишкек, 2011, 23 с.

11. Алпаут, Р. Китайские лагеря для мусульман как немецкие концлагеря для евреев: [Электронный ресурс] /"Idel. Реалии". 18 января 2019. // https://www.idelreal.org/a/29715311.html

12. Американцы заговорили о вероятности переворота в Казахстане: [Электронный ресурс] /Haqqin. Az. 4 октября 2018.URL:https:haqqin.az/news/137814

13. Антикитайские настроения в Кыргызстане. СДПК обвиняет власть в бездействии: [Электронный ресурс] / 24 KG, 15 января 2019.URL: https://24.kg/obschestvo/106144_antikitayskie_nastroeniya_vkyirgyizstane_sdpk_obvinyaet_vlast_vbezdeystvii_/

14. Арриан. Поход Александра / Арриан. - М.: Миф, 1993, 272 с.

15. Афганский наркотрафик: основные маршруты. Справка: [Электронный ресурс] / РИА НОВОСТИ, 03.06.2010.URL: https://ria.ru/20100603/242406939.html

16. Бакиев просит страны ОДБК ввести войска в Кыргызстан: [Электронный ресурс] / LB.ua, 12 мая 2010. URL: http:// https://lb.ua/world/2010/05/12/43568_bakiev_prosit_strani_odbk_vvest_.html

17. Баранов, А.Ю. Шанхайская организация сотрудничества и политика США в Центральной Азии: / автореферат дисс. канд. полит.наук / М., - 2010, - 32 с.

18. Бекри, Н: 12 участников беспорядков в Урумчи застрелены милицией: [Электронный ресурс] / WaybackMachine. 19 июля 2009. URL: http: // www.russian.xinhuanet.com/russian/2009-07/19/content_908296.htm

19. Бордачев, Т.В., Пятачкова, А.С. Концепция Большой Евразии в повороте России на Восток // - М.: Вестник международных организаций, - 2018. Т. 13. № 3, с. 33-51.

20. Быков, А.И. Экономическое сотрудничество в рамках ШОС: основные направления и перспективы развития: монография / А.И.Быков. - Москва: ФЛИНТА: Наука, - 2011, - 232 с.

21. Быстрова, А. Проблемы глобальной инфраструктуры в центральноазиатском регионе. Оптимизация роли России / А. Быстрова. - М.: ИМЭМО РАН, - 2013, - 98 с.

22. В Афганистане площадь опиумных плантаций за год выросла на 127 тыс. га // EurAsiaDaily. 22 мая 2018. URL: https://eadaily.com/ru/2018/05/22/v-afganistane-ploshchad-opiumnyh-plantaciy-za-god-vyrosla-na-127-tys-ga

23. В Ташкенте открыт Мультимедийный уголок НАТО: [Электронный ресурс] / Организация Североатлантического договора. 24 августа 2015. URL:https://www.nato.int/sps/en/natohq/news-_122168.htm?selectedLocale=ru

24. Габдуллин, Э. Центральная Азия: геополитика, безопасность, сценарии развития //-Лулео: Центральная Азия и Кавказ.2011. № 1 (14), с. 26-41

25. Гегель, Г. В. Ф. Лекции по философии истории = Vorlesungen über die Philosophie der Geschichte / Г. В. Ф. Гегель - СПб.: Наука, 1993, 480 с.

26. Геродот. История / Геродот. Пер. и прим. Г.А. Стратановского. Статья В. Г. Боруховича. Л.: Наука, - 1972, - 600 с.

27. Грозин А. «Ферганская долина – пороховая бочка Евразии»: [Электронный ресурс] / Информационное агентство REX. 22 января 2013 г.URL: http://www.iarex.ru/interviews/33252.html.

28. Гумеров, Р.А. Геополитические интересы США, Китая и России в Центральной Азии: / автореферат дисс. канд. полит.наук / М., - 2009, - 26 с.

29. Дадабаева, З.А. Россия – Центральная Азия: Динамика межгосударственного сотрудничества (приоритеты, потенциал, перспективы) // Россия: тенденции и перспективы развития. Ежегодник. М.: ИНИОН РАН, 2011, s. 213-218.

30. Дадабаева, З.А. Россия и проблемы безопасности в Центральной Азии. // - М.: Россия и современный мир, 2008. № 4, с. 183-193

31. Декларация о создании Шанхайской организации сотрудничества (Шанхай, 15 июня 2001 г.): [Электронный ресурс] / Право РФ и КНР, 1 декабря 2010. URL:http://www.chinaruslaw.com/RU/CnRuTreaty/hf7le8ho/2010112121259_792690.htm

32. Джекшенкулов, А. Новые независимые государства Центральной Азии в мировом сообществе / А. Джекшенкулов. М.: Научная книга, 2000, 306 с.

33. Егоров, Е.Н. Противодействие терроризму и религиозному экстремизму: опыт государств Центральной Азии: / автореферат дисс. кандидата полит.наук / Санкт-Петербург, 2015, 27 с.

34. Желобов, Д. Уйгурский сепаратизм и «пирамида Мелоу» // Международная междисциплинарная конференция «Глобальная и региональная безопасность в XXI веке» в рамках Конвента ИСПН УРФУ, - Екатеринабург: 25 мая 2013 – 30 апреля 2014, с. 162 -167

35. Жуков, С.В., Резникова, О.Б. Центральная Азия и Китай: экономическое взаимодействие в условиях глобализации. - М.: ИМЭМО РАН, 2009, 180 с.

36. Замир Кабулов: США не препятствуют ИГ в Афганистане: [Electronicresource] / ТАСС. 8 февраля, 2018. URL: https://tass.ru/interviews/4942167

37. Звягельская, И.Д. Ближний Восток и Центральная Азия: Глобальные тренды в региональном исполнении / И.Д. Звягельская. – М.: Аспект Пресс, 2018, 224 с.

38. Звягельская, И.Д. Становление государств Центральной Азии. Политические процессы / И.Д. Звягельская. -М.: Аспект Пресс, -2009, 208 с.

39. Зимонин, В.П. Шанхайская организация сотрудничества и евразийское измерение безопасности // Шанхайская организация сотрудничества: к новым рубежам развития: Материалы кругл.стола. - М.: Ин-т Дальн. Вост. РАН, 2008, с. 198-202

40. Индия и Пакистан стали членами ШОС: [Электронный ресурс] / РИА НОВОСТИ, 9 июня 2017. URL: https://ria.ru/20170609/1496181707.html

41. Ионова, Е.П.Об угрозе терроризма в Центральной Азии // - М.: Россия и новые государства Евразии – 2015. № 4, с. 60-71

42. Ионова, Е.П. Стратегический союз Казахстана и Узбекистана в геополитике Центральной Азии // - М.: Россия и мусульманский мир. – 2014. № 1 (259), с. 95 - 105

43. Исламисты из Таджикистана готовили теракты в Германии. Немецкие СМИ: [Электронный ресурс] /Haqqin.az. 15 апреля 2020. URL: https://haqqin.az/news/175327

44. Кадыров, Ш. Туркменистан: институт президентства в клановом постколониальном обществе // Евразия. Люди и мифы. Сборник статей из журнала «Acta Евразия». М.: Наталис, 2003, с. 337-364

45. Казахстан: Угрозы национальной безопасности: [Электронный ресурс] / CA-portal. 16 июня 2013 года. URL: http://www.ca-portal.ru/article:8004

46. Калюжнова, Е., Джулиан, Л. Китайско - казахстанское сотрудничество в области углеводородного сектора в начале XXI столетия // Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа/ Под ред. С.В. Жукова. –М.: ИМЭМО РАН, 2014, -с. 13 – 33

47. Караев, Р.М. Аннексия Крыма как нарушение принципа территориальной целостности Украины //Київ: Часопис Київського университету права, 2016. № 1, с. 346-352

48. Караев, Р.М. Региональные конфликты напостсоветскомпространстве. (Международно-правовой анализ) // Київ: ПРАВО. UA., 2016.№ 1, с. 151-159

49. Караганов, С. От поворота на Восток к Большой Евразии: [Электронный ресурс] / Россия в глобальной политике. 30 мая 2017. URL:https://globalaffairs.ru/articles/ot-povorota-na-vostok-k-bolshoj-evrasii/

50. Ким, М.Ч. Формирование системы региональной безопасности в постсоветской Центральной Азии: / автореферат дис. канд. полит.наук / Бишкек, 2009, 24 с.

51. Кожакматова, Н.С. Водные ресурсы как фактор влияния на взаимоотношения Центрально-Азиатских государств: /автореферат дисс. на.кандидата полит. наук. / М., 2009, 26 с.

52. Комментарий Департамента информации и печати МИД России в связи с наркоситуацией в Афганистане: [Электронный ресурс] / Министерство Иностранных дел Российской Федерации. 18.08. 2017 // URL: http://www.mid.ru/web/guest/foreign_policy/international_safety/conflicts/-/asset_publisher/xIEMTQ3OvzcA/content/id/2838569

53. Кузьмина, Е.М. «Большая Евразия»: интересы и возможности России при взаимодействии с Китаем // - М.: Проблемы постсоветского пространства. – 2017, № 3, с. 229-239

54. Кулбараков, Р.Д. Проблемы терроризма в Центральной Азии. Итоги международной практической конференции «Терроризм: проблема противодействия», 22-23 июля 2011: [Электронный ресурс] / URL:http://conference.antiterror.rsbi.kz/index.php/doklads/36-kylbarakov

55. Кулиев, А. Туркменская элита: взгляд изнутри:[Электронный ресурс] / Центральноазиатский толстый журнал. URL:http://ctaj.elcat.kg/tolstyi/a/a063.htm

56. Курилкин, А. Марш-бросок: почему армия Узбекистана взлетела в рейтинге военной мощи: [Электронный ресурс] / Sputnik Узбекистан. 19 апреля 2019.URL: https://uz.sputniknews.ru/analytics/20180419/7999878/uzbekistan-armia-mirzieev.html

57. Кутлуков, М. Монгольское господство в Восточном Туркестане // Татаро-монголы в Азии и Европе. / отв. ред. С.Л. Тихвинский.Сборник статей. Изд. 2-е, перераб. и доп. М.: Наука, 1977, 507 с.

58. Кушкумбаев, С.К. Безопасность в Центральной Азии: меняющаяся повестка дня // Центральная Азия в условиях геополитической трансформации и мирового экономического кризиса. Материалы VII ежегодной Алматинской конференции (г. Алматы, 9 июня 2009 г.), с. 14-15

59. Лаумулин, М. «Стратегия и политика США в Центральной Азии» // - Лулео: Центральная Азия и Кавказ. – 2007, № 4 (52), с. 51-63

60. Литвинов, А.И.Энергетический клуб ШОС: [Электронный ресурс] / Международный экономический форум 2015. URL: http://be5.biz/ekonomika1/r2015/2944.htm

61. Лукашенко: Отказ Беларуси от ядерного оружия стал крупнейшей ошибкой: [Электронный ресурс] /ТСН. 15 апреля 2010. URL: https://tsn.ua/ru/svit/lukashenko-otkaz-belarusi-ot-yadernogo-oruzhiya-stal-krupneishei-oshibkoi.html

62. Любарская, Е. 1/6 часть суши: Многая лета великому Туркменбаши: [Электронный ресурс] / Лента.Ру. 7 апреля 2005. URL: https://lenta.ru/articles/2005/04/07/turkmen

63. Малышев, Д.В. Террористическая угроза с постсоветского Юга (Центральная Азия и Кавказ) // - М.: Актуальные проблемы Европы. 2017, № 4, с. 163-187

64. Малышева, Д.Б. Вызовы безопасности в Цетральной Азии // - М.: Россия и мусульманский мир. 2014, № 1 (259), с. 76 -94

65. Малышева, Д.Б. Политические процессы в постсоветских государствах Центральной Азии // Постсоветские государства: 25 лет независимого развития. Сб. ст. в 2-х тт. Т. 1. / Отв. ред. – А.Б. Крылов. – М.: ИМЭМО РАН, 2017, с. 123-136

66. Малышева, Д.Б. Постсоветская Центральная Азия и Афганистан как сфера пересечения интересов крупных азиатских государств // - М.: Вестник Российского университета дружбы народов. Серия: Международные отношения. 2018. Т. 18. № 2, с. 259-272

67. Малышева Д.Б. Центральноазиатский узел мировой политики / Д.Б. Малышева. М.: ИМЭМО РАН, 2010, 100 с.

68. Маркетос, Т.Н. Стратегия Китая в отношении Центральной и Южной Азии: энергетические интересы и безопасность // - Лулео: Центральная Азия и Кавказ. - 2012. Т. 15. Выпуск 1, с. 47-60

69. Маслов, В.И. Региональная безопасность: История и проблемы Новых Независимых Государств Центральной Азии: / автореферат дис. кандидата полит.наук / Бишкек, 2001, 23 с.

70. Международная кризисная группа насчитала до четырех тысяч выходцев из стран СНГ в рядах ИГ: [Электронный ресурс] / NEWSru.com. 21 января 2015. URL: http://www.newsru.com/world/21jan2015/isng.html

71. Мирзиёев назвал главные угрозы на пути развития Узбекистана: [Электронный ресурс] / Sputnik. Узбекистан. 12 января 2018 года. URL:https://ru.sputniknews-uz.com/politics/20180112/7253548/mirzieev-pozdravil-s-dnem-zashitnika-rodiny.html

72. Мустакимов, И.А. Рецензия на книгу: Vér, Márton. Old Uyghur Documents Concerning the Postal System of the Mongol Empire // Золотоордынскоеобозрение, 2020. Т. 8. № 1, с. 200-205

73. Мухаметов, Р. С. Внешняя политика России в ближнем зарубежье / Р. С. Мухаметов. – Екатеринбург: Издательство Уральского университета, - 2015, 108 с.

74. Не сдали, а обменяли: что приобрел Казахстан после отказа от ядерного арсенала: [Электронный ресурс] / Караван. Медиа портал. 30 июля 2019. URL: https://www.caravan.kz/gazeta/ne-sdali-a-obmenyali-chto-priobrel-kazakhstan-posle-otkaza-ot-yadernogo-arsenala-567381/

75. Незаконная деятельность Армении на оккупированных территориях Азербайджана: [Электронный ресурс] /URL: http://azerbaijan.az/portal/Karabakh/ArmenianAgression/armenianAgression_r.html?armenianAgression_04

76. Николаев, С.А. Центральная Азия в системе международных отношений на современном этапе /автореферат дис. канд. полит.наук / М., 2011, 26 с.

77. Нурсултан Назарбаев: Наш отказ от ядерного оружия помог человечеству свободно вздохнуть: [Электронный ресурс] / KAZINFORM. Международное информационное агентство. 13 декабря 2018. URL: https://www.inform.kz/ru/nursultan-nazarbaev-nash-otkaz-ot-yadernogo-oruzhiya-pomog-chelovechestvu-svobodno-vzdohnut_a3477610

78. О национальной безопасности Республики Казахстан. Закон Республики Казахстан от 6 января 2012 года № 527-IV //"Казахстанская правда" от 17.01.2012 г., № 19-20 (26838-26839); "Егемен Ќазаќстан" 2012 жылєы 17 ќаѕтардаєы № 18-19 (27090)

79. Огурцов, М.И. Американо-узбекские отношения в период Афганского кризиса (2001-2013) // -М.: Дипломатическая служба. 2014, №5, с. 44-49

80. Огурцов, М.И. Афганский фактор в американо-узбекских отношениях в 2001-2014 гг.: [Электронный ресурс] /CYBERLENINKA. URL: https://cyberleninka.ru/article/n/afganskiy-faktor-v-amerikano-uzbekskih-otnosheniyah-v-2001-2014-gg

81. Огурцов, М.И. Стратегия США в Центральной Азии (1990–2013) // - М.: Вестник РГГУ. Серия «Политология. История. Международные отношения. Зарубежное регионоведение. Востоковедение», 2014, №18, с. 205-213

82.Огурцов, М.И. Эволюция внешнеполитических стратегий России и США в Республике Узбекистан на рубеже XX – XXI вв: / автореферат дис. кандидата исторических наук. / М., 2015, 26 с.

83. О новых данных ООН по производству наркотиков в Афганистане // Институт Ближнего Востока. 21 ноября 2018. URL:http://www.iimes.ru/?=49999

84. О работе Научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем (НИА НКП) за первое полугодие 1929/1930 г. Революционный Восток, 1930, № 8

85. Описание Чжунгарии и Восточного Туркестана в древнем и нынешнем состоянии / переведено с китайского монахом Иакинфом. Части I и II. СПб.: Типолграфия Карла Крайя, 1829, 325 с.

86. Осмоналиев, К.М. Некоторые проблемы обеспечения безопасности в Центральной Азии: геополитические факторы и риски // - М.: Международное сотрудничество евразийских государств: политика, экономика, право, - 2016. № 2, с. 82-88

87. Панкратов, А. Киргизия готовит кадры для ИГИЛ: [Электронный ресурс] / Центральная Азия. 18 января 2016. URL: http://www.centrasia.ru/newsA.php?st=1453112580

88. Пленарное заседание Петербургского международного экономического форума: [Электронный ресурс] /Kremlin.ru. 17 июня 2016. URL:http://kremlin.ru/events/president/news/52178

89. Подписана конвенция о правовом статусе Каспийского моря: [Электронный ресурс] / РИА Новости. 12.08.2018// URL: https://ria.ru/20180812/1526398222.html

90. Подрезов, М.В.Сущность исламского фундаментализма в Средней Азии (1990–2000-е гг.) //- Томск: Вестник Томского государственного университета. История. – 2018. № 52, с. 49-52

91. Полаева, Г.Б., Драганюк Д.О. Перспективы энергетического сотрудничества стран БРИКС // Гло-

бальные энергетические и экономические тренды / под ред. С.В.Жукова. М.: ИМЭМО РАН, 2019, с. 170-186

92. Попов, Д. Место Узбекистана в Центрально-азиатской политике США //- М.: Проблемы национальной стратегии. 2015. № 1(28), с. 74-90

93. Попов, Д. Участие стран Центральной Азии в снабжении американских войск в Афганистане // - М.: Проблемы национальной стратегии. 2014. № 1(22), с. 62-80

94. Попов, Д. Центральная Азия во внешней политике США. Противодействие российскому интеграционному проекту // - М.: Россия и мусульманский мир, 2017, № 4, с. 59-71

95. Постсоветские государства: 25 лет независимого развития: в 2-х т. Т.1. Западный фланг СНГ. Центральная Азия / отв. ред. А.Б. Крылов. М.: ИМЭМО РАН, 2017, 197 с.

96. Президент России Д.Медведев: ОДКБ не будет вводить войска в Кыргызстан: [Электронный ресурс] / Фергана. Информационное агентство, 19 мая 2020. URL: https://www.fergananews.com/news.php?id=14928&mode=snews.

97. Пржевальский, Н.М. Монголия и страна Тангутов. Трехлетнее путешествие в Восточной нагорной Азии: [в 2 томах] / Н.М. Пржевальский. Спб., - т. II. 2009, 466 с.

98. Пржевальский, Н.М.От Кяхты на истоки Желтой реки. Исследование северной окраины Тибета и путь через Лоб-Нор по бассейну Тарима.Под редакцией, со вступительной статьей и примечаниями Э. М.

Мурзаева.М., Государственное издательство географической литературы, 1948

99. Протокол к Договору между Союзом Советских Социалистических Республик и Соединенными Штатами Америки о сокращении и ограничении стратегических наступательных вооружений: [Электронный ресурс] / Центр по изучению проблем контроля над вооружениями, энергетики и экологии. URL: http://www. armscontrol.ru/start/rus/docs/start1/lisb-agr.txt

100. Протокол к соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря в целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г. (Дата подписания Протокола: 13.05.2002):[Электронный ресурс] /URL:
//
http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/bilateral/page-176/46360

101. Протокол о внесении изменения в Протокол к соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря ы целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г.): [Электронный ресурс] /URL: http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/bilateral/page-31/43818

102. Резникова, О.Б. Нефть и газ Центральной Азии: разворот на рынок КНР // Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа/ Подред. С.В. Жукова. –М.: ИМЭМО РАН, 2014, с. 6 -13

103. Резолюция 1960 (2013) ПАСЕ «Наркотрафик из Афганистана – угроза европейской безопасности» от 21 ноября 2013: [Электронный ресурс] / Refworld.URL: http://www.refworld.org.ru/pdfid/538edd134.pdf

104. Рогатых, Ф.Л., Стрельченко Э.Г., Топоров С.Б. Борьба с контрабандой наркотических средств, психотропных и сильнодействующих веществ. - СПб: Питер, 2004, 240 с.

105. Рыбин, А. Сирийская угроза Китаю. Как уйгурский сепаратизм грозит дестабилизировать постсоветские республики: [Электронный ресурс] / Газета RU. 11сентября 2016. URL:
https:www.gazeta.ru/politics/2016/09/11_a_10188119.shtml

106. Саммит Тюркского совета проходит в формате видеоконференции: [Электронный ресурс] / REPORT информационное агентство. 10 апреля 2020.URL:https://report.az/ru/vneshnyaya-politika/vneocherednoy-sammit-tyurkskogo-soveta-proydet-v-formate-videokonferenci/

107. Санаи, М. Отношения Ирана с центрально-азиатскими странами СНГ: социально-политические и экономические аспекты / М.Санаи. - М.: “Муравей”, 2002,130 с.

108. Саралаев, У.К. Геополитическая роль Центрально-Азиатского региона в современную эпоху // - Бишкек: Вестник Дипломатической Академии МИД КР. 2015. Вып. 5, с. 82-88

109. Синицын, В.М. Центральная Азия / В.М. Синицын. - М.: Гос. изд-во географ.лит-ры. 1959, 456 с.

110. Смерть Туркменбаши: ждем гостей с Юга: [Электронный ресурс] / СНД - Инфо. 23 октября 2007.

URL:
https://web.archive.org/web/20101205121433/http://www.snd-su.ru/cgi-bin/rg.pl?param=div2&page=4&type=1663&what=1005

111. Соглашение между Правительством Республики Казахстан, Правительством Кыргызской Республики и Правительством Республики Узбекистан об использовании водно-энергетических ресурсов бассейна реки Сырдарья от 17 марта 1998 г.: [Электронный ресурс] / URL: http://www.cawater-info.net/library/rus/gov1.pdf

112. Соглашение между Российской Федерацией, Азербайджанской Республикой и Республикой Казахстан о точке стыка линий разграничения сопредельных участков дна Каспийского моря от 14 мая 2003 года // - Бюллетень международных договоров, 2013, № 2

113. Соглашение между Российской Федерацией и Азербайджанской Республикой о разграничении сопредельных участков дна Каспийского моря // - Бюллетень международных договоров, 2004, № 8

114.Соглашение о создании Содружества Независимых Государств: [Электронный ресурс] / Исполнительный комитет Содружества Независимых Государств. 1 марта 2020 г. URL:http://cis.minsk.by/reestr/ru/index.html#reestr/view/text?doc=1

115. Соловьев, С.М. История России с древнейших времен.Книга I.Русь изначальная /С.М. Соловьев. М.: АСТ, Фолио, 2001, 944 с.

116. Состояние и перспективы взаимодействия России со странами Центральной Азии и Закавказья

/Отв. ред. – чл.-корр. РАН Г.И. Чуфрин. М.: ИМЭМО РАН, 2009, 139 с.

117. Средняя Азия: кругом НАТО: [Электронный ресурс] / Росбалт, 24 мая 2013. URL: https://www.rosbalt.ru/world/2013/05/24/1132803.html

118. Стар, Ф. В защиту Большой Центральной Азии // Геополитика: США и Центральная Азия: Сборник статей. Часть 1. – Бишкек, 2008, с. 10-19

119. Старчак, М.В. Сотрудничество России и США в сфере военного сотрудничества с Кыргызстаном и прогноз на будущее // Ежегодник Института международных исследований МГИМО МИД Российской Федерации, 2014, № 1 (7), с. 40-53

120. Страбон. География. В 17 книгах. / Страбон. Репринтное воспроизведение текста издания 1964 г. Перевод, статья и комментарии Г. А. Стратановского под общей редакцией проф. С. Л. Утченко. - М.: «Ладомир», 1994, 502 с.

121. Страны Центральной Азии вновь объединятся в единую энергосистему: [Электронный ресурс] /STANRADAR, 16.05.2017. URL: https://www.news.tj/ru/news/tajikistan/economic/20170516/strani-tsentralnoi-azii-vnov-obedinyatsya-v-edinuyu-energosistemu

122. Султанов, Б.К. Россия и ШОС – взгляд из Казахстана // Сборник материалов КИСИ при Президенте Республики Казахстан к юбилейному саммиту ШОС 2006 г. в Шанхае, - Алматы: КИСИ. Фонд им.Ф.Эберта, 2006, с. 21-25

123. Сушенцов, А.А. Эволюция центральноазиатской политики США: между выводом советских войск из Афганистана и началом «войны с террором» (1989-2001) // Ежегодник ИМИ – 2014 / Гл. ред. А.А. Орлов,

ред. выпуска А.А. Казанцев. – М.: МГИМО-Университет, - 2014. Вып. 1 (7), с. 21-40

124. Теракты и беспорядки в Узбекистане в 1999–2005 гг. Справка: [Электронный ресурс] / РИА Новости. 26 мая 2009. URL: https://ria.ru/20090526/172345801.html

125. Тихонов, Д.И. Хозяйство и общественный строй Уйгурского государства X– XIV вв. / Д.И. Тихонов. - М. - Л.: Наука, 1966, 304 с.

126. Токтомушев, А. Центральная Азия: коллективные усилия государств в противодействии угрозе международного терроризма // - Ядерный контроль, 2005, № 2 (76), с. 81-103

127. Тоцкойнова, Н.М. Сотрудничество государств Центральноазиатского региона по противодействию терроризму //- М.: Россия и мусульманский мир. 2018, № 2, с. 44-54

128. Транзитом через Азербайджан: куда попадают афганские наркотики?: [Электронный ресурс] / SPUTNIK Азербайджан, 25.06. 2018. // URL: https://ru.sputnik.az/azerbaijan/20180625/415927172/narkotiki-afganistan-azerbaijan.html

129. Троицкий, Е.Ф. Внешняя политика Узбекистана в 2004-2007 гг.: от стратегического партнерства с США к союзническим отношениям с Россией // - Томск: Вестник Томского государственного университета. 2008, № 310, с. 93-96

130. Троицкий, Е.Ф. Политика США в Центральной Азии: Подходы второй администрации Дж. Буша (2005-2009 гг.) и Б.Обамы (2009-2010 гг.) // - М.: Сравнительная политика, 2011, № 4, с. 65-74

131. Турарбекова, Р.М. ОДКБ сегодня находится в стадии институционализации, поэтому она не должна участвовать в урегулировании горячих конфликтов: [Электронный ресурс] / FPS. Диалог ради безопасности. Центр изучения внешней политики и безопасности.URL: http://forsecurity.org/turarbekova-bgu-odkb-segodnya-nahoditsya-v-stadii-institucionalizacii-poetomu-ona-ne-dolzhna

132. Турдиева, З.Т. Сотрудничество Российской Федерации с государствами Центральной Азии в обеспечении международной безопасности:/ автореферат дисс. канд. полит.наук / Бишкек, 2011, - 22 с.

133. Туркменистан: насколько здоров Ниязов?: [Электронный ресурс] / Eurasianet.Туркменистан. 22 июня 2005. URL: http://www.materick.ru/print.php?section=analitics&bulsectionid=11227

134. Тюркский совет доказал, что является опорой для сохранения мира в регионе: [Электронный ресурс] / 1news.az. 16 октября 2019. URL:https://1news.az/news/tyurkskiy-sovet-dokazal-chto-yavlyaetsya-oporoy-dlya-sohraneniya-mira-v-regione

135. Узбекистан в 2018 году запустит перевозки по ж/д Баку - Тбилиси – Карс: [Электронный ресурс] / SPUTNIK Азербайджан 07.12. 2017 // URL: https://ru.sputniknews-uz.com/economy/20171207/7019613/Uzbekistan-v-2018-godu-zapustit-perevozki-po-zhd-Baku-Tbilisi-Kars.html

136. Указ Президента Российской Федерации от 12 мая 2009 г. N 537 "О Стратегии национальной безопасности Российской Федерации до 2020 года" // Со-

брание законодательства Российской Федерации, 2009, N 20, ст. 2444

137. Участники формата "С5+1" обсудили вопросы укрепления безопасности в Центральной Азии: [Электронный ресурс] / ТАСС. - 20 января 2018.URL: https://tass.ru/mezhdunarodnaya-panorama/4888564

138. Уйгурский сепаратизм в Китае успокоят "брачным капиталом": [Электронный ресурс] /Казахстанская правда. 2 сентября 2014. URL: https://www.kazpravda.kz/news/mir/uigurskii-separatizm-v-kitae-uspokoyat-brachnim-kapitalom

139. Федоров, Ю.Е. Туркмения: время перемен? // - М.: Индекс безопасности, - 2009. № 3-4 (90-91). Том 15, с. 91-113

140. Филоненко, А.Е. Роль и место Российской Федерации в обеспечении безопасности в центрально-азиатском регионе (1991-2017 гг.): / автореферат дис. кандидата исторических наук. / М., 2018. - 28 с.

141. Харитонова, Н. Страны Центральной Азии: новое место на дуге кризисов // - М.: Индекс безопасности, 2015, № 1 (112). Том 21, с. 47-58

142. "Хаш-хаш 2017" продолжается: [Электронный ресурс] / SPUTNIK Азербайджан, 04 августа 2017 года //URL:
https://ru.sputnik.az/azerbaijan/20170904/411697979/azerbaijan-narkotiki-vvoz-xash-xash.html

143. Хотимский, К.В. Перспективы экспорта российского газа в КНР до 2030 года. Топливно-энергетический баланс Китая в 2010 - 2030 гг. // Глобальные энергетические и экономические тренды / под ред. С.В. Жукова. – М.: ИМЭМО РАН, 2019, с. 5-27

144. Хроленко, А.США адаптируют Узбекистан и Таджикистан под свое оружие: [Электронный ресурс] /РИА новости. 16 августа 2017, URL: https://ria.ru/20170816/1500476829.html

145. Хроленко, А. Хочешь мира — готовься: как узбекская армия стала сильнейшей в ЦА:[Электронный ресурс] / Sputnik. 14 января 2018 года.URL:https://ru.sputniknews-uz.com/columnists/20180114/7260074/hochesh-mira-gotovsya.html

146. Чуфрин, Г.И. Россия в Центральной Азии / Г.И. Чуфрин. – Алматы: КИСИ при Президенте РК, 2010, 220 с.

147. Центральная Азия: роль в перестройке мировых рынков нефти и природного газа. / Под ред. С.В.Жукова. – М.: ИМЭМО РАН, 2014, 104 с.

148. Центральная Азия в новой стратегии национальной безопасности США:[Электронный ресурс] / CA-portal. 25 дек., 2017 г. URL:http://www.ca-portal.ru/article:39805

149. Шукурзода, М. Хронология американо-узбекских отношений 1992–2012: Соединенные Штаты Америки и Республика Узбекистан – 20 лет со дня установления дипломатических отношений / М.Шукурзода. – Ташкент: Niso Poligraf, 2012, 223 с.

150. Эминов, Э.М. Соглашения о Партнерстве и Сотрудничестве в системе правового регулирования экономических связей ЕС с постсоветскими странами // Beynəlxalq hüquq və inteqrasiya problemləri, № 3 (35), 2013, s. 38-46

151. Эргашев, Б.И. Политика Узбекистана в отношении Афганистана в контексте обеспечения регио-

нальной безопасности в Центральной Азии // Вызовы безопасности в Центральной Азии. М.: ИМЭМО РАН, 2013, с. 96-99

152. $250 млрд иностранных инвестиций привлек Казахстан за последние 10 лет: [Электронный ресурс] / Forbus. 30 июля 2019. URL: https://forbes.kz/news/2019/07/30/newsid_204748

153. Ahmad Khan, R. The Pakistan-China strategic partnership: [Electronic resource] / China. org. cn. May 20, 2011. URL: http://www.china. org.cn/opinion/2011-05/20/content_22605398_2.htm

154. Alingod, Ch. Ethnic Clashes in China Continue as White House Calls For Restraint: [Electronic resource] / Wayback Machine, Yuly 7, 2009. URL:https://web.archive.org/web/20090716001205/http://www.allheadlinenews.com/articles/7015713505?Ethnic%20Clashes%20In%20China%20Continue%20As%20White%20House%20Calls%20For%20Restraint

155. Beach, S. Chinese Dissident Here Describes Attacks by Beijing's Secret Agents: [Electronic resource] / CHINA DIGITAL TIMES. April 3, 2009. URL: https://chinadigitaltimes.net/2009/04/chinese-dissident-here-describes-attacks-by-beijings-secret-agents

156. Brose, M. C. Subjects and Masters: Uyghurs in the Mongol Empire / M. C. Brose. - Bellingham: Western Washington University Center for East Asian Studies, 2007, 348 p.

157. Brzezinski, Z. The Grand Chessboard.American Primacy and Its Geostrategic Imperatives / Z. Brzezinski. - Basic Books, Later Printing Used edition, 1998, 240 p.

158. Central Asia. Encyclopaedia Britannica: [Electronic resource] / URL:

https:www.britannica.com/place/Central-Asia
159. Chaudet, D. La menace djihadiste en Grande Asie central // - Politique étrangère, 2008, № 3, p. 561- 573
160. Chaudhuri, D. China-Pakistan Railway Project: [Electronic resource] / Vivekananda international foundation. Yuly 19, 2010. URL: https://www.vifindia.org/China-Pakistan-Railway-Project
161. China: Big Data Fuels Crackdown in Minority Region. Predictive Policing Program Flags Individuals for Investigations, Detentions: [Electronic resource] / Human Rights Watch. 26 February 2018. URL: https://www.hrw.org/news/2018/02/26/china-big-data-fuels-crackdown-minority-region
162. China: Religious Repression of Uighurs in Xinjiang: [Electronic resource] / Human Rights Watch. 11 April 2005. URL:https://www.hrw.org/report/2005/04/11/devaststing-blows/religious-repression-uighurs-xinjiang
163. Civilians die in China riots // Al Jazeera, 2009, 5 July
164. Clarke, M. One Belt, One Road' and China's emerging Afghanistan dilemma //- Melbourne: Australian Journal of International Affairs, - 2016. Vol. 70. – Issue 5, pp. 563-579
165. Coca, N. Islamic Leaders Have Nothing to Say About China's Internment Camps for Muslims: [Electronic resource] / Foreign Policy. July 24, 2018. URL: https://foreignpolicy.com/2018/07/24/islamic-leaders-have-nothing-to-say-about-chinas-internment-camps-for-muslims/
166. Coleman, P.T., Bartoli, A. Addressing Extremism. New York: The International Center for Cooperation

and Conflict Resolution (ICCCR), Columbia University, 2003, 14 p.

167. Collins, K. "Clans, Pacts, and Politics in Central Asia" // - Baltimore: Journal of Democracy, 2002. V. 13. Issue 3, p.137-152

168. COST OF WAR Through March 31, 2018: [Electronic resource] / Department of Defense Q2 Cost of War as of March 31, 2018. URL: https://fas.org/man/eprint/cow/fy2018q2.pdf.

169. C5+1 Fact Sheet: [Electronic resource] / US Department of State. - September 22, 2017. URL: https://www.state.gov/c51-fact-sheet

170. De Humboldt, A. Asie centrale. Recherches sur les chaines de montagnes et la climatologie comparee: [3 vols] / A. De Humboldt. Paris: Gide, - vol. I. -1843. - 1172 p.

171. Diakonoff, I.M. The Paths of History / I.M. Diakonoff. - First edition: Cambridge University Press, 1999, 368 p.

172. Entin, M., Entina E. The New Role of Russia in the Greater Eurasia // - Strategic Analysis, 2016. Vol. 40. No. 6, - p. 590-603

173. Epstein, G. Uighur Unrest // Forbes, 2009, 5 July

174. Erickson, J. Eurasian manoeuvres // Oil, transition and security in Central Asia (Routledge Advances in Central Asian Studies).1st Edition. Cummings S.N. - London: Routledge Curzon, 2003, p. 255-264

175. EU Statement on opening of the Baku-Tbilisi-Kars railway: [Electronic resource] /Delegation of the European Union to Azerbaijan. Bruxelles, 30.10.2017. URL:https://eeas.europa.eu/delegations/azerbaijan/34825/node/34825_vi

176. Fallon, Th. The New Silk Road: Xi Jingping's Grand Strategy for Eurasia // -American Foreign Policy Interests, 2015. №. 37(3), p. 140-147

177. Fifth Caspian Summit, August 12, 2018. Aktau: [Electronic resource] / URL: http://kremlim.ru/events/president/news/58296

178. Global Terrorism Database: [Electronic resource] / START National consortium for the study of terrorism and responsesto terrorism URL: http://www.start.umd.edu/gtd/search/Results.aspx?search=central+asia&sa.x=38&sa.y=17&sa=Search

179. Hill, F. A Not-So-Grand Strategy: U.S. Policy in the Caucasus and Central Asia Since 1991: [Electronic resource] / Brookings Institution. - February 1, 2001. URL: http://www.brookings.edu/articles/2001/ 02foreignpolicy_hill.aspx

180. Humboldt, A. Central-Asien. Untersuchungen über die Gebirgsketten und die vergleichende Klimatologie / A.Humboldt. Zweiter Band. (German Edition).Vol I. 2011, 1844 p.

181. İnternational Crisis Group. Uzbekistan: Europe's Sanctions Matter. Asia Briefing № 54. Bishkek // - Brussels. November 2006, № 6

182. ISIS has amassed 5,000 fighters close to CIS border in North of Afghanistan: Russia: [Electronic resource] / The KHAAMA PRESS News Agency.May 21, 2019. URL:https://www.khaama.com/isis-has-amassed-5000-fighters-close-to-cis-border-in-north-of-afghanistan-russia-03436/

183. ISIS has over 10,000 fighters in Afghanistan, more arriving from Syria and Iraq: [Electronic resource] / RT. Question more. December 23, 2017. URL:

https://www.rt.com/news/414048-afghanistan-isis-numbers-rise

184. ISIS loses more than half its fighters from US airstrikes and Taliban ground operations // Times. News. February 27, 2020. URL: https://www.militarytimes.com/flashpoints/2020/02/27/isis-loses-more-than-half-its-fighters-from-us-airstrikes-and-taliban-ground-operations/

185. Karagiannis, E. Political Islam in Central Asia: The challenge of Hizb ut-Tahrir / E. Karagiannis – Central Asian Studies, Routledge, 1st edition, 2011, 192 p.

186. Liao, X. Central Asia and China's Energy Security // - The China and Eurasia forum quarterly, 2006, Vol. 4. No. 4, - pp. 61-69

187. Macartney, J. China in deadly crackdown after Uighurs go on rampage // The Times. 2009, 5 July

188. Mankoff, J. The Unites States and Central Asia after 2014 / J.Mankoff. -Washington: Report of CSIS Russia and Eurasia program, 2013, 34 p.

189. Marat, E. Rumsfeld in Kyrgyzstan: Halting America's Faltering Position in Central Asia: [Electronic resource] / The Central Asia-Caucasus Analyst. 27 JULY 2005. URL: http://www.cacianalyst.org/publications/analytical-articles/item/10138-analytical-articles-caci-analyst-2005-7-27-art-10138.html

190. Middle Asia. Encyclopedia Britannica: [Electronic resource] / URL: https:www.britannica.com/place/Asia/The regions-of-Asiaref496054

191. Muller-Kraenner, S. Energy Security: Re-measuring the World.Earthscan / S.Muller-Kraenner. - James & James, - 2008. - 170 p.96.New U.S. Assistance

Programs in Central Asia, 2015: [Electronic resource] / US Department of State, Press Releases, November 2015. URL:
http://www.state.gov/r/pa/prs/ps/2015/11/249051.htm

192. National Security Strategy of the United States of America: [Electronic resource] / The White House. Washungton, DC - December 2017. URL: https://www.whitehouse.gov/wp-content/uploads/2017/12/NSS-Final-12-18-2017-0905.pdf.

193. Neumann, P.R. Foreign fighters total in Syria/Iraq now exceeds 20,000; surpasses Afghanistan conflict in the 1980s: [Electronic resource] / The International Centre for the Study of Radicalization. January 26, 2015. URL: http://icsr.info/2015/01/foreign-fighter-total-syriairaq-now-exceeds-20000-surpasses-afghanistan-conflict-1980s

194. Newly founded World Uyghur Congress calls for peaceful solution in East Turkestan: [Electronic resource] / UNPO. 22 April, 2004. URL: http://www.unpo.org/content/view/547/236

195. Nichol, J. “Central Asia: Regional Developments and Implications for U.S. Interests”: [Electronic resource] / CRS Report. Congressional Research Service, March 21, 2014. URL: http://www.fas.org/sgp/crs/row/RL33458.pdf

196. Nichol, J. Kyrgyzstan and the Status of the U.S. Manas Airbase: Context and implications: [Electronic resource] / Congressional Research Service. July 1, 2009. URL: https:// www.fas.org/sgp/crs/row/R40564.pdf

197. Obama’s Afghanistan - Pakistan Strategy: ‘A Reasonable first Step’: [Electronic resource] / Council on Foreign Relations, March 30, 2009. URL: https://www.cfr.org/interview/obamas-afghanistan-pakistan-strategy-reasonable-first-step

198. Okur, M.A. "Classical Texts of the Geopolitics and the "Heart Of Eurasia" // -Izmir: Journal of Turkish World Studies, - 2014. XIV/2, - pp.73-104

199. Olcott, M. B. "Central Asia: Common Legacies and Conflicts // Allison R. and Jonson L. Central Asian Security: The New International context / London: Royal Institute of International Affaires. - Washington, D.C.: Brookings Institution Press, 2001, p. 24-48

200. Operation Enduring Freedom comes to an end: [Electronic resource] / DOD News, Defense Media Activity. 29 December 2014. URL: https://www.army.mil/article/140565/Operation_Enduring_Freedom_comes_to_an_end

201. Opiate flows through Northern Afghanistan and Central Asia: A Threat Assessment, May 2012, United Nations Office on Drugs and Crime, 100 p.

202. Page, G. Mayhem follows Uzbek massacre // The Times. 2005, 16 May

203. Polad, A., Butkevich, N. Unraveling the Mystery of the Tashkent Bombing: Theories and Implications // -Baltimore:Demokratizatsiya, - 2000. Vol. 8. N. 4, - p. 541-553

204. Preliminary findings on the events in Andijan, Uzbekistan, 13 May 2005: [Electronic resource] / OSCE, 20 June 2005. URL: https://www.osce.org/odihr/15653

205. Rashid, A. The New Struggle in Central Asia: A Primer for the Baffled // -Durham: World Policy Journal, - (2000/2001). Vol. 17, No. 4, - pp. 33-45

206. Rosenberg, M., Scmitt E., Mazzetti M. "U.S. Is Escalating a Secretive War in Afghanistan" // The New-York Times. 2015, February 12

207. Scores killed in China protests // BBC News. 2009, 6 July

208. Sisk, R. Amid Confusion, DoD Names New Mission ‘Operation Freedom’s Sentinel’: [Electronic resource] / Military. com. 29 December 2014. URL: https://www.military.com/daily-news/2014/12/29/amid-confusion-dod-names-new-mission-operation-freedoms.html

209. Starr, F. A Greater Cental Asia Partnership for Afghanistan and its Neighbors / F. Starr. – Washington: The Central Asia-Caucasus Institute Paul H. Nitze School of Advanced International Studies, 2005, 38 p.

210. Statistical Communiqué of the People's Republic of China on the 2019 National Economic and Social Development: [Electronic resource] / National Bureau of Statistics of China. February 28, 2020. URL: http://www.stats.gov.cn/english/PressRelease/202002/t20200228_1728917.html

211. ‘Shame for humanity’: Turkey urges China to close Uighur camps: [Electronic resource] / Aljazeera. 10 February 2019. URL: https://www.aljazeera.com/news/2019/02/humanity-turkey-urges-china-close-uighur-camps-190209202215688.html

212. Situation of human rights in Uzbekistan. Resolutions and Decisions adopted by the General Assembly during its sixtieth session Volume II Decisions 13 September – 23 December 2005. General Assembly Official Records.Sixtieth Session Supplement No. 49 (A/60/49)

213. Sullivan, J.J. The Administration’s South Asia Strategy on Afghanistan: [Electronic resource] / US De-

partment of State. - February 6, 2018. URL: https://www.state.gov/s/d/2018/278003.htm

214. Tilghman, A. “Despite war’s end, Pentagon extends Afghanistan campaign medal”: [Electronic resource] / Military Times, February 19, 2015. URL: //https://www.militarytimes.com/2015/02/19/despite-war-s-end-pentagon-extends-afghanistan-campaign-medal

215. United States and Kazakhstan: An Enhanced Strategic Partnership for the 21st Century: [Electronic resource] / January 16, 2018. URL: https://www.whitehouse.gov/briefings-statements/united-states-kazakhstan-enhanced-strategic-partnership-21st-century

216. Usmanova, D. Andijan: A Policeman's Account: [Electronic resource] / Institute for War and Peace Reporting. Retrieved 1 May 2017. URL: https://iwpr.net/global-voices/andijan-policemans-account-0

217. Weitz, R. On security in Central Asia and its new/old challenges: [Electronic resource] / Cenrtal Asian Analytical Network. URL:https://caa-network.org/archives/8680

218. Wishnick, E. Growing U.S. Security Interests in Central Asia / E. Wishnick. - Carlisle Barracks, Pa.: Strategic Studies Institute, US Army War College, 2002, 56 p.

219. Xinjiang’s Natural Resources: [Electronic resource] / China through a Lens. URL: http:// china. org.cn./English/MATERIAL/139230.htm

220. Zenz, A. New Evidence for China’s Political Re-Education Campaign in Xinjiang: [Electronic resource] / Jamestown Foundation. May 15, 2018. URL: https://jamestown.org/program/evidence-for-chinas-political-re-education-campaign-in-xinjiang/

221. 2020 Military Strength Ranking: [Electronic resource] / Global Firepower. URL:https://www.globalfirepower.com/countries-listing.asp

Rauf Məmməd oğlu Qarayev
*AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, h.ü.f.d., dosent*

# MÜASİR MƏRKƏZİ ASİYADA TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{16}$
Həcmi 15,25 ç.v.
Tirajı 400
Qiymət müqavilə əsasında

Kitab MİHAN MMC tərəfindən hazır
diapozitivlərdən istifadə olunmaqla
çap edilmişdir.